# AZƏRBAYCAN

**9'2023**

**1923-cü ildən çıxır**


**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN**
**AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**


**Baş redaktor:** İntiqam QASIMZADƏ

**Baş redaktor müavini:** Südabə AĞABALAYEVA

**Məsul katib:** Vüsal NURU

**Şöbə müdirləri:** Məmməd ORUC,
Qəşəm NƏCƏFZADƏ,
Mübariz CƏFƏRLİ



**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya –*
498-78-10
493-28-32
493-2834
*Mühasibat –*
493-29-41



**Çapa imzalanıb:**
30.08.2023
**Sifariş 2247**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
13 çap vərəqi
18,2 şərti çap vərəqi



**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru
**www.azyb.az**



**Qiyməti**
**2 manat**

**Bakı şəhəri, "Azərbaycan" nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur**



**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:

### POEZİYA


ƏLİZADƏ NURİ - Şeirlər.......................................3
ZÖHRAB MEHDİYEV - Şeirlər .....................................48
İBRAHİM YUSİFOĞLU - Şeirlər ....................................55
ƏLİRZA HƏSRƏT - Şeirlər ........................................168
NAZİR RÜSTƏM - Şeirlər..........................................173
İLHAM QƏHRƏMAN - Şeirlər........................................194
QORXMAZ KADUSİ - Şeirlər........................................197
ƏFSANƏ RƏVAN - Şeirlər..........................................199


### NƏSR


ANAR - Əcəl (Povest)... .........................................22
ELÇİN HÜSEYNBƏYLİ - Pərixan (Roman)..............................58


### KAMAL TALIBZADƏ – 100


VAQİF YUSİFLİ – Ustad haqqında söz...............................42


### AZƏR TURANIN 60 YAŞI


ELNARƏ AKİMOVA - Uzun, incə bir yolda............................145


### TOFİQ NURƏLİNİN 70 YAŞI


TOFİQ NURƏLİ - Şeirlər...........................................154
ZAKİR MƏMMƏD - Ədəbiyyatın payız fəsli............................162


### İNTİQAM QASIMZADƏNİN 80 YAŞINA


NİZAMİ CƏFƏROV - Ədəbiyyat xadimi.................................180
RÜSTƏM KAMAL - Şuşadakı uşağın səsi...............................184


### YADDAŞ


FUAD VƏLİYEV - Gündəlikdən sətirlər............................. 188


### ƏDƏBİYYATŞÜNASLIQ


LALƏ HƏSƏNOVA - Müasir Azərbaycan nəsrində antiutopiya.........201



KİTAB RƏFİ ..............................208



*Əlizadə NURİ*

# *MƏN SƏNİN ÜZÜNƏ SEVDİM DÜNYANI*

## ÖMÜR – YANMIŞ ZƏMİ KİMİ…

Su çəkən kağız kimiyəm,
Gəzdirirəm can yerinə.
Günəş deyil, bəlkə, qandı,
Yığılıbdı dan yerinə?

Məni sevgi fəsli çəkir,
Göy üzünün qəsri çəkir…
O kimdi eşq rəsmi çəkir
Sinəmin kətan yerinə?!

Ömür – yanmış zəmi kimi…
Su basmış zirzəmi kimi.
…O qız batan gəmi kimi
Dönmədi liman yerinə…

## ONUN ƏLLƏRİNƏ İTHAF

Minib bir gəmiyə çıxıb gedəsən,
Səni yola sala onun əlləri…

O qız əllərini arxanca ata,
Ata əllərini su əvəzinə.

Götürüb qaçdığın arzularını
Hər axşam sərəsən Ay işığına…

…Çatasan dünyanın son limanına,
Səni qarşılaya onun əlləri…

Heyrətdən özünü itirəsən ki: –
Axı, yatmamısan, bu nə yuxudu?
Haçan gəlib səni keçdi o əllər –
Yoxsa o əllərin öz ağ gəmisi,
Yoxsa ki, o qızın öz dənizi var?!

…Qaçıb o əlləri qucaqlayasan,
Bağrına basasan son ümid kimi.

Sonra ovcundakı o əllər üçün
Bir üzük yonasan gün işığından…

…Sonra düşünəsən: – bəs bu əlləri
O qızın canından kim dərib sənə?
Kimsə ürəyinə pıçıldaya ki: –
"Təkcə öpmək üçün deyil o əllər,
Tanrı uçmaq üçün göndərib sənə…"

## HƏRDƏN DƏRDİN ÖZÜ ƏLACDI…

Bəlkə günah elə baxışlardadı –
Bəlkə də bu dünya heç kifir deyil?
Məni yağışlar da yuya bilmədi,
Məndə əzablardı, məndə kir deyil…

Qoy girim altına – söz də çətirsə,
Yola yol deyərəm, səni gətirsə.
Allah hamımızın içindədirsə –
Göydə bir olsa da, yerdə bir deyil.

Ölü anladanda, diri anlaya,
Gərək pirə gedə, piri anlaya!

Biri başa düşməz, biri anlayar –
Heç kim yer üzündə həmfikir deyil…

Üzünü dəyişsən, üzünə baxmaz,
Tüstün əyri çıxsa, közünə baxmaz!
Bu qələm özgənin sözünə baxmaz –
Sürgünə getsə də, o, əsir deyil.

Qorxur kölgəsindən… bu nə ağacdı?
Hərdən dərdin özü elə əlacdı…
…Öldüm – ölümün də sirrini açdım,
Daha bu dünyada heç nə sirr deyil…

## YOXA ÇIXIB ADIM BƏLKƏ?

Mən də bir saray tikirəm,
O şah məni bağışlasın.
Günahımı sən bağışla,
Günah məni bağışlasın.

Çağırmadın… qadın, bəlkə,
Yoxa çıxıb adım bəlkə?!
Sabaha çıxmadım bəlkə –
Sabah məni bağışlasın.

İsidərmi bu şam səni?
Səhər məni, axşam səni.
…Göyə qaldırmışam səni –
Allah məni bağışlasın…

## SEVİNC AXŞAM GƏLƏCƏKDİ…

Çıraq oldum, işığımı
Salmağa bir dam olmadı.
Çoxu mənə "oğul" dedi
Heç biri anam olmadı.

O dağı axsaq çıxardım,
Qaranlıqdan ağ çıxardım…
Bu gecədən sağ çıxardım –
Yanımda bir şam olmadı.

Bu əldi, ya boş əlcəkdi?
Nə çəkdisə, boş əl çəkdi…
…Sevinc axşam gələcəkdi –
Gözlədim, axşam olmadı…

## HAMI SOL YANINI SAĞ İSTƏYİRMİŞ…

Sevinc əkiləndə biz də varıydıq,
Yada salmadılar biçində, qadın.
Tanrı bir bağlama göndərib mənə –
Heyif ki, sən yoxsan içində, qadın…'

Sən hara çəkildin? Sən çəkiləndən
Bir gün də nəşəm yox, min gün ahım var.
Mən sənə min dəfə "bağışla" dedim –
Sən elə bildin ki, min günahım var…

Hamı sol yanını sağ istəyirmiş,
Bəlkə yaralara elə yar mənəm?
Qəm mənə nə gözəl heykəl ucaldıb –
Sən demə, hamıdan füsunkar mənəm!

Gəl, gedib oturaq öz küncümüzdə,
Bizim nə işimiz özgə masada?
Adam hərdən çıxıb getmək istəyir,
Lap elə getməyə yar olmasa da…

…Sevinc əkiləndə biz də varıydıq,
Yada salmadılar biçində, qadın.
Tanrı bir bağlama göndərib mənə –
Heyif ki, sən yoxsan içində, qadın…

## DARIXMAĞIN RƏSMİ

Hardasan şəhla gözlüm,
Sən ən şirin acımsan.
Hələ də bilmirəm ki,
Dərdimsən, əlacımsan?

Yuxuma dağıtmısan
Saçının yumşağını.

Sən yoxsan, kim böyütsün
Bu sevda uşağını?

Yol tapıb çıxa bilmir
Bu tinim, bu dalanım.
Mən sevgi qaçqınıyam –
Gəl, səndə daldalanım…

Düşmüşəm bu çöllərə,
Düşmüşəm – azmaq üçün.
Ürəyim bir divarmış,
Şəklini asmaq üçün…

Bir körpə ümidim var,
Ağlayır qundağında.
Arzularım can verir
Kədərin qucağında.

Hardasan, hardan bilim,
Mən hara üz döndərim? –
Darıxmağın rəsmini
Çəkib sənə göndərim…

Özün məndən uzaqsan,
Kölgən keçir yanımdan.
…Adına soyuq dəyər,
Düşmə dodaqlarımdan…

## GÜNƏŞ, GƏL ŞƏKLİMİ ÇƏK…

Hara qoyum bu qəmi?
Əlim gəlmir atmağa.
Hansı yalanı seçim
Özümü aldatmağa?

Ümidi şikəstlədin,
Ürəyi şikəstədi.
O ay niyə saralıb,
Yoxsa o da xəstədi?

Günəş, gəl şəklimi çək,
Sonra yaz arxasını.

…Bir az gözlə, bağlayım
Dərdimin yaxasını…

O daş hardan düşdü ki? –
Sınan bir cam kimiyəm.
Dağıntılar altında
Qalan adam kimiyəm…

…Ver əlini, nə olsun,
Qara qulam, ilahi?
Quruda üzsəm də mən,
Boğuluram, ilahi…

## SEVİB NƏ İSTƏDİK Kİ…

Yol da yolda yoruldu,
Sənə çata bilmədim: –
Kim qarğış etmişdi ki,
Bu yollar axsaq olsun?

Səni xatırlamağa
Nə yaxşı, bu ağac var.
Sağ olsun,
Görüm min budaq olsun!

…Bu ömürdən nə qaldı? –
Qırıldı bu qoşun, gəl.
Gələn yaza qoşul, gəl…
Sən bir az yaxın gəl ki,
Qəm məndən uzaq olsun.

Əlindən ayrı düşsəm,
Nəfəsin yetər mənə.
Suyunu içməsəm də,
Yanımda bulaq olsun.

Nə ağırdı bu gecə,
Gəl, saçından tel ayır.
Gecənin üstünə at –
Qoy, o da yumşaq olsun…

Niyə solub bu günəş,
Niyə bozdu bu səhər?
Sən də işıq kimi gəl,
Çək üzünə səhəri –
Bu səhər də ağ olsun!

…İlahi, biz dünyadan
Sevib, nə istədik ki: –
Bu zindan sevgilərə
Canımız dustaq olsun…

## SƏNİ ALDATMAĞIM GƏLİR...

Bir laylanın dizi üstə
Baş qoyub yatmağım gəlir.
Dənizdə üzmək öyrənib
Torpaqda batmağım gəlir...

Bu necə ovçudu axı? –
Tətikdə əsir barmağı.
O quş mənə elə baxır,
Özümə atmağım gəlir.

Sola gedim yolu, sağa?
Çəkir məni yol uzağa...
O, üşüyən yalquzağa
Bir ocaq çatmağım gəlir...

Göz yaşların ləldi, deyib,
Kədər də gözəldi, deyib,
...Bu dünya düzəldi, deyib –
Səni aldatmağım gəlir...

## HAMI ÇIXIR SU ÜZÜNƏ…

Hamıdan çıxıb gedəsən,
Gedəsən çox uzaqlara.
Yer üzünü tapşırasan
Bu balaca uşaqlara…

Götürəsən qələmini
Son şeirinin varağından.

Hərdən əyilib öpəsən
Çiçəklərin yanağından.

Bir qız çıxa yolun üstə,
O ağlaya, yol ağlaya.
Gedəsən batan günəşi
Soraqlaya-soraqlaya…

Dənizi içib gedəsən
Su adına, qan adına.
Yorulanda baş qoyasan
Bir qağayı qanadına…

Bir səhəri yola salıb,
Bir axşama yeriyəsən.
Ürəyindən Ay işığı
Dama-dama yeriyəsən…

Dalğaları çevirəsən
O üzünə, bu üzünə.
Bat, ya batma – nə fərqi var
Hamı çıxır su üzünə…

Qoy arxanca danışsınlar: –
Hara getdi, nəyə getdi?
Bir uşaq göyü göstərə –
Allahı görməyə getdi…

## SƏNİN AD GÜNÜNƏ

Oturub üz-üzə xatirələrlə
Sənin ad gününü keçiririk biz…

Bəlkə də hardasa uzaqlardasan –
Kimin kölgəsidi bəs yanımdakı?

Bəlkə də adımı unutmusan sən –
Sənin ad gününü qeyd eləyirəm…

Yaxşı bu dünyaya durub gəlmisən –
Yaxşı ki, nəsə var xatırlamağa.

Qələmi göndərdim söz bazarına,
Sənin ad gününə bir şeir alsın.

Bəlkə pəncərədən düşən bu işıq
Ayın təbrikini gətirib sənə?

Bir az şərab içdim… öz qədəhimi
Sənin həsrətinə toxunduraraq…

…Qoymuşam qarşıma şəkillərini –
Sənin ad gününə yığışmışıq biz…

Bir şam yandırmışam sənin adına –
Bir şam işığında isinirəm mən…

Sənin ad gününə aldığım çiçək
Düşüb əllərini axtarır sənin…

Elə bil adın da dua kimidi –
Bayaqdan adını pıçıldayıram…

…Baş-başa vermişik bu payız ilə,
Sənin ad gününə məclis qurmuşuq…

Bu yağış payızın hədiyyəsidi –
Hardasan? – yağışı ora göndərək…

## KÜL

Kağızın bətnində yandı bu ömür –
Mən adam külüyəm, ya kağız külü?
Yanan ürəyimdə o qız da yandı –
Bir az öz külümdü, bir az qız külü…

İndi ayrılıqlar ömürdən uzun,
Ölümlə oyunda ömür uduzur.
Hər axşam yandırır ayı-ulduzu,
Tanrı səhər yığır ay-ulduz külü…

Dərd çaxmaq daşıdı – daşdan yanmışam,
Ayaqdan od alıb, başdan yanmışam…

İlahi, nə yaxşı eşqdən yanmışam –
Baha eləmişəm bu ucuz külü…

## ARAMIZDA YAĞIŞ VAR…

Nə olsun uzaqdasan,
Yoxdu səndən yaxınım.
Ordan əlini göstər –
Qorxuram ki, yıxılım.

Kədərlə dost olmuşam,
Hərdən dost olur yağı.
Aramızda yağış var,
Yağış da çoxdan yağır…

O yandan sərin gəlir –
Bəlkə sən son baharsan?
Silmişəm gözlərimi –
Gələndə daranarsan…

Mən səni çağırıram,
Gəlir bu qəm alayı…
Yerdə mənim səsimdi,
Göydə durna harayı…

Boğuluram elə bil,
Bəlkə durub gələsən? –
Bu leysanı üstümə
Kim göndərib görəsən?

Nə yamanmış ayrılıq,
Nə yaman sənsizlədim…
Hara alıb apardın,
Bu dünyanı gizlədin?..

Deyirlər, yaz gələcək,
Bəs haçanmış, haçanmış?
Axşam çıxıb getmisən –
Ömür axşamacanmış…

…O yandan sərin gəlir –
Bəlkə sən son baharsan?

Silmişəm gözlərimi –
Gələndə daranarsan…

## UZAQ

Nə olsun yanımdasan? –
Nə Rumdasan, nə Çində.
Ayrı dünyalardayıq
Eyni evin içində.

Eyni kupelərdəyik,
Amma ayrı qatarda…
Aradakı bu boşluq
Min adama çatar da.

Sən çiçəyə əl açdın,
Mən də kəpənəklərə.
Qoy bahar sənin olsun,
Payız qalsın təklərə.

Elə soyumuşuq ki –
Gec əriyən qarıq biz.
Bir dəryanın içində
Ayrı damlalarıq biz…

Özümlə savaşanda
Özüm girdim araya.
Yanımdasan… özgəni
Çağırıram haraya…

Eşqimiz oğurlanıb –
Boş bir muzey kimiyik.
Günümüz də ayrıdı –
Güney, quzey kimiyik…

Təkcə yaradan bilir
Necə dostuq, yarıq biz.
Bir-birinə bitişik,
Uzaq adalarıq biz.

Dənizi sevmədin sən,
Sevdin isti qumunu.

Nə olsun yanımdasan –
Sənə məktub yazmışam
Gəl, götür məktubunu…

…Nə olsun yanımdasan? –
Nə Rumdasan, nə Çində.
Ayrı dünyalardayıq
Eyni evin içində…

## SƏNƏ YAĞIŞ DƏRİRƏM…

Sənə ocaq çatıram –
Misraların ahından.
Yağış dərirəm sənə
Buludun budağından…

Sənə şeir tikirəm
Ürəyimin sapıyla.
Cənnət qururam sənə
Cəhənnəm əzabıyla…

Yüz il duran deyiləm
Sizin elçi daşından.
Sənə üzük yonuram
Çiçəklərin qaşından…

Sənin üzünə baxıb
Ayı da danmaq olar.
Səndən ömür düzəldib
Min il yaşamaq olar.

Gör harda tapdım səni –
Güllərin nəfəsində.
Nəğmə qoşdum adına
Axan çayın səsindən…

…Sənə ocaq çatıram –
Misraların ahından.
Yağış dərirəm sənə,
Buludun budağından…

## BİR AZDAN GECƏNİ ƏRİDƏR BU ŞAM…

Mən dedim bu dünya sığsın canıma –
Yoxsa demədim ki, dünya dar olsun.
Mən sənin üzünə sevdim dünyanı,
Qoy, dünya üzünə minnətdar olsun.

Dağda laləleri bəlkə qan çəkir?
Damlanın dərdini bir ümman çəkir…
Şirəni güldən yox, tikandan çəkir,
Belə “arı”lara bəlkə ar olsun?!

İndi bir dumanda yol azan quşam,
Bir azdan gecəni əridər bu şam…
Bu ölüm yolunda bir can qoymuşam –
Qoydum ki, məndən də yadigar olsun…

Yellər nəğməsini çölə oxuyur,
Çayın səsi batıb… hələ oxuyur…
…İlahi, o quş ki, belə oxuyur,
İndi insafdımı adam kar olsun?!

## NƏ YAXŞI, O GÖYLƏR ÇOX UZAQDADI…

Bəlkə gücün çatmır günəş olmağa,
Amma ki, yel olub əsə bilirsən.
Nə yaxşı, o göylər çox uzaqdadı –
Başını dik tutub gəzə bilirsən…

Avara dünyadı, avar dünyadı,
Səndən o tərəfə nə var – dünyadı…
Sənin qolundakı damar dünyadı –
Könlün istəyəndə kəsə bilirsən…

Ömür bir çuxurdu – yığılır yaşım…
Bu baş ağrısına qarışıb başım.
…Dinə bilməsən də, ay “lal” qardaşım –
Sən də bu dünyada nəsə bilirsən…

## BİR BAŞI SAXLAMAQ BAŞ AĞRISIYMIŞ…

Bunun harasına ömür deyəsən –
Arısı qəm yığan bir pətəkdi bu.
Güldana qoyduğun saxta gül ilə
Baharı komanda keçirməkdi bu…

Məni də dünyaya uduzdurdular,
Bəs dünya Allaha uduzar haçan?
Baxma ki, bu həyat belə qısadı,
Ömür – yol getməkdi ulduzlaracan…

Nə önüm açıqdı, nə arxalıyam,
Bu doğma torpağa əkdilər yadı.
Daşı daşıdılar başdaşı üçün,
Şeytana atmağa daş tapılmadı.

Bəlkə yer üzündən yaxındı sənə,
Baxma göy üzünün uzaqlığına.
Hər gün bir həqiqət ölür dünyada,
Min yalan yığılır başsağlığına…

Lap gedib qürbətdə üşüyər adam,
Dərd odu – ölməyə ölkən olmaya.
Bəlkə də ən böyük iztirab imiş –
Özün gün olasan, kölgən olmaya.

Bir başı saxlamaq baş ağrısıymış,
Ölüb – arzusuna çatır adamlar.
Heç kimə üzməyi öyrətməyiblər –
Hər gün bu torpaqda batır adamlar…

Sevinc yalquzaq da yaxına gəlməz,
Götürüb bəxtinə yamaq vurasan.
İlahi, bu dünya bar verə bilmir –
Bəlkə bu dünyaya calaq vurasan?!

## KÜÇƏDƏN NƏĞMƏ KEÇİR…

Təzə hava çalınır
Qəmin köhnə sazında.

Yad dildə danışırıq
Doğmaların yasında.

Qocalıram deyəsən,
Söz içimdə paslanır.
Bir şimal şəhəriyəm –
Günəş mənə nazlanır.

Əl uzatdım dünyaya,
Gördüm yaxası yoxdu.
Üşüyürəm deyəsən –
Sözün çuxası yoxdu…

Qıfılbənddi göy üzü –
Tanrı vermir açarı.
Küçədən nəğmə keçir,
Çağır gəlsin içəri…

Yıxılıram, ilahi –
Ümid göndər tutmağa.
Neçə eşq həsr etmişəm
İlk eşqi unutmağa…

Bəlkə yaşamamışam,
Amma ömür sürmüşəm.
Bir dilənçi ovcuna
Yüz dəfə hönkürmüşəm…

…Qucaqlamaq öyrədin
Bu kəsilmiş qollara.
Düz adam axtarırıq –
Düşüb əyri yollara…

## YORĞUNLUQ

Allah göydə deyilsə,
O göy kimin göyüdü?
Harda körpə dərd qalıb
Mənə verin, böyüdüm…

Gülə güllə atdılar,
Dik tutmuşdu başını.

Bu yağışdı, yoxsa ki,
Göy üzündə vurulmuş
Quşların göz yaşıdı?!
Hər yanımı qan tutub,
Mən də belə adayam.
Get, o bayquşdan soruş –
Hansı xarabadayam…

Bir kor adam kimiyəm –
Mən gəzim, sən it indi…
…Səni tapa bilmədim,
Əlimi də itirdim.

Sən nə yaman dərindin –
Sevib də batdım səni…
…Ölüm, məni bağışla,
Bir az yubatdım səni.

Qəmlə əylənirəm mən,
Bəs hanı tay-tuşlarım?
…Bu gün süfrə açmışam: –
Çağırın ac quşları…

Ölü balıqlar düşür
Atdığım hər qırmağa.
Çox soyuqdu… gedirəm
Allaha sarılmağa…

## SƏNƏ GÜL ATDILAR, MƏNƏ DƏ GÜLLƏ

Dolub gözlərimə bu eşqin qumu,
Gecə yatağımdan qovur yuxunu.
Ayrılıq məktubu, vida məktubu
“Qara kağız” kimi çətin oxunur…

Üşüyən bu gülün od-ocağı yox,
O yandan fevral da gəlir qarıyla.
O yetim uşağın oyuncağı yox,
O uşaq oynayır göz yaşlarıyla…

…Çəkib öz komama gətirdim bu gün
Qorxdum ki, bayırda darıxa bu qəm.
Qəmi övladlığa götürdüm bu gün –
Onu balam kimi böyüdəcəyəm…

Biz hara gedirik bu boş könüllə?
Bir ayın içində ayrı həftəyik.
Sənə gül atdılar, mənə də güllə-
Yaxşı ki, ikimiz bir hədəfdəyik…

Əsən ayrılıqdı, yel deyil əsən,
Bu bəxti tikməyə mənə sap verin.
Niyə əllərini qoyub getmisən,
Səni soruşanda nə cavab verim?!..

## SƏN EVİ NEYNİRDİN, EVİ TİKİLMİŞ?…

Yenə tərəzini kim belə əydi?
Bəlkə tərəzi də elə tələydi?
Evi olmasa da bəy elə bəydi –
Sən evi neynirdin, evi tikilmiş?

Evsiz-eşiksizdi qoca xalıq da,
Sulara bürünüb yaşar balıq da.
Bu qurd-quş ulayan xarabalıqda
Sən evi neynirdin, evi tikilmiş?

Əzəldən beləymiş bu həyat, belə,
Götür yer üzünü göyə at belə…
Sözdən balacaymış kainat belə –
Sən evi neynirdin, evi tikilmiş?

Sənə kim demişdi silahla oyna?
Günahkar axtarıb, günahla oyna…
…Get, evcik oynayan uşaqla oyna –
Sən evi neynirsən, evi tikilmiş?

Bu ömür yolunda daban qırılır…
Divanə olana divan qurulur.
Sənin könüllərdə yuvan qurulub –
Sən evi neynirsən, evi tikilmiş?

Bağbanı saxlayan barsa, a şair,
O ev qəfəs kimi darsa, a şair,
Sözün qanadları varsa, a şair –
Sən evi neynirsən, evi tikilmiş?

Yüyürüb yaxandan yapışıbsa qış,
Yaxınsa bu ölüm ciyəri yanmış.
…Qələmin tikdiyi divardan yapış –
Sən evi neynirsən, evi tikilmiş?..

Əzan ağrıyacaq qəzan artdısa,
Ocaq çatmayacaq qazan artdısa…
Dünya başdan-başa qazamatdısa,
Sən evi neynirsən, evi tikilmiş?

Bir körpə nəfəsi bəs eyləyirsə,
Bir yağış nəğməsi bəs eyləyirsə,
Bir ağac kölgəsi bəs eyləyirsə –
Sən evi neynirsən, evi tikilmiş?!..

Qaranlıq əriyir yay işığında…
Çatmısan dənizə çay işığında.
…Başını qarışdır Ay işığıyla,
Sən evi neynirsən, evi tikilmiş?..

## AYRILIQ FƏSLİ

Səndən yağdı yağışlar,
Yel səndən əsdi gəldi.
Hələ payız gəlməmiş
Ayrılıq fəsli gəldi.

Yenə çöllər qüssəli,
Yenə dağlar dumandı.
Sənin isti əllərin
Axı, harda yubandı?..

Sənsiz də günüm keçir,
Keçir e, çətin keçir.
Aramız soyuyandan
Hava da sərin keçir…

Duz göndərdin yarama –
Deyirsən tamı olmaz?
Yuxa geyib ürəyim,
Soyuğa tabı olmaz…

…Sənə məktub yolladım,
Öpüb hər bir kəlməsin.
Yola tapşırdım – səni
Gətirməmiş gəlməsin…

## BƏMDƏ DALDALANAN ZİLƏM…

Hamıyla birgə sevinir,
Ancaq Allah tək ağlayır.
Ağlayan bütün analar
Mənim anamtək ağlayır.

Bəmdə daldalanan ziləm,
Haqq deyiləm ki, naziləm?
Mən də bir az əzaziləm –
Əlimdən fələk ağlayır.

Harda azıb abır-həya?
Palçıq atılır o aya…
…Anası ölmüş çağaya
Qoşulub bələk ağlayır.

Dünya dardı, necə sığım? –
Neynirdim bu alaçığı?
Allahın əlindən çıxıb –
Gör neçə ətək ağlayır…

Dərdim uludan-uludu,
Darıxıram – ölüm budu?
…Üstündə yaz yağmurudu –
Yoxsa bu çiçək ağlayır?!..

*ANAR*

# ƏCƏL



### *«Qırmızı limuzin» hekayəsi və «Təqib» ssenarisi əsasında yazılmış povest*

***Yeddi təpəli şəhrimdə***
***Buraxdım qönçə gülümü.***
***Nə ölümdən qorxmaq ayıb,***
***Nə də düşünmək ölümü.***

**Nazım Hikmət**

Qəfilcən dayandı. Ətrafa boylandı. Buralar ona həm tanış gəlirdi, həm də bu dar küçəni sanki ilk dəfə görürdü. Bir ya iki mərtəbəli evlər, səliqəsiz həyətlərin qarışıq qoxuları, sal divara dirənən kor dalan. Hər yan çox uzaqlarda qalmış ilğım kimi, süzülüb nazilmiş xatirələr kimi, bulanıq xəyal kimi qeyri-müəyyən bir aləmi andırırdı. Uşaqlığının anılarıydımı bu?

Yox, uşaqlığı bu məhəllədə keçməmişdi. Bəlkə haçansa, çox illər qabaq buralara kimlərəsə qonaq gəlibmiş, bəlkə bu evlərin birində qohumları, ya dostları, tanışları yaşayırmış, yadına sala bilmirdi. İşlədiyi redaksiyanın yolu bu küçələrdən keçmirdi. Şəhəri sərgərdan dolaşıb dəxli olmayan məhəllələrdə azmaq şakəri də yoxdu. Bəs nədən bütün yan-yörə ona bu qədər məhrəm gəlirdi, sanki haçansa bu həndəvəri qarış-qarış, addım-addım hadırlamışdı. Bir də içindəki bu təşviş, qəribə nigarançılıq, narahatlıq hissi – məşum bir duyğu – hardandı? Elə bil nədənsə eymənirdi. Nədən? İçində elə bir hiss vardı ki, sanki ömrü boyu yaşadığı şəhərin tanış gəlməyən bir məhəlləsində deyil, özgə, yad bir şəhərin nədənsə ona tanış görünən küçələrində dolaşır.

Bəlkə də ay işığı idi onu eyməndirən. Düyün düşmüş kələf kimi bir-birinə dolaşmış dar küçələrin adamsızlığında, «qu» deyib qulaq tutulan səssizliyində ay işığı ətrafı gümüşü-boz bir rəngə boyamışdı. Sanki bu

ölü rəng hansısa başqa bir dünyadan sızıb süzülürdü. Yox, o ay işığının kəməndinə bağlanıb gecələr gözü açıq gəzən lunatik deyildi. Bəzən yuxuda çəkisizlik aləmindəymiş kimi, ayaqlarının yüngül bir təkanıyla yerdən aralanıb uzun bir məsafəni tullantıyla qət edirdi. Yenə də yuxuda qıçlarının qıc olub bircə addım ata bilmədiyini, dal-dala yeridiyini xatırladı. Bunların hamısı yuxuda idi. Amma indi nə qıc ayaqları, nə çəkisizliyin yüngüllüyünü duyurdu.

Ona elə gəlirdi ki, yuxuda deyil və ona görə gördükləri daha vahiməli idi.

Osmanı qara basırdı. İndi də diş ovan elektromişarın uğultusu altında kimsə İçəri şəhərin dar küçələriylə qaçırdı. Qaçan adamın sifətində qorxu ifadəsi vardı. Osman birdən dərk etdi ki, qaçan adam onun özüdür.

Real həyatda yataqdakı Osmanın üzünü tər basmışdı.

Yuxudakı Osman qaçıb canını təqibdən qurtarmaq istəyirdi. Həm də elektrocihaz dişini ova-ova ən ağrılı nöqtəyə çatmışdı. Elə yuxudaca diş ağrısının dözülməz əzabını çəkirdi.

Onu təqib edən qırmızı limuzini görürdü. Qırmızı limuzin İçəri şəhərin dar küçələrində gümüşü ay işığında Osmanın dalınca qarabaqara irəliləyirdi.

Osman dar küçələrdə gah sağa, gah sola burulurdu. Nəhayət, kor dalana dirənib dayandı. Qarşıda sal divar vardı, töyşüyürdü, təngnəfəs olmuşdu. Ürəyinin yeyin döyüntüsü – ürəyi az qala yerindən çıxacaqdı – dişovan elektrocihazın uğultusuna və get-gedə yaxınlaşan avtomobilin nəriltisinə qarışırdı. Gözləri dəhşətdən bərəlmiş Osman üstünə gedən qırmızı limuzini indi aydın görürdü. Hərəkət edən maşının sükanı arxasında heç kəs yoxdu, maşının içi də bomboşdu, adamsızdı. Maşın Osmanı divara sıxıb xıncım-xıncım əzəcəyi an qəfilcən oyandı. Alnının tərini sildi. İllərlə yaşadığı otağa baxdı. Hər şey həmişəki kimiydi, alışdığı təkindi…

Hündür tavanlı otaqda nimdaş mebellər. Qədimi çarpayı, qədimi yazı masası, meşin kürsü, kaşı naxışlı soba, divarda iki iri foto – birində ağ saqqallı, buxara papaqlı qoca. O birində: Həsən bəy Zərdabi, İsmayıl bəy Qasprinski, Əlimərdan bəy Topçubaşov…

Hər şeyi yerli-yerində, hər şeyi illərlə vərdiş etdiyi kimi görürdü.

Amma insanın beynini deşən uğultu səsi hələ də gəlirdi, bir az da şiddətlənmişdi. Anladı ki, bu uğultu mənzili təmir olunan qonşudan gəlir – drelin səsidir.

Osman iri boyaboy saata baxdı, yeddinin yarısıydı. Tezdi, qəribə yuxusunun üşütməsi hələ də canından çıxmamışdı. İki-üç saniyədən sonra şüuru durulub aydınlaşdı, öz evində, öz yatağında olduğunu anladı, indicə gördüklərinin yuxu, qarabasma olduğunu dərk etdi və xəfifcə gülümsünüb başını buladı.

Hələ bir az da yataqda mürgüləmək olardı. Amma gözünün çimirini ala bilmədi. Uğultu bir ara kəsilir, sonra elə bil daha da şiddətlənirdi. Qulaqlarını balışla tıxamaq istədi, yorğanı başına çəkdi, xeyri olmadı. Səs sanki balışı, yorğanı deşib keçir, qulaqlarının içindən beyninə soxulurdu.

Osman durub divara yanaşdı, divarı döyəcləməyə başladı. Səs kəsilmədi. Divarı daha da bərk döydü. Nəhayət, səs kəsildi.

Başa düşdü ki, daha yuxulaya bilməyəcək, işıqlı ya qara yuxunun girdabına dala bilməyəcək.

Yeni bir gün başlanırdı. Bu gün görməli olduğu işləri yada saldı, onların hər gün təkrar olunan cansıxıcı ardıcıllığını xatırlayanda ürəyi darıxdı. Amma nə etməli, birdəfəlik təsdiq olunmuş ömür cədvəlinə riayət edərək sıçrayıb yataqdan qalxdı. Əsnədi, gərnəşdi, bir-iki idman hərəkəti elədi, tualetə girib çıxdı, ağ xalatını çiyninə atdı, əl-üzünü yudu, saqqalını qırxdı, çayniki isitdi, çay süzüb pendir-çörəklə səhər yeməyini yedi.

Sonra masa arxasına keçdi, dünəndən qalmış vərəqləri yerbəyer etdi, nə isə yazmağa başladı.

Bir müddət sonra zəngli saat yeddini vurmağa başladı.

Osman durub geyindi. Mixəyi şalvar-pencək, ağ göynək, dama-dama qalstuk… Ayaqqabılarını sildi, çəkmə qaşığıyla (rojokla) ayağına taxdı.

Çöl qapısını çırpıb pilləkana çıxdı.

Həmin an qonşu qapısı da açıldı və təqribən Osman yaşında, dəblə geyinmiş bir kişi çıxdı. Xüsusi nəzakətlə Osmana: – Sabahınız xeyir, – dedi, – yanılmıramsa, siz Osman müəllimsiniz.

Osman bir az təəccüblənərək başıyla təsdiq etdi.

Qonşu xüsusi bir ədayla: – Osman Həsənoğlu, məşhur jurnalist – dedi və əlini uzatdı: – Mehman İmanov, təzə qonşunuz. Tanışlığımıza çox şad oldum, – sonra yan cibindən vizit kartını çıxartdı, Osmana uzatdı və əlavə etdi: «YevrAz» yəni Avropa Asiya turizm şirkətinin sahibi. Şirkətimiz sizin qulluğunuzdadır. Səyahət etmək fikrinə düşsəz, can-başla yardım etməyə hazırıq. Təbii ki, güzəştlə… Hara getmək istəsəz – Lissabondan Sinqapuracan – bir papaq etməniz yetər.

Osman:

– Mən də şadam – dedi və hər ikisi pilləkanla enməyə başladılar.

Mehman:

– Yaxşı ki, sizi gördüm – dedi, – deyəsən, səhər üzü sizi bir az narahat etmişik…

Osman cavab verməyə macal tapmamış, Niyaməddinin ifasında mahnı səslənməyə başladı. Mehman sağ cibindən mobil telefonu çıxarıb danışmağa başladı.

– Mənəm, on beş dəqiqədən olacam. Nə?

İndi də Ağadadaşın ifasında başqa mahnı səslənməyə başladı və Mehman sol cibindən ayrı telefonu çıxarıb hay verdi.

– Dedim axı, hələ qol çəkməyin, bir-iki gün gözləyək. Özləri yalvaracaqlar. Hə… Fazil gələndə o saat qəbul etmə, qoy bir saat qapında gözləsin ki, yerini bilsin. Okey. Hələlik.

Hər iki telefonu qapayıb ciblərinə qoydu. Osmana müraciət etdi:

– Bağışlayın sən Allah, söhbətimiz yarımçıq qaldı. Bu mənzili üç gündü almışam, it kökündəydi. Evin keçmiş sahibi müflisləşmiş partokratlardandı, vaxtilə raykom katibi olub, amma ev bir haldaydı, gəl görəsən…

Osman dinmədi.

Mehman davam edirdi:

– Gündüz başımı qaşımağa macalım olmur.

Yenidən telefon səsləndi.

– Bəli, mənəm. Düz ikidə gəl, amma bax ha, bir qəqiqə o yan-bu yan yoxdu, yubanma, biz saatla işləyən adamlarıq. Bay-bay.

O biri telefon səsləndi. Mehman gülümsəyərək Osmana: – Bu da həyatdı? – dedi. – Bir dəqiqə rahat buraxmırlar ki, iki kəlmə söz danışaq. Bu mobil telefonu icad edənin dədəsinə nəhlət.

Sonra telefona: – Şərtlərimizi bilirsiniz – dedi. – Bir faiz də o yan-bu yan yoxdu. Axır sözümüz budu, vəssalam. Salamat qalın.

Osmana: – Gəlsənə bu telefonları qapayım – dedi, – yoxsa qoymayacaqlar iki kəlmə danışaq. Sizin barənizdə çox eşitmişəm. Hamısı da yaxşılığınıza. Dedim görüm kimlə qonşu olacayıq. Sizin mənziliniz bir otaqlıdı, mənimki…

Osman:

– Üç otaqdı, bilirəm, – dedi.

Mehman gülərək:

– Yox, dörd otaqdı – dedi. – Qonşu blokdan da bir otaq almışam. Bir rəssamın dul arvadı olurdu. Otağı mənə bir şərtlə satdı, mənzili almaqla bahəm, ərinin rəsmlərini də sırıdı mənə. Dedi, bəs mən bu şəkilləri neyləyim, çölə atmayacam ki…

Əlqərəz, xeyli pul verib onları da almalı oldum. Öz aramızdı, hamısı cızmaqaradı, amma bilirəm xaricilərin bu sayaq şəkillərdən xoşu gəlir, onlara hədiyyə edərəm inşallah.

İkinci mərtəbəyə çatmışdılar. Mehman davam edirdi:

– Hə, onu deyirdim axı… gündüzlər heç macalım olmur, odur ustaları gecələr işlədirəm. Gərək gözüm üstlərində olsun. Otaqla aradakı divarı sökdürürəm. Sizi yatmağa qoymayan da drelin səsiymiş, yəqin. Siz Allah bağışlayın.

– Allah bağışlasın.

– Ustalara şərt qoymuşam ki, bir aya təmiri qurtarsınlar. Ailəm Sumqayıtdadı. Bakıya köçməyə yaman tələsirik.

Evin çöl qapısına çatmışdılar, Mehman girişdə və pilləkanlarda əsgi divar rəsmlərinə baxıb: – Ağıllarına nə gəlir çəkirlər – dedi, – iki qızım var, – yapımçılmaq Veneranı göstərdi. – İstəmirəm belə biabırçılığı görsünlər.

Evin qabağında gümüşü "Mersedes" dayanmışdı. Sürücü onları görən kimi, tələsik çıxıb Mehmanla salamlaşdı və cibindən telefon çıxarıb ona uzatdı, – Mürşüddü, – dedi. Mehman telefonu qulağına dayadı: – Privet Mürşüd, eşidirəm…

Sonra Osmana:

– Sizi apara bilərəm, – dedi.

– Sağ olun, yaxına gedirəm.

Mehman telefonla danışa-danışa maşına mindi. Osman təəccüblə gördü ki, Osmanın "Mersedes"inin dalında sürücüsüz, sərnişinsiz, başqa bir avtomobil dayanıb, eynilə onun yuxuda gördüyü qırmızı limuzin. Amma yuxudakı ay işığının gümüşü-boz rəngindən fərqli olaraq bol günəşli, açıq səmalı bir gündü. Osmanın da məhz onun yaşadığı evin qarşısında duran qırmızı limuzin sarıdan heç bir nigarançılığı, qorxu-ürküsü yoxdu. Maşındı da, burda qoyub gediblər. Dayanıb-dayanıb, nə olsun. Bəlkə elə dünən də burda dayanıbmış, Osman fikir verməyib. Fikir verməyib, amma hansısa şüuraltı fəhmlə yuxusuna girib.

– Eh, mətləb tapdın da düşünməyə, – öz-özünü qınadı.

Yoxuşu ləhləyə-ləhləyə çıxan avtobusu görüb dayanacağa tərəf tələsdi. İçi sərnişinlə dolu avtobusun dal qapısından birtəhər özünü içəri dürtdü.

İkinci dayanacaqda çox adam düşdü, avtobusun içi seyrəkləşdi və Osman boşalmış yerlərdən birində əyləşdi. Pəncərədən şəhərin adamlarla, maşınlarla qaynaşan küçələrinə baxır və bu gecə gördüyü qəribə yuxuyla bağlı pərən-pərən olmuş fikirlərini toparlaya bilmirdi. Avtobusun solundan-sağından şütüyən maşınlara xüsusi diqqətlə baxırdı, elə bil gözləri nəyisə axtarırdı. Birdən ağlına gələn fikirdən öz-özünə gülümsündü. «Bəlkə qırmızı maşını axtarıram, çoxdan görməmişəm».

Nəsimi metrosunun qənşərində, avtobusdan enəndə yenə bir az aralıda qırmızı limuzini görüb diksindi. Jetonu atıb metronun dırmananenən pilləkanıyla yerin dibinə hərəkət edərkən, elə hey qırmızı limuzin barədə düşünürdü. «Bəlkə şəhərə bir dəst qırmızı maşın gətiriblər, onları istər-istəməz müxtəlif yerlərdə gördüyümçün yuxuma da girirlər».

Sonra qəfil ağlına gələn fikirdən diksindi: "Ya bəlkə eyni maşındır, məni təqib edir"…

Yenə də öz gümanına güldü. «Ay-hay, sən nə belə vacib persona olmusan ki, belə əcaib üsulla təqib də etsinlər, sən keçən yerlərdə gəlib durur. Hələ yuxuna da yol tapıb».

Onu da düşündü ki, işdi-şayət, bir də bu qırmızı maşını görsə, hökmən nömrəsinə diqqət edəcək. Bu qəribə, izahsız, məntiqsiz düşüncələr

beynini elə doldurmuşdu ki, ömründə ilk dəfə öz dayanacağını ötürdü, bir də gördü vaqonun qapıları bağlandı, qatar hərəkət etdi və eşitdi ki, elan olunan dayanacaq onun düşəcəyi deyil, ondan sonrakıdır. Gələn dayanacaqda vaqondan endi, bir az gözləyib əks istiqamətdə gedən qatara mindi. Lazım olan yerdə düşdü, dırmanan pilləkanla yer üzünə çıxdı. Yaylı qapılardan keçib küçəyə addımını atan kimi, səkinin qırağında qırmızı limuzini gördü və əsla təəccüblənmədi. Sanki onu yenidən görəcəyinə heç bir şəkk-şübhəsi yoxdu. Bu dəfə adamsız boş maşının nömrəsinə diqqət elədi: 19-91.

İdarələrinə tərəf addımladıqca düşünürdü: görən qırmızı maşın da mənim dalımca redaksiyaya gələcəkmi? Ya redaksiyaya çatanda onu orda görəcəm? Yox, bu mümkün deyildi. Redaksiyanın yeganə yolu bu küçədən keçirdi, deməli ora yollanırsa, mütləq gəlib mənim yanımdan ötməlidir və o zaman mən sürücüsünü də görəcəm.

Bu da yuxu deyil ki, maşın sürücüsüz-filansız hərəkət etsin. Yanından keçən maşınlara diqqət edirdi, aralarında qırmızısı yoxdu. Redaksiyanın qabağında xeyli maşın park olunmuşdu, amma onların arasında da qırmızı limuzin gözə dəymirdi.

Liftlə səkkizinci mərtəbədəki iş otaqlarına qalxdı. Otağının pəncərəsindən həyət görünürdü. Heyifsiləndi ki, pəncərələri küçəyə açılmır, küçəyə baxsaydı, gələn maşınları izləyə bilərdi. «Mənim də deyəsən başım xarab olub. Bu qırmızı maşın məni niyə belə maraqlandırmalıdır axı…»

Otaqlarında üç əməkdaş yazı masalarının arxasında çalışırdılar. Osmandan sonra otağa orta yaşlı Reyhan xanım daxil oldu. Öz yerinə keçdi və çantasını açıb güzgü çıxartdı, burnunu pudralamağa başladı. Sadıx:

– Necəsiz, Reyhan xanım? – deyə soruşdu.

– Necə olacam, day demə. Dünən yenə ürəyimin ağrısı tutmuşdu. Elə sancırdı, dedim daha axırımdı. O dünyaya gedib qayıtdım.

Şamil:

– Adama elə gəzmək qalacaq da, Reyhan xanım, – dedi.

Gülüşdülər.

Reyhan:

– Əzvay, – dedi, – mən nə hayda, bu nə hayda. Zarafatından qalmır.

Sadıx redaktə etdiyi mətndən başını qaldırdı:

– Bunun redaktəsinə bax, sən Allah! Mən yazmışam: «Yarışda Qana da iştirak edirdi». Bu düzəldir: "Yarışda Kanada iştirak edirdi". Anan ölsün savad yiyəsi, Afrikada Qana adlı dövlət olduğundan xəbəri yoxdu.

Reyhan:

– Kanada demiş, Kanadanın paytaxtı hansı şəhərdi? – Sadıxdan soruşdu.

Sadıx:
– Ottava, – dedi.
Şamil:
– Baş deyil, Domsovetdi, – dedi. – Kanadanın paytaxtını neynirsən, ay Reyhan xanım, olmaya indi də ora səfər etmək fikrin var?
–Yox, dünən axşam krossvord doldururdum, heç cür yadıma düşmürdü Kanadanın paytaxtı.
Şamil:
– Bəs deyirdin dünən o dünyaya gedib gəlirdim, o dünyada doldururdun krossvordu?
– Əzvay.
Tolik: – Şto takoye azvay, – dedi. – Reyxan xanum çasto povtoryayet?
Şamil:
– Eto ot slova aziz, doroqoy, – dedi, – mojeş tak nazıvat svoyu lyubimuyu.
Tolik mat-mat baxırdı, heç nə anlamırdı. Sadıx:
– Uşağı niyə ələ salırsan? – dedi, sonra Tolikə müraciət etdi. – Da şutit on, – dedi, – əzvay – zlyuka. Koqda je tı nauçişsya qovorit na qosudarstvennom yazıke?
– Ya vse ponimayu. Qovorit stesnyayus.
Şamil yenə söhbətə qarışdı:
– A nu skaji, kem bıl Karl Marks?
Tolik:
– Mıslitel, – dedi.
– Net, skaji na rodnom yazıke. Ya je tebya uçil.
– A …pomnyu… seyças skaju. Mütakafkir.
Otaqda qəhqəhələr şəlalə kimi axıb getdi.
– Ax tı, russkoyazıçnıy çuşka. Ne mütakafkir, a mütəfəkkir. Qandın?
Tolik:
– Znayu da…. Qand – eto – saxar…
Bu dəfə gülüşlər daha da gur səsləndi. Hətta ciddidən ciddi Osman da özünü saxlaya bilməyib bərkdən gülürdü.
Şamil:
– Osman, sən də gülərsənmiş? – dedi. – Bilirsənmi, Osman qağa, bu yaxınlarda Toliki görkəmli milli şair kimi Yazıçılar Birliyinə üzv edəcəklər.
Osman cavab verməmiş, tanış uğultunu eşitdi. Tez yerindən sıçrayıb səs gələn tərəfə getdi, dəhlizə çıxdı. Açıq qapıların birindən üzünü elektroülgüclə qırxan cavan oğlanı gördü. Səs də elektroülgücün səsiydi ki, Osmana diş mişarının və drelin səslərini xatırlatmışdı.
Osman yerinə qayıtdı, siyirtməsindən xeyli fotolar çıxartdı. Qarabağ müharibəsinin, Qara Yanvarın, Xocalı soyqırımının dəhşətlərini əks etdirən fotoları seçib ayırmağa başladı.

Selektordan siqnal gəldi, düyməni basdı. Şöbə müdiri Mahmudun səsi eşidildi:

– Səhifə hazırdı?

– Az qalıb.

– Yanıma gəl!

Osman fotoları və yığılmış mətnləri götürüb şöbə müdirinin otağına keçdi. Mətnli səhifəni və fotoları açıb ona göstərdi.

Mahmud şəkillərə baxıb başını buladı:

– Aman Allah! Yenə qaçqınlar, Xocalı, Qarabağ…

Osman:

– Yəni bizim bundan vacib problemimiz var? – dedi.

– Əzizim, yazılarla və fotolarla Qarabağı qaytarmaq olmaz. Oxucu da bu dəhşətləri eşitməkdən, görməkdən bezib. Camaat başını qatmaq, əylənmək istəyir. Onsuz da hərənin öz qayğıları, dərdi-səri yetərincədir.

– Yaxşı, nə vaxta qədər biz camaatın başını qatacayıq, oxucuları əyləndirəcəyik?

– Bu, elə bizim qəzetin məqsədlərindən biridir də. Bilmirdin? İndicə Baş redaktor çağırmışdı. Abrımı verdi. – Xəbərin var, tirajımız necə düşüb? – dedi. Oxucuya onu maraqlandıran şeyləri verin.

Mahmud bic-bic gülümsündü:

– Baş redaktorumuz özü də bir neçə maraqlı mövzu təklif etdi. Eşitmisən, – dedi, – şou ulduzu Ellada istəkli pişiyini dəbdəbəylə dəfn edib? Hətta pişiyinə ehsan da verib. Bütün bomond ordaymış. Yaxud başqa bir şok fakt: Raul Çaybasarski oğluna toy etməkçün böyük bir gəmi kirayələyib. Təsəvvür edirsən, beş yüz qonaq bəy və gəlinlə dəniz səyahətinə çıxırlar. Bax, oxucu belə-belə şeylərin təfərrüatlarıyla maraqlanır.

– O oxucu ki, onun başını elə biz özümüz belə-belə şeylərlə xarab eləmişik.

– Yaxşı, yaxşı, qoy oturmuşuq, mənə əxlaq dərsi demə. Amma haqq aşığı, onu da unutma ki, sənin də, mənim də yüksək maaşlarımız, qonorarlarımız qəzetin tirajından asılıdır. Odur ki, istədin-istəmədin – bizə çörək verənlərin istəklərinə əməl etməliyik. Heç olmasa məşhur, tanınmış adamlarımızdan birini seçin, haqqında yalan-palan uydurub şok xəbər kimi birinci səhifəyə çıxarın. Oxucuları belə şeylər cəlb edir də…

– Deməli, beş-on obıvatelin xəstə marağına görə görkəmli adamlarımızı yaş yuyub, quru sərməliyik?

– Yenə başlama. Demirəm ki, biabır edəsiz, elə guya şaiyə kimi, dedi-qodu kimi bir şey yazın ki, sonra məhkəməyə də verə bilməsin.

– Bağışla, Mahmud, mən bunu edə bilməyəcəm. Günahsız insanlara şər atmaq…

Mahmud onun sözünü kəsdi:

– Yaxşı, konkret şəxs olmasın, təşkilat olsun. Bilirsən ki, Yazıçılar Birliyinin əleyhinə yalan-doğru bir şey yazanda bunu xüsusi ləzzətlə oxuyurlar.

– Bu işi Şamilə tapşırsan yaxşı olar. Onu bir il əvvəl Yazıçılar Birliyindən çıxarıblar, hələ də hirsi soyumayıb, əllərindən zəncir çeynəyir. Nə desən yazar.

– Yaxşı, bəs sabahkı səhifə necə olsun?

– Üzr istəyirəm, amma mən iki saat ərzində təzə səhifə hazırlaya bilmərəm.

– Heç bir hazır materialın yoxdu?

– Elladanın pişiyi tipli heç bir materialım yoxdu.

Şöbə müdiri dərindən köks ötürdü, başını buladı:

– Neynək, ver hazırladığın materialı, amma babalı sənin boynuna. Sözümdən də nəticə çıxar, mən sənin yerinə baş redaktordan tənbeh alan deyiləm.

Osman otağına qayıtdı. Otaq bomboşdu. İş vaxtı qurtarmaq üzrəydi. Osman da kağız-kuğazını qovluğa yığıb otaqdan çıxdı. Birigünkü materialların, məktubların saf-çürük edilməsinə başı elə qarışmışdı ki, fasilə zamanı bufetə enib yüngülvari nahar etməyi də unutmuşdu.

Liftlə aşağı endi. Redaksiyanın qarşısındakı meydança maşınla dolu idi. Ürəyinə dammışdı ki, maşınların arasında qırmızı limuzin də olacaq. Zənni düz çıxdı. Maşınların içində, tən ortada qırmızı limuzin də vardı. Nömrəsinə baxdı, diksindi: elədi ki var: 19-91. Həmin limuzin idi.

Osmanın matı-qutu qurumuşdu. Bir müddət kirimişcə dayanıb matdım-matdım qırmızı maşına baxdı. Şübhə qalmamışdı. Maşın məhz onu, Osmanı təqib edir. Ev və iş ünvanını, geçdiyi yolun marşrutunu dəqiq bilir. Osman özü də təəccübləndi ki, maşın haqqında canlı varlıq kimi düşünür. Sanki maşın bu hərəkətəri ÖZÜ, ÖZ iradəsiylə edir.

Bu izahsız müəmma qarşısında Osman müc olub qalmışdı. Elə bil kimisə, nəyisə gözləyirdi. Daha doğrusu, kimsə – bu maşının sahibi ya sürücüsü – axır ki, peyda olmalıydı, avtomobilə yanaşmalıydı və bu qəribə sirr açılmalıydı. Amma xeyli vaxt gözləsə də maşına heç kəs yanaşmadı. Ara-sıra idarə ya şəxsi maşınların yiyələri, sürücüləri gəlib öz avtomobillərinə minir, matoru işə salıb çıxıb gedirdilər. Get-gedə bütün meydança boşaldı. Cəmisi üç-dörd maşın qalmışdı, onlardan biri də qırmızı limuzin idi.

Osman dərk edirdi ki, xeyli vaxt burda durub nəyisə gözləyirsə, bu tamamilə mənasız bir işdir. Heç kəs bu məşum maşına yiyə durmayacaq. Ona da əmindi ki, buradan aralanıb evinə çatanda qırmızıi limuzini qapısında görəcək. Nədən belə əmin idi, özü də bilmirdi. Amma bu beləydi.

Payi-piyada yola düzəldi. İndi maşınlardan çox, küçədən keçən adamlara diqqət edirdi. Bir tanış sifət qarşısına çıxmırdı. Elə bil özgə,

yad bir şəhərə düşmüşdü. Bu, əlbəttə, yalnız bu günün duyumu deyildi. Son iki-üç ildə buranın digər əsgi sakinləri kimi, Osman da öz şəhərlərini sanki tanımırdı. Yadırğamışdılar doğulub böyüdükləri, boya-başa çatdıqları məkandan. Elə bil şəhəri tamam başqa əhali doldurmuşdu.

Osman kiminsə dəqiq ifadəsini xatırladı: İndi bu şəhərdə mənə tanış yalnız yağışdı.

Nəinki sifətlər, adamlar dəyişmişdi, onların rəftarı, özünü aparmaları, vərdişləri və davranışları da tamam başqaydı, yabançıydı. Haçansa redaksiyadan, ya evindən çıxanda beş-on addım atarkən mütləq bir tanışla rastlaşacaqdı, iş yerinə çatanacan neçəsinə salam verib əleyk alacaqdı.

İndi saatlarla küçələri dolaşa bilərdi, tanıdığı bircə nəfərə rast gəlməzdı.

Bir neçə küçədən keçib, üstündə «Stomatoloji poliklinika» yazılmış binanın qarşısında dayandı. Elə bil lövhənin təsirindən dişi təzədən zoqquldamağa başladı. Ani tərəddüddən sonra qərar verib içəri daxil oldu. Münasib otağa girib köhnə tanışı diş həkimi Maliklə salamlaşdı.

Malik:

– Axır ki, şeytanın qıçın sındırıb, təşrif buyurdun, – dedi. – Keçən həftə gələsiydin.

– Baş açılır ki?

– Yaxşı, otur bura.

Osman kürsüyə oturanda həkim əllərini sabunlayıb yuyurdu, sonra Osmana yanaşıb: – Aç ağzını, – dedi.

– Vaxsey... Dişlərin bilirsən nə gündədi?

Malik başını bulaya-bulaya novakain iynəsini vurdu, sonra bormaşını işə saldı. Diş mişarının əsəbləri yerindən oynadan səsi yuxudakından da müdhiş səslənirdi. Osman kürsüdən ilan çalmış kimi sıçrayıb: – Bağışla, – dedi, – qalsın gələn səfərə, bu gün hazır deyiləm.

– Necə yəni hazır deyiləm? Dişlərin bilirsən nə gündədi? – deyə təkrar etdi. Osman heç sağollaşmadan otaqdan bayıra fırladı.

Poliklinikanın qabağında qırmızı limuzini görəndə artıq təəccüblənmədi. Guya bu qəribə oyunun ona heç bir dəxli yoxmuş kimi, boş adamsız maşının yanından saymazyana, etinasızlıqla ötüb keçdi. Taksi saxladı.

Evlərinin yanında taksidən düşəndə bir daha təəccübləndi. Yan-yörəyə boylandı. Heç yerdə – nə yaxında, nə uzaqda qırmızı limuzin yoxdu.

Binanın çöl qapısından içəri girdi, quruyub qaldı. Ustalar divar rəsmlərinin üstünü malalayırdılar.

– Siz neynirsiz, axı bu…

Ağzını açmışdı ki, ustalar sözünü kəsdilər:

– Xozeyin tapşırıb ki, axşamacan işimizi qurtaraq, – dedilər. Doğrudan da, artıq iş işdən keçmişdi, xilas etməli bir şey qalmamışdı. Rəsmli divarlar demək olar ki, tamamilə malalanmışdı.

Dinməz öz mənzilinə qalxdı. Buz dolabını açdı, xörək çıxartdı, bir az ora-burasını ditdələdi, yenidən yerinə qoydu. İştahı yoxdu. Meşin kürsüyə əyləşdi. Televizoru qurdu. Xəbərləri verirdilər – bir-birindən dəhşətli xəbərlər – ölüm, qan, göz yaşları…

Gözlərini yumdu və beləcə hərəkətsiz xeyli qaldı. Qapının zəngi çalındı. Osman hövlnak oyanıb durdu, qapını açdı. Mehman idi, indi əynində bahalı ev – idman paltarı vardı.

– Dedim bir qonşuya baş çəkim. Olar?

– Buyurun.

Otağa girdilər. Mehman otağa göz gəzdirir, bəzəkli sobaya xüsusi diqqətlə baxırdı.

– Mənimki də elə bu cürdür, – dedi.

Osman televizorun səsini qısdı.

– Bilirəm, – dedi.

– Siz o mənzildə, yəni mənim mənzilimdə olmusuz?

– Mən orda yaşayırdım.

– Necə yəni yaşayırdım?

– Bütün bu mərtəbə babamın idi.

Mehman divardakı iri fotolardan birini – saqqallı, papaqlı ziyalını göstərdi:

– Babanızdır?

– Bəli.

– Bəs necə oldu ki, o mənzil…

– Babam öz əcəliylə öldü, amma atamı tutub sürgün edəndə bütün mənzili aldılar, anamla mənə yalnız bu otaq qaldı.

– Atanızı niyə tutmuşdular ki?

– Bu şəklə görə. – Osman divarda Zərdabi, Qasprinski və Topçubaşov əks olunmuş fotonu göstərdi.

– Bunlardan hansıdı babanız?

– Bu şəkildə babam yoxdu, Həsən bəydi, Topçubaşovdu, Qasprinskidi.

– Kim?

Əlimərdan bəy Topçubaşov Müsavat vaxtı Parlamanın sədri olub, İsmayıl bəy Qasprinskini pantürkist sayırdılar. Həsən bəy Zərdabi də yəqin bilirsiz bizm ilk qəzetimizi, «Əkinçi»ni buraxıb.

– Elə bununçün tuta bilərdilər?

– Yəqin bilərmişlər ki, tutublar da…

– İnanılası şey deyil. Elə bir bu fotoya görə…

– İş ondadr ki, Topçubaşov babamla tanış imiş.

– Babanız nəçiydi ki?

– Maarifçi idi, müəllim. Səttar Səlimbəyov, bəlkə eşitmisiz, bir vaxt Bakıda Səlimbəyovun məktəbi məşhur imiş. Bu fotonun əsli deyil, sonralar mən surətini çıxarmışam. Şəklin babama bağışlanmış orijinalında Topçubaşovun öz dəst-xətti vardı, babama bağışlayıbmış fotonu. Duyuq düşüblər, danos verib, yəni şeytanlayıblar, gəlib tutdular atamı ki, sən evində xalq düşmənlərinin şəklini saxlayırsan. Güman ki, danos verən elə sizin mənzilin əvvəlki sahibi olub.

– Aman Allah, nə dəhşətli vaxtlar imiş. Şeytançılıq edib tutdurasan, sonra da evini əlindən alasan. Yaxşı, sizin bu otaqla mənim mənzilim necə birləşirmiş?

– Bax, burda qapı vardı, – deyə, Osman divarın sonradan hörülmüş hissəsini göstərdi.

– Əla! Çox gözəl. Çox münasib yerdəymiş bu qapı.

– Çay içirsiz?

– Yox, sağ olun.

– Yaxşı, deyin görüm, o girişdəki şəkilləri niyə malalatdırdınız?

– Abırlı evə belə şəkillər yaraşmaz, arvad var, uşaq var, dedim sizə, iki qızım var, niyə onlar evə gəlib gedəndə bu pornoqrafiyanı görsünlər?

– Bu pornoqrafiya deyil. Renessans dövrü Avropa rəssamlarının tabloları mövzusunda, bu əsrin əvvəllərində çəkilmiş şəkillərdir. Yəni – hər cəhətdən əhəmiyyətli tarixi…

Mehman onun sözünü kəsdi:

– Siz heç narahat olmayın, Osman müəllim! Avropa rəssamları Avropada çəksin. Mən burda bizim öz rəssamlarımıza, tutalım Səttar Bəhlulzadə kimi rəssamlarımıza sifariş verəcəm öz vətənimizin ən qəşəng mənzərələrini çəksinlər: Göy göl, Şahdağ, Beşbarmaq… Qoy xaricilər də Azərbaycanımızın gözəlliklərini görsün. Əslinə qalsa, mən elə bu evi də xaricilərə görə almışam. Xarici qonaqlarım, partnyorlarım çox olur, İçəri şəhər də onları Bakıda hər yerdən çox cəlb edir. Bilirsiz, imkanım var şəhərin liboy yerində ən yaxşı evlərdə istədiyim mənzili alım. Amma qərar verdim ki, hökman İçəri şəhərdə, qədimi evdə, tavanı belə hündür olan mənzil alım. Elə bir bu soba nəyə desən dəyər. Xaricilər bunu görəndə dəli olacaq.

– Nə deyim, sağlığınıza qismət olsun.

– Təşəkkür edirəm. Məndən incimirsiniz ki, sizin əvvəlki mənzilinizdə yaşayacam.

– Yox, niyə inciməliyəm ki… Ora çoxdan mənim deyil.

– Bilirdim ki, siz ziyalı adamsız. Hamı sizin haqqınızda yaxşı danışır. Fəxrimizsiniz.

Pafosla əlavə etdi: – Məşhur jurnalist Osman Həsənoğlu…

– Şişirtməyin. Məşhur-filan deyiləm.

– Çox təvazökarsınız. Bizim zamanda təvazökar olmaqla iş keçmir. İnanıram ki, dost olacayıq. Bəlkə sizə bir xeyrim də dəydi.

– Sağ olun.

– Osman qardaş, vallah, heç bilmirəm sözə necə başlayım. Amma özünüz mənə kömək etdiniz, dediz ki, bura əvvəllər böyük bir mənzil olub. Necə bilirsiz, mən belə bir təklif eləsəm ki, şəhərin harasında istəsəz, sizə üç otaqlı, avroremontlu mənzil alım, siz də bu bir otağı mənə verəsiniz, buna nə deyəcəksiz? Hə?

Osman gözlənilməz təklifdən çaş-baş qalıb bir müddət cavab tapmadı. Sonra sakit şəkildə cavab verdi:

– «Yox» deyəcəm.

– Hə, yadımdan çıxdı deyəm ki, mənzildən başqa istədiyiniz məbləğdə pul da ödəyəcəm sizə.

– Sağ olun. Amma bu olan iş deyil.

– Niyə? Baxın, hələ qapının yeri də durur. Bu otaqları birləşdirmək su kimi asan işdi. Elə deyil, Osman qardaş?

Osman siqaret yandırdı:

– Necə izah edim sizə? Bura mənim ata-babalarıma aid son xatirə yeridir. Burda babam yaşayıb, atamı burdan sürgünə aparıblar, heç bilmirəm qəbri də hardadır. Anam burada vəfat edib. Mənim nə yaxın qohumum qalıb, nə oğul-uşağım var. Mən də burda öləcəm. Məndən sonra bu otağa da sahib olarsız.

– Nə danışırsız? Niyə belə sözləri dilinizə gətirirsiniz? Allah sizə uzun ömür versin. Amma xatirələr hər şey demək deyil axı... Dünyanın başqa ləzzətləri də var.

– Mənimçün xatirələr hər şeydi…

– Heç evlənməmisiniz?

– Yox.

– Niyə?

Osman qonağının yersiz sualına yenə təmkinlə cavab verməyə çalışdı.

– Cavanlıqda əlləşib vuruşurdum, neçə yerdə işləyirdim ki, xəstə anamı dolandırım, sonra da daha gec oldu.

– Niyə gec olur ki… Təzə gözəl mənzilə köçərsiniz, kalan pulunuz olacaq. Belə jenixi kim arzulamaz ki?

– Üzr istəyirəm, görünür bəzi şeylərə biz tamamilə fərqli yanaşırıq.

– Mən sizi tələsdirmirəm. Demirəm ki dərhal cavab verəsiniz. Bir yaxşı-yaxşı fikirləşin, götür-qoy edin, dost-aşnayla məsləhətləşin. İnşallah bu məsələyə bir də qayıdarıq.

Osman siqaretdən bir qüllab alıb:

– Mənim cavabım qətidir, – dedi.

– Hər halda bir də düşünün. Gecəniz xeyrə qalsın.

– Xeyrə qarşı…

Mehmanı ötürüb otağa qayıtdı, meşin kürsüdə oturdu. Televizorun səsini artırdı, dəhşətli səhnələrə baxa-baxa mürgülədi.

İndi həmin səhnələri yuxuda görürdü. Bu səhnələr yuxudaca dəfn mərasimiylə əvəz olundu. Adi dəfn mərasimi – tabut, əklillər, matəm musiqisi. Müğənni Ellada iri qara eynəklərini çıxarır, göz yaşları yanaqlarına süzülürdü. Elladanın qiyafəti də qəribəydi – başına qara matəm örpəyi salmışdı, üzündə qara vual vardı, amma dərin dekolteli geyimi açıq-saçıqdı.

Birdən-birə tabutun içindən pişik sıçrayıb Elladaya tərəf atıldı. Ellada sevincək onu bağrına basdı. Dəfn iştirakçıları hərəsi bir tərəfə qaçışdı. Boş küçənin ortasında yalnız Osman qalmışdı. Qəfildən üstünə qırmızı limuzin gəldi və onu vurub sürüməkdən bir an əvvəl Osman qışqırıb oyandı.

Bir müddət otaqda var-gəl etdi, sonra telefonun dəstəyini qaldırıb zəng etdi.

– Mahmud, salam. Osmandı, bağışla səni narahat edirəm. Sabah işə çıxmayacam. Səhifə Sadıxdadı.

– Niyə, nə olub?

– Qərara gəldim ki, qəzetdən gedim.

– Nə baş verib axı? Gündüzkü söhbətdən incimisən? Neçə ilin dostuyuq, əhbabıyıq, yəni bir açıq söhbətə görə…

– Yox, yox. Bunun məsələyə dəxli yoxdu.

– Özün də bilirsən ki, məsələ məndən gəlmir. Mən buyruq quluyam. Ağa deyir sür dərəyə, sür dərəyə, bir də ki…

– Dedim da, bugünkü söhbətin dəxli yoxdu. Heç kəsdən də inciyib eləməmişəm. Əsəblərim nəsə yaman pozulub, dəhşətli yorğunluq hiss edirəm. Daha sakit iş axtaracam.

– Gözlə, ay tapdın. Nəinki sakit iş, ümumiyyətlə iş tapmaq elə bilirsən asandı, özü də bizim vaxtda… Bir də ki, harda sənə bu qədər pul verəcəklər. Qulaq as…

– Bu qəti qərarımdı… Nə sənin, nə heç kimin heç bir təqsiri yoxdu. Salamat qal. Ərizəmi sabah göndərərəm.

– Nə deyim, özün bilən yaxşıdı… Bizi unutma.

– Əlbəttə. Oldu, hələlik…

Geyinib küçəyə çıxdı. Qırmızı limuzin düz qapılarının qabağında dayanmışdı. Osmanın içində dolaşıq hisslərin kələfi düyün düşmüşdü. Bu həm təəccüb, izahsız sirrin çözülməsinə maraq, həm bir azacıq təşviş, qorxu hissi, həm də get-gedə şiddətlənən hikkə idi. Kimsə onunla, məhz onunla, Həsənoğlu Osmanla oyun oynamaq fikrinə düşübsə – çünki ev, redaksiya, metro və avtobus dayanacaqları məhz onun vərdişli marşrutu idi – və bunu bilə-bilə onunla oyun oynayırsa, buyursun. Bu oyundan boyun qaçırmayacaq, bu müəmmalı oyunu oynamağa hazırdır: yalnız oyunun şərtlərini və qaydalarını bilməlidir, oyunçuları tanımalıdır. Heç olmasa üzlərini görməlidir.

Əgər bu oyunu doğrudan da onunla nə məqsədləsə – məqsəd hələ aydın deyil – oynayırdılarsa, əlbəttə, Osmanın gəliş-gediş yollarını də-

qiq bilirdilər. Bu nə çətin işdi bəyəm – izləyiblər, güdüblər, müəyyənləşdiriblər. Deməli, bu kozırı onların – kimlərin? – hər kimdisə onların – təqibçilərin əlindədir. Onların oyununu pozmaq isə mənim əlimdədir. İndi İçəri şəhərdən çıxıb elə gözlənilməz yollarla keçəcəm, yolumu elə küçələrdən salacam ki, onları – kim olurlar-olsunlar – azdıra bilim.

Niyyətinə əməl edərək Osman ən ağlagəlməz yerlərdən keçir, heç kəsin guman edə bilməyəcəyi həyətlərin bir tərəfindən girib o biri tərəfindən çıxırdı. Deyəsən, istəyinə nail olmuşdu, axır ki, təqibçilərini azdıra bilmişdi. Hər dəfə yeni bir küçəyə çıxıb həndəvərdə heç bir qırmızı maşın görməyəndə öz fəndgirliyinə afərin deyir, təqibçiləri aldada bildiyinə sevinirdi. Növbəti döngəni dönüb yeni küçəyə çıxanda birdən-birə ayaq saxladı. Qarşısına bu məqsədi qoymasa da elə bil ayaqlarının özü Osmanı yaxşı tanış olduğu evin qabağına gətirib çıxarmışdı. Bir vaxtlar hər gün ya günaşırı gəldiyi, iki ildən bəri isə qapısına daban basmadığı evin iki addımlığında idi. Katibənin evinin.

Katibənin adı Aliya idi, amma hamı ona Alla deyirdi. Redaksiyanın əməkdaşları isə nədənsə onu Katibə deyə çağırırdılar. İşə katibə kimi düzəlmişdi, amma sonralar redaktor kimi işləməyə başladı.

Bir gün, daha doğrusu, bir gecə Osman da, Alla da nömrə üzrə növbətçi idilər. Gecə yarısı, 12-dən on dəqiqə keçmiş nömrəni təhvil verib redaksiyadan bərabər çıxdılar. Osman Allanı evlərinəcən ötürdü. Metroyla iki dayanacaq keçərək yer üzünə çıxıb, katibənin evlərinə çatanacan ən müxtəlif məsələlərdən danışırdılar – işlərindən, işdəki əməkdaşlarından, havadan.

Narın yağış çisələyirdi.

Bir ildi Allayla bir yerdə çalışırdılar, indiyəcən heç vaxt sözləri qadın-kişi münasibətlərindən düşməmişdi. Amma indi, yolboyu kənar söhbətlər edərkən hər ikisinin ürəyinə dammışdı ki, bu gecə ayrılmayacaqlar. Bunu sonralar katibə də boynuna aldı.

Alla cavandı, yaraşıqlı və yapışıqlıydı. Tək yaşayırdı. Osman da subaydı. O vaxt indikindən təbii ki gəncdi.

İşarə, təklif, dəvət kimi səslənən sözləri öncə kim dedi? Allanın evlərinin qabağında Osmanımı çaya dəvət etdi; ya Osmanmı kibritin ancaq evdə olacağını gözəlcə bilə-bilə siqaretini odlamaqçün katibədən kibrit istədi? Ya da təkliflərin, işarələrin ikisi də oldu, ikisi də təbii qarşılandı. Sonra yuxarı qalxanda onu da dedilər ki, artıq gecdir, metro işləmir.

İlk dəfəydi ki, katibənin evini görürdü. Gecəni orda qaldı.

Üç ilə yaxın davam edən münasibətləri bitmək üzrəydi, bıkıb-usanmış, yorulmuşdular bir-birindən. Katibə bəlkə də məhz bu səbəbi öncədən duyaraq iş yerini dəyişdi. Evdə telefonu da yoxdu.

Amma Alla iş yerini dəyişməzdən əvvəl artıq araları xeyli soyumuşdu. Bir neçə həftəydi görüşmürdülər. Katibə onların redaksiyasından gedəndən yarım ay sonra Osman lapdan onun evinə gəldi.

Allanın qonaqları vardı – təzə iş rəfiqələri. Osmanı soyuq qarşıladı. Osman bir az oturub getdi. Bir həftə sonra yenə gəldi. Alla evdə yoxdu, sonra bir də gəldi, yenə evdə tapmadı, daha heç vaxt gəlmədi.

Bu ayrılıq Osmanı nə incidir, nə ağrıdırdı. Ömrü boyu tək yaşamış adam kimi yalqızlığa alışmışdı. Təkliyi onu sıxmırdı. Ara-sıra darıxanda – elə günlər də olurdu – kiməsə köhnə tanış qadınlardan birinə telefon edirdi, ya onun evində ya öz mənzilində bir-iki saatlıq görüşüb ayrılırdılar, sonra aylarla bir-birini itirib axtarmırdılar. Və məhz belə əlaqə – hər iki tərəfi qane edirdi.

Ani bir təşəbbüslə Osman çöl qapısından içəri girdi, hələ unudulmamış pilləkanlarla – ikinci mərtəbədə bir pillə uçulub dağılmışdı – ayağını ehtiyatla basmalıydın – üçüncü mərtəbəyə qalxdı və arada iki illik məsafə yoxmuş kimi, zəngin düyməsini basdı.

Qapı ardından addım səsləri eşidildi.

– Kimdi?

Adını dedi.

Qapı açıldı. Alla təəccüblə Osmana baxdı. – Sənsən? Nə əcəb belə, xeyir ola. Sən hara, bura hara?

Osman dedi ki, yolu bu tərəflərə düşmüşdü, baş çəkmək istədi…

Hələ də qapıda durmuşdular. Nəhayət, Alla Osmanı içəri dəvət elədi:

– Keç otağa, – dedi, – amma bağışla, bir az səliqəsizdi otaq. Nə biləydim ki, qonağım gələcək.

Otağın qəribə görkəmi vardı. Bomboşdu, mebelsizdi. Yalnız divar güsgüsü qalmışdı. Çıxarılmış şəkillərin yerlərində mismarlar dururdu. Rəngli divar kağızlarının başqa sahələrindən ayrılan kvadratlar çıxarılmış şəkillərin yeri idi.

Otağın bir küncündə karton qutulara kitablar qablanmışdı. Kitabların, jurnalların, qəzetlərin bir yığını da pəncərənin qarşısına düzülmüş, yerə səpələnmişdi.

Divar güzgüsü Osmanın yaddaşında müəyyən səhnələri canlandırdı və Alla onun güzgüyə xüsusi nəzər saldığını gözdən qaçırmadı. Osmanın daxili baxışla hansı şəhvani səhnələri təsəvvüründə oyatdığını da bildi: bəzən güzgü qarşısında sevişməkdən xoşlanırdılar. Osman gözünü güzgüdən ayırdı və bir daha otağa nəzər saldı. Döşəmənin bir hissəsinin də rəngi başqaydı, digər sahələr kimi solmamışdı. Solmamış yer indi yox olmuş çarpayının altındakı sahə idi.

Onların çarpayısının.

Sürüb bitmiş ləzzət saatlarının yatağı. Osmanın qulağına çarpayının cırıltısı da gəldi. Onların hərəkət edən iri bədənlərinin ağırlığı altında cır-cır cırıldayan çarpayının səsi…

Alla:

– Vidalaşmağa gəlmisən? – dedi.

– Vidalaşmağa? – Başa düşmədi. – Köçürsən?

Alla başıyla təsdiq elədi.

– Evini dəyişirsən?

– Ölkəmi dəyişirəm.

Osman bir müddət sükut içində Allanı süzdü. Zaman əlbəttə öz işini görmüşdü. Allanın sifəti əvvəlki cazibəsini itirməsə də, əvvəlki sifət deyildi.

– Hara gedirsən?

– Uzaqlara – Alla xəfif gülümsündü. – Başqa qitəyə. Okeanın o tayına.

Handan-hana Osman xatırladı ki, Allanın anası yəhudiydi, Amerikada qohumları vardı, xalası ya dayısı…

– Haçan gedirsən?

– Biri gün. Bütün şeylərimi satdım. Bu gün çarpayını da apardılar. Bu gecə yerdə yatmalı olacam.

– Bəs bu kitablar?

– Bunları da sabah gəlib aparacaqlar.

Birdən nə isə yadına düşdü.

– Dayan, mətbəxdə hələ çaynik və stəkan-nəlbəki var. Bu saat sənə çay süzərəm.

Osman:

– İstəməz, – dedi, amma Alla artıq mətbəxə keçmişdi.

Osman divar güzgüsünə yanaşdı, uzun-uzun özünə baxdı. Başı çal idi, amma saçları ağarmamışdı, elə bil kif atmışdı.

Üstdə olan kitabları bir-bir götürüb baxır, vərəqləyib yerinə qoyurdu. Çox köhnə ensiklopediyalar, seriya cildlər, lüğətlər, müxtəlif sahələrə aid kitablar arasında çox nadirləri vardı. Demək olar ki, baxdığı kitabların çoxunda mətnin kənarlarında karandaşla qeydlər, qısa yazılar vardı. Bəzi sözlərin, ifadələrin, cümlələrin altı cızılmışdı. Arasıra sual, ya nida işarələri də gözə çarpırdı.

Alla mətbəxdən iki kətil gətirdi. Birinin üstünə çay süzülmüş stəkan və qənddan qoydu. İkinci kətili Osmana uzatdı.

– Otursana.

– Sənin belə zəngin kitabxanan varmış. Heç mən bilmirdim.

– Atamdan, anamdan qalıb. Sonra az-çox mən də almışam. Amma əsas onlarınkılardır. – Bəs niyə mən indiyəcən heç diqqət eləməmişəm? Harda gizlədirdin bunları?

Alla acı-acı gülümsündü.

– Sən nəyə diqqət edirdin ki?! İçəri girən kimi üstümə atılıb məni yatağa dartırdın. Sonra da doyub, sakitləşib tez-tez saata baxırdın. Səni düşdüyün bu çətin vəziyyətdən qurtarmaqçün deyirdim: – Yəqin tələsirsən, təcili işin var. – Əlüstü: – Hə, çox vacib işdi, getməliyəm, – deyib tez aradan çıxırdın.

Osman xatırladı ki, doğrudan da, hər şey məhz Katibənin – Allanın dediyi kimi olurdu, amma belə söhbətləri o vaxtlar da etmişdilər və soyumalarının bir səbəbi də bəlkə elə bu gileylər idi. Yenidən bu gileygüzara qayıtmamaqçün sözü dəyişdi.

– Bu qeydlər atanındı? – Kitablardakı karandaş yazılarını göstərdi.

–Atamın da var, anamın da. Hər halda mənim deyil, – gülümsündü və əlavə etdi, – mən elə ağıllı və savadlı deyiləm.

– Atan ingiliscə də bilirdi?

– İngiliscə də, almanca da, farsca da. Hələ öz dilimizi və ruscanı mükəmməl bildiyini demirəm.

– Kimə qoyursan bu kitabları?

– Heç kimə qoymuram, satmışam hamısını.

– Satmısan? Kimə?

– Müxtəlif adamlara. Birini bir kitab maraqlandırır, başqasını başqa…

– Heyfin gəlmir? Axı, burda valideynlərinin qeydləri, fikirləri...

Osmanın sözünü yarımçıq kəsdi:

– Neyləmək olar ki? Onlar ölüb. Valideynlərimi də deyirəm, kitabları da...

– Səncə kitablar da ölür?

– Əlbəttə.

– Xırdala görək.

– Bunun nəyin xırdalayasan? Aydın məsələdir. Kitabların sahibi, yəni onları alan, toplayan, oxuyan, onlarla vaxt keçirən, nə bilim onlar haqqında düşünən, düşündüklərini yazan, ya sadəcə qeyd edən adamlar öləndə sevdikləri kitablarını da özləriylə aparırlar. Yəni onlar da ölür – kitablar. Təzə sahiblərinkilər isə o kitablar deyil, başqa kitablardı. Zahirən həmin kitablar olsa da.

Osman çayından bir qurtum alıb Allaya, uzun illərdən bəri tanıdığı və demə tanımadığı katibəyə baxırdı. Deyəsən, «katibə» və «kitab» sözlərinin kökü də eynidir axı..

Alla:

– Mən kitab oxumağı da sevirəm, kitablar haqqında düşünməyi də. Tək bir məzmunları haqqında yox, ümumən kitablar barədə. Bax bu kitabların çoxu – əlli-altmış ildən bəri bir yerdədirlər. Bir evdə yaşayırdılar. Rəflərdə qonşuydular. Bir-birinə isinişmişdilər. Bəzən mənə elə gəlirdi ki, onların qəhrəmanları hətta gecələr bir-birinə qonaq gedir, bir-biriylə söhbət edir, sevişir, küsüşüb-barışırlar. Lap səninlə mənim kimi.

– Biz küsməmişdik ki, barışaq…

– Əlbəttə, elədir. Nə isə… Hər halda bu kitablar bir ailə idi. İndi bir-birindən ayrılırlar, ailə dağılır. Sabah hərəsi şəhərin başqa-başqa yerlərində, başqa-başqa evlərdə, başqa adamların yanında olacaqlar.

Bir də heç vaxt biri-biriylə görüşməyəcəklər. – Bir an susdu, sonra əlavə etdi – səninlə mənim kimi.

İlk dəfə görürdü hamının Katibə adlandırdığı qadını, ilk dəfə görürdü Allanı. İlk dəfə onun kim olduğunu kəşf etmişdi.

– Sən beləsənmiş – dedi. – Bəs niyə bütün bunları mənə əvvəllər danışmırdın?

– Macal verirdin ki… İçəri girən kimi atılırdın üstümə, sonra da…

– Yaxşı, yenə başlama...

– Doğrudan eləydi də… işdə ancaq rəsmi söhbətlər, şunu götür şunu qoy. Evdə… isə... boğuq sözlər, nəfəsin darıxırdı, kəsilirdi az qala, sonra da… əsnəmələrin…

Sükut çökdü, sonra Alla:

– İlk gecəmizi hərdən xatırlayırdım, – dedi. – Gecə yarısı işdən çıxmağımız, məni ötürməyin… yağış yağırdı...

Sırf təsadüf – təsadüfdimi? – nəticəsində bura gəlib çıxarkən bu məqamlar ağlına da gəlməmişdi Osmanın. Amma indi Allanın – qəsdənmi, bilərəkdənmi, ya qeyri-ixtiyari, istər-istəməz oyatdığı xatirələr onu çoşdurur, hallandırırdı və düşünürdü ki, Katibəylə heç vaxt yalın-yalxı döşəmənin üstündə, pərən-pərən səpələnmiş kitabların, jurnalların arasında sevişməyiblər.

Ayağa durub qolunu Allanın boynuna dolamaq istədi. Alla ehmallıca, amma qətiyyətlə geri çəkildi.

– Lazım deyil, – dedi. – Heç nəyi qaytarmaq mümkün deyil, – susdu, sonra – axır vaxtlar səni az xatırlayırdım, – dedi, – heç yuxuma da girmirdin. Telefon etmək fikrim də yox idi sənə. Amma ürəyimin hansı bucağındasa bir istək qalmışdı ki, burdan həmişəlik ayrılmaqdan qabaq səninlə vidalaşmaq pis olmazdı. Neçə dəfə sınamışam, ürəyimdə bir şey tutanda mütləq baş verir. Özün öz ayağınla gəlib çıxdın. Yəni doğrudan mənim getməyimi eşitməmişdin?

– Canımçün yox. Tamamilə təsadüfən gəlib çıxdım. Bir iş də vardı…

– Nə iş?

İstədi qırmızı maşın haqqında danışsın, sonra fikrindən daşındı. Nə danışa bilərdi axı? Nəyi izah edə bilərdi? Bu gün müxtəlif yerlərdə üç-dörd dəfə eyni maşını görüb? Nə olsun, görüb görüb də…

Bir də ki, Alla artıq heç burda, bu otaqda, bu şəhərdə deyildi, çox-çox uzaqlarda idi. Osmanla başqa bir dünyadan danışırdı elə bil…

Osman Allanın hər enişinə-yoxuşuna, hər dikinə-çökəyinə bələd olduğu bədəni haqqında düşünür və onu da düşünürdü ki, bu bədənə nə qədər bələd imişsə, bu ruha da bir o qədər nabələd imiş.

Dəli bir istək oyandı Osmanda. Divar güzgüsünü vurub sındırmaq, çilik-çilik etmək istədi ki, daha heç kəsə qismət olmasın. Amma xatırladı ki, güzgünün qırılması bədbəxtlik gətirir. Nə Allanın bədbəxtliyinə razı olardı, nə də öz bədbəxtçiliyini istərdi. Yəqin bu güzgünü, onların

məhəbbət güzgüsünü də satıb, sabah onun da müştərisi gələcək. Və bəlkə başqa bir evdə də güzgü qarşısında sevişməyi xoşlayan başqa biriləri tapılacaq.

Artıq bu boşalmış, səsləri, hənirləri susmuş otaqda keçirdiyi hər dəqiqə Osmançün işgəncə idi. Gərək olan bütün sözləri deyib qapıya tərəf yollandı. Bir daha: – Yaxşı yol, – dedi, – salamat get, orda ömrün daha uğurlu olsun, – dedi.

Hətta:

– Bəlkə haçansa, hardasa görüşdük, – dedi.

Halbuki ikisi də bilirdi; bir də heç vaxt, heç bir yerdə, heç harda görüşməyəcəklər.

Qapı açılmışdı artıq. Osman tez-tələsik Allanın alnından öpüb yeyin addımlarla pilləkanla enməyə başladı. İkinci mərtəbənin uçuq pilləsində büdrəyib az qala yıxılacaqdı. Ayağı burxuldu. Qanrılıb yuxarı baxdı. Alla hələ də qapının astanasında dayanıb ona əl edirdi. Gözlərində yaşfilan da yoxdu, gülümsünürdü.

Burxulan ayağının ağrısı bir az səngiyən kimi, yavaş-yavaş pilləkanla enməyə başladı. Yuxarıdan cırıltıyla çırpılan qapının səsini eşitdi. Qapının cırıltısı çarpayı cırıltısını xatırlatdı və əbədi ayrıldıqlarını tam mənasıyla yalnız bu anda bütün vücuduyla duydu. Onu da anladı ki, illər boyu görüşməsələr də, Alla – Katibə, Osmanın bu şəhərdə bəlkə də yeganə və son hayanı imiş.

Geri qayıtmaq, bütün təlaşlarını, qayğılarını və qorxularını Katibəyə açmaq istədi.

– Getmə, köçmə – demək istəyirdi. – Gəl evlənək, bir yerdə yaşayaq – demək istəyirdi, – ya heç olmasa bu gecə, birlikdə olaq, kitabları sərək altımıza, qəzetləri çəkək üstümüzə, bir-birimizə sarılıb yataq, dünyadan gizlənək.

Amma mümkün deyildi bu, özü də bilirdi. Hər şey bitib həll olunmuşdu. Heç nəyi dəyişmək mümkün deyildi. Qədərdən qaçmaq olmaz.

Taytıya-taytıya birinci mərtəbəyə çatdı, küçəyə çıxdı. Elə bil neçə il gedib gəldiyi bu küçə də dəyişmişdi, başqalaşmışdı…

Bircə buludlar tanışdı. Tanış buludlardan tanış yağış çisələyirdi.

Yağış göylərdən, buludlardan yox, Keçmişdən yağırdı.

Osman: – Sabah yeni iş yeri haqqında gərək Mikayılla məsləhətləşim, – deyə düşündü. Küçənin o tayına keçmək üçün səkidən düşdü və elə bu an döngədən sürətlə fırlayıb çıxan qırmızı limuzin onu yıxıb altına aldı, xırp dayananacan xeyli sürüdü.

*22-27 avqust 1991, Bakı. Aprel 2007, Bakı.*
*2-5 iyul 2023, «Şabran» yaradıcılıq evi*

# USTAD HAQQINDA SÖZ



Akademik Kamal Talıbzadənin – bu görkəmli elm xadiminin 100 yaşı tamam olur, amma 17 ildir ki, Kamal müəllim aramızda yoxdur. O, mənim elmi rəhbərim və ustadım olub, bu 17 il ərzində mən onu tez-tez xatırlamışam. Mənim həyatımda, bir alim kimi formalaşmağımda Kamal müəllimin böyük rolu olub. Heç bir elm adamı öz-özünə yetişmir, bir «ustadi-əzim» olur ki, səni elmin daşlı-kəsəkli yollarından keçirir, öz bilik və bacarığını səndən əsirgəmir. Kamal müəllim təkcə mənim yox, neçə gəncin elmi həyatının bələdçisi olub. Bizim və bizdən əvvəlki ədəbi nəsil (tənqidçi və ədəbiyyatçıları nəzərdə tuturam) Kamal müəllimin xeyir-duasını, qayğı və tələbkarlığını, bir ustad kimi öyüd və nəsihətlərini heç vaxt unutmur. Bir etiraf: «Bu gün Azərbaycan ədəbiyyatşünaslıq elminin orta nəslini təmsil edən elm adamlarının inkişafında akademik Kamal Talıbzadənin rolu, zəhməti, qayğısı, diqqəti olmuşdur» (İsa Həbibbəyli).

Adətən, böyük alimlərin elmdə xidmətləri haqqında düşünəndə, ilk növbədə, qürur hissi keçirirsən. Amma bu qürur hissi ilə yanaşı, bir az da çaşıb qalırsan, hardan başlayasan, necə edəsən ki, o böyük alimin gördüyü işlərin, fundamental elmi əsərlərinin heç biri unudulmasın. Kamal Talıbzadə də zəngin və çoxcəhətli yaradıcılığa malik idi.

Atası – böyük maarifpərvər ədib – Azərbaycan romantik ədəbi cərəyanının görkəmli nümayəndələrindən biri, uşaq ədəbiyyatımızın yaradıcılarından olmuş Abdulla Şaiq idi.

Türkdilli ədəbiyyatşünaslıqda ilk tənqid tarixinin yaradıcısı Kamal Talıbzadə…

Həm klassik, həm də müasir ədəbiyyatımızın ən vacib problemlərindən söz açan məqalələrin müəllifi Kamal Talıbzadə…

Ədəbi tənqidimizin müasir inkişaf meyillərini Yazıçılar İttifaqının qurultayları kürsüsündən işıqlandıran məruzəçi Kamal Talıbzadə.

Ədəbiyyat tarixçisi, mətnşünas alim Kamal Talıbzadə Ədəbiyyat İnstitutunda hazırlanan onlarla monoqrafiyanın, S.Vurğunun, A.Səhhətin və neçə sənətkarın əsərlərinin elmi nəşrinin redaktoru oldu.

Və nəhayət, Yazıçılar İttifaqında on yeddi il tənqid bölməsinin rəhbəri.

2015-ci ildə «Elm» nəşriyyatı Kamal Talıbzadənin Seçilmiş əsərlərini çap etdi (elmi redaktoru və ön sözün müəllifi akademik İsa Həbibbəyli, tərtibçi və çapa hazırlayanı Vaqif Yusifli). «Ədəbi tənqidin dünəni və bu günü», «Poeziya və nəsr», «Portretlər» bölmələrində təqdim olunan yazılar Kamal Talıbzadənin bir tənqidçi və ədəbiyyatşünas kimi tam və dolğun obrazını yaradır. Kamal müəllim haqqında yazılan məqalələrdə birmənalı olaraq hamı onu tənqid tariximizin ilk tədqiqatçısı kimi səciyyələndirir. Əsər doğrudan da bizə məlum olmayan və məlum olsa da, o qədər də geniş işıqlandırılmayan zəngin faktlarla diqqəti cəlb edir. Amma məsələ bunda deyil, Kamal müəllim sübut edir ki, Azərbaycan ədəbiyyatı təkcə əvəzsiz poeziya inciləri ilə deyil, həm də tənqidi fikir tarixi ilə də zəngin olmuşdur. Bu əsər haqqında əksər ədəbiyyatşünaslarımız və xaricdə yaşayan müəlliflər dəyərli fikirlər söyləmişlər. Görkəmli ədəbiyyatşünas Əziz Şərif yazırdı: «Kamal Talıbzadənin monoqrafiyası Azərbaycan ədəbiyyatşünaslığında ilk təşəbbüsdür ki, ədəbi tənqidi düşüncənin tarixini araşdırır». Türk alimi, professor Əhməd Cəfəroğlu da «XX əsr Azərbaycan ədəbi tənqidi» əsərini yüksək qiymətləndirir: «Rusiya idarəsi altına alınan Azərbaycanın kültür və ekonomik həyatını genişcə açıqlayan Talıbzadə, eyni zamanda, müxtəlif ədəbi sahələrdə yetişən və qələm oynadan şair, yazıçı düşünürlərə də təmas etmiş, bir növ, azəri ədəbiyyatını və fikri cəbhəsini tanıtmışdır. Əsərin ən biçimli bölümünü «Azərbaycan ədəbi tənqidinin əsas cərəyanları» fəsli təşkil etməkdədir. Kitabın ikinci hissəsi mərhum Firudinbəy Köçərliyə həsr edilmişdir. Xatirəsitək əziz olan bu dəyərli azəri ədəbiyyatçısı haqqında nə söylənsə azdır. Eyni şey müəllifin əsərində müstəqil bir yer ayırdığı Seyid Hüseyn haqqında söylənə bilər. Əsərdə bu kişini yaşatdığı üçün Talıbzadəyə haqq vermək gərəkdir. Talıbzadənin bu əsəri fövqəladə çəkici və öyrədici olmasıdır». Haqqında söz açdığım monoqrafiyada Kamal müəllim Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun tənqidi görüşlərindən söz açır, onları «burjua ziyalıları» kimi təqdim edir. Amma sonralar Kamal müəllim bu birtərəfli mövqeyini etiraf etmiş, «Azərbaycan» jurnalında çap etdirdiyi bir məqaləsində Əhməd bəy Ağayev haqqında ən dolğun və obyektiv fikirlər söyləmişdi. Özü də həmin məqalədə Kamal müəllim üzünü yaşıdları olan tənqidçi və ədəbiyyatşünaslara tutub demişdi ki, gəlin, keçmişdə olan səhvlərimizi etiraf edək. Amma heç bir etiraf eşidilmədi.

Kamal Talıbzadə ədəbi prosesin içində olan bir tənqidçi idi. Onun müxtəlif illərdə qələmə aldığı «Ədəbi tənqid: yekunlar, mülahizələr», «Ədəbi tənqidimizin hazırkı vəziyyəti bizi təmin edirmi?», «Tənqidimizin yeni mərhələsi», «Azərbaycan» jurnalı-1981», «Müasir kənd və nəsrimiz» və s. məqalələri, həmçinin O.Sarıvəllinin, İ.Əfəndiyevin, N.Xəzrinin və b. sənətkarların yaradıcılığı haqqında yazıları tənqidin ədəbi portret janrının maraqlı nümunələri kimi indi də əhəmiyyətini itirməyib. Bir halda ki, söhbət ədəbi portret janrına gəlib çıxdı, ustad tənqidçinin klassiklər və müasirlər haqqında qələmə aldığı yazıları da xatırlamalıyıq. Onun atası Abdulla Şaiq haqqında «Həmişə yadımda olan insan – A.Şaiq» yazısını götürək. Mənim fikrimcə, heç bir müəllif A.Şaiqi öz oğlu K.Talıbzadə qədər tanıda bilməzdi. K.Talıbzadə A.Şaiqin canlı, insani portretini yaradır: «Evimizin yuxarı başında onun rəsmi asılmışdır. Yağlı boya ilə yazılmış bu rəsmi istedadlı rəssam Tofiq Kərimov çəkmişdir; insafən, çox yaxşı işləyib, elə bil, özüdür, baxışı, diqqəti, əzələləri, rəngi – hər şeyi öz yerindədir, heyrət edirsən – belə də oxşarlıq olarmı? 25 il Şaiqlə bir binada, qonşuluqda yaşamış rəssamın məharətinə heyran qalırsan. Daim bir nöqtəyə baxır, mülayim və iti gözlərilə elə bil həmişəki sözlərini, fikirlərini deyir, zarafat edir, nəyə isə etirazını bildirir. Tanışlardan, qohumlardan evə gələnlər deyir: «Lap elə özüdür, adam diksinir». Həqiqətən, Şaiq indi də öz evindədir, həmişə canlıdır, həmişə öz ailə üzvləri içərisindədir». Kamal müəllimin Cəill Məmmədquluzadə, Nəriman Nərimanov, Səməd Vurğun, Məmməd Arif, Mirzə İbrahimov, Mehdi Hüseyn, Məmməd Cəfər, Mir Cəlal, Cəfər Xəndan, Mikayıl Rəfili yaradıcılığı və onların keçdikləri ömür yolu barədə qələmə aldığı portret yazıları da bu şəxsiyyətlərin sənətkar və insan obrazlarını canlandırır.

Kamal Talıbzadə, istər tənqid tarixçisi, istər ədəbiyyat tarixçisi, istərsə də nəzəriyyəçi alim kimi fəaliyyət göstərsə də, yaşadığı dövrün ədəbi prosesi ilə sıx bağlı idi. O, ilk növbədə TƏNQİDÇİ idi. Təkcə ona görə yox ki, müasir şeirin və nəsrin problemlərindən məqalələr yazırdı, bədii əsərlər haqqında rəylər, resenziyalar, məqalələr çap etdirirdi, əsas odur ki, onun təfəkkürü tənqidçi üslubu, yönü üzərində köklənmişdi. Bu heç də onun ədəbiyyat tarixçisi, ya tənqid tarixçisi, ya da nəzəriyyəçi missiyasını yerinə yetirməyinə maneçilik törətməmişdir.

Kamal Talıbzadənin vəfatından bir il sonra – 2007-ci ildə onun əzizləri – həyat yoldaşı Rəfiqə Talıbzadə və qızı Ülkər xanım, A.Şaiq Ev-muzeyinin əməkdaşı Arzu Hacızadə «Kamal Talıbzadə. Kübarlıq məktəbi» adlı bir məqalələr və xatirələr toplusu nəşr etdilər. Bu topluda çap olunan yazıların əksəriyyəti heç bir mətbuat orqanında dərc edilməyib. Kamal Talıbzadəni bir şəxsiyyət və insan kimi də tanımaq üçün həmin xatirə yazılardan bəzi parçaları nəzərinizə çatdırırıq:

## *XATİRƏLƏR İŞIĞINDA*

### **Vaqif SƏMƏDOĞLU**

*Səməd Vurğun Kamala «arxiv Kamal» deyərdi. Yəni hansısa məqalə üzərində işləyəndə, yaxud hansısa bir ədəbi əsər tarixi faktla bağlı olanda, necə deyərlər, bir arxiv materialı kimi Səməd Vurğunun böyük məhəbbətlə sevdiyi Kamalı vardı. Mənə, ya bacıma deyərdi ki, tez Kamalı yğın. Telefonda soruşurdu ki, Kamal, bu əhvalat neçənci ildə olub, bu hadisə nə vaxt baş verib, bu haqda hansı yazı, ya hansı material çıxıb. Və o saat Kamaldan müfəssəl elmi cavab alırdı və onun üçün də Kamal ayrı bir Kamal idi. Kamal onu sonsuz zəhmətkeşliyi, çox böyük savadı ilə və insani yapışığı ilə qazanmışdı. Nə deyim, bir xalaoğlu kimi, sözün əsl mənasında, Kamalın qucağında böyümüş bir insan kimi… Allah mənim Kamalıma rəhmət elsin.*

### **Təhsin MÜTƏLLİMOV**

*«Əbdürrəhimbəy Haqverdiyevin poetikası» adlı kitabım «Yazıçı» nəşriyyatından Kamal müəllimə rəyə verilmişdi. Bir gün təsadüfən küçədə rastlaşdıq. Kamal müəllim kitabım haqqında böyük ürək genişliyi ilə, fərəhlə danışdı və onu əlavə etdi ki, kitabın həcmi nəşriyyat planında göstərildiyindən xeyli artıqdır. Və bunu nəzərə alaraq, o, öz rəyində göstərmişdi ki, kitab müəllifin təqdim etdiyi şəkildə çap olunmalıdır. Kamal müəllim tövsiyə etdi, mən də onun rəyinə əsaslanaraq kitabın həcminin nəşriyyat planında artırılmasına çalışdım. Belə də oldu. Kamal müəllimin xeyirxah tövsiyəsi yerinə yetirildi.*

*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müdafiə Şurasında uzun zaman Kamal müəllim sədr oldu. Mən də həmin Şuranın üzvü idim. Bu müddətdə mən Kamal müəllimin elmə, alim adına necə böyük prinsipiallıqla, məsuliyyətlə yanaşmasının və müdafiə eləyənlərin taleyinə böyük qayğıkeşlik göstərməsinin şahidi oldum. Çox vaxt müdafiə olunan dissertasiyanın mövzusu ilə əlaqədar ya lap əvvəldə, ya da sonda öz mülahizələrini söylərdi, yeni faktlarla, təfərrüatla elmi diskussiyanın diapazonunu genişləndirərdi, dərinləşdirərdi, tamamlayardı. Onun apardığı Elmi şuralarda, demək olar ki, heç bir əsəbiliyə, gərginliyə, qərəzçiliyə yol verilməzdi. Ağayana, təmkinli davranışı və yüksək mədəniyyəti ilə hər kəsi yerinə oturmağı bacarırdı.*

*Kamal müəllim həm də məclislər yaraşığı idi. Bəzən müəyyən qonaqlıqlarda bir yerdə olurduq. Belə məclislərdə Kamal müəllimin şirin*

*söhbətləri, şux zarafatları, nəsihətləri, hətta hərdən qol götürüb oynaması hamını valeh edərdi.*

**Şirindil ALIŞANLI**

*Nizami adına Ədəbiyyat İnstitutu M.Cəfərin, M.Arifin, K.Talıbzadənin, Y.Qarayevin evi idi. Bu institutun hörmət və nüfuz qazanmasında onların böyük xidmətləri vardır. Neçə illər birgə çalışdığımız Nizami adına Ədəbiyyat İnstitutunda mən həm də Kamal Talıbzadə məktəbinin tələbəsi oldum. O, bizə Nizami İnstitutunu sevməyi öyrətdi, xalqımızı, dilimizi sevməyi öyrətdi. Adamlarla ünsiyyət qurmağın müdriklik zirvəsi idi Kamal müəllim!*

*70-80-ci illər Ədəbiyyat İnstitutunda mənim mənsub olduğum nəsil hər il yüksəlirdi. Çünki onun keşiyində Kamal Talıbzadə kimi ziyalılar dayanmışdı. Biz hər bir dərdimizi, sevincimizi onunla bölüşürdük. Ən çətin günlərimizdə onun müdrik məsləhətləri bizim karımıza gəlirdi. Moskvada təhsil aldığım illərdə ad günümdə, bayramlarda Kamal müəllimdən təbrik məktubları alırdım. Qısa, müdrik kəlamları həkk olunmuş bu məktubları əzizləyib saxlayıram.*

*Kamal müəllim sadə, ipək kimi yumşaq idi. Amma elm, sənət məsələlərində sərt, obyektiv və kəskin idi. Zəif, solğun heç bir əsərə xeyir-dua verməzdi.*

**Nizaməddin ŞƏMSİZADƏ**

*1986-cı ildə Kamal müəllimlə Qazaxıstana yubileyə getmişdik. Burada bütün Türküstan respublikalarından, Tacikistandan, Tatarıstandan nüfuzlu ədəbiyyatşünaslar toplaşmışdı. Mən orada Kamal müəllimin bir ustad kimi necə mötəbər qarşılandığının şahidi oldum. Özü yaşda və daha yaşlı alimlər onun qarşısında baş əyir və əlindən öpürdülər. Mən burada öz ustadımla bağlı unudulmaz bir qürür hissi yaşadım.*

*Kamal Talıbzadə halal adam idi. Bir dəfə onlara getmişdim. Gördüm ki, Rəfiqə xanım əlində şalvar ütüləyir. Universitetdə müəllimim olmuş Rəfiqə xanım məni görüb ərklə dilləndi: – «Nizaməddin, sən ustadına oxşama, kitab-mitaba başın qarışmasın. Çalış, çoxlu pul qazan. Görürsən, ustadın idman kostyumunda oturub, bir şalvarı var, işdən gəlib verib ki, ütülə, toya gedəcəyəm». Mən də eyni ərklə cavab verdim: – Rəfiqə xanım, Kamal müəllimin bir şalvarı var, fəqət, bu onun öz şalvarıdır. Gərək kişinin canı ilə paltarı arasında özgə ruhu dayanmasın.*

*O, biz gənclərin təkcə ustadı deyil, həm də yaxın dostu və inanılmış məsləhətçisi idi. Onsuz da çətin olan gənclik həyatımın daha ağır günlərindən biri idi. Gəzə-gəzə Akademiyadan Hüsü Hacıyevə qədər gəldik. O, mənə Abdulla Şaiqin necə çətin yaşamalarından danışdı. Ayrılanda dedi: – «Nizami, yuxarılara baxıb fikir eləmə, aşağılara baxıb şükür elə».*

**Məhərrəm QASIMLI**

*Dünyasını dəyişməzdən bir ay öncə Ədəbiyyat İnstitutuna gəlmişdi. Şöbələri bir-bir gəzib halallaşmağa gəldiyini söylədi. Hamımız onu bağrımıza basıb hər zaman yolunu gözləyəcəyimizi və yenidən görüşəcəyimizi söylədik. Ancaq o, çox böyük müdrikliklə sakit tərzdə: – «Mən bilirəm neyləyirəm», – dedi. Son olaraq illər boyu oturduğu otağa – mənim kabinetimə gəldi: – «Məhərrəm, bilirsən burada mənim nə xatirələrim qalır… Hamısını sənə əmanət qoyub gedirəm». İkimiz də kövrəldik. Boynunu qucaqlayıb üzündən öpdüm. Nə qədər qəribə olsa da, mənə körpə bir uşağı xatırlatdı. Kamal müəllim dumduruydu, apaydındı. Yenicə doğulmuş uşağın məsumluğu bütün vücudunu nura bürümüşdü. O nura hər zaman ehtiyacımız var.*

**Ülkər TALIBZADƏ**

*Kamal müəllim hələ kiçik yaşlarımdan məni çox tez-tez özü ilə işə aparardı. Kabinetində oturub onu izləyərdim. O zamanlar İnstitutun direktor müavini idi. Tez-tez qapı açılır, yanına institutun müxtəlif əməkdaşları, aspirant və dissertantları gəlir, ondan lazımi göstəriş və məsləhətlər alıb, məmnunluq hissilə gedirdilər. Söhbətlər bəzən elə maraqlı olurdu ki, mən yaşımın az olmasına baxmayaraq, onlara aludə olub diqqətlə qulaq asırdım.*

*Kamal müəllim mənim təkcə atam deyildi. O, məndə elmə həvəs oyadan, bu yolda istiqamətləndirən müdrik məsləhətçim idi. Kamal müəllim ömrünün əsas hissəsini, bütün qüvvəsini filologiya elminə və akademiyaya həsr etmişdi. Akademiya onun üçün doğma bir ocaq idi, o həyatla yaşamışam. Ona görə də Kamal müəllimi son mənzilə onun doğma Akademiyasından yola salmağımız təsadüfi deyil.*



***Vaqif YUSİFLİ***

## ♦ Poeziya



*Zöhrab MEHDİYEV*

**YELLƏ**

Boş beşiyəm, qardaşoğlu,
Varsa, qoy qəmini, yellə!
Bütövünlə işim yoxdu,
Paranı, kəmini yellə!

Möhkəm yapış əl yerindən,
Sınıq-salxaq, şil yerindən.
Daha düşüb, zil yerindən,
Bir az da bəmini yellə!

İçim yatmır, çölüm yatmır,
Necə deyim... Dilim yatmır.
Sən də demə əlim yatmır,
Tutuzdur, çəmini – yellə!

Öpüb doymuşam dərdimi,
Kəsib soymuşam dərdimi.
Dəmə qoymuşam dərdimi,
Ötər ha, dəmini – yellə!

Kim deyəcək, kim – vaxta, dur.
Udur hər şeyi, vaxt udur.

Bax, indi əsil vaxtıdır –
Yellə, di,.. əmini yellə!

## BURA SOYUQDUR

***(...Yaddaş...)***

Bura soyuqdur, İlahi –
Qızınmağa od, ocaq yox.
Bir az dincini alasan –
Sığınmağa künc, bucaq yox.

Yaman üşüyürəm... Nə var...
İçim, çölüm buz kimidir.
Ömür, ya zəhər-zəhrimar,
Ya da şit, duzsuz kimidir.

Söykəndiyim divar soyuq,
Tutduğum, əl, barmaq soyuq.
Əynimdəki şalvar soyuq,
Başımdakı papaq soyuq...

Bura soyuqdur, İlahi –
Hər yanda soyuq baxışlar.
Daha ovutmur, İlahi –
Soyuq dualar, alqışlar...

...Bir az nəfəs göndər, – yarı
İlıq olsun, həlim olsun.
Adam kimi ölüm, – barı
Sənə layiq ölüm olsun!

***

...Nə ağayam, nə də bəy,
Yox hökmündə qərarım –
Üstüm, başım toz içində,
Nökər adam, qul adamam?!
... Yox, atam... Yox,
Mən dərviş də deyiləm –
Heç deyiləm yolçu da,
Sadəcə, bir – "Yol adamam... "

... Hardan...
Hardan başlamışam – axı,
Harda bitəcəm – görəsən,
Hara uzanıram belə?!
... Eh, nələr,
Nələr keçdi məndən –
Çoxdumu pusquda duran –
Nələr gəlib-keçər hələ?!

... Dərd keçdi,
Kədər, ağrı, əzab keçdi –
Şeytan belə, iblis belə –
"Çolaq" keçdi, "çirkin" keçdi...
... Qoymadılar,
Göz açmağa – nəfəs alım –
Bezmədi ki, – axşam, sabah –
Bir yol keçən, hər gün keçdi...

"...Yol adamam..."
Keçənlərin nə vecinə –
Vallah, olan mənə olar –
Ayım keçər, ilim keçər...
...İşə bir bax,
Hələ bunlar azmış kimi –
Yıxar məni, sinəm üstdən –
Bir də...
...Bir də, ölüm keçər...

***

...Başımın üstündə,
Bacalarından tüstüsü
Burum-burum qalxan –
Alaçıq evlərin kölgəsi...
... Qulaqlarımda,
Ağır batman adamların –
Axşam, sabah dualarında
Kəşf etdiyim – Tanrı kəlməsi...

...Burnumun ucunda,
Göy üzü kimi –

Ucsuz-bucaqsız – bozkırların
Dolaşıq, qarışıq qoxusu...
...Ürəyimdə,
Hər gün, İlahi bir qadının –
"Balama bəla gələr" – deyib –
Sinəsinə sıxdığı qorxusu...

... İçimdə,
Daşı, kəsəyi – yastığı,
Otu, ələfi – yorğanı –
Ruhuma beşik – yurd yeri...
... Baxıram...
Heç vecimə də deyil –
Arxamca toz qoparır zaman –
Fırlandıqca heyyy, təkəri...

...Min illərdi yaddaşımın
O üzündən gələn "Qocaman köç"
Üstündə kürən bir uşaq –
Bir gün elə bu köç olar şələsi...
... And olsun Atam Göyə,
And olsun Anam Yerə –
Unudulmaq qədər qorxuncdur –
Sənin olanı unutmaq təhlükəsi...

***

... Addımları
Bir piano dilləri – əks-sədası
Halsız, yorğun barmaqlarda
Son akkordları – bir əsərin...
...Ovurdları
Sönmüş kraterləri xatırladır,
Elə bil, yanaqlarında püskürüb
Ən böyük vulkanı – bir əsirin...

... Bapbalaca
İçinə sığdıra bilib – hər şeyi –
Adamları, ağacları, dənizləri...
Bircə, özündən yıxılıb – darlığı...
...Heybəsinə
Yığdığı əzablarıdı – başqa heç nə –

Apaydın – çiyinlərinin yağırından
Hiss olunur, yükünün ağırlığı...

...Qarşısında
Dar, qaranlıq bir "tunel" –
Sehirli bir səs durma, gəl deyir –
Və... Əcəl oduğunu bilə-bilə...
...Qəribədir, bu adam
Əminliklə, toplayıb bütün gücünü –
Nə bir qorxu, nə bir təlaş
Gedir – sevinə-sevinə, gülə-gülə...

## ÇEVİRDİM

Bax, səndən üz çevirmədim,
Səni – üzünə çevirdim.
Yondum əyri, "çəp" yerini,
Yəni – düzünə çevirdim.

Ölçdüm boyunu... enini,
Açdım hər yerdə önünü.
İtirəndə öz yönünü,
...Çəkib – izinə çevirdim.

Dərd qatlayanda belini,
Buraxmadım ki əlini.
Yığıb təzədən külünü,
Yenə – közünə çevirdim.

Nə gizlədim, heç doymadım,
Bircə telinə qıymadım.
"Adam" olmağa qoymadım –
Səni – "Öz"ünə çevirdim!

## PAYIZ ADAM

Yenə pəncərəmdə payız ağlayır,
Yenə gözlərindən yarpaq tökülür.
(...Hardasa, uzaqda bir qız ağlayır,
Yenə duyğularım çılpaq... tökülür.)

Bu payız kiməsə son dayanacaq,
Kimsə bu payızda çıxacaq yola.
Qoşulub payıza – eh, utanacaq
Nə var – ağlayasan nə ola-ola.

Diksinir ürəyim addım səsinə,
Qapı arxasında kimdi, İlahi?!
Açma əllərini – bu payız adam
Bax, düşər ovcundan indi, İlahi!

Yenə pəncərəmdə payız ağlayır
Sıxır gözlərini – yarpaq tökülür.
Eyy, orda xəzəllə oynayan uşaq,
Bəsdi... gözlərimə torpaq tökülür!

***

...Xatırlamıram... hətta,
neçə dəfə baş verdiyini, xatırlamıram.
Amma, davamlı olaraq, bu baş verir –
Baş verir; təkrar-təkrar, dönə-dönə...

...Və bu gün də elə, bax,
əllərim, ayaqlarım, dodaqlarım – gömgöy,
təpədən dırnağacan – sümüklərim bumbuz –
Yenə də, eyni mənzərə – ölmüşəm yenə...

...Əslində öyrəncəliyəm,
Ölüb, sonra dirilmək... sonra, bir daha...
Bitdi dediyin anda, təzədən başlamaq –
Əzabdan çox bu, bir az da "əyləncə..."

...Amma, zor olacaq,
bu dəfə zor olacaq deyəsən –
(Kim bilir, bəlkə də heç olmayacaq)
Hələ heç vaxt belə ölməmişdim, məncə...

...Hər yanda... sağımda, solumda –
Adamlar... Ağaclar... Quşlar... Böcəklər...
...Hə, yanılmıram... Sən də burdasan –
Bu da, sən – "xoş gəlmisən", İlahi!

...Bağışla məni, bağışla...
Dilim qurusun, ağzım yansın, daşa dönüm.
...Hiyə qımıldamırsan, niyə susursan –
Yoxsa, sən də ölmüsən, İlahi?!

## CİBLƏRİM

...Anlamlı, ya anlamsız
( bu, o qədər də önəmli deyil)
bir qutu ölüm gəzdirirəm
hər gün ciblərimdə...
...Elə öyrəşib ki,
(təsvir etməkdə belə acizəm)
bir qutu ölümçün darıxır
hər gün ciblərim də...

...Ciblərim yorğanımdı,
(bu da hardan gəldi ağlıma?)
ciblərimə görə uzadıram ayaqlarımı,
ciblərimdə şəkillənir ovqatımın rəngi...
...Və hər dəfə də bacarıram,
(əlbəttə, bu elə də asan olmur)
bacarıram ki, uyuşsun ciblərimə
günlərimin nizamı, ritmi, ahəngi...

...Hərdən, mənə elə gəlir
(bilmirəm, bəlkə də bu belədi)
əllərim dimdiyinin sarısı üstündə
bir cüt ətcə – sərçə balasıdı...
...Yəqin, ciblərimə minnətdardı
(məncə, əllərim də bunun fərqindədi)
zarafat deyil ki, bax neçə illərdi
ciblərim əllərimin yuvasıdı...



*İbrahim YUSİFOĞLU*

## MƏN ÇƏKƏN DƏRDLƏRİ BARI SƏN ÇƏKMƏ

Mən dedim... sən gəldin... durdun önümdə,
Gözlərin çağlayan bulaq kimiydi.
Ruhumun ovsunlu bu xoş günümdə
Sən mənim ün yetməz uzaq kimiydin.

Nə qədər yaxındıq, o qədər uzaq,
Sarsıldım duyğulu baxışlarından.
Nə bir qol qaldırdın, nə açdın qucaq,
Qorxdum gözlərimin yağışlarından.

Sən ki bənəzmirdin yada, özgəyə,
Bilirdim, sən məni duyub gəlmisən.
Məni söylətməyə, söz eşitməyə,
Qəlbinin səsinə uyub gəlmisən.

Görən nə tapmısan şeirlərimdə,
Onların sevincdən kədəri çoxdu.
Elə sinəmdəki dərdlərimin də
Qədəri varsa da, hədəri yoxdu.

Daha nə söyləyim bu payız günü,
Görürsən, yarpaqlar xəzələ döndü.
Sənə deyəcəyim şeirlər indi
Yaza bilmədiyim qəzələ döndü.

Mənli duyğuları saxla özündə,
Mən bir qəm dəniyəm, qəlbinə əkmə.
Yansam da çatdığın ocaq közündə,
Mən çəkən dərdləri barı sən çəkmə.

Mən dedim,..
            Sən gəldin...
                        Durdun önümdə,
Gözlərin çağlayan bulaq kimiydi.
Ruhumun ovsunlu bu xoş günündə
Sən mənə əlyetməz uzaq kimiydin.

## HİND FİLMLƏRİ

"Hind filmi gətirib kinoçu Tağı",
Kənddə bu xəbəri hamı bilərdi.
Kino cavanlara – günortaçağı,
Axşam yaşlılara göstərilirdi.

Bilet satılmazdı, yer deyilməzdi,
Hər kəs öz yerini özü seçərdi.
Qapıda dayanan Tağı kişiyə
Hərə bir "abbası" verib keçərdi.

Darısqal, havasız kənd klubunda
Filmin nümayişi uzun çəkərdi.
İki hissə olan hind kinosunda
Hərdən lent qırılar, işıq sönərdi.

Boyda balacaydım, sözdə utancaq,
Bir az da lal-dinməz olmuşdu adım.
Ürəyim titrəyib əsirdi, ancaq,
Səninlə yanaşı oturammadım.

Salardın sinənə hörüklərini,
Gözlərim dolanıb sənə baxardı.
Hərdən baxışımız toqquşan kimi,
"Sanqam" filmində şimşək çaxardı.

"Kəşmirdə məhəbbət", "Zita və Gita",
"Avara", "Ram və Şam" sirlər açardı.
Elə vurulmuşduq nurlu həyata,
"Toz içində çiçək" ətir saçardı.

Mahnılar hindcədən çevrilməsə də,
Ritmini duyardıq, doğma sanardıq.
Bəzi ənənəmiz düz gəlməsə də,
Hər dərdə alışıb, birgə yanardıq.

Mən qapı ağzından durub baxardım,
Sənin baxış yerin adada oldu.
Son dəfə əlimi sənə uzatdım,
Qismətim bir ovuc duzlu su oldu.

İndi nə klub var, nə Tağı kişi,
“Abbası” aldığım anam da yoxdur.
Bizi ayırsa da tale gərdişi,
Həyatı sevdirən hind filmi çoxdur.

## ÇOX ÇƏTİN OLACAQ BU PAYIZ SƏNƏ

Daha sısqa-sısqa yağışlar yağır,
Yağışa qarışan qarğışlar yağır.
Qarğışa qarğıyan şimşəklər çaxır,
Yolların bürünür dumana, çənə –
Çox çətin olacaq bu payız sənə.

Sevdiyin çiçəklər, güllər solacaq,
Pəncərən önündə tüllər solacaq,
Hər solan gününə gözün dolacaq.
Saçların bələnər qırova, dənə –
Çox çətin olacaq bu payız sənə.

Bu payız gününü görəydin gərək,
Sevginə bir qəsr hörəydin gərək,
Dizinə-başına döyəydin gərək,
İndi köks ötürmə keçib-gedənə –
Çox çətin olacaq bu payız sənə.

Payız Dədə Qorqud libası geyib,
Hər ömrün payını, adını verib.
Sənəsə nə ana, nə nənə deyib,
Tənhalıq çökübdü solmuş çöhrənə –
Çox çətin olacaq bu payız sənə.

## ♦ Nəsr

*Elçin HÜSEYNBƏYLİ*

# Pərixan



♦ *Roman*

... Şah Birinci Təhmasibin sevimli qızı Pərixan xanım hər an həbs olunacağını və qaranlıq bir yerdə qətlə yetiriləcəyini gözəl bilirdi. Ona görə də Xəlil xan Əfşarın Venesiyadan gətirdiyi, qırağı naxışlı güzgünü əlinə alıb, qara tellərini darayır, öz əndamına tamaşa edir, gözəlliyindən həzz alırdı, sanki ölümdən və həyatdan acıq çıxırdı...

Evin pəncərələri qara məxmər pərdəylə örtülmüşdü, içəri qaranlıq idi və bu qaranlığı divardan asılmış bir cüt lampa işıqlandırırdı. Bu işığın fonunda Şah qızı daha cazibədar, daha sirli görünürdü. İndilərdə neft qıt idi. Çünki Allahlar Şəhərindəki mədəndə yanğınlar başlamışdı. O sarıdan da tacir karvanı ləngiyirdi. Amma Pərixan xanımın lampası yanırdı. Deməli, işini bərk tutan idi, ehtiyatlıydı...

Xəlil xan içəri girəndə Şah qızını bu halətdə gördü: sakit və huzurlu. O, Pərixan xanımın gözəl vücuduna, qu quşuna bənzər, sığallı, hamar boğazına baxıb köks ötürdü.

Pərixan xanım atlas köynəkdəydi. İçəri yarıqaranlıq olsa da, onun bütün bədəni, xırda cizgilərinə qədər aydınca görünürdü, parıldayır, göz qamaşdırırdı.

“Əvvəllər, görəsən, niyə ağlına gəlməyib ki, belə yarıqaranlıq şəraitdə sevişsinlər!” deyə Xəlil xan düşündü, hələ bəlkə ürəyində hayqırdı da.

Xəlil xanın əzalarının hamısı yerindən oynayırdı. “Bu nə halət, bu nə qamət!?” – deyə içində inildədi. Bu sevimli və sevgili xanıma necə qıysın!? Bəlkə də, ömründə ilk dəfə doğulduğu günə lənət oxudu. Heç vaxt belə vəziyyətə düşməmişdi. Düşmənlə üz-üzə qalanda, ölümlə qarşılaşanda da qorxmamışdı.

İndiyə qədər bir yerdə, bir yataqda çox olmuşdular. Bir dişləyib, iki öpüşmüşdülər...

Amma bu, başqa halət idi. Çünki sevdiyi xanımı öz əliylə o dünyaya göndərməliydi. Şərt beləydi: ya Pərixanın qara başı, ya da onun özünün...

Xəlil xan nə edəcəyini bilmirdi, bu gözəl sevgilisinə əl qaldırmağa ürək eləmirdi, amma can da şirin şeydi, axı. Olmasın Pərixan xanım, olsun Güllücahan. Onun da gözəllikdə tayı-bərabəri yox idi... Bəs sevgi, bəs verdiyi vədlər? Kişiyə yaraşan iş deyildi.

Pərixan xanım onun bu tərəddüdlərini yaxşı başa düşürdü. Ona görə də asta səslə, az qala pıçıltıyla dedi:

– Ürəyin sıxılırsa, pərdələri açım.

– Yox, – Xəlil xan dəli kimi qışqırdı. Sanki rəssamın naturadan çəkdiyi gözəlin yerini dəyişməsinə acıqlanırdı. – Yox, yox, dəymə! Belə yaxşıdır, – dedi və bir daha Şah qızını ehtiraslı baxışları ilə süzdü, udqundu və özünü itirmədən, həm də bu gözəlliyə təslim olmamaq üçün xanıma əmr elədi, ancaq sözlərinə bir şirinlik də qatdı:

– Geyinin, nəvvab xanım, sizi cənnət qapısındakı mələklər gözləyir.

"Nəvvab e!" – Pərixan xanım ürəyində fikirləşdi, hətta qımışdı da. Başqa adam olsaydı, Xəlil xan bu xoş sözlərdən vaz keçərdi. Çünki dişi canavara bənzəyən Xeyrənnisə bəyimin – Məhdi Ülyanın qətlinə fərman verdiyi ev dustağıyla bu cür davranmaq olmazdı. Amma "sevgilim" də demədi. Ona görə də Pərixan xanım bir anlığa sarsıldı və sarsıldığını göstərməmək üçün gülümsündü...

Xanım da ki, nə xanım. İki göz istəyirdi ki, xətti-xalına, gül camalına tamaşa eləsin. Sanki nağıllardan düşüb gəlmişdi. Ağzı o qədər balacaydı ki, iki badam yerləşməzdi, beli elə incəydi ki, bir badam yesəydi, boylu görünərdi, saçları o qədər uzun idi ki, çiməndə on iki kəniz onları yuyardı. Bədəni o qədər şəffaf və sığallıydı ki, adamın əli sevinərdi, gözləri elə iriydi ki, ona baxıb daranmaq olardı.

Mən sanki indi, bu saat kənardan durub ona baxıram. Hələ bəlkə bunu sizin xətrinizə edirəm. Əlimdə də kamera var və gördüklərim kameranın yaddaşına yazılır. Bu mənzərəni təsəvvürünüzdə canlandıra bilirsinizmi?

Əlimdə əlac olsaydı, yəni bacarsaydım, hələ sizə bir gözəlləmə də oxuyardım, sonunu isə "Ruhani" üstündə bir kədərli havaya çevirərdim...

İnanıram ki, başqa vaxt olsaydı, Xəlil xan da bunu can-başla edərdi. Amma can şirin şeydi...

Pərixan xanım zərif boynunu qu quşu kimi irəli uzatdı. Onun boynu indi qıldan da zərif idi. Ağappaq sinəsi atlas köynəyinin altından qabarır, çəhrayı giləli məmələri köynəyi deşib çölə çıxmaq istəyirdi. Bax, indi mən deməyim, siz deyin: Xəlil xan başı daşlı burda neyləməliydi? Bu gözəllikdə qadını necə öldürəydi və dünyanı göz qamaşdıran, işıqlandıran bu yaqutdan necə əl çəkəydi?

Tarix onu lənətləməzdimi? Şəxsən mən lənətləyərdim... Ona görə hələ bir az da yaşamasını istəyirəm və hadisələrin istiqamətini istənilən tərəfə yönəltməyə hazıram. Qoy, bu gözəllər gözəlinə qıymadığıma görə məni qınasınlar. Amma...

Amma hər şey mənim qələmimdən asılı deyil. Tale amansız, tarix saxtadır...

Baxalım görək, hadisələrin gedişatı nəyi göstərəcək. Tale gijik uşaqlar kimi harda qarşımıza çıxıb yolumuzu kəsəcək, bizi tutduğumuz yoldan döndərəcək...

Pərixan da Pərixandı ha! Özü də o, elə-belə qadın deyildi. Şahın sevimli qızıydı. Ərdəbil şeyxindən dərs almış, öncəgörməni, əfsunu, hətta cadunu da bilən naibüssəltənə idi. Yəni səltənətin naibi, vəkili. Bəlkə elə qələmimi o tərəf-bu tərəfə fırladan, hadisələri başqa səmtə yönəldən onun yüz illərdən bəri bizə tərəf gələn baxışlarıydı. Əgər fizikaya, nücum elminə inansaq, ulduzlar bizə keçmişin gözüylə baxa bilirlər və həmin gözlərdə əcdadlarımızın da işığı var. Çünki bizdən qabaq əbədiyaşar ulduzları görüblər, hələ sevişiblər də, yəni aralıdan-aralıya bir-birilərinə göz vurublar. Sizi bilmirəm, ancaq mən ulduzlara göz vurmağı indi də sevirəm. Elə bilirəm ki, onlar dünyanın ən yaraşıqlı xanımlarıdır. Ağ elədim, deyəsən. Qoy, bildiyim işlərdən, nəsnələrdən danışım. Mollalardan ayıbdır...

Xəlil xan o zaman bunu bilmirdi, ancaq fəhmlə duyurdu...

Əlbəttə, can şirin şeydi... Bu məsələdə mübahisənin yeri deyil...

Xəlil xanı gözləyən qorçular bayırdaydılar, içəri girməyə cürət eləmirdilər, hətta bu, ürəklərindən keçsə də, Xəlil xanın əmrindən çıxa bilməzdilər. Onlar gözəlliyi dillər əzbəri olan Pərixan xanıma son dəfə baxmaq istəyirdilər. Çünki bir azdan qırmızı paltarlı cəlladlar onun başına qırmızı torba keçirib aparacaq, ya da qonşu otaqda, qaranlıqda qətlə yetirəcəkdilər. Qaranlıqda qətlə yetirəcəkdilər ki, nə öldürüləni görsünlər, nə də özlərini göstərsinlər... Özü də boğub öldürəcəkdilər.

Şah övladı (şahzadə) adi rəiyyət, cani deyildi ki, başını üzələr, qanını axıdalar, onu yalnız boğa bilərdilər. Özü də qaranlıqda və hökmən gözləri bağlı halda.

Pərixan xanım cəllad da görmüşdü, onun qurbanını da. Bir çoxunu özü cəllad əlinə vermişdi. Bununla belə, Xəlil xanın əmrini qulaqardına vurdu, kinayəli şəkildə gülümsədi.

Əslində, Şah qızı ölümdən qorxmurdu. Taleyinə nə yazılıbsa, odur. Biz bilməsək də, Ərdəbil şeyxindən dərs almış Pərixan xanım bunu bilirdi. Özü də ölümdən yox, qaranlıqdan qorxurdu. Zatən, qaranlıq ölüm kimidir...

Necə deyərlər, xanı-nökəri burda qoyaq, qayıdaq şahzadə qızın yanına. Onun gözəlliyi mənim bu cızma-qaramdan ötədir...

Çöldəki bağçada bir bülbül ötdü, sonra səsi kəsildi. Pərixan xanımın ürəyindən keçdi ki, təki o da bir quş olaydı, buralardan uçub azad bir yerə gedəydi... Babası (atası) Təhmasib onu əzizləyəndə "ay mənim sərçə balam" deyirdi.

Bu sözləri yadına salıb, ürəyində təkrar edə-edə sevgilisinə baxdı.

Onlar əmizadəydilər. Xəlil xan Pərixan xanımın əmisi nəvəsiydi, həm də onun Qeyri-rəsmi lələsi, yəni hamisi hesab olunurdu. Aralarındakı yaş fərqi də elə böyük deyildi. Xəlil xan ondan üç sənə tez doğulmuşdu.

Gözəllər gözəli saçlarını arxadan yığdı, üzünə müti görkəm verib soruşdu:

– Bəlkə sənə bir fincan çay verim, başımın tacı? Tacirlər Çindən yenicə gətiriblər.

Şah qızı "gətirsinlər" demədi. Bu demək idi ki, xana özü qulluq eləmək istəyir.

Xəlil xan susdu və bir azdan yarıtəşviş, yarıricayla dilləndi:

– Geyinsən yaxşıdır, qorçular çöldə gözləyirlər.

Naibüssəltənə Xəlil xana ürkək baxışlarla baxdı və anidən onun qarşısında diz üstə çökdü:

– Sən buna necə qıya bilərsən? Axı mən səni qəlbim qədər sevirəm. Ölənə qədər sənə sadiq qalacağıma söz verirəm. Əziz babamın ruhu haqqı!

Xəlil xan susdu. Əsəbi şəkildə var-gəl elədi.

Pərixan isə nəvazişli sözlərinə davam edirdi:

– Mən bir bədbəxt şah övladıyam. Mənim gülüzlü babam həmişə sənə və doğmalarına, əzizlərinə yar olub, xan! Onun sevimli balasına qıyacağını, nəfəsini kəsəcəyini, ömrünü yarımçıq saxlayacağını zənn etmirəm. Əgər belə olacaqsa, onda sənə bir sirr açmalıyam...

Pərixan bu sözləri deyib ayağa qalxdı, Xəlil xana sınayıcı nəzərlərlə baxdı, hələ ala gözlərini süzdürdü də.

Xəlil xanın üzü üzlər görmüşdü, əmisi nəvəsini də yaxşı tanıyırdı, dərisi mərmər kimi ağappaq olsa da, necə deyərlər, dabbaqda gönünə bələd idi. Ona görə də Pərixan xanımın bu sözlərindən canına üşütmə düşdü, qorxan kimi oldu. Arada sirr vardısa və onu əmizadəsinə demək fikrinə düşmüşdüsə, deməli ya onu sınayırdı, ya da hansısa oyuna salmaq istəyirdi. Oyunbaz Pərixan xanım sirrini, bəlkə də, o dünyaya aparmaq istəmirdi. Şeytandan hər nə desən gözləmək olardı.

Xanın dizləri boşaldı, bədənindən gizilti keçdi. O boyda azman kişi, az qala, yumağa döndü. Bununla belə, özünü ələ ala bildi, qara bığlarını sığallayıb:

– Nə sirr? – deyə ötkəmliklə soruşdu, amma səsinin titrəməsi də gözdən yayınmadı.

Şah qızı çoxmənalı şəkildə susdu, başını aşağı salıb dayandı. Xəlil xanın qorxusundan ürəyi ağzına gəldi, az qaldı ki, əmisi nəvəsinin qarşısında diz çöküb yalvarsın ki, o sirr nədirsə, ona deməsin. Amma Pərixan xanım onu işvə ilə süzüb, asta və ehtiraslı səslə pıçıldadı:

– Sirri sənə desəydim, sirr olmazdı ki. Mən deyəcəyim sirdən də ötədi...

Xəlil xan indi daha çox qorxdu, amma sevdiyi xanıma diqqətlə baxanda tamam ayrı bir şey hiss elədi.

Pərixan xanımın qara zülfü ağappaq, yumru çiyinlərinə tökülmüşdü və qara ilan olub Xəlil xanın boğazına dolanırdı... xan boğulurdu... Bu gözəlliyin qarşısında tab gətirmək hər kişinin işi deyildi...

...Bu söhbət xeyli sonra olmuşdu. Ona qədər isə...

* * *

– Deyirsən, yəni?..

Xəlil xan Əfşarın sözü ağzında yarımçıq qaldı. Pərixan xanım onun sözünü kəsdi:

– Mən indicə onun yanından gəldim. Şah babam ölümünə inanmır. Elə hesab edir ki, bu hal da keçib gedəcək, yenidən günəşli günlərə qayıdacaq. Tez-tez sayıqlayır. Hərarəti çox yüksəkdir, nə qədər dava-dərman eləsələr də,

qızdırması düşmür. İki il öncə də bu vəziyyətə düşmüşdü, amma axirət qapısından geri qayıtmışdı. İndi də ona ümid edir.

Xəlil xan onu diqqətlə dinləyir və kəlmə başı "elədir, nəvvab xanım, elədir", – deyirdi.

Pərixan isə söhbətinə davam edirdi:

– Ötən dəfə bilirsən bizə nə demişdi? Uzun sürən yuxudan ayıldı və dedi: "Mən ölməyəcəm. Babamı gördüm. Cənnət bağında alma ağacının dibini belləyirdi. Məni yanına çağırdı. Getdim, amma üzünü görmədim, eləcə kölgəsini sezdim, fəhmlə kimliyini duydum. Mənə lütfkarlıq göstərdi. Söylədi ki, xanədanı qoruduğuna görə üzün ağ olsun. Mənim də, babalarımızın da ruhu şaddır. Bu almadan birini ye və cənnətin ən yüksək məqamına yetiş. Özün də nə diləmək istərsən, dilə." Mən də cavabında dedim: "Məqamı uca babam, izn ver, geri qayıdım. Hələ görülməmiş yarımçıq işlərim var." O da mələklərə əli ilə işarə elədi ki, məni aparıb geriyə yola salsınlar. Onlar da məni axirətin iri darvazasından çıxardılar. Bax, mən qayıtdım. İndi burdayam, yenidən tac başımda, taxt altımdadır!"

Amma bu dəfə başqa cürdü. Babamın baş aşpazı Bavarçıoğlu onun sevdiyi döyğanı (dovğanı) bişirib gətirmişdi. Nə illah elədimsə, babam bir qaşıq da içmədi.

Mən ona:

– Baba, Şeyx Nizaminin xoşladığı döyğanı gətirmişəm, bircə qaşıq içsənə, – deyə qulağına pıçıldadım, amma o, heç gözlərini də açmadı. Mənə elə gəlirdi ki, o, çox sevdiyi Nizaminin adını eşitcək, ayağa duracaq. Amma belə olmadı.

Xəlil xan Əfşar təəssüflə başını buladı.

Pərixan xanım davam elədi:

– Babam ölümünə inanmasa da, təbiblər başqa fikirdədir. Həkimlər babamdan qan almaq istədilər, amma heç nə çıxmadı. Qanı donub, sanki. Özüm də neçə gündür dalbadal pis yuxu görürəm. Babamın getdiyi yol qapqaranlıqdır, sonu da görünmür.

Həkimbaşı Əli bəy də sonuncu dəfə qibleyi-aləmin nəbzini bir neçə dəfə yoxladı. Qulağını sinəsinə qoyub bir xeyli dinlədi, sonra başını qaldırıb bizə baxdı. Onun gözlərində heç bir ifadə yox idi. Başa düşdüm ki, bu dəfə Əzrayıl saraydan əliboş getməyəcək. Ulu babamız da bu işdə yardım edə bilməyəcək...

Onlar söhbət edə-edə gəlib Səadətabad bağının sonuna çatdılar, ətrafda gəzişənlər onları görməsin deyə, yenidən geri qayıtdılar.

Pərixan isə dil boğaza qoymur, hüdüləyib tökürdü:

– Bilirsən məni narahat edən nədir? Babam özünə gələndən sonra əli ilə işarə elədi ki, hamımız çıxaq, bircə kiçik qardaşımız Heydər Mirzədən başqa. Təsəvvür edirsən? – Xəlil xan başı ilə təsdiqlədi. – Mən ondan ehtiyat edirəm ki, babamız öz tacını sevimli oğlunun başına qoyar, çünki uşaqlıqdan onu öz yanında gəzdirir.

İnzibati işlərin də hamısını ona tapşırıb. Dəftərxana, möhür, sənədlər onun əlindədir, xəzinəyə də əli çatır. Ancaq bir şeydən rahatam ki, şah babamız huşa gedib, dili söz tutmur, çətin ki, belə bir iş tutsun. Amma...

– Nə amma? – deyə Xəlil xan suallı baxışlarla Pərixan xanımı süzdü.

– Vəsiyyətnamə ola bilər, onu isə heç kim görməyib. – Bir az susub əlavə elədi:

– Mən ona acıqlanıram ki, sevimli qızı və naibüssəltənə mən ola-ola, həm də böyük oğlanlar dura-dura, taxt-tacı niyə kiçik oğluna versin? Ona görə ki, şahımızın hər sözünə əməl edir, cavab qaytarmır? Bu cür adamlardan həm qorxuram, həm də zəhləm gedir. Onlar hər addımda sənə xəyanət edə bilər. Mənim öz sözü olmayan, dadsız, qoxusuz adamlardan zəhləm gedir.

– Mənim də, – deyə Xəlil xan Şah qızının monoloquna müdaxilə elədi.

Pərixan xanım qızılgül koluna tərəf əyildi, qızılgülü iyləyib sözünə davam elədi:

– Görürsən nə gözəl qoxusu var. Ona görə də adı qızıl güldür, özü də qıpqırmızıdır, qan kimi. Bu işlərin sonu qandır. Tələsmək də, gecikmək də ölümə bərabərdir... Özü də mən Heydərin hakimiyyətə gəlib, şahlıq tacını başına qoymağının əleyhinə deyiləm, amma damarlarından gürcü qanı axır. Səfəvi xanədanını və möhürünü ona etibar eləmək olmaz. Düzdü, Məhəmməd Mirzədənsə, onun hakimiyyətə gəlməsi daha yaxşıdır. Çünki Məhəmmədin qancıq arvadı Xeyrənnisə də az aşın duzu deyil, fars südü əmib və qardaşımı o idarə edir, deməli, hakimiyyəti də o idarə etmək istəyəcək. Məhəmmədin quyruq bulayanı, vəziri Mirzə Salman da bu işdə yaman çalışır. Heyif ki, bizim bəzi əmirlərimiz, elə ustaclı, şamlılardan ibarət əsilzadələrin bəziləri də onun tərəfindədir.

Susqun halda bir az gəzişdikdən sonra Xəlil xan soruşdu:

– Nə eləmək fikriniz var? Deyin, biləк. Ayağınız dəyən yerə başımı qoymağa hazıram.

Bu sözlər naibüssəltənənin xoşuna gəldi, gülümsündü və bunları söylədi:

– Bizim adamlarımız indi Hüseynqulu xanın evinə yığışıblar. Heydərin də adamları saraya yaxındılar... Bir şey pisdi ki, Heydərin özü də saraydadır... Nəsə bir iş görmək lazımdı...

– Hmm... – deyə Xəlil xan mızıldandı.

Xəfif yel əsdi və Pərixan xanımın sarı, ipək örpəyini yellətdi. Örpəyin bir ucu xanın üzünə dəydi. O, bu təmasdan xoşallandı və əlini uzadıb naibüssəltənənin örpəyini düzəltmək istədi.

Şah qızı onun bu niyyətini duydu və başını yana döndərib mərmərdən yonulmuş şir heykəlinə tərəf getdi və onun yanındakı daş kətildə oturdu, gözlərini də yumdu.

Şah qızının qulağına hardansa, lap uzaqlardan qıy vuran qartalların, şahinlərin səsi gəldi. Başını yuxarı qaldırıb baxdı. Şəhəri dövrələyən dağların başında qartallar qıy vururdu. Pərixan xanım fikirləşdi ki, həmin qartallar yerdəki ovlarını güdürlər və münasib məqamda hücum eləməyə hazırlaşırlar. İndi sarayda da vəziyyət beləydi. Hakimiyyət uğrunda mübarizə aparanlar həmin qartallara, taxt-tac isə ova bənzəyirdi. Amma elə eləmək lazım idi ki, bu döyüşdən məğlub çıxıb, daha güclülərə yem olmayasan.

Xəlil xan kənarda dayanıb Şah qızına baxır və bu gözəllikdən həzz alırdı. Bir azdan sevgilisinə yaxınlaşdı və may yeli kimi xəfifcə soruşdu:

– Nə çox fikirləşdin, olmaya nəsə gördün?

Pərixan xanım şəhadət barmağını dodağına yaxınlaşdırıb “sus” işarəsi verdi. Ayağa qalxıb yerliyi göy olan ətəyini düzəltdi, butalı qaftanının kəmərini bərkitdi, küləyin ora-bura yellədiyi örpəyini bağladı...

Xəlil xan əmrə tabe oldu və susdu. Lələ Xəlil xan olsa da, hökm sahibi Şah qızıydı. Çünki təkcə şahzadə yox, həm də səltənətin vəkiliydi...

* * *

Şah Birinci Təhmasibin sevimli qızı Pərixan xanımla Xəlil xan Səadətabad bağında gəzişə-gəzişə bu cür söhbət edirdilər. Şah qızının dərvişləri Qəzvin bazarlarını, dükan və məscidlərini, dar küçələrini gəzib şəhər əhlinin fikirlərinə qulaq kəsilirdilər. Çünki iki il öncə Şah I Təhmasibin ölüm xəbəri Qəzvinə yayılanda əhali zillələllahın ya ölüsünü, ya da dirisini görmək üçün saraya tələsmişdi, amma o zaman qorçular adamların qarşısını zorla ala bilmişdilər.

İndi Şah Birinci Təhmasib yenidən gor qapısının ağzındaydı. Bunu saraya yaxın xanlar və əmirlər bilir və öz evlərində oturub dərdləşirdilər. Onlar Şah Təhmasibdən sonra hakimiyyətə kimin gətiriləcəyini düşünürdülər.

* * *

Pərixan xanım əlindəki qızılgülü sonuncu dəfə iyləyib, belindəki qurşağına taxdı və söhbətinə davam elədi:

– Biz şahzadə İsmayıl Mirzəni hakimiyyətə gətirməliyik. Heydərdənsə o münasibdir: həm yaşca böyükdür, həm də keçmişdəki xidmətlərini danmaq olmaz. Hələ xeyli əvvəl, babam yatağa düşməzdən əvvəl öz fikrimi ona demişdim, yalvarıb dil də tökmüşdüm. O isə susmuşdu. İndi də dedim, ürəyini yumşaltmaq üçün bədahətən şeir də söylədim:

Gətir iyirmi il cəfanı çəkən fərzəndi – vəliəhdi,
Pozulmaz heç zaman onun sənə sədaqət əhdi.

– Bəs, baban nə dedi? – deyə Xəlil xan soruşdu.

– Babam danışa bilir ki!? Eləcə gözləri yaşardı, yumulu gözlərindən yaş süzüldü, – kövrək səslə dedi.

– Ancaq sən bilirsən ki, qurbanı olduğum zillələllah fərzəndinin tiryəkə qurşandığından, içki düşkünü olduğundan xəbərdardır. Ona görə də xanədanı ona etibar eləmək istəmir, – Xəlil xan belə dedi.

Söhbət 20 ilə yaxın Qəhqəhə (Ələmut) qalasında saxlanılan və “Dəli İsmayıl” ləqəbi ilə tanınan İsmayıl Mirzədən gedirdi. O, doğrudan da dəli idi. Düşmən üstünə yürüyəndə davul-kəranayla gedirdi, sanki döyüşə yox, toy-bayrama tələsir...

– Bizə də elə bu lazım deyilmi? – deyə Pərixan xanım sərt baxışlarıyla onu süzdü.

– Anlayıram, – deyə Xəlil xan yenə də dodağının altında mızıldandı.

Onlar bir müddət danışmadılar. Hərə öz aləminə qapılmışdı. Xəlil xan fikirləşirdi ki, naibüssəltənənin istədiyi adam hakimiyyətə gəlməsə, onun və tayfasının işləri fəna olacaq. Çünki əfşarlar sarayda böyük hörmət-izzət

sahibiydilər və ən vacib vəzifələr də onlara həvalə olunmuşdu, o cümlədən mühafizə xidmətinin və qorçuların da başçısı əfşar idi.

Pərixan xanım da saraydakı çəkişmələr və kimin hakimiyyətə gəlməsi barədə düşünürdü. Bu işdə nə tələsmək, nə də gecikmək olardı. Tələssən də başın gedərdi, geciksən də.

Əslində, Pərixan xanım ilk baxışdan zərif bir varlıq olsa da, hissli, duyğuluydu, "Həqiqi" təxəllüsüylə şeir də yazırdı, amma hakimiyyət məsələsində barışmaz idi. Bir neçə xarici dil bilirdi. Xarici qonaqlarla danışıqları o aparır, öz gözəlliyi və baxışları, həm də biliyi ilə onları əfsunlayır, Səfəvi sarayı üçün sərfəli müqavilələr bağlamağa nail olurdu. O, daha çox bibisi Məhinbanu sultandan dərs almış, onun tərbiyəsi altında böyümüşdü. Atası onu çox istəyirdi. Ona görə də ona nakam ölən sevimli bacısının adını vermişdi. Daim öz yanında oturdur və dövlət işlərinin idarəsində ona əmin idi, amma orasını da yaxşı bilirdi ki, vəliəhdlər zənənin hakimiyyətə gəlməsiylə barışmayacaqlar. Ona görə də ölüm ayağında olarkən Pərixanı yox, on səkkiz yaşlı Heydəri yanında saxlamışdı.

Heydər Mirzə çox yaraşıqlıydı. Bəstəboy, ağbəniz və yumrusifət idi. Qadın paltarı geysəydi, tanımaq olmazdı. Atası, Pərixan kimi, ona da dövlət və divan işlərini etibar edirdi...

Pərixan xanım əmisi oğlu Bədiüzzamana deyikliydi. Hələ uşaqlıqda onları beşikkəsdi eləmişdilər. Amma nə qız oğlana, nə də oğlan qıza yaraşırdı.

Bədiüzzaman aşıq-aşıq oynayır, kef məclislərinə gedir və əmisi qızına etina eləmirdi. Bir müddət əvvəl Pərixan atasına demişdi ki, Bədiüzzamanla nişanını pozmaq istəyir, amma şah buna icazə verməmişdi: "Yalnız mən öləndən sonra" – demişdi...

Xəlil xan Əfşar başqa məsələ. Onunla Pərixan xanımın torpağını, sanki, bir yerdən götürmüşdülər. Üzdə yumşaq, daxildə qəzəbliydilər.

Venesiyada ticarət səfiri olan Xəlil xan Pərixan xanıma dəfələrlə bahalı, gözqamaşdıran hədiyyələr gətirmişdi. Son dəfə o, Şahın sifarişiylə saraya çərçivəsi butalarla bəzədilmiş bədənnüma güzgü gətirmiş, ondan xırdasını isə Pərixan xanıma hədiyyə eləmişdi. Çoxları elə düşünürdü ki, Pərixan xanımla Xəlil xanı birləşdirən könül dostluğudur, çünki hər ikisi nəzmə bağlıydı və məclislərdə şeirlər söyləyərdilər. Əslində isə iş çox dərinə getmişdi, onlar həm də aşiq-məşuq idilər və aradabir hərəmxanada, Pərixan xanımın hücrəsində, ya da atasının bağışladığı evdə görüşürdülər. Xəlil xanın evində görüşmək olmazdı. Naibüssəltənə və şahzadə lələsinin evinə yox, lələsi onun evinə gələ bilərdi. Adət və qayda beləydi.

Pərixan xanım gözəllər gözəliydi. Mərmər kimi bədəni, geniş sinəsi və mütənasib qaməti vardı. Onun baxışları saray xanlarının qanını qaynadır, hisslərini coşdururdu.

Saray adamları Pərixan xanımdan çəkinirdilər. Çünki onun hökmünə və ağlına bələd idilər. Bəziləri onu Şeytan sayırdı. Ona görə ki, ən ağlasığmaz qərarları atası onun məsləhətilə verirdi. Pərixan xanım hər şeydən xəbərdar idi. Hətta belə deyildisə də, adamlar belə düşünürdü...

Əslində bunun əsası da vardı. Pərixan hələ uşaq olarkən anası Sultanağa xanım bərk xəstələnmişdi, tez-tez sayıqlayırdı. Deyilənə görə, xanımın canına cin dolmuşdu. Ona görə də Şah Təhmasib Ərdəbilin adlı-sanlı şeyxi Mustafanı Çehelsütuna çağırtdırmış, zövcəsini sağaltmağı ona tapşırmışdı. Şeyx həm də yaxşı loğman idi. Saray həkimləri dura-dura onun gətirilməsi bəzilərinə qəribə gəlmişdi.

Şeyx Sultanağa xanımı pərdənin arxasından müayinə edir, sorğu-suala tutur, lazım olan müalicəni yazır və daha çox otlardan istifadə edirdi.

Şah sevimli arvadının xəstələnməsindən çox narahat idi. Ona görə də bir-iki gün keçəndən sonra şeyxi yanına çağırıb, Sultanağa xanımın vəziyyətilə maraqlandı. Məlum oldu ki, xəstə bərk soyuqlayıb.

– Şah sağ olsun, xanımın vücudunda əmələ gələn nasazlıq sətəlcəm əlamətidir. Görünür, hardasa özünü bərk soyuğa verib.

Şah başa düşdü ki, Sultanağa xanım ov zamanı soyuqlayıb. Çünki ötən həftəki ovda möhkəm yağış yağmış, xanımlar və uşaqlar olan alaçığı sel yuyub aparmış və onlar yağışa düşmüşdülər. Görünür, Sultanağa xanım uşaqları qorumaq istədiyindən özünü unudub və soyuqlayıb. Ona görə də soruşdu:

– Baş hərəmin sağalması üçün düşüncələrin nədir?

– Mən onu otlarla və dava-dərmanla müalicə edə bilərəm. Ancaq lazımdır ki, lazım olan ilacları əttarbaşı və əczaxana müdiri Nurəddin Əli mənə versin.

Şeyx Mustafa ona görə şahdan bu xahişi etdi ki, həkimbaşı Əli bəy Tehrani, eləcə də əczaxananı işlədən oğlanları Nurəddin Əli və Şərif həkim onun saraya dəvət olunmasını bəyənməmişdilər. Qısqanclıq hissi hökmdar qorxusunu üstələmişdi; Həkimbaşı dura-dura, Ərdəbil şeyxinin burda nə işi vardı?

– Xub, tapşıraram, hər şey vaxtında sizə verilər. İndi isə get və rahat ol.

Şeyx onun yanından çıxandan sonra Qızılbaş hökmdarı həkimbaşı Əli bəy Tehranini yanına çağırıb tapşırdı ki, lazım olan dava-dərmanı Mustafa ağaya versin. Bu həmin Əli bəy Tehrani idi ki, Şah Birinci Təhmasib öləndən sonra dünyəvi işlərdən çəkilib ibadətlə məşğul olmuş və dərvişlik eləmişdi.

Ərdəbil şeyxinin müalicəsi, dava-dərmanı öz işini gördü və Sultanağa xanım bir neçə həftədən sonra yaxşılaşdı.

Müalicənin sonuncu günü Mustafa bəy qonaqlar üçün nəzərdə tutulan orta otaqda ayaq üstə dayanıb, Sultanağa xanımla söhbət edirdi. O vaxtlar Pərixan uşaq idi, 4-5 yaşı olardı və qonşu otaqda yatmışdı. Balaca şahzadə səsə oyandı, yatağından qalxıb onların yanına gəldi, arxada dayandı, xırdaca əllərilə şeyxin əlindən tutdu. Şeyx bu təmasdan səksəndi və dönüb geri baxanda qarşısında məsum körpəni gördü. Əyilib onun başını sığalladı və gözləri gözlərinə sataşdı.

– Nə gözəl gözlərin var? – deyə soruşdu, – elə bil uzaqdan yol gəlir.

Sultanağa xanım:

– Ya şeyx, inanmazsan ki, o, biz görmədiklərimizi görür. Bax, o çini qabı görürsən, onu mancur elçisi şaha bağışlamışdı, o da Pərixanın adına yazdırdı və indi taxçada ən başda durur. Üstündəki şəkilləri də o, bizə izah edir. Özü də onun adına yazıldığına görə əl çəkmir, tez-tez dayələrdən tələb edir ki, qabı

taxçadan götürüb ona versinlər. O da səhərdən-axşama kimi, çini qabı qucağında gəzdirə-gəzdirə öz-özünə nəsə mızıldanır, zümzümə edir.

Şeyx:

– Ona baxa bilərəm? – deyə soruşdu.

– Əlbəttə, ya şeyx.

Mustafa əfəndi çini qabı əlinə götürdü və heybəsindən lupa çıxarıb ona baxdı. Qaba xeyli göz gəzdirəndən sonra soruşdu:

– Sən burda nə görürdün, yavrum?

– Quşları və rəqs edən anaları.

– Quş hansıdır, ana hansı? – deyə uşaqdan soruşdu.

– Onlar həm ana, həm də quşdular. Əvvəlcə analar uçur, sonra balaları.

– Mələkdilər, deməli, hə?

Pərixan balaca, yumru çiyinlərini çəkdi:

– Bilmirəm. Yəqin onlar gəldikləri yerə də qayıdırlar.

– Hə, düzdü, onlar Göyə – Tanrının yanına qayıdırlar, – dedi və üzünü Sultanağa xanıma tutub:

– Şahbanuya ərz eləmək istəyirəm ki, bu uşaq qeyri-adidir. O, doğru deyir. Biz görmədiklərimizi görür. Bu qabları nadir dulusçular hazırlayıblar. O qədər zərifdirlər ki, onu yalnız özləri görə və üstündə yazılanları oxuya bilərlər. Özü də yəqin Tibet tərəfdə hazırlanıb. Güman ki, bu yazılarda bir sirr var, amma mən mancur dilini bilmədiyimə görə, nə yazıldığını deyə bilmərəm.

Sonra o, Pərixanla üzbəüz oturdu və dedi:

– Yavrum, mənim gözlərimə bax və de, orda nə görürsən?

Pərixan onun gözlərinə baxdı və müdrik qocalara məxsus təmkinlə dedi:

– Uzun yol görürəm. Bir adam yolla gedir. Sağda bulaq var, solda qaranlıq kaha.

Şeyx bildi ki, uşağın dedikləri onun özünə aiddir. Bulaq – dirilik suyu, həyatdır, qaranlıq kaha isə naməlum həyat, ya da ölüm.

– Sultanağa xanım, məndən olsaydı, bu gözəl balamız Ərdəbilə gedib sufilər ocağında dərs alardı, onun qeyri-adi duyumu var.

Bu söhbət şaha çatanda Şeyxə icazə verdi ki, bir neçə il sarayda qalıb, Pərixana dərs versin, onun tərbiyəsilə məşğul olsun.

Həmin söhbətdən sonra Ərdəbil şeyxi düz iki il sarayda qaldı və Pərixana dərslər verməyə başladı. Amma onun hansı dərslər olduğunu heç kim bilmədi...

* * *

Şah qızı ilə Xəlil xan Səadətabad bağında gəzişə-gəzişə söhbətlərinə davam edirdilər.

– Bilirsən, – deyə Pərixan xanım, ala gözlərini qaldırıb lələsinə baxdı, – qardaşım Heydərə yazığım gəlir. Mən onun ölümünü görürəm. Onun başını kəsəcəklər. Şahlıq tacını başına qoyan kimi. Heyif ondan!

Xəlil xan bu sözlərdən üşənən kimi oldu. Şah qızı bunu başa düşdü və dedi:

– Hər şey Tanrının əlində deyil. Çünki arada Şeytan var, onun da icazəsini Yaradan özü verib. İstənilən vaxt bəni-adəmin canına girib onu yoldan çıxara bilər. Heydər nəfsinin quludur. Nəfs də Şeytandan gəlmədir. Nəfsinə sahib olmayanı Tanrı cəzalandırır.

Xəlil xan Şah qızının üzünə təəccüblə baxdı və soruşdu:

– Bəs biz? Biz həmişəmi nəfsimizə hakim ola bilirik?

Pərixan xanım əfşarlı sevgilisinin nəyə eyham vurduğunu başa düşdü və dedi:

– Bu günlük bəsdi, deyəsən, söhbətimiz uzun çəkdi.

– Bir də nə vaxt görüşəcəyik? –Xəlil xan soruşdu.

– Özüm xəbər edəcəm, – deyə Pərixan xanım canalan və müəmmalı baxışlarıyla sevgilisinə baxdı.

Doğrudan da onların bir yerdə çox olması dedi-qodulara səbəb ola bilərdi. Onsuz da bu barədə sarayda gen-bol danışırdılar. Amma nəzarəti də itirmək olmazdı...

Pərixan xanım sevgilisindən ayrılandan sonra Çehelsütuna tələsdi, sarayın həyətindəki çarhovuza tökülən sudan götürüb üzünə vurdu, bir-iki qurtum da içdi. Sopsoyuq yaz suyu üzünü üşütdü, boğazını qıcıqlandırdı...

* * *

İndi isə qayıdaq ölüm yatağında olan Şah Təhmasibin yanına. Səfəvi hökmdarı 40 sütun üzərində bərqərar olan sarayında – Çehelsütundakı yatağında uzanmışdı. Güclə nəfəs alır, xırıldayırdı.

Şeyxi-əzəm başının üstündə dayanıb, astadan və təkrar-təkrar yasin surəsini oxuyurdu.

Şahın yatağının böyründə şamdan yanırdı. Dolabın üstündə çox sevdiyi Şeyx Nizaminin "İsgəndərnamə" əsəri vardi. Miniatürləri şahın şəxsi rəssamı Sultan Məhəmməd çəkmişdi. Kitabın cildi köhnəlmiş, vərəqləri saralmışdı. Şah Təhmasib adəti üzrə sevdiyi kitabların üzünü vaxtaşırı köçürtdürürdü, çünki tez xarab olurdular. Özü də bu işi, bir qayda olaraq, nəstəliqlə yaxşı davranan Ərdəbil xəttatlarına tapşırırdı.

Otağın ortasına Şəkidən gətirilmiş və şah üçün xüsusi toxunmuş ipək gəbə salınmışdı. Gəbənin mərkəzində əlində şəmşir, başında tac olan aslan təsvir olunmuşdu. O, Qızılbaş – Səfəvi dövlətinin rəmziydi. Aslanın üstündə parlayan günəş isə Qızılbaş – Səfəvi dövlətinin qüdrətini və ədalətini nümayiş etdirirdi. 1539-cu ildə Şəki xanlığı Səfəvi xanədanına birləşdiriləndən sonra qərara alınmışdı ki, Şah sarayını yalnız burda toxunan xalılar bəzəsin.

Divardan çıraqlar asılmışdı. Qorçular eşikdə keşik çəkirdi. Mühafizə xidməti əmrə müntəzir idi. Şahın oğlanları və qızları da müxtəlif vilayətlərdən xəbəri eşidib gəlmişdilər: Şiraz hakimi Məhəmməd Mirzə, Fars və Məşhəd hakimi Süleyman Mirzə, Şirvan və Lahican hakimi Mahmud Mirzə, Gəncə hakimi Əli Mirzə, eləcə də digər şahzadələr – Mustafa Mirzə, Cüneyd Mirzə, İmamqulu Mirzə, Əhməd Mirzə, Murad Mirzə. Şahın qızlarından yalnız Pərixan xanım burdaydı. Qalan qızları ya ərlərinin yanında, ya da hərəmxanada analarının hücrəsindəydilər.

Şəhər əhalisi saraya tərəf axışırdı. Qonşu kəndlərdən də Qəzvinə gələnlər vardı. Eşşəklərin anqırtısı, atların kişnərtisi, öküzlərin böyürtüsü aləmi başına götürmüşdü. Şəhərdən təzək, peyin iyi gəlirdi. Adamlar əsl həqiqəti öyrənmək istəyirdilər. Qorçular onları iki-üç ağaclıqdan saxlayır, saraya yaxın buraxmırdılar.

Mollalar Cümə məscidində oturub xütbə namazına hazırlaşırdılar. Təziyəçilər, dizçökənlər və əzadarlar dəstəsi də hazır idilər. Onlar 40 gün-40 gecə təziyədarlıqla məşğul olacaqdılar, şaha verilən ehsanla qarınlarını doyuracaqdılar. Ona görə də əsas xəbəri səbirsizliklə gözləyirdilər. Adətə görə, 40 gün ərzində evlərdə yemək bişirilmir, hamı şahın ehsanından yeyirdi.

Şah Birinci Təhmasib hərdən gözlərini açır, bulanıq gözlərilə yanındakılara baxır, amma heç kimi tanımırdı. Beyni-düşüncəsi aradabir özünə qayıdır və keçmiş həyatının fraqmentləri qan təzyiqinə uyğun gəlib-gedirdi. Güman ki, o, özbəklərlə Cam döyüşünü xatırlayır, Ərzurum yürüşünü yadına salırdı. Bəlkə də “Dəli İsmayıl” ləqəbli, Qəhqəhə qalasında dustaq kimi saxlanılan oğlunu fikirləşirdi. Hərdən nəsə demək istəyir, amma onun ağzından xırıltıdan başqa bir söz çıxmır, dodaqlarının qırağından su axır, gözləri nəmlənirdi. Həkimi Əli bəy hövsələ ilə onun ağzının və gözünün suyunu silir, bu zülmün nə vaxt bitəcəyini gözləyirdi.

Şah Birinci Təhmasib ağıllı və səriştəli dövlət başçısı olmuşdu, əli də yaxınlarının qanına bir o qədər batmamışdı, yalnız hakimiyyətə gələndən sonra ipə-sapa yatmayanları, Şeyx Səfi ocağına biət eləməyənləri cəzalandırmışdı. Hakimiyyətdə olduğu 52 ildə altı dəfə ölkə dışına yürüşə getmiş, gürcüləri ram eləmiş, osmanlılarla cəngə girmiş, Səfəvi xanədanının torpaqlarını birəbeş artırmışdı. Şəki, Şamaxı xanlıqlarını Səfəvi xanədanına birləşdirmişdi. Böyük yanğın da onun taktikası idi və qoşun geri çəkilərkən yolunun üstündəki hər şeyi yandırır, qalib gələndən sonra isə bərpa etdirirdi. Bu taktikadan onun varisləri də sonradan yararlanmışdılar. O, ilk dəfə balyeməzlərdən (kiçik toplardan) yox, böyük, qala dağıdan toplardan istifadə eləmişdi. Şəkinin “Gələrsən-Görərsən” qalasının bürcləri də ilk dəfə onların sayəsində darmadağın olmuşdu.

Şah Birinci Təhmasibin ən böyük uğuru isə Osmanlı Türkiyəsi ilə 1555-ci ildə Amasiya sülh müqaviləsi bağlaması idi. Ondan keçən illərdə Şah daha çox quruculuq işləri və dövlətin vahid sərhədlər daxilində birləşdirilməsi ilə məşğul olmuşdu. 50 ildən artıq hakimiyyətdə olan səfəvilərin ikinci hökmdarı, demək olar ki, heç bir döyüşü uduzmamışdı: nə tatarlarla, nə özbəklərlə, nə də osmanlı türkləri ilə...

* * *

Səfəvi şahı ölüm ayağında olsa da, hələ nəfəsi gedib-gəlirdi. Saray həkimlərinin hamısı burdaydı, hətta əvvəllər şahın təbibi olmuş, indi isə Şiraz hakiminin qulluğunda olan Mahmud bəy, Əbu Nəsr Gilani, Mirzə Əbülfət Təbrizi, Hüseyn Şirazi də burdaydı. Həkimlər şahın vəziyyətinin ağır olduğunu bilsələr də, tayfa başçılarına heç nə deməmişdilər. Hər şey baş təbib Əli bəyin nəzarətindəydi.

Əbu Nəsr Gilani, deyilənə görə, qəsdən səhv resept yazdığına görə şah zəhərlənib ölmüşdü, ona görə də onu saraydaca öldürmüşdülər. Əslində isə bu bir bəhanəydi. Gilani saraya gələndən sonra Heydər Mirzə ilə yaxınlaşmış, təkəbbürlü olmuşdu, saray əyanları ilə yola getmirdi...

Hökmdarın indiki vəziyyətini açıqlamaq olmazdı. Onda aləm qarışar, məshəb itərdi. Bununla belə, sarayda intriqalar başlamışdı, hər tayfa öz istədiyi adamı hakimiyyətə gətirmək istəyirdi. Təkəli və türkman tayfaları Şiraz hakimi Məhəmməd Xudabəndəni müdafiə edirdilər. Əfşarlardan da onlara qoşulan vardı. Herat və Məşhəd əsilzadələri isə bu məsələdə daha çox israrlı idilər. Ziyad xan Qacar da Məhəmməd Mirzənin hakimiyyətə gəlməsində maraqlıydı. Onların hamısına elə gəlirdi ki, zəif iradəli, gözdən əlil Məhəmməd Mirzəni idarə eləmək asandır və ondan çox şey qoparmaq mümkündür. Məhəmməd Mirzənin arvadı Xeyrənnisə bəyim də öz ərini hakimiyyət başında görmək istəyirdi. Və özü də bunu hamıdan çox istəyirdi. Çünki böyük oğul o idi. Ona görə də əsasən fars və taciklərdən ibarət tayfaların dəstəyinə bel bağlayırdı. Bu işdə Məhəmməd Xudabəndənin vəziri Mirzə Salman Cabiri baş rolda çıxış edirdi. Ancaq onlar Məhəmməd Mirzənin arvadı Xeyrənnisə bəyimi yaxşı tanımırdılar...

Qasid Şiraza xəbər aparmışdı ki, Şah Təhmasib ölüm ayağındadır və Pərixan xanım əyyaş İsmayıl Mirzəni hakimiyyətə gətirməyə hazırlaşır.

Təkəlilərin düşmən münasibət bəslədikləri rumlular Pərixan xanımın tərəfindəydilər. Şəriətə görə, zənən hökmdar ola bilməzdi. Ona görə də Pərixan xanım İsmayıl Mirzəni hakimiyyətə gətirmək istəyirdi. Elə hesab edirdi ki, Şah İsmayıl içki düşkünü olduğundan, məmləkəti də o idarə edəcək. Şamlı, əfşar və qacar bəylərinin bəziləri də onu dəstəkləyirdilər. İsmayıl Mirzə Ərzurum qalasına hücumla və İsgəndər paşanı məğlub etməsilə yadda qalmışdı. Onun döyüşkənliyi atasının xoşuna gəlirdi. İsmayıl Mirzə qorxu-hürkü bilmir və düşmən üzərinə şir kimi atılırdı.

İki il əvvəl onu Qəhqəhə qalasında öldürmək istəmişdilər. Pərixan xanım bundan xəbər tutmuş, şaha xəbər vermiş, o da qalaya mühafizə dəstəsi göndərərək oğlunu xilas etmişdi.

Şah qızı gecə yuxudaykən qara bir ilanın İsmayıl Mirzənin yatdığı otağa tərəf süründüyünü görmüş, yuxudaykən onu əfsunlamış və hövlnak ayılmışdı. O, qardaşının başında qara bir iş olduğunu düşünmüş, səhərə qədər zikr eləmiş və yalnız bundan sonra atasına xəbər vermişdi. Şah Təhmasib qızının öncəgörənliyinə inandığından, həm də oğlu İsmayıla təhlükə olduğunu duyduğundan bu işi yoluna qoya bilmiş, oğlunun qara başını qorumağa nail olmuşdu.

Heydər Mirzəni isə əsasən gürcü əsilli xanlar və ustaclı tayfası açıq müdafiə edir, başqa tayfaların söz sahiblərinin bəziləri də gizlicə dəstəkləyirdilər. Çünki Şahın kiçik oğluna bağlılığını yaxşı bilridilər, hələ bəlkə vəsiyyətnamənin olduğunu da güman edirdilər. Bu gümanı isə onlarda şahın sevimli arvadı, gürcü əsilli Sultanzadə bəyim (Tinatin) sarayda yaydığı şayiələri ilə yaratmışdı.

İndi isə keçək əsas məsələyə.

Bayaq dediyim kimi, Şah Birinci Təhmasib ölüm ayağında olarkən yalnız Heydər Mirzəni yanında saxlamışdı. Sarayda söz-söhbət gəzirdi ki, Şah həmişə kiçik oğluna etibar elədiyinə görə, yəqin ki, vəsiyyətnaməsi var və şahlıq taxtında da onu görmək istəyir. Əslində isə belə bir vəsiyyətnamə yox idi. Çünki səfəvilərin ikinci şahı ölümünə inanmırdı, elə ona görə də vəsiyyətnamə hazırlamaq fikri yox idi.

Şah yuxuya gedəndən sonra Heydər Mirzə anasının hücrəsinə gəldi.

Sultanzadə bəyim şahın baş hərəmlərindən biri kimi, hərəmxanada yox, ayrıca otaqda yaşayırdı.

Gənc şahzadə çox pərişan idi. Çünki atası ona heç bir vəsiyyətnamə verməmişdi, versəydi, bunu Şahın daim yanında olan həkimlər də görərdilər. Ona görə də vəsiyyətnamənin olmasına kimisə inandırmaq mümkün deyildi.

Heydər Mirzə əsəbindən və çıxılmazlıqdan mavi cübbəsinin düymələrini açıb-bağlayırdı. Cübbənin yaxalığı və ətəyi qızılı saplarla tikilmişdi, başındakı börk böyürə sallanmışdı. Sanki indicə onu götürüb qəzəbindən yerə çırpacaqdı. Bircə ümid yeri anasıydı. Ona görə də ara otaqları keçib, anasının hücrəsinə getdi. Sultanzadə xanımın hücrəsi sağdan ikinciydi. Qapı açılanda Sultanzadə bəyim ümumi otaqda oturmuşdu. O, oğlunu pis halətdə gördü və bir anlığa ona elə gəldi ki, şəhriyar həyata əlvida dediyinə görə oğlu belə pərişandır.

Şahzadə gəlib anasının böyründə oturdu və başını Sultanzadə bəyimin dizinin üstünə qoydu.

Sultanzadə bəyim əlinin işarəsilə kənizlərə əmr elədi ki, otağı tərk eləsinlər. Həmin vaxt kənizlər bir küncdə quraşdırılmış hanada canamaz toxuyurdular. Kənizlər otağı tərk edəndən sonra:

– Özünü kənar adamların yanında belə aparmaq olmaz. Elə bil, dəryada gəmin batıb, malların da bada gedib. Eşidib-bilən nə deyər? – deyə şahbanu oğlunu məzəmmət elədi.

– Halım ondan da pisdir, – deyə şahzadə inildədi.

Sultanzadə bəyimin ürəyi yumşaldı, oğluna acıdı və:

– Nədən pəjmürdəsən, gözəl balam, – deyə oğlunun başını sığallaya-sığallaya soruşdu.

Mirzə Heydər cavab vermədi. Anası hiss etdi ki, dizi islanır. Deməli, oğlu ağlayırdı.

– Niyə ağlayırsan? – anası yenə də nəvazişlə xəbər aldı, – bir əvvəlin bir axırı da var. Sevin ki, babanın son mənzilinin qapıları cənnətə açılır. Özünü tox tut. Gələcək şah özünü belə əlacsız və iradəsiz göstərməli deyil.

– Söhbət ondan getmir. Babam hələ sağdır, nəfəsi də gedib-gəlir.

Sultanzadə bəyim gümanının onu aldatdığını hiss elədi, amma özünü də itirmədi:

– Bu, onsuz da nə zamansa baş verəcək. Heç nə əbədi deyil. Onda de görüm, niyə belə kədərli və qayğılısan? – deyə soruşdu.

Gənc şahzadə başını qaldırıb qızarmış gözlərilə anasına baxdı və məyusluqla dedi:

– Babam mənə heç nə demədi, yəni deyə bilmədi, çünki dili söz tutmur. Vəsiyyətnamə də ortada yoxdur. Biz indi neyləyəcəyik?

Heydər Mirzə çox cavan idi, 18 yaşı vardı, idarəçiliyi bilsə də, hakimiyyətin nə olduğunu anlamırdı, anlamadığına görə də qorxurdu. Özü də şah olmaq fikrini onun ağlına anası salmışdı.

– Vəziyyətdən həmişə çıxış yolu var. Mən əvvəlcədən tədbir görmüşəm.

– Necə? – deyə Heydər Mirzə dirçəldi və ümidlə anasına baxdı.

– Özün də qorxma. İndi sən hakimiyyətə də, babana da ən yaxın vəliəhdsən. İsmayıl Mirzə Qəhrəhə qalasında dustaqdır, Məhəmməd Mirzə isə kordur və Heratdan bura gəlmək üçün qarşısında maneələr çoxdur. Sənsə burda, saraydasan və hər şey də sənin əlindədir. Hakimiyyəti ələ almağa tələs. Gözlədiyimiz dəhşətli hadisə baş verən kimi, atanın tacını başına qoyub, qılıncını belinə bağlayarsan və Çehelsütundakı xoşbəxtlik sarayında Əlahəzrət xalçası üzərində əyləşərsən.

– Mən adamları buna necə inandırım!? – deyə Heydər Mirzə qorxa-qorxa xəbər aldı.

– Çox asan, hamısı burda yazılıb. – Sultanzadə bəyim belə deyəndən sonra şahın adından yazdığı vəsiyyətnaməni qoynundan çıxarıb ona verdi.

Heydər Mirzə əlləri əsə-əsə məktubu oxudu. Vəsiyyətnamədə bu sözlər yazılmışdı: "Allahın əmri, bahadur Şah Birinci Təhmasibin buyruğu ilə bu vəsiyyətnaməni qələmə aldım: Şəhriyar, Məğribdən Məşriqə qədər səltənət sahibi babamız hamıya bəyan edir ki, tanrının əmri, peyğəmbərimizin buyruğu belədir ki, hər kəs ölümə tabedir: istər şah olsun, istərsə də rəiyyət və heç kim indiyə kimi hakimiyyəti özü ilə o biri dünyaya aparmayıb. Çünki əbədi dünyada o qədər var-dövlət, yeyib-içmək var ki, burdan əziyyət çəkib ora nəsə aparmaq lazım deyil. Həm də bu dünyada qazanılan var-dövlətin bir hissəsində haramlıq varsa, o biri dünyada hər şey halaldır. Çünki Tanrının nəzarətindədir.

Ey saray əhli, mən bu dünyadan köçəndən sonra fərzəndim Heydər Mirzəni vəliəhd elan edirəm. Onun ağlına və zəkasına inanıram. İnşəallah hər şey Tanrının əmri ilə baş verəndən sonra şahlıq tacını onun başına qoyub, biət edərsiniz. Mən bunu sizə buyururam. Çünki Peyğəmbərimiz Tanrının mənəvi elçisi, şah isə Tanrının cismani elçisidir..."

Heydər Mirzə məktubu oxuyub qurtarandan sonra sınayıcı nəzərlə anasına baxdı: yəni bu məktubu doğrudanmı, şahın şəxsi səfiri və mirzəsi, vaqiənəfis Məhəmməd xan Toxmaq Ustaclı yazıb?

Sultanzadə bəyim başı ilə təsdiqlədi və dedi:

– Bu, babanın möhürü, bu, Məhəmməd xan Toxmağınkı, bu isə Möhrdar Zülqədərin, bu da mənim. İndi isə qayıt babanın yanına və vəsiyyətnaməni xəlvətcə babanın yastığının altına qoy. O, öləndən sonra cənazə qaldırılanda elə edərsən ki, vəsiyyətnamə hamının gözü qarşısında yerə düşsün, amma sən yox, qoy onu Toxmaq xan Ustaclı götürsün. Çünki onun vəsiyyətnamədən xəbəri var. Sən götürsən, şübhələnərlər.

Şahzadə başı ilə təsdiqlədi.

– Yox, yox, – Sultanzadə bəyim tələm-tələsik dedi, – yox, yox, o da götürməsin, ondan da şübhələnərlər. Qoy Mustafa bəy götürüb oxusun. Mən ona tapşıraram. Hakimiyyətə gələndən sonra Mazandaran hakimliyini ona verərsən. Qardaşın Əli xanı da Tiflisə göndərərsən...

Heydər Mirzə hövsələsizlik edib dedi:

– İndi bu məsələlərin vaxtı deyil, ana! De görüm, bəs bu möhürlər... bu möhürlər hardandır? Doğrudanmı vəsiyyətnamə həqiqidir?

– Əlbəttə, həqiqidir. Heç şübhən olmasın, – Sultanzadə bəyim inamla dedi və oğlunun başını sığallayıb bayaqkı sözlərini təkrar elədi. – Qorxub-eləmə. Hər şey tacın başındadır. Tac başında, taxt altında oldu, deməli, hakimiyyət sənin əlindədir. Hakimiyyət xam at kimidir, onu kim birinci ram eləsə, güc də onun tərəfindədir. Hamı ona tabedir. Tacı başında görən kimi qarşında diz çökəcəklər. Ustaclılar da, türkmənlər də bizim tərəfimizdədir. Əli bəy gürcülərin sahibi-zamanıdır. Təkəlilərdən də bizə qoşulan var. Hamı da bilir ki, şəhriyar özündən sonra taxtda səni görmək istəyirdi, ürəkli ol! Baş vəzirlə də könül dostuyam, lazım olanda görüm-baxım da edirəm, – deyə Sultanzadə bəyim eyhamla bildirdi. – Baban çoxdandır o məsələlərlə məşğul olmur. Qorçulara da bir ətək qır-qızıl vermişəm, onlar da sənə kömək edəcəklər. Qiyam olsa da qorxma, çünki sarayda qalan yeganə şahzadə sənsən, cəbbəxana da, xəzinə də əlindədir. Özün bilirsən ki, yüzbaşılar da, qorçular da, mühafizə dəstəsinin üzvləri də qızıl, var-dövlət hərisidirlər. Burda havayıdan oturmayıblar ki. Elə ki taxta çıxdın, tacı başına qoydun, İsmayıl Mirzənin adamları da sənin qulun olacaqlar. Başqa əlacları da

yoxdu. Haydı...

Heydər Mirzə anasının bu sözlərinə diqqətlə qulaq asdı, bir az ürəkləndi, amma bir söz demədi. Heç nə deyəcəyini də bilmirdi. Bildiyi bir şey vardı ki, hakimiyyətə başqa adam gəlsəydi, birinci vurulan onun qara başı olacaqdı. Çünki atası hamıdan çox onu sevirdi. Deməli, onu gözü götürməyənlər, paxıllığını çəkənlər çoxdur. Hamı da hakimiyyətə can atır.

Şahzadə börkünü başına qoyub otaqdan çıxdı...

* * *

Şah Birinci Təhmasib can üstəydi. Həkimbaşı Əli bəyin göstərişi ilə hamı otaqdan çıxmışdı, yalnız Şeyx Əli orda qalmışdı və dodağının altında Yasin oxuyurdu.

Heydər Mirzə babasının yastığının yanına gəldi, əyilib atasının üzünə diqqətlə baxdı, sonra alnından öpdü və əlini xəlvətcə şəhriyarın yastığının altına saldı.Onsuz da nə şeyx-əzəm, nə də həkimbaşı gözlərini qaldırıb ona baxırdı. Gələcək şaha ağzın nədir gözünü zilləyəsən. Yalnız təzim eləməlisən.

Heydər Mirzənin kefi durulan kimi oldu və yaxşı ovqatda anasının hücrəsinə qayıtdı. O, anasının yanında oturub təəssüflə dedi:

– Babam çətin ki, sabaha sağ çıxsın.

Əslində, şahzadə öz qələbəsinə inandığından ürəyində sevinirdi.

– Allah özü kömək olsun! – deyə Sultanzadə bəyim üzünə qəmli görkəm verib dedi, – ölənlə ölməzlər.

Bu zaman qapının dalından şıqqıltı gəldi. Sultanzadə bəyim bu səsdən diksindi. Qapının arxasından qulaq asan Pərixan xanımın etibarlı və sədaqətli kənizi Zəhra idi. Ehtiyatsızlıqdan əlindəki açar yerə düşüb səs salmışdı. Bu səsdən kəniz özü

də qorxdu və tələm-tələsik xanımının hücrəsinə çəkildi. Pərixan xanım ona göstəriş vermişdi ki, gözdə-qulaqda olsun və Sultanzadə xanımın hücrəsini güdsün. Ancaq ana-bala elə yavaşdan danışırdılar ki, kəniz heç nə eşidə bilmədi, buna görə də Pərixan xanımın qəzəbinə tuş gəldi. Şah qızı əvvəlcə onu saraydan qovmaq istədi, sonradan fikrini dəyişdi. Çünki onları çox tellər bağlayırdı. İndiki zamanda isə sirri çölə çıxarmaq, başqalarının əlinə girəvə vermək olmazdı.

Heydər Mirzə anasının işarəsilə ayağa durdu və qapıya tərəf getdi, qapını açıb dəhlizə çıxdı, o tərəf-bu tərəfə boylandı, hətta dəhlizin o başına qədər də getdi, amma qapıların hamısı bağlıydı və heç bir hücrədən səs gəlmirdi.

– Orda heç kim yoxdur, – Heydər Mirzə qapını arxasınca örtərək dedi.

– Yəqin qulağıma səs gəlib, – Sultanzadə bəyim dedi.

– Yaxşı, mən gedim, – Heydər Mirzə belə deyib qapıya yaxınlaşdı.

– Get, babanı da tək qoyma.

– Babam özündə deyil, yaxşısı budur, şəhərə çıxım. Xanlara baş çəkim. Görüm onların fikri nədir?

– Hara gedirsən!? Dəli olmusan!? Səni yoldaca öldürərlər! – Sultanzadə bəyim təlaşla çığırdı. – Onların nə fikri olacaq? Fikirləri odur ki, səni taxtda görsünlər!

Heydər Mirzə dayandı. Nə deyəcəyini bilmədi. Onu, doğrudan da, öldürə bilərdilər və mühafizə dəstəsinin onu qorumağa gücü də çatmazdı. İndi şəhərdə elə qarışıqlıq idi ki, it yiyəsini tanımırdı.

Heydər Mirzə anasına baxdı. Onun gözlərindəki qorxu və təlaşı açıq-aydın gördü və dedi:

– Yaxşı, getmirəm. Amma babamın yanında yox, öz otağımda olacam.

– Yox, sən elə burda qalsan yaxşıdır, – Sultanzadə bəyim oğlunun əlindən tutub yanında oturtdu. İstəsən başını dizimin üstünə qoyub uyuyarsan, bunu istəməsən, mənim yerimdə yatarsan. Çox yorulmusan, üz-gözündən yuxu tökülür. Get yat. Qorçulara tapşıraram gözdə-qulaqda olsunlar. Dincəl ki, bir hadisə baş versə, ayıq olasan.

Heydər Mirzə otaqdan çıxanda anası onu səslədi:

– Bax ha, cariyə-zad olmasın! Hər şey yoluna qoyulandan sonra dünyanın bütün gözəlləri sənin ayağının altında olacaq.

Gənc şahzadə anasını sakitləşdirmək üçün:

– Arxayın ola bilərsən, – dedi və getdi.

Həmin vaxt Heydər Mirzənin tərəfdarları Ustaclı Hüseyn bəy Yüzbaşının evinə toplaşmışdılar. Gənc şahzadənin hakimiyyətə gəlməsini daha gerçək hesab edən başqa əsilzadələr də bura gəlirdi. Gələnlər arasında kimlər vardı, baxalım: şeyxavənd, ustaclı tayfaları, Sultanzadə bəyimin özünün, eləcə də qardaşı Əlixan bəyin gürcü qohum-əqrəbası, Məsum xan Səfəvi, Həmzə Sultan Talış, Allahqulu xan Ayçəkoğlu, şahzadə Mustafa, Bəhram Mirzənin oğlu İbrahim Mirzə.

Hüseyn bəy Yüzbaşının evi saraydan bir az uzaqda yerləşirdi. Ona görə də Çehelsütuna başqalarından daha gec çata bilərdilər. Bu isə Heydər Mirzə tərəfdarlarını narahat edirdi.

Xanlar və bəylər diz üstə oturub piyalədə Buxara çayı içirdilər. Həmzə Sultan Talışla İbrahim Mirzə tiryək aludəçiləri olduqlarından öz aləmlərində idilər. Keflərinə düşəndə "bə çeşm" deyərək başlarını tərpədirdilər. Qul-qaravaşlar, kənizlər malikanədən çıxarılmışdılar ki, heç kim onların söhbətlərinə şahidlik etməsin. Ona görə də qonaqlara Hüseyn bəy özü qulluq edirdi.

Sultan Çabuk Türkman, Qulu bəy Əfşar, möhrdar Məhəmmədqulu Zülfüqar, Mirzə Əli Sultan Qacar isə öz evlərində oturub hadisələrin hansı səmtə gedəcəyini gözləyirdilər.

Heydər Mirzəni müdafiə edənlərin sayı-hesabı yox idi. Bu məsələdə ən çox gürcü südü əmmiş əsilzadələr canfəşanlıq edirdilər. Samstxe knyazı Otar Salikaşvilinin nəvəsi, Əlixan bəy Gürcünün qardaşı şahzadə Mustafa saraya getməyi təklif edirdi:

– Biz yubanmadan saraya getməli və babamın ölümünü gözləmədən Heydəri şah elan eləməliyik.

Onun səsləndirdiyi fikir, güman ki, gürcü anası Zəhrabəyimin tədbiri idi. Bu məsələdə onu Əlixan da müdafiə edirdi.

Məsum bəy Səfəvi isə başqa fikirdəydi. O, çayından bir qurtum alıb təmkinlə dedi:

– Biz tələssək, bunu özümüzə qarşı istifadə edərlər. İsmayıl Mirzə Qəhqəhə qalasında Xəlifə Ənsar Qaradağlının etibarlı mühafizəsi altındadır, Heydər taxta çıxdıqdan sonra yeni şahın göstərişini gözləməli, onun buyruğu ilə birgə hərəkət etməliyik. Mən bilən, onu zərərsizləşdirmək çətin olmayacaq.

– Amma biz saraya çatanadək qorçular düşmənlərimizin tapşırığı ilə şahzadə Heydəri öldürə bilərlər. Unutmayın ki, qorçuların başçısı əfşar tayfasındandır və çoxu da İsmayılı müdafiə edir. – Bu fikri isə Allahqulu xan Ayçəkoğlu deyirdi.

Əli xan Gürcü ona dəstək verdi:

– Tam doğru deyirsən. Gecikmək ölümə bərabərdir. Özü də Pərixan xanımı da yaddan çıxarmaq olmaz. O, naibüssəltənədir və İsmayılı dəstəkləyir. Ən qorxulu amil də, məhz budur.

– Doğrudur. Mən də bu fikirdəyəm ki, biz həmən bu saat Hüseyn (Hüseynqulu) Xəlifənin evinə soxulmalı və İsmayılın tərəfdarları ora yığışan kimi onların hamısını öldürməliyik. Belə eləsək, xəbər saraya yayılacaq, onun yayılmasını özümüz də təşkil edərik. İşin işdən keçdiyini görən saray mühafizəçiləri qorxuya düşəcək və bizim tərəfimizə keçməkdən başqa əlacları qalmayacaq, – deyə şahzadə Mustafa çılğınlıqla onları saraya getməyə təhrik edirdi...

* * *

İsmayıl Mirzənin əsas tərəfdarları şahzadə Əhməd, Əli Mirzə Səfəvi, Əmiraslan xan Əfşar, Şiraz hakimi Məhəmməd Mirzə və digər qızılbaş əmirləri Hüseynqulu xanın evində oturmuşdular. Onlar başqa cür düşünürdülər. Hamısına da tapşırığı sarayda qalmış Pərixan xanım vermişdi. Çünki özünün hakimiyyətə gəlməyinin mümkünsüzlüyünü bilirdi. Gürcüdən olma Heydər Mirzənin taxt-tac sahibi olmasını isə qəti istəmirdi. Pərixan xanım da, İsmayıl

Mirzə də türk qadınlarından olmaydılar. Pərixanın anası Sultanağa xanımın əsli Mosuldan idi, İsmayılın anası isə Ağqoyunlu Musa bəyin qızıydı.

Hakimiyyətə haqqı çatan böyük oğul Məhəmməd Mirzə isə gözdən də zəif idi, xaraktercə də.

Dərvişlərə və əxilərə bu məzmunda məktub verilmişdi. Onlar dükan-bazarı gəzib, Pərixan xanımın dediklərini ucadan söyləyir, sanki zikr eləyirdilər: "Cənnətməkan şahın böyük oğlu olan isgəndərşanlı nəvvab Məhəmməd Mirzənin gözləri zəifdir. Onun ikinci qardaşı, ortancıl İsmayıl Mirzə övladların ən böyüyüdür. Sufigərlikdə də biz ondan başqasını tanımırıq."

Əslində Pərixan xanım anabir, atabir qardaşı, Məşhəd hakimi şahzadə Süleymanı taxtda görmək istəyərdi. Amma o, qorxaq və iradəsiz adam idi. Atası ölüm ayağında olsa da, şəhərdən heç yana tərpənməmişdi.

Pərixan xanımın qorxduğu və hesablaşdığı yeganə şahzadə Qəhqəhədə nəzarət altında saxlanılan İsmayıl Mirzə idi. İsmayıl Mirzəyə el arasında "Dəli İsmayıl" da deyirdilər. Təkcə ona görə yox ki, başıpozuq idi, həm də döyüşə dəli kimi atılırdı. Bacısı Pərixan xanımın hakimiyyətə can atmasını, həttə bəzi qızılbaş əmirlərin onu dəstəkləməsini eşidən İsmayıl Mirzə buna çox əsəbiləşmişdi: "Məgər dostlar başa düşmürlər ki, məmləkət işlərinə qadınların qarışması ölkə və şahlıq namusuna layiq hərəkət deyil? Məgər onlar bilmirlər ki, kişilərin bu xanədan qadınları ilə aşinalığı qəbih bir haldır?!"

Pərixan xanım, əlbəttə, qardaşı İsmayılın dediklərindən xəbərdar idi. Onu da anlayırdı ki, heç zaman hakimiyyəti ona verməyəcəklər. Bircə çıxış yolu vardı: taxt-taca istədiyi adamı gətirmək və onu idarə eləmək. Dəli İsmayıl ipə-sapa yatmasa da, tiryək və şərab aludəçisi olduğundan onu idarə eləmək mümkün idi. Hər halda, Pərixan xanım və tərəfdarları belə fikirləşirdilər...

* * *

Məhəmməd Mirzə Qəzvində ölümlə çarpışan babasının yanındaydı. Onun da ürəyindən taxt-taca sahib olmaq keçirdi. Bayaq dediyimiz kimi, bu istəyi onda arvadı Xeyrənnisə bəyim və vəziri Mirzə Salman yaratmışdı. O, şəhərdə adamları qızışdırır və dövlətxanaya yaxın adamlara başa salırdı ki, hakimiyyətə Məhəmməd Mirzə gəlməlidir. Çünki böyük oğul olduğuna görə vəliəhd də odur. Bu azmış kimi, Mirzə Salman əxilərə, dərviş və bazar nəzarətçilərinə də pul paylamış və tapşırmışdı ki, bunu Qəzvin əhlinə təlqin eləsinlər. Əslində, sarayda da Məhəmməd Mirzənin tərəfdarları vardı. Ancaq onlar açıq-açığına heç kimin tərəfini tutmur və hadisələrin inkişafını izləyirdilər.

Məhəmməd Mirzə də Xeyrənnisə bəyimin və Mirzə Salmanın təkidilə Qəzvinə gəlmişdi. O, yaxşı anlayırdı ki, hakimiyyətə Heydər Mirzə daha yaxındır, çünki atasının seçimi onun üzərindədir. O biri tərəfdən isə bacısı, naibüssəltənə Pərixan xanım İsmayıl Mirzənin tərəfini tutur. Bununla belə, o da canfəşanlıq edir və dəstədən geri qalmaq istəmirdi...

* * *

Nəhayət, 14 may 1576-cı ildə Şah Birinci Təhmasib son nəfəsini verdi. Qəzvin məscidlərinə, küçələrə qara bağladılar, əzan səsi şəhəri başına götürdü.

Həmin gün bərk yağış yağırdı. Şeyxi-əzəm Şeyx Əli cənazə qaldırılmazdan əvvəl göyə baxıb belə dedi: “Bahadır şahımız doğulanda da yağış yağıb, indi tanrı dərgahına qovuşanda da! Bu yağış deyil, nurdu, tanrının bəxşişidir. Ondan üzünüzə sürtün ki, ömrünüz uzun, süfrəniz bərəkətli olsun!”

Mərasim iştirakçıları əllərini göyə açıb, yağan yağışdan üzlərinə çəkdilər və ucadan: “Allah o dünyasını versin, son mənzili nurla dolsun!” – dedilər.

Şahın mafəsini 40 qorçu çiynində apardı və şəhərdən çıxana qədər dizçökənlər dəstəsi yerlərini bir-bir dəyişərək diz çökdülər. Dizləri palçıqdan gərmə bağladı. Əzadarların axıtdıqları göz yaşları yağışa qarışıb üzlərindən aşağı süzüldü, təmizləndilər. Onlar şahın mafəsini “Şah Hüseyn, Vay Hüseyn” sədaları altında müşayiət elədilər. Şeyxi-əzəm mafənin qabağında Yasin və Əl-bəqərə oxuya-oxuya yürüyür, Ərdəbildən gəlmiş sufilər isə arxada, zikr eləyə-eləyə gedirdilər.

Şah Birinci Təhmasibi şəhərin yuxarısındakı təpəlikdə yerləşən məzari-şərifdə dəfn elədilər ki, sonradan onu Ərdəbilə – Şeyx Səfi məqbərəsinə aparsınlar. İndi 40 ağaclıq yolu aparmaq olmazdı, cənazə xarab ola bilərdi.

Birinci şah Təhmasib dəfn olunduqdan sonra ehsan da yaddan çıxdı, cənazənin qalıqlarının Ərdəbilə aparılması da. Yalnız Pərixan xanım sonralar bunu həll edə bildi. Şahın nəşinin qalıqları Şeyxi-əzəmin fətvası ilə çıxarılıb qutsallanandan sonra Ərdəbilə aparıldı...

* * *

Şah Birinci Təhmasib dəfn olunan kimi həm Heydər Mirzənin, həm də İsmayılın tərəfdarları saraya doğru hərəkət elədilər.

Gecikmək olmazdı. Heydər Mirzə isə işini möhkəm tutmuş, anasının dediyi kimi eləmiş, cənazə yataqdan qaldırılanda saxta vəsiyyətnamə yerə düşmüş, Mustafa Səfəvi heç nə olmayıbmış kimi, təəccüblə onu əlinə götürmüş, o tərəf-bu tərəfinə diqqətlə baxandan, ürəyində oxuyandan sonra kağızı yuxarı qaldırıb:

– Gözünüz aydın, ağalar. Bu da vəsiyyətnamə. “Şah öldü, yaşasın yeni şah!” – deyə hayqırmışdı.

Ətrafdakılar təəccübdən və heyrətdən yerlərində donub qalmış, özlərinə gələndən sonra isə sarayda uğultu qopmuşdu...

Bu xəbər Pərixan xanıma çatanda “Bu, yalançı vəsiyyətnamədir!” – deyə öz içində bağırmışdı. Səs eləsəydi, Heydər Mirzə tərəfdarları onu bir göz qırpımındaca yox edərdilər. O biri tərəfdən isə, Şah qızı da tədbirini əvvəlcədən görmüşdü. Belə bir hadisənin baş verəcəyi ürəyinə dammışdı...

İş burasındadır ki, Vəli bəy Əfşar İsmayıl Mirzənin əsas tərəfdarlarından idi və Pərixan xanımla əlbir hərəkət edirdi. Şahzadə İsmayılı da Qəhqəhə qalasında əfşarlar qoruyurdu. Onlar yaxşı bilirdilər ki, Heydər Mirzə hakimiyyətə gəlsə, başları qurban getməli olacaq.

Qorçubaşı Sevindik bəy Əfşar da İsmayıla tərəfdar idi, çünki onunla döyüşlərdə çox olmuşdu, şahzadənin igidliyini gözlərilə görmüşdü. Arvadsifət

və yumşaq xarakterli Heydər Mirzədən hökmdar çıxmazdı. "O, nəinki arvadxasiyyət, həm də arvadsifətdir." Bunu İsmayıl Mirzəyə məktubunda Pərixan xanım yazmışdı. Bundan da başqa, Heydər Mirzəni həm qızılbaş əmirləri, həm də başqa arvadlardan olan bacı-qardaşları qısqanırdılar. Çünki böyük qardaşlar dura-dura şəhriyarın onu çox istəməsi, daim yanında gəzdirməsi, hakimiyyəti ona etibar eləməsi xoşlarına gəlmirdi. Heydər Mirzə bunu yaxşı bilirdi, anasından təlimat almışdı.

Sultanzadə bəyim təlimatlarını davam etdirirdi:

– Taxta çıxan kimi, düşmənlərini dərhal aradan götür. Əsas da Pərixandan qorx. O, çox hiyləgər və fəndgirdir.

Heydər Mirzə anasının sözünə baxdı, təxti-humayuna gəldi, atasının tacını başına qoydu, qılıncını belinə bağladı, xəzinənin açarını götürdü, eşikağası Mehdiqulu xanı çağırıb dedi ki, yüzbaşıları, qorçubaşını, saray mühafizəsinin başçısını yanına dəvət eləsin.

Deyilən vaxtda həmin adamlar təxti-humayuna gəlib diz çökdülər və Heydər Mirzəni yeni şah kimi tanıdılar.

Sultanzadə bəyim, adətə uyğun olaraq, yeni şahın – oğlunun sol böyründə oturmuşdu. Otaqdakılar ona da təzim elədilər və gözaydınlığı verdilər.

Heydər Mirzə yanına gələnlərin hamısına xeyli qızıl pul verdi. Halbuki, adətə görə saray əyanları, xanlar, əmirlər və tayfa başbilənləri də təxti-humayuna gəlməli, taxta çıxan şaha gözaydınlığı verməliydilər. Amma onlar nə tacqoyma mərasimində, nə də taxtaçıxma mərasimində iştirak eləmədilər. Ona görə də təcrübəsiz Heydər Mirzəni saya salmadılar. Yalnız ustaclı və şamlıların sarayda olan bəzi nümayəndələri gəlib yeni şaha gözaydınlığı verdilər, ətəyindən öpdülər.

Yeni şahın şərəfinə nə xütbə namazı qılındı, nə də zərbxanaya pul kəsmək üçün göstəriş verildi. Çünki bütün bunlar "yalançı" şahın heç yadına düşmürdü də.

Gənc şahzadə mühafizə rəhbəri Vəli bəy Əfşarı çağırıb, ona "xan" deyə müraciət elədi, yəni sən artıq bəy yox, xansan və belə bir göstəriş verdi:

– Vəli xan, qorçulara de ki, qapıları açsınlar və bu siyahıda olan adamları içəri buraxsınlar. Səni Kirman valisi və qorçubaşı elan edirəm.

Bu xəbər qorçubaşı Sevindik bəy Əfşara çatdı və o, saray qapılarını açmadı.

Həmin vaxt gənc şahzadə bundan xəbərsiz idi və taxtda oturub ona gözaydınlığına gələnləri qəbul edirdi. Anası Sultanzadə bəyim şahın böyründə oturmuşdu və özündən çox razı görünürdü...

Pərixan xanım bilirdi ki, sarayda qalmaq təhlükəlidir və hansısa bir yolla oradan çıxmalıdır. O, Şəki hakimi, dayısı Şamxal xanı və qardaşı şahzadə Süleymanı da götürüb yeni şahın hüzuruna gəldi, diz çöküb əlini və ətəyini öpdü:

– Başın sağ olsun, qardaşım, babam axirətə qovuşdusa da, yerində sən qaldın. Sən onun ən ağıllı və taxta layiq varisisən. Düşüncəsiz hərəkət elədiyimə, qəbahətə yol verdiyimə görə mən ağılsız qadını bağışla. Məni bağışlasan, söz verirəm ki, bütün ömrü boyu sənə qul olacam və tapşırıqlarını can-başla

yerinə yetirəcəm. Bu qara başımı istəyirsənsə, sənə qurbandır. Əgər ömür vəfa eləsə və sən izn versən, keçmiş dostluq münasibətlərimizin bərpasına çalışaram.

Pərixan xanım bununla kifayətlənmədi və qardaşının ayağını öpdü, sonra üzünü Sultanzadə bəyimə tutub:

– Sən özün də şahidsən! Əlahəzrəti taxta çıxdığına görə təbrik etməkdə və onun ayağını öpməkdə heç kəs məni qabaqlamadı.

Qardaşı Süleyman Mirzə, dayısı Şamxal da eyni hərəkəti edəndən sonra şahzadə onları öz otaqlarına göndərdi.

Ancaq Sultanzadə bəyim oğlunun bu humanistliyini bəyənmədi və qulağına bunları pıçıldadı: “Yanında ilan gəzdirmək istəyirsən? Yadında saxla ki, ilk fürsətdəcə birinci səni çalacaq!”

Heydər Mirzə anasının bu sözlərindən qorxsa da, təmkinini pozmadı, Sultanzadə bəyimin çılğınlığını qadınlığına yozdu. Ona görə də astadan dedi: “Sən dediyin ilanların yuvasını yaxşı tanıyıram. Vaxtı çatanda hamısının başını birdən əzəcəm!”

Pərixan xanım, Şamxal xan və Şahzadə Süleyman Sultanağa xanım üçün ayrılmış otağa gəldilər. Həmin vaxt şah arvadı sarayda deyildi, Pərixan xanımın Səadətabad bağına yaxın malikanəsində qalırdı. Onlar otağa girən kimi, Pərixan xanım dayısını inandırmağa çalışdı ki, saraydan çıxmaq lazımdır.

– Elə indi saraydan getməliyik. Bu iş nə qədər tez olsa, bir o qədər yaxşıdır. Qardaşım Heydər ürəyiyumşaq adamdır, özü də indi sevindiyindən göylərdə uçur, ona görə də bizi sərbəst buraxdı. Ancaq anası və ətrafındakılar onun qulağını doldura bilərlər ki, bizi öldürtsün.

Şamxal xan onun dediklərilə razılaşdı. Çünki bacısı qızının fəhminə inanırdı. Qızılbaş börkünü düzəldərək:

– Doğru deyirsən, burdan tez çıxmaq lazımdır. Ancaq necə? – deyə soruşdu.

Pərixan xanım səsində seziləcək həyəcanla:

– Orasını mənim öhdəmə buraxın, – dedi.

Pərixan belə deyəndən sonra onlar saraydan çıxmaq istədilər və çarhovuzun yanında Vəli bəy Əfşarla qarşılaşdılar. Vəli bəy Əfşar Xəlil xanın yaxın qohumuydu; əmizadəydilər, Pərixan xanımla da onun isti münasibətləri olduğunu bilirdi. Ona görə də qorçubaşının yanına qayıtdı və dedi ki, təzə şah onların saraydan sağ-salamat çıxmasına göstəriş verib.

Qorçubaşı Sevindik bəy Əfşar da onun sözlərinə inandı və hər üçü sarayı tərk edə bildilər.

– Allah amanında, – deyə Vəli bəy onları yola salarkən çoxmənalı şəkildə dedi.

Pərixanımın təklifi və təkidi ilə onlar birbaşa Hüseyn Xəlifənin evinə yollandılar.

Hüseyn Xəlifənin evi Cümə Məscidinin arxasındaydı. Məsciddən bir az o tərəfdə sıra ilə təkyələr düzülmüşdü. İslamla sufilik təriqəti iç-içəydi. Namaz qılanlar məscidə, Tanrı ilə tək qalmaq istəyənlər isə təkyələrə üz tuturdular. Allahın nəzəri də, məhz onların üstündəydi. Hər halda, şəhər əhli belə

düşünürdü. Pərixan xanım buraları beş barmağı kimi tanıyırdı. Ona görə də dayısı və qardaşını, qaragüruh görməsin deyə, təkyələrin arası ilə apardı.

Qəfil yağan leysan onları yaxınlıqdakı təkyəyə girməyə məcbur elədi. Təkyədə heç kim yox idi. Kimsəsizlik Pərixan xanımı qorxutdu. Amma bunu heç kimə demədi. Hərə bir küncə çəkilib ürəyində arzu və niyyətini zikr elədi.

Pərixan xanım gözünü yummuşdu, çöldə yağan yağışın səsinə qulaq asırdı. Şah qızı özünü uzun, sonu qurtarmayan bir yolda görürdü. Harasa gedirdi, sanki yağış onun üstünə düşmürdü və uzaqda göyqurşağı işıq saçırdı. Atası Şah Birinci Təhmasib dəfn olunanda da şıdırğı leysan tökmüşdü. Ona görə də hadisələrin gedişini yaxşılığa yozdu. İncəvara leysan tez kəsdi və onlar təkyədən çıxıb yollarına davam elədilər...

* * *

Hüseyn Xəlifənin evində olanlar qızğın mübahisə edirdilər. Bəziləri Heydər Mirzəni şah kimi tanımağı, qeyriləri əksinə, saraya gedib, onu cəzalandırmağı tələb edirdilər.

Pərixan xanım içəri girəndə, sanki qurbağa gölünə daş atdılar. Otaqdakılar özlərini yığışdırdılar və nəvvab xanıma yeriyib diz üstə oturdular, Pərixan xanım isə otağın başında, xalçanın üstündə bardaş qurub oturdu. O, İsmayıl tərəfdarlarına bir-bir baxandan sonra üzünü onlara tutub soruşdu:

– Nə fikirləşirsiniz, ağalar? Bu özbaşınalıq bizə yaraşarmı?

Hamı bir ağızdan:

– Əlbəttə ki, yox, nəvvab xanım, – dedi.

Hüseyn xəlifə hamının adından davam elədi:

– Biz sizin fikrinizi bilmək istəyirik. Çünki sizin gözəl dəhanınızdan çıxan hər bir kəlmə Quran ayəsinə bərabərdir.

– Əstəgfürullah! – Pərixan xanım salavat çevirdi və otaqdakıları bir-bir süzdü. Çünki o, bir tərəfdən İsmayıl tərəfdarlarının qətiyyətini yoxlayır, digər tərəfdən isə sirayətedici baxışları ilə onları əfsunlayırdı.

İsmayıl tərəfdarları qeyri-ixtiyari başlarını tərpədirdilər. Bu, o demək idi ki, naibüssəltənənin əmrinə tabedirlər və nə deyəcəyini gözləyirlər.

– Saraya getmək gərəkdir, – Pərixan xanım qətiyyətlə bildirdi. – Nə qədər ki, Heydəri müdafiə edən, amma Qəzvindən uzaqda olan əmirlərə və o biri xanlara xəbər çatmayıb, yalançı şahın dərsini vermək lazımdır. Heç bir vəsiyyətnamə yoxdur. Olsa da belə, o, heç nəyi dəyişmir.

Bu sözdən otaqda bir çaxnaşma yarandı, bəylər və xanlar bir-birilərinin üzünə baxdılar. Amma Pərixan xanım onları sakitləşdirmək üçün əlini qaldırıb davam elədi:

– Arxayın ola bilərsiniz. Bir də təkrar edirəm ki, heç bir vəsiyyətnamə-filan yoxdur. Mustafa Səfəvinin oxuduğu məktubu gürcü qancığı yazıb. Çünki sarayda yüz hoqqadan çıxıb. Vəsiyyətnamə oxunanda mən ordaydım. O sözlər babamın deyildi. Həm də mən babamdan vəsiyyətnamə olub-olmadığını soruşdum. O isə mənə acıqlandı və tərs-tərs üzümə baxıb: “Nə vəsiyyətnamə!? Nə sarsaqlayırsan!? Ölən adam vəsiyyət edər. Mənsə ölməyə tələsmirəm. Bəlkə siz mənim ölümümü

istəyirsiniz!?" – dedi. "Allah eləməsin, əziz babam, sadəcə, saraydakı vəziyyəti özün də yaxşı bilirsən. İndidən bir söz deməsən, aləm bir-birinə qarışar. Sən sağ olaola əmirlər hədlərini aşarlar. İndi hamı ac canavarlar kimi ağız-ağıza yatır, bir-birlərini güdür, xəbər gözləyirlər!" – söylədim. Babam isə başını balışdan qətiyyətlə qaldırıb dedi: "Ordu mənim əmrimə müntəzirdir, onların yox, hələ ki, bu xanədanın şahı mənəm!" Ona görə də Heydər Mirzə, mənim bədbəxt qardaşım yalançı şahdır və bunu əmirlərə, tayfa başçılarına çatdırmaq lazımdır. Qoy, əxilər, dərvişlər, lazım gələrsə qasidlər şəhəri gəzib bir-bir pıçıldasınlar ki, Şah yalançıdır. Qorçubaşı da bizim adamdır. Ona da demək lazımdır ki, heç kimi çölə buraxmasın. Xəlil xanla da danışmışam. Onun adamları sarayın yanındadırlar. Səadətabad bağı tərəfdə dayanıblar. Mənim əmrimi gözləyirlər.Əmirül-ümərа (əmirlər əmiri) Abdullah xan Ustaclu da bizim adamdır və söz verib ki, ordu kənarda dayanacaq.

Pərixan xanım belə deyəndən sonra ayağa durdu, Hüseyn Xəlifənin otağına yığışanlar da yerlərindən qalxdılar və təkyəyə getmək əvəzinə, hərə bir küncə sığınıb əlini göyə qaldırdı və Tanrıdan xeyir-dua istədi...

* * *

İndi isə qayıdaq Çehelsütun sarayına.

Qorçubaşıdan rədd cavabı alan Vəli bəy geri qayıtdı, şahzadənin otağına girdi və diz çöküb, dili topuq çala-çala dedi:

– Başına dönüm, şah, vicdansız qorçubaşı nə bir kimsənin saraydan çıxmasına, nə də içəri girməsinə icazə verir. Deyir ki, belə bir tapşırığı yalnız Şah verə bilər. Çünki hakimi-mütləq odur. Mən ha başa saldımsa ki, təzə şahımız var, inanmadı. Dedi ki, xanlar və əmirlərin hamısı saraya gəlib, onun şahlığını qəbul etməyənə qədər qapıları açmayacam.

Heydər Mirzə bu sözlərdən qəzəbləndi:

– Ax, namərd! – deyə qışqırdı. – Məyər mənim sənə az yaxşılığım keçib!? Məyər səni mənim xahişimlə babam qorçubaşı qoymadı!? İndi nankorluğunun bədəlini alarsan!

Təzə şah belə deyəndən sonra qeyri-ixtiyari olaraq, atasının belinə bağladığı qılıncını sıyırıb qapıya tərəf getmək istədi, ancaq anası Sultanzadə bəyim səsi eşidib qaçaraq otağa gəldi və oğlunu sakitləşdirməyə başladı. Çünki oğlunu yaxşı tanıyırdı. O, döyüşçüdən daha çox, dəftərxana işçisiydi, mirzəliyə yarayırdı. At çapmaqla, qılınc çalmaqla işi yoxuydu. Nəinki qorçubaşı, adi bir qorçu da onu ilk həmlədəcə öldürərdi. Havayı yerə el arasında ona "Qız Heydər" demirdilər ki...

Sultanzadə bəyim hövlnak:

– Sakit ol, şahım, nə hay-küydür salmısan!? Sən şahsan, özünü də şaha layiq aparmalısan. Adam öldürmək sənin işin deyil. Mühafizəçilərə əmr elə, qorçubaşının başını üzüb sənə gətirsinlər.

Şahzadə anasının sözlərini eşitdi, heç başqa əlacı da yoxuydu və üzünü sarayın qapısına tərəf tutub, mühafizə rəisi Vəli bəy Əfşarı çağırdı, amma səs gəlmədi. Onun əvəzinə qapıda dayanan iki mühafizəçi içəri girdi.

– Vəli bəy hanı!? – deyə təşvişlə xəbər aldı.

Mühafizəçilər çiyinlərini çəkdilər.

Heydər Mirzə bundan daha da qəzəbləndi, onların üstünə yüyürdü və bir-bir yaxalarından tutub bağırdı:

– Hanı Vəli bəy!?

Mühafizəçilərdən biri qorxa-qorxa:

– Biz bilmirik, şahım! O, bizə heç nə demədi və sarayı tərk elədi, – deyə mızıldandı.

– Ax, məlun! Sən də?!.. – Heydər Mirzə, sanki inildədi.

Anası oğlunun bərk qorxduğunu hissə elədi, əslində, elə özü də qorxdu. Bununla belə, oğluna təpindi:

– Ağciyər olma! Qaç hərəmxanaya, kənizlərin otağında gizlən. Mənim hücrəmə girsən, səni tapa bilərlər, amma heç kimin ağlına gəlməz ki, kənizlərin otağındasan. Əgər hərəmxanaya girən olsa, onda kənizlərlə birgə qaç.

Heydər Mirzə anasının bu sözlərinə dözməyib, arvad kimi başına döydü:

– Necə? Arvad paltarı geyim!?

– Arvad paltarı geyəndə nə olur ki? Hamısı müvəqqətidir. Saraydan çıxıb Əli dayıngilə qaç. Ara sakitləşən kimi, üzə çıxarsan.

Heydər Mirzə isə sakitləşmək bilmir və arvad kimi deyinirdi:

– Hər şey sənə görə oldu! Məndən şah olar?

– Niyə olmur ki? – deyə Sultanzadə bəyim oğlunu sakitləşdirmək istədi. – Bəs, şah kimdən olur?

Şahzadə ona qulaq asmır, otaqda var-gəl edir, əsəbdən və çıxılmazlıqdan bığlarını çeynəyirdi.

– Al geyin bu paltarı. Kənizlərdən birinin paltarıdır. Səni ələ verməzlər, çünki mənə sədaqətlidirlər, – deyə əlindəki paltarı nakam Şaha verdi. – Qorxma, biz güclüyük. Yəqin, tərəfdarlarımız indilikdə özlərini yetirərlər. Gəlməsələr, mən deyən kimi elə, qaç dayıngildə gizlən. Əgər ora da təhlükəli olsa, məscidə qaç, pənah otağında gizlən. Ora girməyə cürət edə bilməzlər...

Heydər Mirzə qorxudan tir-tir əsirdi. Heç zaman belə qorxmamışdı. Çünki həmişə atasına arxalanmışdı. İndi isə o yox idi. Ona görə də haqq dünyasında olan atasına acığı tutdu.

Bayırdan isə hay-küy səsləri gəlirdi.

O, təxti-humayundan çıxıb, hərəmxanaya qaçdı və kənizlərin otağında gizləndi.

Sultanzadə bəyim xacələrə əmr elədi ki, qapıları möhkəm-möhkəm bağlasınlar və heç kimi içəri buraxmasınlar.

Amma Heydər Mirzənin hərəmxanada hövsələsi çatmadı. O, tez-tez ordan otağına keçir, dərhal da geri qayıdırdı. Həm öz otağından, həm də hərəmxana otağının pəncərəsindən oğrun-oğrun həyətə baxırdı. Çünki hər şeydən şübhələnir və bədbəxt bir hadisənin baş verəcəyini düşünürdü. Hətta bir neçə dəfə qılıncına əl atdı ki, özünü öldürsün. Amma qılınc belində deyildi, anası qılıncı ondan alıb, öz otağına qoymuşdu. İndi qılınc davasının yeri deyildi.

Həmin vaxt Pərixan xanımın göstərişi ilə Vəli bəy Əfşarın dəstəsindən bir neçə adam, eləcə də Xəlil bəy Əfşarın tərəfdarları və şamlıların İsmayılı

müdafiə edən dəstəsi Heydər Mirzə müdafiəçilərini Səadətabad bağının yanında pusquya aldılar və hamısını qılıncdan keçirdilər. İsmayılın ən qatı tərəfdarı Qara xan Şamlı bu döyüşdə həlak oldu.

Şah qızı hərəmxananın arxa qapısının açarlarını dayısı Şamxal bəyə verdi və o da 300 çərkəzlə birgə saraya hücum elədi.

Hüseynqulu Xəlifə Rumlu da başının dəstəsilə saraya tərəf yürüdü, qorçubaşı onu tanıyıb geri çəkildi. İsmayıl Mirzənin tərəfdarları sarayın qapısını sındırıb içəri girdilər. Amma heç kimi tapmadılar. O zaman Hüseyn Xəlifə dedi:

– Hər yeri yaxşı-yaxşı axtarın. O saxtakar haramzadanı tapıb gəbərdin. Əsl şah bizim şahımızdır!

Təbii ki, Hüseyn Xəlifə "şah" deyəndə İsmayıl Mirzəni nəzərdə tuturdu.

Pərixan xanımın adamları xacələri pərən-pərən edib hərəmxanaya soxuldular. Çünki kənizlərdən biri əli ilə hərəmxananın qapısına işarə eləmişdi.

Kosasaqqal və büzüşmüş xacələr arvad kimi qışqıra-qışqıra hərəmxanadan çıxıb qaçdılar.

Bu zaman Heydər Mirzənin yerdə qalan tərəfdarları da saraya gəldilər və "Şah Heydər" deyə-deyə şahzadəni axtarmağa başladılar, lakin heç kimi tapmadılar.

Əli xan Gürcü:

– Hanı şah, şah hanı?! – deyə qışqırmağa başladı. Amma cavab gəlmədi.

Pərixan xanımın göndərdiyi başqa bir dəstə isə hərəmxana bağından içəri girə bildi. Düzünə qalsa, Pərixan xanım Heydər Mirzənin öldürülməsini istəmirdi. Sadəcə, onun hakimiyyətinə qarşı çıxırdı.

Heydər Mirzə və anası qızılbaş əmirlərinin hərəmxanaya girməsini düşünmürdülər. Lakin orasını unutmuşdular ki, indi ölüm-dirim mübarizəsi gedir. Uduzanın qara başı itlərə yem olacaq. Çünki hərəmləri də, hərəmxananı da yenidən əldə eləmək olardı, bircə taxt-tacdan başqa.

Heydər Mirzə qulluqçulara və kənizlərə qoşulub hərəmxanadan çıxdı və onlarla birgə Çehelsütunun o biri səmtinə qaçdı.

Sultanzadə bəyim oğlunu axtaran əmirlərin qarşısına çıxdı.

Hüseyn Xəlifə:

– Oğlun hardadır!? – deyə onun üstünə bağırdı.

Sultanzadə bəyim hər şeyin əldən çıxdığını bilirdi, amma Heydərin tərəfdarlarına da ümid edirdi. Ona görə də ötkəmliklə dedi:

– Səsin özünə xoş gəlməsin! Mənim oğlum indi şahdır! Nə elədiyini də yaxşı bilir! Sənə hesabat verməli deyil! Dövlət işlərinə görə saraydan çıxıb və indi şəhərdədir.

Hüseyn Xəlifə ona inanmadı, Sultanzadə bəyimi əli ilə kənara itələdi və adamlarına əmr elədi ki, qaravaş və kənizlərin arasına girib saxtakar şahı axtarsınlar.

Bu zaman hərəmxana eşikağası Əli bəy Şamlı şahzadəni məstlərindən və yerişindən tanıdı. Çünki bu məstləri kənizlər və hərəmlər yox, şahzadələr geyinirdilər, özü də belə yerimirdilər. Ona görə də şəhadət barmağını uzadıb: "Siz axtardığınız məlun bax budur!" – deyə qışqırdı.

Heydər Mirzəni axtaranlar onun göstərdiyi tərəfə yüyürdülər. Şahzadə Süleymanın qulamı Cəmşid bəy Çərkəz ayağı məstli adamın başına bürüdüyü çarşabı dartıb yerə saldı və heyrətlə bağırdı:

– Deməli, bu sənsən! Axmaq! Yalançı şah!

Heydər Mirzə qorxusundan göyərmiş, bədənini əsməcə tutmuşdu. Bəlkə də qılıncı əlində olsaydı, bu qədər qorxmazdı. Yalandan da olsa, müqavimət göstərə, heç olmasa kimisə yaralaya bilə, ləyaqətlə ölə bilərdi. Çünki əlində qılınc olmayan kişi elə arvad kimiydi. Əgər Heydər Mirzənin fikirləşməyə vaxtı və imkanı olsaydı və tarixə inansaydı, bəlkə də, salnaməçilərə yaxşıca bəxşiş verib bu biabırçı mənzərəni başqa cür qələmə almalarını xahiş edərdi. Amma ürəyiyumşaq və sadəlövh şahzadədə vaxt və baş hardandı. Heç buna imkan da verməzdilər və vermədilər də...

Cəmşid bəylə Vəlixan Yüzbaşı Rumlu nakam şahın qolundan tutub bir kənara çəkdilər. Heydər Mirzə müqavimət belə göstərmədi, çünki damarlarındakı qan donmuşdu, elə hala düşmüşdü ki, nə baş verdiyini də anlamaq iqtidarında deyildi, düşmənlərinin əlində qurbanlıq quzuya oxşayırdı.

Hüseyn Xəlifənin və Şamxal bəyin göstərişi ilə elə oradaca onun başını kəsdilər. Birgünlük şahın səsi də çıxmadı.

Heydərin tutulması xəbərini eşidən Sultanzadə bəyim oğlundan aldığı qılıncı çəkib qışqıra-qışqıra onlara hücum elədi, amma gec idi. Çahzadənin cansız bədəni yerdə qan içində hərəkətsiz qalmışdı.

– Ax, namərdlər, şahın sevimli oğluna necə qıydınız?! – deyə Sultanzadə bəyim qışqırdı.

Kim nə deyir-desin, bu mənzərəni görmək və göstərmək böyük ürək tələb edir. Salnaməçilər bu mənzərəni adi bir statistika kimi qələmə alır. Məsələn, belə: "Bir günlük şah elə həmin dəqiqədəcə öldürüldü, başı bədənindən ayrıldı."

Lənət sənə, Tarix!

...Şamxal bəy Sultanzadə bəyimin qılıncını əlindən aldı, özünü isə kənara itələdi. Sonra qulamlara tərəf dönüb buyurdu:

– Aparın Şahımızın (yəni Təhmasibin) zavallı zövcəsini!

Qulamlar zavallı qadını sürüyə-sürüyə, qışqırda-qışqırda apardılar və bir daha heç kim onu görmədi. Güman ki, şah arvadı sonralar Pərixan xanımın göstərişilə qətlə yetirilmiş, ya da, adətə görə, Quma göndərilmişdi.

* * *

Heydər Mirzə öldürüləndən sonra sarayda qarışıqlıq yaranmasın deyə, Pərixan xanım naibüssəltənə elan edildi və yeni şah gələnə kimi məmləkətin idarəçiliyi ona tapşırıldı. Bu barədə elə həmin gün Çehelsütunda qərar qəbul edildi. Qərarın qəbulunda qızılbaş əmirlərinin əksəriyyəti, eləcə də şeyxi-əzəm Əli Kəraki, Ərdəbil Ordeninin başçısı, xülafətül-xülafə Müzəffər xan Ərdəbili, əmirül-üməra Abdullah xan Ustaclu iştirak edirdi.

Onlar naibüssəltənəyə və xanədana sadiq olacaqlarına and içdikdən və Pərixan xanımın xələtinin ətəyini öpdükdən sonra Şah qızı onların ənamını verib, ədəb-ərkanla yola saldı. Bu mərasimdə naübüssəltənənin anası

Sultanağa xanım iştirak etmədi. Bəhanəsi də belə oldu ki, ərinin qırxı çıxmamış və təziyyə sona yetməmiş heç kimi xanədan sahibi kimi tanımaq və görmək istəmir. Əslində, onun fikrini saya salan da yox idi və bu, qadın hikkəsindən başqa bir şey deyildi. Bununla belə, Pərixan xanım anasının bu hərəkətinə elüzəri vaysındi: "Ah, anam, məni bu goreşənlər arasında tək qoymağın heç də yaxşı olmadı, canım ağrıdı. Babam sağ olsaydı, məni başa düşərdi..."

Pərixan xanım qorçubaşına, mühafizə xidməti rəisinə ənam, qiymətli xələt verəndən sonra saraydan çıxıb anasının evinə getdi.

Heydər Mirzənin öldürüldüyünü eşidən Pərixanın anası Sultanağa xanım qardaşı Şamxal bəyin üzünə tüpürdü, ardınca da üzünə bir şillə vurdu:

– Tfu, sənə! O cavan şahzadəyə necə qıydın!? Ancaq o, sizi saraydan sağ-salamat buraxmışdı, özü də dəlibaş İsmayılın tərəfini saxladığınızı bilə-bilə!

Şamxal bəy bərk pərt olsa da, bacısına heç nə demədi və qılıncının qəbzəsini möhkəm sıxa-sıxa bacısının evini tərk elədi.

Sultanağa xanım qara örpəyini düzəldə-düzəldə, məzəmmətlə qızına baxdı, "yəni dayının ağlı yox idi, bəs sən hardaydın!?"

Pərixan xanım anasının düz gözlərinin içinə baxıb:

– Düzünü bilmək istəyirsənsə, mən onun öldürülməsini istəmirdim. Ancaq mən özümü yetirəndə artıq gec idi, – dedi. – Sənsə çox da özünü öldürmə. O, şahzadə cildində bir axmaq idi! Gürcü südü əmmiş haram şahzadəni niyə müdafiə edirsən?

Sultanağa xanım cavabında qəzəblə dedi:

– Unutma ki, o, bir şah övladıydı, özü də sənin atabir qardaşın idi! Əgər qardaşın Süleymanı öldürsəydilər, buna dözərdin!?

– Mənim qardaşım o qədər də ağılsız deyil ki, böyüklər qala-qala özünü qabağa versin. Həm də ki...

Pərixan xanım çoxmənalı şəkildə susdu, sözünün dalını gətirmədi və ani pauzadan sonra davam elədi:

– Həm də, sən belə şeyləri bilməzsən, ana. Vaxt gələr, özün şahidi olarsan.

– Mən nələrin şahidi olduğumu yaxşı bilirəm, – Sultanağa xanım belə dedi və çiyninə doğru sürüşən qara örpəyini düzəldə-düzəldə o biri otağa keçdi.

Pərixan xanım onun ardınca bu sözləri dedi:

– Babamın zəhərləndiyini də bilirdin?

Sultanağa xanım bu sözləri eşidəndə dayandı, geri çevrildi və çaşqınlıqla soruşdu:

– Nə dedin?

– Dediyimi dedim, sonrasını bilməsən yaxşıdır.

– Yəni nəyi?

– Babamı zəhərləyənin kimliyini bilirəm.

– Kimdi ki o!? – deyə Sultanağa xanım suallı baxışlarını qızına zillədi.

Pərixan xanım kinayə ilə:

– Həmin axmaq yəqin ki, indi o dünyadadır, – dedi...

Ancaq anası əl çəkmədi:

– Kimdi o? – deyə, az qala, qızının yaxasından yapışdı.

– Əbu Nəsr Gilani.

Sultanağa xanım, şübhəsiz, bu adı çox eşitmişdi, şayiələrə də qulaq asmışdı, ancaq deyilənlərin nə dərəcədə doğru olub-olmadığını bilmirdi. Ona görə də bir söz demədi və dodağının altında mızıldana-mızıldana öz otağına çəkildi...

Pərixan xanım isə anasının evindən çıxıb Çehelsütuna qayıtdı...

* * *

Pərixan xanım bilirdi ki, Heydər Mirzə tərəfdarları dinc oturan deyil. Ona görə də onların əsas başçılarını zərərsizləşdirmək qərarına gəldi. O, təxti-hümayunda Xəlil xan Əfşarla tək qaldıqdan sonra sevgilisinin əlindən tutub belə dedi:

– Bilirsən ki, şəhərdə qarışıqlıqdır və biz onların ipini buraxsaq, başımız ağrıyar. Qardaşım İsmayıl gələnə qədər ustaclı, şamlı, təkəli tayfasından olan bəzi xanları aradan götürməliyik ki, başqalarına da dərs olsun. İsmayılın özünün də tərəfdarlarından bəzilərinin başına ip atmaq lazımdır ki, şahzadə taxta çıxandan sonra onu idarə eləmək çətin olmasın. İlana zəhər verənlər çox olar. Düzdür, İsmayıl qardaşımdır, ancaq başı ayıq olsa, əfi ilana dönəcək. Sonra onun qarşısını kəsə bilməyəcəyik...

Xəlil xan sevgilisinə sınayıcı nəzərlə baxdı. “Yəni, doğru sözündür? İsmayıl əfi ilandısa, onu niyə hakimiyyətə gətirmək istəyirsən?” Pərixan xanım onun tərəddüdünü hiss elədi və Xəlil xanın əlini buraxıb, pəncərə önünə getdi, qara mahud pərdəni aralayıb çölə baxdı.

Saray uşaqları, Şah Təhmasibin nəvə-nəticəsi onun ətrafında qaçışır, bir-birinin üstünə su atır, çığırışırdılar. Bu dünyada baş verənlər onların vecinə də deyildi.

Qul-qaravaş bir az o tərəfdə gündəlik işlərilə məşğul idi. Yay Günəşi sarayın bir tərəfini işıqlandırırdı. Pərixan xanım fikirləşdi ki, bu saray dünyanın rəmzidir: bir tərəfi qaranlıq, bir tərəfi işıqlı. Gecə və gündüz kimi. Amma bütün qətllər, nədənsə, qaranlıqda baş verir. Şah qızı bu barədə fikirləşəndən və uzun müddət həyətə baxandan sonra qayıdıb taxta oturdu və dedi:

– Yazıq babam bu gözəl, cah-cəlallı məmləkəti qarğa-quzğunun öhdəsinə buraxdı. Mənim nəsibimə isə qıraqda dayanıb, onu necə parçalayacaqlarının şahidi olmaq düşdü. Nədi-nədi, qadınam! Məgər, bu, ədalətlidir?!

Xəlil xan onun bu üzüntülü halını görüb yaxın gəldi, diz çöküb əllərindən tutdu və dedi:

– Əlbəttə, ədalətli deyil. Amma sən üzülmə. Nə buyursan, ona can-başla əməl edərəm. Mən də, tayfam da qulluğunda hər zaman hazırıq. İsmayılı da onlar şər qüvvələrdən qoruyublar. Şərab və tiryəkdən də korluq çəkməyə qoymayıblar. Sənsə onun şahlıq taxt-tacına sahib olmağı üçün çalışmısan. O da bunu yaxşı bilir. Ona görə də bizə zərər yetirməz.

– Təki elə olsun! – Pərixan xanım yenidən dərindən ah çəkdi, ayağa durdu və xələtinin cibindən bir kağız çıxarıb Xəlil xana verdi. – Sən get, dediklərimi elə. Mənsə burda qalsam yaxşıdır. Həm şayiələrdən uzaq olaram, həm də təzə şahımız gələnə kimi buranı sahibsiz qoya bilmərəm.

Pərixan xanımın verdiyi kağız adi kağız deyildi – qətl fərmanıydı. Orda öldürüləcək xan və əmirlərin adı vardı.

Xəlil xan "bəçeşm" deyib, onun əllərindən öpdü və saraydan çıxıb getdi. O gedərkən Pərixan xanım pərdəni aralayıb həyətə düşən Xəlil xana baxdı.

Enli kürəkli, şux yerişli xan çarhovuzun ətrafında oynayan uşaqlardan birini yanına çağırıb, ona nəsə dedi və başını sığallayıb getdi. Pərixan xanım uşağı tanıya bilmədi, heç tanımağa ehtiyac da yox idi. Şah uşaqları hər tərəfdəydi.

Xəlil xan Əfşar Çehelsütundan gedəndən bir gün sonra, gecə yarısı Ustaclı Hüseyn bəy Yüzbaşı öz evindəcə qətlə yetirildi. Heydər Mirzənin oğlu Əlixan Gürcü isə elə bazardaca öldürüldü və belə şayiə yayıldı ki, onu Heydər Mirzənin ardıcılları öldürüblər. Çünki qardaşının, yəni Heydər Mirzənin hakimiyyətdə qalması üçün çox çalışmayıb. Bundan başqa, Məsum xan Səfəvi, Həmzə Sultan Talış, Allahqulu xan Ayçək oğlu, Şahzadə Mustafa, Bəhram Mirzənin oğlu İbrahim Mirzə də ayrı-ayrı vaxtlarda qətlə yetirildilər. Onların çoxu boğularaq öldürüldü...

* * *

İsmayıl Mirzənin ardınca gedən əyanlar, Heydər Sultan Çabuk Türkman başda olmaqla, təxminən üç həftədən sonra qayıtdılar. Dəli İsmayılı əlli iki atlı müşayiət edirdi. Atlıların biri qabaqda, biri arxada, qalanları isə sağ və solda sıra ilə düzülmüşdülər. Davulçular dəstəsi və kəranayçılar ali məqam sahibinin yola çıxdığını xəbər verir, çaparlar yolüstü kəndlərə çapır, onları gələcək şahın şərəfinə dualar oxumağa səsləyirdilər. Duaçılar dəstəsi əllərini göyə açıb Tanrıya şükür edir, hərdən də şahzadədən ənam alırdılar.

İsmayıl Mirzə yola çıxmazdan əvvəl nakam şah Heydərin tərəfdarları olan qorçuları öldürtdü. Qalanları isə Ərdəbilə pənah aparmaqla canlarını qurtara bildilər. Həmin vaxt qala rəisi, Heydər Mirzə pərəstişkarı Xəlifə Ənsar Qaradağlı ovdaydı, İsmayıl tərəfdarlarının Qəzvin sarayında qalib gəlməsini eşidəndə geri qayıtdı, dəfələrlə ona biət etməsi barədə qalaya xəbər göndərdi, amma İsmayıl Mirzə onu qalaya buraxmadı, çünki heç zaman Xəlifə Ənsardan xoşu gəlməmişdi.

İsmayıl Mirzə yolüstü Çabuk Türkmanın qurduğu alaçıqda dayandı və yeni şaha biət edənlər ora gəlib, İsmayıl Mirzənin əl-ayağından öpdülər.

İyunun 13-də İsmayıl Mirzə Qəzvinin ətrafına çatdı və burada dayandı. Onu qarşılamağa şahzadələr, eləcə də Hüseyn Xəlifə Rumlu və "böyük əmirlər" gəlmişdilər. Qaçmaq istərkən tutulmuş Heydər tərəfdarlarının başçısı Hüseyn bəy Yüzbaşı də bura gətirilmişdi. Lakin İsmayıl, gözləndiyinin əksinə olaraq, onu edam etdirmədi, yalnız zindana salınmasını əmr etdi. Ertəsi gün şah özünün mərasim dəstəsi ilə Səadətabad bağında dayandı. Sonra o, bir neçə gün Hüseyn Rumlunun evində qaldı. Şahzadə Mustafanı da onun yanına gətirdilər. İsmayıl onu dəfələrlə, "hərarətlə" öpdü və onu soyuq qarşılamış qardaşlarının arasında əyləşdirdi. İsmayıl Mirzə aşağıdakı sözlərlə onlara müraciət etdi: "Allah görür, əgər siz mənə məhəbbət və doğmalıqla yanaşsanız, mən də sizə dünyada heç bir padşahın öz qardaşlarına yanaşdığı kimi münasibət bəsləməyəcəm."

O, yolda olarkən Pərixan xanım yeni şahın şərəfinə xütbə oxutdurdu.

Şah İkinci İsmayılı və onu müşayiət edənlər Qəzvin şəhərinin aşağı məhləsindən içəri girdilər. Ordan başlayaraq ta Çehelsütuna qədər dizçökənlər sıra ilə diz üstə oturub, yerlərini dəyişə-dəyişə şahzadəyə baş əyir, gözlərilə izləyirdilər...

Şəhər əyanları bayram libasına bürünmüşdü, rəiyyətlərin qapı və pəncərələri kip bağlanmışdı.

İsmayıl Mirzə qızıl sinəbəndli kəhər atın belində oturmuş, qızarmış gözlərilə ona baş əyənlərə baxır, sanki nə baş verdiyini tam anlaya bilmirdi. Uzun sürən məhbus həyatı onda insanlara və ətrafa biganəlik hssi yaratmışdı. Özünə gəlmək və təzə həyata alışmaq üçün xeyli vaxt lazımıydı.

At yorğaladıqca sinəbəndin qızıl axçaları da onun ahənginə uyğun cingildəyirdi...

Çehelsütun sarayı təmir olunduğu üçün İsmayıl Mirzə birinci olaraq qazi dostu Yegan Şahqulunun evinə düşdü. Bir neçə gündən sonra isə Pərixan xanımın imarətinə getdi. Orda da qərar tuta bilməyib, "köçünü" Səadətabad bağındakı yay köşkünə saldı...

İsmayıl Mirzə hamama getdikdən, qüsl alıb, tiryəkə və içkiyə son qoyacağına and içdikdən sonra təxti-humayuna gəldi, şahlıq tacını onun başına Vəli Sultan Qalxançıoğlu qoydu və sonradan Şah İkinci İsmayılın əmri ilə etimadüddövlə (dövlətin etimadı, yəni baş vəzir) rütbəsini aldı, həm də şahın varisi Sücəddinin lələsi oldu. Amma təzə şah tezliklə andını unutdu. Salnaməçilərin yerinə olsaydım, ona "huşsuz" ayaması da qoşardım.

Səhərisi günü o, hərəmxanasını zənginləşdirmək işinə başladı və Zəncan hakimi Nəsrullah xanın qızı Pəri Peykər Sultanı baş hərəm elan elədi. Onlar cavanlıqda evlənmişdilər. Pəri Peykər İsmayıl Mirzənin bibisi qızıydı və o, iyirmi ilə yaxın həbsdə olan müddətdə əri ilə bir neçə dəfə görüşmüş və ona iki qız doğmuşdu. Bu dəfə baş hərəm ona borclu qalmadı və İsmayıl məhbəsdən qayıdan gündən doqquz ay, doqquz gün sonra oğul doğdu. Varisin adını Sücəddin qoydular. Şah İkinci İsmayıl Ustaclı tayfasından da qız aldı. Eyni gündə həm Pirə Məhəmməd xan Ustaclının, həm Şamxal Sultanın, həm də Hüseynxan Sultan Xəbuşlunun qızları ilə evləndi.

Şahın fərmanı ilə İbrahim Mirzə möhrdar vəzifəsinə təyin olundu.

Bir neçə gündən sonra İsmayıl öz əcdadlarının məzarlarını ənənəvi qaydada ziyarət etmək üçün Ərdəbilə yola düşdü. Zəncan çəmənlərində İsmayılı Pərixan xanımın göndərdiyi şahzadə İbrahim, vəzir Mirzə Salman, mərhum şahın dövlətxana (saray), hərəmxana, divanxana və büyutat (saray emalatxanaları) məmurları qarşıladılar. Mərasimə İsmayılın mehribancasına qəbul etdiyi şahzadə İbrahim başçılıq edirdi. İsmayıl onu səmimiyyətlə qucaqlayaraq "qardaşım" adlandırdı. Pirə Məhəmməd xan Ustaclı da şahzadə İmamqulu ilə birlikdə Gilandan gəlib çıxdı.

Təzə şah Ərdəbilə çatıb, dükan-bazarı gəzdikdən sonra Şeyx Səfi məqbərəsinə getdi, şeyxi-əzəmə dua oxutdurandan, özü isə Səfəviyyə ocağının qoruyucuları ilə zikr etdikdən sonra geri qayıtdı. Onun namaza oturmaması hamını

heyrətləndirdi, bircə ətrafından başqa, çünki İsmayılın içki düşkünü olduğunu bilirdilər.

Taxta oturan kimi Səfəvi xanədanı başçısının ilk işi əsas rəqiblərini aradan götürmək oldu. İlk öldürülən möhrdar, şahzadə İbrahim Mirzə oldu. O öz hərəmxanasında qətlə yetirildi. İbrahim Mirzə şahın əmizi qızı Gövhər xanımın əri, xanədanın vəziri (naibi) idi. Gövhər Sultan bu dərdə dözmədi və ürəyi partlayıb öldü. Bu işdə isə şahın zövcəsi Peykər Sultan ilə yanaşı, anasının da rolu böyük idi. Şahın vəziri Mirzə Əşrəf də onu qızışdırır və qardaşlarının taxt-taca təhlükə yaratdığını deyirdi.

Digər şahzadələr də ya öldürüldülər, ya da kor edildilər. Ustaclı tayfasının bir çox məşhur üzvü də aradan götürüldü. Ustaclıları bağışlamaq üçün şərt kimi də qardaşı Mustafa Mirzənin və Süleyman Mirzənin öldürülməsini qoydu. Bununla da o, qardaşlarına verdiyi sözə xilaf çıxdı.

Pərixan xanım əvvəlcədən də görürdü ki, növbə ona da çatacaq. Bu münasibətlə o, Ərdəbilə də getmiş və müəllimi Şeyx Mustafa əfəndi ilə məsləhətləşmişdi. Zikr edib, dua oxuyan günün gecəsi hər ikisi eyni yuxunu görmüşdülər, amma bir-birilərinə deməmişdilər. Ayrılanda Şeyx Mustafa nəvvab Pərixanın qulağına bunları pıçıldamışdı: "Tələssən, uduzmazsan, geciksən..." və sözünün dalını gətirməmişdi...

Başı eyş-işrətə qarışan, tiryək havasında uçunan İsmayıl Mirzəni arvadı Pəri Sultan və qayınanası Həlimə xanım da qızışdırırdı. Məhz onların fitvası ilə naibüssəltənə gözümçıxdıya salınmışdı. Onlar belə hesab edirdilər ki, Pərixan xanım hələ də səltənətin qəyyumu rütbəsini özündə saxladığına görə sarayda ikihakimiyyətlilik yaranıb. Necə deyərlər, "iki qoçun başı bir qazanda qaynamaz".

O biri hərəmlər də deyilənlərlə razılaşdılar və hər gün Səfəvi xanədanı sahibinin başını cəfəng fikirlərlə doldurmağa başladılar. Elə ona görə də Şah İkinci İsmayıl taxt-taca Pərixan xanımın sayəsində sahib olduğunu yaddan çıxardı. Və çox keçmədi ki, bacısının Çehelsütuna girməsinə qadağa qoydu, saray əyanlarının, elə özünün də onunla görüşlərinə məhdudiyyət qoymağa başladı. Az sonra Səfəvi hökmdarı zövcəsinin təhriki ilə, anası, ağqoyunlu Musa bəyin qızı Sultanım bəyimdən başqa, bütün qohumlarının saraya girməsinə qadağa, onların şəxsi xəzinəsinə və qulamlarına isə əl qoydu. Daha sonra təzə şah xənədanda bir yenilik etdi. O, babalarından fərqli olaraq, bir çox qohumlarını, hətta onların övladlarını da günahsız və durduqları yerdə öldürtməyə başladı. Təzə şahın ən qansız hərəkəti isə Pərixan xanımın anabir-atabir qardaşı, Məşhəd hakimi şahzadə Süleyman Mirzəni, arvadını və övladlarını öldürtməsi oldu. O, Məşhədə adam göndərərək, şahzadəni öz sarayındaca boğdurtdu.

Şahzadə Süleymanın və ailəsinin öldürülməsi, eləcə də Pərixan xanımın saraya girişinə qadağa qoyulması Sultanağa xanımı bərk sarsıtdı və öz evində oturaraq zahidlik ömrü sürməyə başladı.

Bu qansız hadisələrdən qəzəblənən Pərixan xanım məşuqu Xəlil xan Əfşara dedi:

– Mənim ona elədiklərim gözündən gəlsin! Hər şey bir tərəfə, bəs Süleymanın nə günahı vardı?! İsmayılın taxt-taca sahib olmasında ən çox canfəşan-

lıq edən, Məşhəddən bura gəlib, gecə-gündüz saraya keşik çəkən yazıq qardaşıma, arvadına və övladlarına necə qıydı? And olsun babamın ruhuna ki, mən onun qisasını alacam.

Pərixan xanımın bu qəzəbli çıxışı Xəlil xan Əfşarı qorxuya saldı və o, sevgilisinin ağzını yummaq məcburiyyətində qaldı.

– Sus, nə danışdığındı!? Bilmirsən ki, divarların da qulağı var. İstəyirsən ki, hamımızın başını kəsdirsin!?

– Ağciyər! – Pərixan xanım sevgilisinin gözlərinin içinə baxıb çılğınlıqla dedi.

– Əzizim! – deyə Xəlil xan Əfşar dilini şirin eləmək istədi.

Şah qızı onun bu nəvazişini qəbul etmədi və:

– Əl çək məndən! – qəzəblə dedi və onu geri itələyəb yataq otağına çəkildi.

Pərixan xanım otağına getsə də, qəzəb və hikkəsinin havası hələ bir müddət Xəlil xanın canından çıxmadı. O, sevgilisinin yataq otağına həsrət və qorxuyla baxdı, sonra isə bayıra çıxıb oğrun baxışlarla oranı tərk elədi.

Xəlil xan qorxusundan bir neçə gün sarayda görünmədi. Başa düşürdü ki, Pərixan xanım dinc oturan deyil.

Doğrudan da Şah qızı otağında oturub naşükür qardaşını və ədalətsiz hökmdarı aradan götürmək üçün planlar qururdu.

"Ölüm mələyi" ləqəbi qazanmış Şah İkinci İsmayıl Pərixan xanımın nişanlısı və öz əmisi oğlu Bədüüzzamanı da öldürtdü. Əslində, Bədüüzzamanın öldürülməsi Pərixan xanımın vecinə də olmadı. Çünki onların arasında heç bir münasibət yox idi və ətrafın qınağına tuş gəlməmək üçün nişanlarını pozmaq istəmirdi. Ancaq Bədüüzzaman evlənmiş, iki oğlu da olmuşdu. Onun arvadı və oğlanları da İsmayılın qəzəbindən qurtula bilmədilər.

Bütün bu qətliamlara dözməyən Pərixan xanım Çehelsütuna gəldi. Qorçubaşının etirazına baxmayaraq, saraya girə bildi. Həmin vaxt İsmayıl Mirzə hərəmxana hamamındaydı və kefə baxırdı. Cavan hərəmlər şaha xoş gəlmək üçün onun hər nazı ilə oynayır, aradabir ağzına tiryək atır, piyaləsinə şərab süzürdülər. Şah o qədər sərxoş idi ki, hərəmlərinə də şərab içizdirirdi. İkinci İsmayıl naibüssəltənənin onu görmək istədiyini eşidəndə bir az özünə gəldi, atlas xələtini geyindi, məstlərini ayağına keçirib ara otağa çıxdı.

– Hə, bu sənsən!? – deyə ayaqüstə güclə duraraq soruşdu.

Onun sözlərindəki kinayəni Şah qızı göydə tutdu.

– Hə, mənəm! Bəs, sən necə? Sən də sənsənmi?! – rişxəndlə soruşdu.

– Nə demək istəyirsən?! – Şah İkinci İsmayıl bacısının düz qarşısına gəlib qeyzlə dedi. – Özün də təzim eləmirsən!

Pərixan qardaşının qarşısından geri çəkilmədi, təzim də eləmədi və onun sərxoş gözlərinə baxıb hikkəylə bunları dedi:

– And olsun ki, Şah, bu edam və qətllərlə xanədanı idarə eləmək olmaz və bu, uzun sürməyəcək!

Pərixan xanım "qardaş" yox, "şah" dedi, bununla da göstərmək istəyirdi ki, onların arasındakı doğma bağlar artıq yoxdur və bundan sonra rəsmiyyətə üstünlük verəcək.

– “Şah” – deyə İsmayıl Mirzə bacısını yamsıladı və təkrar elədi: “Şah!”

– Bəli? Şah! Düz eşitdin! Sonra?

Dəli İsmayıl əlini belinə qoyub rişxəndlə soruşdu:

– Bəlkə mənim şahlığıma şübhə edirsən?

– Mən sənin İsmayıl olduğuna şübhə edirəm. Çünki dəli-dolu İsmayıldan yalnız sərxoş gözlər və ağılsız baş qalıb. Halbuki...

Pərixan xanım demək istəyirdi ki, mən səni şah eləmişəm. Amma İsmayıl ona imkan vermədi və bu sözlərdən ayılan kimi oldu. Bacısının gözlərinin içinə diqqətlə baxdı. Başa düşdü ki, Pərixan xanımı aradan götürməsə, xanədan əlindən çıxacaq. Ona görə də dışarıya tərəf səslənərək, eşikağası Hüseynqulu xan Şamlını çağırdı:

– Hüseynqulu!

Hüseynqulu xan saray mühafizə xidmətinin rəisilə birgə gəldi. Şahın səsindən başa düşdü ki, kimisə cəllad əlinə vermək lazımdır.

Səfəvilərin üçüncü şahı qəzəblə eşiakağasına əmr elədi:

– Cəllada denən, bu xain qancığın başını elə kəssin ki, səsi də çıxmasın...

Hüseynqulu xan çaşdı. Çünki şahzadələri və nəvvab xanımları cəllad əlinə vermirdilər. Onları xəlvətcə boğdururdular.

– Niyə durmusan!? – deyə şah yenidən bağırdı. – Aparın bu məlun qadını!

Pərixan xanım Hüseynqulu xana tərəf dönüb:

– Düz deyir. Bu cür nankor qardaşla bir sarayda yaşamaqdansa, cəllad əlində ölmək yaxşıdır. Tarix bu cür alçaqları çox görüb!

Şah İkinci İsmayıl bacısının bu sözlərinə necə qəzəbləndisə, şaqqanaq çəkib güldü. Bu gülüşdən sarayın həyətində gəzişən göyərçinlər də hürkdülər və pırr eləyib pərvazlandılar. Hamamdakı hərəmlər də qorxularından bir-birinə sığındılar.

Hüseynqulu xan Şamlının boğazı qurudu, mühafizə xidməti rəisinin damarlarında qan dondu. Şah özü də, sanki, öz səsindən təəccübləndi. Bacısına baxıb nəsə fikirləşdi və dedi:

– Yox, qoy hələ qalsın. Onu bu cəsarətinə görə bağışladım. O ki qaldı taxt-taca, onu mən özüm qazanmışam. Sadəcə, bir az gecikmişəm...

İkinci İsmayıl ona eyham vururdu ki, istəsəydi, zamanında atası Təhmasibi aradan götürə bilərdi, amma bunu eləmədi.

Şah belə deyəndən sonra yenidən hərəmxana hamamına tərəf getdi, ancaq yarıyolda dayanıb geri döndü, ayaqüstə əmrə müntəzir dayanan Hüseynqulu xana və bacısına baxıb dedi:

– Onun naibüssəltənə ünvanına da xitam verərsən. Məmləkətin bir sahibi olar!

Bu sözlərdən sonra o, hamama qayıtdı və kef məclisinə davam elədi...

Pərixan xanım saraydan çıxıb evə gəldi, içəri girən kimi öz otağına getdi və taxta uzanıb düşünməyə başladı. Sultanağa xanım qızının kefinin olmadığını dərhal duydu. Ona görə də sorğu-sual eləmədi. Yalnız bir müddətdən sonra qulluqçunun əvəzindən özü qızından çay içib-içməyəcəyini soruşdu. Amma heç bir cavab almadı.

Sultanağa xanım düşündü ki, yəqin, qızı yatır. Ona görə də otağına çəkilib, bir küncdə bardaş qurub oturdu. Şah qızı isə yatmamışdı, bugünkü söhbəti götür-qoy edirdi. Bilirdi ki, şahın üzünə söylədiklərinin bədəlini ödəməli olacaq. İş-işdən keçmişdi, necə deyərlər, ox öz yayından çıxmışdı, geri çəkilmək ölümə bərabər idi. “Nə olacaqsa-olsun!” – Pərixan xanım belə fikirləşdi və çox düşünəndən sonra qardaşı İsmayıla məktub yazmaq qərarına gəldi, amma məktubu dərhal göndərmədi, fəhmlə duydu ki, şahın hirsi soyuyandan sonra yollasa yaxşıdır. Ayıq başla qərar vermək daha yeydir.

Məktubun məzmunu beləydi: “Bu məktubu... mübarək başınız qərəzkarlıqdan və şərabdan təmizləndiyi vaxt mütaliə edin... Əvvəla, Məhəmməd Mustafa salavatullah və Əli Mirzə əleyhissalama nümunə olan o cəm məqamlı mərhum padşaha qarşı sənin etdiyin dəyyusluq töhməti yaxşı iş deyildir. Sən Qəhqəhə qalasına təşrif etdiyin vaxt gözlənilməz hadisələr törətməkdə ittiham olunurdun. Təhmasib şahın sənin etdiyin günahların əfv olunması xüsusunda ricasını eşitdiyi adam tək mən olmuşam... Sən demisən ki, zənən dövlət işinə qarışmalı deyildir. Bu, boş bir xəyaldır. Zənənlərin heç vaxt səltənət iddiası olmayıbdır. Əgər elə iddia olsaydı, ixtiyar ipini əllərində tutduqları vaxt olardı və övrət dodaqlarından süd iyi gələn padşah övladlarından birini aradan götürər, özü rahatlıqla səltənət başına çıxardı... Və qardaşının qaladan çıxarılması və nicatı üçün elə mübarizə aparmazdı. Bəli, doğru məsələdir: bu dünyada çox vaxt yaxşılıq əvəzinə, yamanlıq olur! Mənim bütün ömrüm şəriət qanunları kitablarının mütaliəsi ilə keçmişdir. Mən təfsirlərin əksəriyyətini mühafizə edirəm... Çünki mən başqa şahzadələr kimi atamın paytaxtından uzağa getməmişəm, dövlətxanaya küçədən keçib daxil olmamışam, şəhər hamamlarını görməmişəm, şikara çıxmamışam, heç bir töhmət küncündə oturmamışam... Amma başqaları rahatlıq və səltənət arzusundadırlar. Onlar, qoy öz əllərini qadınların ətəklərindən kənar etsinlər. Cəm məqamlı padşahın istəyinin əleyhinə hərəkət etməsinlər, elə hərəkətin nəticəsi yaxşı olmaz. Yox, əgər dünyanı tutmaq və asudə olmaq istəyirlərsə, yaxşılığı özünə peşə edib, öz başlarını rəhm papağından kənara çıxarsınlar... Allaha and olsun ki, qətl etmək və öldürməklə səltənət işi irəli gedə bilməz. Əgər irəli getsə də, belə zülmkarlıq Fironun, Hamanın və Şəddadın etdiklərindən az olmaz... Bundan başqa, sən bu zəif qadının imarətinin dağıdılması barədə əmr vermisən. Bunu etmək asan işdir, amma gərək gor evin abadan olsun... Əgər sənin mübarək xatirin məndən narahatdırsa, onda məni özümə layiq gülxəndə (gülxən – hamamı qızdıran ocaq) yerləşdirin. O cür bir atanın vəfatından sonra mənə gülxən ən yaxşı yerdir, gülşən isə, qoy uca və əziz övladlara qismət olsun...

Başqa sözüm də budur ki, sən bu zəif kimsənin özünə kəniz saxlamağını etmisən, ismət əhlinin, dövlət və paklıq taxtına əyləşən qadının, yəni möhtərəm hərəmin fikri budur ki, kənizi olmayan bir qadının şöhrəti-şanı da yoxdur. Bu fikir düz deyildir. Kənizi olmayan qadınlar da şan sahibidirlər. Mənim əyər-əksiyimdən heç kimin xəbəri yoxdur, çünki mən hərəmxanadan və babamın tikdirdiyi evimdən heç yerə çıxmıram. Həzrət Səkinə Sultan buyurmuşdur ki, mənə xidmət üçün iki yüz kəniz kifayətdir. Ya rəbb, görəsən nə üçün ona yüz nəfər qulam kifayət deyil? Amma mənə iki kəniz bəsdir!

Budur, bu baş, bu kəfən. Ölməyə hazıram. Əlindən gələni et!"

Pərixan xanım istədi ki, məktubu Xəlil xan Əfşarla göndərsin, amma ona qıymadı. Çünki şah qəzəblənə və xanı gedər-gəlməzə yollaya bilərdi. Ona görə də, adətə uyğun olaraq, adı-soyadı bəlli olmayan qasidlə göndərdi.

Şah İkinci İsmayılın başı eyş-işrətdən açılmadığına görə həmin məktubu oxumadı, yaxud da oxumağa vaxtı olmadı. Onun bir sözü aləmdə məşhur idi: "Hökmdar hər cəfəng fikirdən asılı olmalı deyil..." Rəiyyət isə öz hökmdarının arxasınca bu sözləri deyirdi: "Padşah fikirdən yox, şərabdan və tiryəkdən asılı olmalıdır... " Sözsüz ki, İkinci İsmayıl bunu bilirdi, qulağı çalmışdı, amma rəiyyətin ağzını yummaq olmazdı ki...

Şah İkinci İsmayıla xəbər vermişdilər ki, Xorasan tərəfdə narahatlıqdır. Özbəklər Mavərənnəhrdən (Sır-Dəryadan) adlamaq üçün qoşun cəmləşdirir. Onların qarşısını almaq üçün Ali dərgaha (İstanbula) elçi göndərib, razı salmaq lazımdır ki, sünni qardaşlarını bu işdən çəkindirsinlər.

Səfəvi hökmdarı öz vəziri Vəli Sultan Qalxançıoğlunu İstanbula göndərdi və Türkiyə sultanı Üçüncü Murada və əyanlarına bahalı hədiyyələr yolladı. Hədiyyələrin içində qızıl saplı, üstü firuzə qaşlı xəncər, qızıl papaq və kəmər, eləcə də Nizaminin qızıl suyu ilə işlənmiş, mahir xəttatların əlindən çıxmış "Xəmsə"si də vardı. Kitabları hələ Şah Təhmasib sağlığında sifariş eləmişdi, amma əcəl onlara qovuşmağa imkan vermədi.

Elçilər İstanbula çatanacan özbəklər Xorasana hücum etdilər, amma ilk həmlədəcə geri otuzduruldular. O biri tərəfdən isə, Xarəzm padşahı qəfil öldüyündən geri qayıdası oldular.

Bir neçə aydan sonra İstanbula gedən elçilər geri döndülər. Onlar da özlərilə Türkiyə sultanı Üçüncü Muradın İkinci İsmayıla bahalı hədiyyələrini və üstünə qızıl toz səpilmiş məktubunu gətirdilər.

Məktubda deyilirdi:

"Sufilər bahaduru Şah İkinci İsmayıla salamlar olsun. Bilirsən ki, bizim dinimiz bir, məzhəbimiz ayrı olsa da, çoxumuz sufi təriqətinə baş əyirik. Biz mərhum babanız Birinci Təhmasib Şahla bağladığımız Amasiya sülhünə sadiqik və indən sonra siz tərəflərə at səyirtməyi düşünmürük. Ricamız odur ki, gözəl diyarınızda olan sünniləri öz məzhəblərindən dönməyə məcbur etməyəsiniz və onlara öz məscidlərində vahid Tanrıya sitayiş eləməyə imkan verəsiniz. Rəbbimizdən sizə və xanədanınıza əmin-amanlıq, firavanlıq diləyirik. Və göndərdiyimiz bu xırda hədiyyəni qəbul etməyinizi rica edirik."

İkinci İsmayıl özü də sultana yaxın olmaq istəyirdi. Çünki onun dəstəyi olmadan özbəklərin və Krım tatarlarının qarşısında tab gətirmək çətin idi. Top-tüfəngi, barı-barxanası daha zəngin və güclü olan osmanlılarla cəng zamanı deyildi. Deyilənlərə görə, Ali Dərgahla isti müasibətlərin qurulması şahın arvadı Peykər Pəri xanımın məsləhətiydi. Çünki İsmayıl məhbəsdən təzə qayıtmışdı, ölkədə baş verənlərdən xəbəri yox idi, özünün də başı, həmişəki kimi, eyş-işrətdən açılmırdı. Məmləkətdə də vəziyyət qarışıq idi...

İkinci İsmayıl göstəriş verdi ki, Qızılbaş-Səfəvi dövlətinin sərhədləri daxilində yaşayan, töycünü vaxtlı-vaxtında ödəyən və Şahın iradəsinə tabe

olan, qanunlarına itaət edən sünnilərə məscid tikmək icazəsi verilsin. Bir şərtlə ki, şiə əmmaməsi qoyub, şiələr kimi saqqal saxlasınlar. Bu barədə o, Azərbaycan, Xuzistan və Kirman vilayətinin valilərinə də fərman göndərdi.

İsmayılın bu göstərişi ildırım kimi şəhərə yayıldı və şiələr arasında çaxnaşmaya səbəb oldu. Bu, Pərixan xanımın xeyrinə işləyirdi. Çünki qardaşını taxtdan salmaq üçün belə bir bəhanə hava-su kimi lazımıydı.

Pərixan xanım Xəlil xan Əfşara xəbər göndərib yanına çağırtdırdı. Xəlil xanın dalağı sancdı. Başa düşdü ki, Şah qızının nəsə müdhiş bir planı var. Xəlil xanın özü dəlibaş şahla çox yaxın idi. Çünki İsmayılı Qəhqəhə qalasında məhz əfşarlar qoruyurdu. Onlar Şah Birinci Təhmasibin "dəlisov fərzəndimi göz bəbəyi kimi qoruyun" tapşırığına sadiq qalmış, Heydər Mirzənin göndərdiyi adamların qalaya girməsinə imkan verməmiş və bu barədə vaxtında saraya xəbər göndərmişdilər. Pərixan xanım da bu xəbəri atasına çatdırmış və beləliklə, İsmayıl Mirzə ölüm təhlükəsindən qurtulmuşdu. Amma indi vəziyyət dəyişmişdi. Yeni şahdan nə desən gözləmək olardı. Qətllər və edamlar bir-birinin ardınca baş verirdi. Ona görə də Xəlil xan sevgili olduğu xanımın bu qəfil ismarıcından narahat oldu, hətta bir az qorxdu da. Qorxdu ki, yəqin, onun hər bir addımı Şahın xüsusi xəfiyyələri tərəfindən izlənilir. Amma xanın bəxtindən çöldə çiskin yağış yağırdı və o, Venesyadan gətirdiyi yağmurluğu başına atıb, arxa qapıdan çölə çıxdı və Pərixan xanımın qaldığı "Varlılar" məhləsinə (oranın başqa bir adı isə "Çiçəklər xiyabanı" idi. Çünki çiçəklərlə dolu idi) gəldi.

Xəlil xan içəri girəndə Pərixan xanımı buxarının yanında dayanan gördü. Şah qızı xudmani bir evdə yaşayırdı. Bişmiş kərpicdən hörülmüş, dayaqlar üstündə dayanan evin üç otağı, bir eyvanı vardı. Şahzadələr və saraydan kənarda yaşayan şah qızları evlərini Çehelsütuna oxşatmağa çalışırdılar. Amma bu evlər daha yığcam idi.

Pərixan xanım sevdiyi mavi atlas xalatı geyinmişdi. Qara zülfləri də həmişəki kimi açıq və dağınıq idi, onu daha şəhvətli və istəkli edirdi. Amma çox qayğılı görünürdü.

Xəlil xan içəri girib təzim elədi, xanımın əlindən və alnından ödü. Yalnız yaxın adamların şahzadə xanımın alnından öpmək ixtiyarı vardı.

Pərixan ona qıyğacı baxdı və ala gözlərini süzdürüb dedi:

– Bilirsən səni niyə çağırtdırmışam, əziz xan?

Xəlil xan, təbii, bunun səbəbini bilmirdi, amma təxmin etməmiş də deyildi.

– Nə əmr edərsiniz, xanım. Qulluğunuzda hazıram.

Pərixan üzündəki qayğılı ifadəni dəyişmədən davam elədi:

– Mən bu dəfə sənə yataq otağını göstərə bilməyəcəm. Səninlə çox ciddi söhbətim var.

Xəlil xan təzim eləyib:

– Qulaqlarım və dərrakəm tam sizin qulluğunuzdadır. Eşidirəm, – dedi.

Pərixan xanım:

– Bilirsən ki, mənim canımdan artıq istədiyim, bütün bəlalardan qoruduğum, böyük ümidlər bəslədiyim və mənim sayəmdə... – bir an susdu, – elə sənin də qohum-əqrabanın köməyilə taxta çıxan, əziz babamın, qoy onun ruhu

şad olsun, cəvahiratla bəzədilmiş tacını başına qoyan, onun qara qılıncını belinə bağlayan İsmayıl ağlını tamam itirib. Yerli-yersiz hamını cəzalandırır, edam etdirir. Mənim də saraya girişimə qadağa qoyub, üstəlik də, öldürməklə hədələyib.

Pərixan danışığına ara verdi, pəncərəyə yaxınlaşıb, pərdələri aralayaraq həyətə baxdı, sonra geri qayıdıb davam elədi:

– Mən ölümdən qorxmuram. Amma bu xanədanın bir dəlinin ucbatından darmadağın olmasını da istəmirəm. Ona məktub yazdım, amma cavab almadım. Yəqin dumana düşüb və ordan hələ də çıxa bilmir.

– Nə məktub? – deyə Xəlil xan təəccübləndi.

Əslində, xanın bu məktubdan xəbəri vardı, ancaq məzmununu bilmirdi. Və indi həmin məktubu oxumaq istəyirdi. Hər şeydən xəbərdar olmaq gərək idı ki, lazımi məqamlarda necə hərəkət edəcəyini bilsin.

– Orda yazdıqlarımı bilməsən də olar. Səni çağırmağımın da vacib səbəbi var. – Şah qızı bu yerdə susdu, nəsə fikirləşdi və handan-hana dedi: – İsmayılı aradan götürmək lazımdır. Onu taxta mən çıxarmışam, mən də ordan salacam!

Bu sözləri eşidəndə Xəlil xanı əsməcə tutdu. Dəlibaş bir adamı aradan necə götürmək olardı!? Qorçular bir yandan, mühafizə xidməti də bir tərəfdən. Bununla belə o:

– Necə? – deyə soruşdu və gözlərini Şah qızından yayındırdı.

– Şəhərdə şayiə yayın ki, yeni şah sünniləri başımıza çıxardır. Sufi babalarımızın ruhuna xəyanət edir. Çünki Sufi ocağını yaratmaq üçün nə qədər qanlar töküb, nə qədər canlar veriblər. Belə çıxır ki, babalarımız nahaq yerə canlarını fəda eləmişdilər? İsmayıl gör nə qədər qudurub ki, adətə də xilaf çıxıb, babalarımızın geyimini də kafirlərə qıyıb. İndi belə çıxır ki, kafirlərlə birgə geyinib, birgə məsciddə dua edəcəyik? Deməli, onun üçün taxt-tac babalarının ruhundan da, rəiyyətin canından da artıqdır. Qoy, qasidlər bu xəbəri hələ sağ qalan və bizə sadiq olan vilayət hakimlərinə də aparsınlar. Məktub göndərməyin. Ələ keçə bilər. Eləcə nə deyəcəklərini yadda saxlasınlar. Dərvişlər, əxilər də dükan-bazarı, çarşıları gəzib rəiyyətin fikirlərini öyrənsinlər və onlara təlqin eləsinlər ki, yeni şah tamam başını itirib, məzhəbimizə haram qatır. Bütün bunları tez bir zamanda, İsmayılın adamları duyuq düşməmiş eləmək lazımdır. Hər şey biz deyən kimi olandan sonra tam hücuma keçərik. Qoy, İsmayılı diriykən ölmüş bilsinlər. O öləndən sonra heç kim haqq-hesab çəkmək fikrinə düşməyəcək. Onsuz da düşmənləri çoxdur. Qohum-əqraba ondan tamam üz döndərib. Bilirəm, hər şeyi edən, onu qızışdıran fahişə arvadı Pəridir, bir də qotur anası... Ancaq onların da zamanı gələcək.

Pərixan xanım son sözləri qəzəblə dedi və Xəlil xan bu dəfə lap çox qorxdu. Ona görə də tərəddüdlə soruşdu:

– Bəs, onu necə edək?

Şah qızı başa düşdü ki, Xəlil xan qorxduğundan onu sınayır. Ona görə də qəsdən xəbər aldı:

– Nəyi onu?

– Onu da.

– Hə, onu? Çox asan. O ki, hər gün kef məclisi qurur. Sən də həmişə ordasan.

– Mən içki içmirəm, – Xəlil xanın səsi titrədi.

– İçirsən!

– And olsun ki...

– Mənim hər şeydən xəbərim var.

– Mən yalnız cariyələrlə məşğul oluram. Çünki mənim zövqümə inanır.

Pərixan xanım bu dəfə yarıtəbəssüm, yarıkinayə ilə onun sinəsinə vurdu:

– Hə, zənən məsələsində zövqünə söz ola bilməz...

Şah qızı bir az fikirləşəndən sonra qətiyyətlə dedi:

– Kəsəsi, içkisinə zəhər qatın.

Xəlil xan bir addım geri çəkildi və asta səslə dedi:

– Mən bunu edə bilmərəm.

– Edərsən. Unutma ki, bir gün səni də axirət dünyasına yola sala bilərlər.

Xəlil xan sevgilisinin nəyə eyham vurduğunu tam başa düşmədi, çünki Pərixan xanım ikibaşlı danışırdı. Onu bu vəziyyətdən Şah qızının özü çıxardı və hiyləyə əl atdı.

– Amma mən bunu istəmirəm. Öz başım heç, ondan qorxmuram. Amma sənə bir şey olsa, bu dərdə dözə bilmərəm. Qardaşım Süleymanın da müsibəti yadımdan çıxar, amma səninki yox! – deyə yalandan ağlamsındı.

Xəlil xan da sevgilisinin bu etirafından mütəəssir oldu, bununla belə, tərəddüdləri onu sakit buraxmadı. O da yaxşı başa düşürdü ki, dəlisov İsmayılın beyni qızsa, heç nəyə baxan deyil. Birdən hansısa cariyə xoşuna gəlmədi? Onda cəllad əlinin altındadır, hökm də onundur.

Xəlil xanın susqunluğunu görən Pərixan xanım başqa səmtdən hücuma keçdi:

– Elə bilirdim ki, məni sevirsən. Deməli, var-dövləti məndən üstün tutursan?

– Hansı var-dövləti? Mənim var-dövlətim sənsən.

Şah qızı yumşaldı və gözlərini süzdürərək, nəvazişlə xəbər aldı:

– Bəs onda səbəb nədir?

– Mən belə namərdlik edə bilmərəm. Vicdanım yol verməz.

– Bəs, o, bacı-qardaşlarının başını kəsəndə vicdanı hardaydı? Elə bilirsən, o dəli səni düşünür? O, bir boğazını, bir də özün bilirsən harasını düşünür, – Şah qızı qəzəblə dedi.

Xəlil xan Əfşar bir az fikirləşəndən sonra:

– Yaxşı. Amma gərək bunu edə biləcək bir adam tapaq. Bilirsən ki, şah özü şərab içməzdən əvvəl onu ya baş aşpaza, ya da öz yaxınlarından birinə içizdirir. Bəs, həmin yaxın adam mən olsam necə?

– Həmin vaxt aradan çıxmağa çalış.

– Necə? O dəlibaş məndən şübhələnə bilər. Onsuz da səksəkəlidir.

– Yalandan de ki, Qəzvin bazarına Yunanlardan və Romanlardan təzə cariyələr gətirilib. Onda səni buraxacaq. Nəfsinin quludur.

Xəlil xan yenə də tərəddüd elədi. O zaman Şah qızı qoynundan bir bükülü çıxarıb xana verdi və bu sözləri dedi:

– Al bunu. Bu zəhər adamı dərhal öldürmür, tədricən canını alır.

– Necə yəni?

– Əbu Nəsir Gilani yadındadır?

– Hə.

– Babamı o zəhərləmişdi.

– Hardan bildin?

Pərixan xanım:

– Öz qulaqlarımla eşitdim. Fikir vermişdinmi ki, Heydərlə necə mehriban idilər. Onu Heydər öyrətmişdi. Babamın vəziyyəti ağırlaşanda Heydər ondan soruşdu: "Əminsən ki, bu zəhər babamın axırın gətirəcək?" Gilani də belə cavab verdi: "Darıxmayın, əlahəzrət, bu, adamı tədricən öldürür..." Elə ona görə də babamı dəfn edər-etməz, onu o biri dünyaya göndərdik, xain şahzadənin arxasınca...

Bir qədər susduqdan sonra Şah qızı dediklərinə bunları da əlavə elədi:

– O da yadındadırmı, babam ondan iki il əvvəl də yorğan-döşəyə düşmüşdü, amma kəfəni yırta bilmişdi. Bu dəfə isə Heydər Gilanini, o, fars südü əməni saraya dəvət elədi. Halbuki Əli bəy – babamın baş həkimi və əczaxananın rəisi ondan yaxşı həkim idi. Məqsəd babamı aradan götürmək idi.

Bu sözlər Xəlil xanın ağlına batdı və deyilənləri başı ilə təsdiqlədi.

– Bunu şərab kuzəsinə tökərsən. Özün də, bayaq dediyim kimi, aradan çıxarsan. Çalış, əliboş qayıtma. Əgər lazım olsa, o dəlibaş üçün mənim kənizlərimdən ikisini götürərsən.

Xəlil xan bir az duruxduqdan sonra:

– Başa düşürəm, amma...

– Nə amma?

– Bəs o biri xanların günahı nədi?

– Günahları odur ki, İsmayılı qızışdıran onlardır. Onsuz da onların hamısını İsmayılın dalınca göndərməliyik. İşimizi indidən ehtiyatlı tutsaq yaxşıdır. Özü də hamı birdən zəhərlənsə, heç kimdən şübhələnməzlər. Təkcə Şah zəhərlənsə, biləcəklər ki, burda bir qəsd var.

Xəlil xan susdu. Naibüssəltənəyə elə gəldi ki, sevgilisi hələ də qorxur. Ona görə də:

– Yoxsa bir qaşıq qandan qorxursan? Canı verən də, alan da Odur, – deyə yuxarıya işarə elədi.

Bu sözlərdən sonra Pərixan xanım yaxına gəlib Xəlil xanın dodaqlarından öpdü. Bu o demək idi ki, artıq sual verməsin.

Onun öpüşləri bihuşediciydi. Mənim quraşdırdığım kameraya baxsanız, özünüz də bunun şahidi olarsınız...

Xəlil xan bu öpüşdən hayıl-mayıl oldu. Pərixan xanımın incə belini qucaqlayıb dodağını dodağına yapışdırdı. Doyunca öpəndən sonra nəfəsi kəsilə-kəsilə "sənin yolunda ölümə də gedərəm" – dedi və Pərixan xanımın atlas xalatının toqqasını açmaq istədi...

Xəlil xanın nəfsinə hakim ola bilməyəcəyini duyan Şah qızı onun əllərindən tutdu və ehtiraslı səslə pıçıldadı:

– Bu işi yerinə yetir, gəl. Gözləyəcəm...

Onun danışığı o qədər incə və şəhvani idi ki, Xəlil xan getmək istəməsə də, ayaqlarını sürüyə-sürüyə evdən çıxdı...

* * *

Xəlil xan Əfşar saraya gedə-gedə bu işi kimə tapşıracağını düşünürdü. O, "piri-mürşidim" dediyi adama necə qıya bilərdi, axı. Düzdü, bu sözləri ürəkdən demirdi. Ancaq hər kim idisə, xanədanın sahibiydi. O biri tərəfdən, Pərixan da düz deyirdi. Təzə şah əzəl-axır hamının axırına çıxacaqdı. Qardaşlarını, onların uşaqlarını, qohum-əqrabasını uf demədən öldürmədimi?

Şah İkinci İsmayılın tüklü sir-sifəti, sərxoşluqdan qızaran və hədəqəsindən çıxan gözləri xanın yadına düşdükcə canından üşütmə keçirdi. Elə qorxduğuna görə də, bir qərara gələ bilmirdi. Amma arada Şah qızının huri-mələyə bənzər, göyçək sifəti, ağappaq mərmər kimi sinəsi, qara zülfləri, qızğın öpüşləri də vardı...

O gözəllikdən siz də vaz keçməzsiniz. Necə ki, keçmirsiniz də...

"Ölmək ölməkdir, xırıldamaq nə deməkdir!" – Xəlil xanın son düşüncəsi belə oldu.

Şah sarayında geniş qonaqlığa hazırlıq gedirdi. İkinci Şah İsmayılın varisi, oğlu Sücəddinin anadan olmasının səkkiz ayı tamam olurdu. Şah hər ay oğlunun şərəfinə qonaqlıq verirdi.Xəlil xan da bundan istifadə etdi və cariyələrin əhatəsində olan Şaha yaxınlaşıb, qulağına nəsə pıçıldadı. Şah elə bir qəhqəhə çəkdi ki, cariyələr qorxularından büzüşdülər, çünki "ölüm mələyi" bəzən kimisə cəllad əlinə göndərəndə belə dəli kimi gülürdü, amma şahın üzündəki məmnun ifadəni görəndə onlar da gülməyə başladılar.

İkinci İsmayıl əli ilə Xəlil xanı hədələdi və dedi:

– Ay səni, şeytan. Az aşın duzu deyilsən, ha! Qonaqlıqdan sonra gedərsən.

Xəlil Xan şahın qulağına bunları pıçıldadı:

– Qurban sənə, bu qızılbaş əmirlərini tanımırsan? İndi çoxdan gəmilər gələn bərəni kəsdiriblər. Vaxtında çatmasam, Rum gözəlləri əldən çıxacaqlar. Dəqiq xəbər tutmuşam ki, bu dəfəkilərə gözəllikdə heç kim çatmaz. Özləri də təzətər, sütül nazəninlərdir.

Səfəvi hökmdarı əllərini yellədib:

– Yaxşı, get. Ancaq tez qayıt. Qonaqlığa hökmən özünü çatdır, – deyə yenidən qəhqəhə çəkdi.

– Baş üstə! – Xəlil xan dedi və təzim edərək hərəmxanadan çıxdı.

Sizi intizarda qoymamaq üçün deyim ki, hər şey Pərixan xanımın istədiyi kimi oldu. Şahın şərab kuzəsinə zəhər qatanın kimliyi heç zaman bəlli olmadı. Tarixi mənbələr də bu barədə susur. Bəlkə də bilərəkdən susurlar. Hər qaranlıq hadisənin üstündən pərdəni götürməyə ehtiyac da yoxdur. Əgər belə olsaydı, tarix də, həyat da maraqsız olardı. Tarix və həyat sirlərlə maraqlıdır. Amma bu hadisə necə baş verdi, bax, bunu təxmin eləmək olar...

* * *

Xəlil xan Əfşar sözünə əməl elədi və axşama yaxın beş gözəl cariyə ilə saraya gəlib onları xacələrə tapşırdı.

Həmin vaxt məclis qızışmış, şərab içənlərlə içməyənlər bir-birinə qarışmışdı. 24 qızdan ibarət nazəndələr dəstəsi rəqs edir, sazəndələr çalıb-oxuyurdular. Süfrədə quş südündən başqa hər çey vardı: quzu kababı, dolma kabab, dovğa, cürbəcür şərab və şərbətlər...

Xanədan sahibi Xəlil xanı görcək onu süfrəyə dəvət elədi. Xan ona yaxınlaşıb, qulağına nəsə pıçıldadı. Şah əlini yellədi, yəni bunlar indi onun üçün maraqlı deyil...

Məclisin sonunda Şah adəti üzrə hamamxanaya getdi, çünki cariyələri ora aparmışdılar və Şah üçün ayrılmış eyş-işrət otağında onu gözləyirdilər. Dəli İsmayılın cariyələrdən xoşu gəldi, onlardan birini Xəlil xana peşkəş elədi, qalanları ilə də səhərə kimi əyləndi...

İkinci gün Şahın ürəyi bulandı, qızdırmadan titrəməyə başladı, ishal oldu. Həkimlər elə bildilər ki, bütün bunlar şərabın təsirindəndir. Çünki şahda bu cür hallar tez-tez olurdu. Və elə zənn elədilər ki, bu hal da bir-iki günə keçib gedəcək. Amma bu baş vermədi və o, bir həftədən sonra, cümə günü dünyasını dəyişdi. Həmin şərabdan içənlərdən yalnız bir nəfər sağ qaldı: Həsən bəy Halvaçıoğlu. O da zorla ölümdən qurtula bildi. Çünki az içmişdi. Və sonradan şayiə yaydı ki, kimsə onlardan qabaq tiryək qutusunu açıb və ora başgicəllən-dirən, zəhərli həblər qoyub...

İkinci Şah İsmayılın vəziyyəti ağırlaşan kimi Pərixan xanım Şiraz hakimi Məhəmməd Mirzəyə qasidlə namə göndərdi, özü isə Xəlil xanı hücrəsinə çağırıb verdiyi sözə əməl elədi, yəni sevgilisini yatağına saldı. Daha burasını yazmıram, çünki vaxtım azdır, özünüz təsəvvür eləsəniz daha yaxşıdır.

Qasidin Məhəmməd Mirzəyə apardığı namə bu məzmunda idi: "Ehtiramlar olsun, şanlı qardaşıma, sevimli babamın böyük fərzəndi, şahzadə Məhəmmədə. Əziz qardaşım, özün bilirsən ki, mən həmişə haqq-ədalətin yanında olmuşam, çünki Allah-təalanın əsas adı Haqqdır. Ona görə də haqqı nahaqqın ayağına vermək olmaz. Versək, bizi qarğıyar və böyük müsibətlərə düçar edər. Necə ki, qardaşımız, qaniçən İsmayılı bağışlamadı. Əsiində, böyük fəzənd sən ola-ola səndən kiçiklərin taxtda oturması doğru deyildi. Amma babamın könlü mənə və İsmayıla idi. Mən zənən olduğuma görə, buna imkan verməzdilər. Dəlibaş İsmayılın Ərzurum qalasına hücumu və qələbələri hələ də babamın qəlbindən çıxmırdı. Biz də elə bilirdik ki, o, igid və mərd sərkərdədir. Tacı başına qoyandan, babamın qılıncını belinə bağlayandan sonra hansı yuvanın quşu olduğunu bildik və taxta çıxardığımız kimi taxtdan da saldıq. Çünki babamın qılıncı düşmənlərin yox, özümüzün başımızı kəsməyə başladı. Heydər Mirzənin müsibəti və saxtakarlığını isə özün də görmüşdün.

Əziz qardaşım, taxt-tac səni gözləyir. Durmadan Qəzvinə gəl və halal taxtında otur. Səfəvi xanədanı sənsiz bir gün də duruş gətirə bilməz. Nə qədər ki canım sağdı, taxt-tacı sənin üçün qorumağa, həmişə sənin yanında olmağıma söz verirəm. Qurana və babamın cənnətməkan ruhuna and içirəm ki, dediklərimin hamısı həqiqətdir və inşəallah, Qəzvinə gəlib, taxta oturandan sonra

özün bunu görəcəksən. Şöhrətin əbədiyyən uca, məqamın yüksək olsun! Səni sevən və sənə sədaqətli bacın Pərixan...”

Məhəmməd Mirzə Şiraz bağlarını gəzərkən məktub ona çatdı. O, Qəzvində baş verən qanlı hadisədən xəbərdar idi, özünün və ailəsinin də qətlə yetiriləcəyindən qorxduğuna görə səsini də çıxarmırdı. Düzdü, iki gün əvvəl Qəzvindəki sahib-xəbərlər Şahın ölüm yatağında olduğunu xəbər vermişdilər. Bununla belə, hələ də ona inanmaq istəmir və bu xəbərlərin şayiə kimi bir şey olduğunu, yaxud da İsmayıl Mirzənin onu sınadığını güman edirdi. Amma Pərixan xanımın məktubu ona çatanda deyilənlərin həqiqət olduğuna inandı və əhli-əyalını götürüb Məşhədə – İmam Rzanın məqbərəsini ziyarətə getdi, ancaq şahlıq tacını başına qoymağa tələsdiyindən, Ərdəbilə getmədi. Daha doğrusu, vəziri Mirzə Salman və zövcəsi Xeyrənnisə bəyim buna imkan vermədilər. Onların düşüncəsinə görə, taxt-taca dərhal sahib olandan sonra müqəddəs şəhərə getmək olar. “Ərdəbil qaçmır, ancaq taxt-tac qaçıb başqasının yanına gedə bilər!” – Xeyrənnisə bəyimin fikri belə olmuşdu.

Zəif iradəli Məhəmməd Mirzənin bununla razılaşmaqdan başqa əlacı qalmamışdı. Ancaq Ərdəbildə uyuyan babaları bunu Məhəmməd Mirzəyə bağışlamadılar...

O, böyük oğlu Həmzəni özü ilə götürdü, amma kiçik oğlu, Herat hakimi Abbas Mirzəni Xorasanda saxladı. Abbas Mirzə Herat hakimi olsa da, əsas işləri onun lələsi, “qara” ləqəbli Əliqulu xan görürdü...

* * *

Şah İkinci İsmayıl öldürüləndən sonra hakimiyyət yenə də naibüssəltənə Pərixan xanıma keçdi. Və o, həm saraydakıların, həm də rəiyyətin gözünü qorxutmaq üçün onun hakimiyyətinə qarşı çıxan bəzi xanları və əmirləri tikə-tikə doğratdırıb Qəzvin darvazalarının ucluqlarına keçirtdi. Səhərisi gün o, xanədana sədaqətli xanları və əmirləri Çehelsütuna çağırdı və üzünü onlara tutaraq dedi:

– Mənim naibliyimi şübhə altına alan, qadınlığımı aşağılayan bu köpəklər ölümdən də betərinə layiqdirlər. Amma mən hakimiyyətdə həmişəlik qalmaq istəmirəm. Ona görə də Şiraz hakimi, babamın böyük oğlu Məhəmməd Mirzəni taxt-taca sahib durmağa çağırıram.

Pərixan xanım Şiraza qasid göndərdiyini demədi, çünki xanların və əmirlərin reaksiyasını öyrənmək istəyirdi.

Yığıncaqda təkəli, türkman və əfşar tayfalarının vuran əlləri iştirak edirdilər. Herat və Məşhəd əsilzadələrindən bəziləri də ordaydılar. Şamlı və ustaclı tayfasından heç kim həmin məclisə dəvət olunmamışdı. Ziyad xan Qacar da Məhəmməd Mirzənin hakimiyyətə gəlməsində maraqlıydı. Ona görə də birinci sözü o dedi:

– Nəvvab Pərixan sultan düz deyir. Mən də elə bilirəm ki, Məhəmməd Mirzənin xanədana sahib çıxması doğru olardı. Çünki böyük oğul odur. Həm də daim Şah Təhmasibin buyruqlarına can-başla əməl edib. Naqis hərəkətlərdə də adı hallanmayıb.

Zülqədər tayfasından bir neçə nəfər yığıncaqda iştirak edirdi. Onlardan biri də Şah İkinci İsmayılın vəziri Vəli Sultan Qalxançıoğlu idi. Məhz o, Ziyad xana etiraz elədi. Çünki Məhəmməd Mirzənin hakimiyyətə gəlməsini istəmirdi. Məhəmməd Mirzə onun yerinə Şiraza hakim təyin olunduğu üçün. O biri tərəfdən də o, Şah İkinci İsmayılın oğlu, səkkiz aylıq Sücəddinin (Şah Sucanın) lələsi, şahın da qaynı idi və elə zənn edirdi ki, Sücəddin şah elan olunarsa, hakimiyyəti o özü idarə edəcək.

– Ağalar, mən bunun əleyhinəyəm. Çünki, adətə görə, bir şah öləndə onun yerinə oğlu taxta çıxır. Ona görə də Sücəddini şah elan etməliyik.

Amma Xəlil xan Əfşar buna etiraz elədi:

– Dəli olmusan, yoxsa tiryək atmısan!? Səkkiz aylıq uşaq necə şah ola bilər? Özü də naibüssəltənə Pərixan xanımdır, hökm də onundur. Nə desə, o da olmalıdır.

Onun bu sözünün qabağına Vəli Sultan dedi:

– Mən nə deyirəm ki, nəvvab Pərixan xanımın hökmünü biz də qəbul edirik. Qəyyum o olsun, amma sikkələr Şah Sücəddinin adına kəsilsin.

Vəli Sultanın Pərixan xanıma yarınmağının səbəbi vardı. O, yerini şirin salmaq istəyir və gələcəkdə Şah qızının köməyilə hansısa vilayətə hakim göndərilməsini arzulayırdı.

Pərixan xanım, heç şübhəsiz, bunu bilirdi. Ona görə də Vəli Sultanın dediklərilə razılaşdı, amma sikkəni körpə şahın yox, öz adına kəsdirdi.

Naibüssəltənə elə güman edirdi ki, zəif iradəli qardaşı Məhəmməd Mirzəni idarə eləmək onun üçün asan olacaq. Amma o, iki amili unutmuşdu: ondan da hikkəli və gözəllikdə geri qalmayan Xeyrənnisə bəyimi və gələcək şah arvadının qəyyumu, dilinə dil verəni (ilana zəhəri kərtənkələ verən kimi) Mirzə Salmanı. Çünki o, Xeyrənnisə bəyimi xəbərdar eləmişdi ki, sarayda ən təhlükəli adam Pərixan xanımdır və ondan çəkinmək lazımdır. Fürsət düşəndə isə o biri dünyaya göndərilməlidir: kəfənsiz-filansız.

Şər dillərin dediyinə görə, Məhəmməd Mirzə çox zəif olduğundan Xeyrənnisə bəyimi Mirzə Salman yataqda razı salırdı. Əndamı yekə, iri, ağ sinəli Xeyrənnisə bəyimdən keçmək hər oğulun işi deyildi. O da qala fars vücudlu, amma şirin dilli Mirzə Salman ola. Nə bilmək olar, bəlkə doğrudan da beləydi...

Maraqlı hadisələr, hələ bundan sonradır, əzizlərim.

* * *

Məhəmməd Mirzə əhli-əyalı ilə birgə Qəzvinə gəldi. Adət üzrə yeni şahı və onun əqrabasını davulçular və kərənaylar dəstəsi, eləcə də dizçökənlər qarşıladı və onu toy-büsatla Çehelsütuna gətirdilər.

Taci-humayuna girməzdən əvvəl Mirzə Salman Xeyrənnisə bəyimin qulağına bunları pıçıldadı: "Tacqoyma qurtarandan sonra o ifritəylə mehriban davran, yalandan gülümsə və təzim elə!"

Xeyrənnisə bəyim də o deyən kimi elədi. Pərixan xanıma təzim elədi, ancaq gözləri bir-birinə sataşanda hər ikisinin içindən bir gizilti keçdi, gözləri par-par parıldadı, ov üstündə dalaşan canavarlar kimi dişləri şaqqıldadı: lap kinolardakı kimi...

Bu kadrı gördünüz? Heç olmasa təsəvvür edin...

Ancaq çox keçmədi ki, Məhəmməd Mirzənin buynuzları göründü. Əslində isə baş onun, buynuz Xeyrənnisə bəyimin idi. Məhdi Ülya Sultan (yol göstərən) ləqəbi qazanmış Xeyrənnisə bəyimin, onun anasının və Mirzə Salmanın təhriki ilə səfəvilər şahı ən yaxın adamlarının qətlinə fərman verdi. Halbuki o, taxta çıxmazdan əvvəl söz vermişdi ki, hər bir işi Pərixan xanımla məsləhətləşəcək.

İlk olaraq İkinci İsmayılın bir yaşlı oğlu Sücəddin taxt-taca təhlükə yaratdığına görə boğularaq öldürüldü.

Sonra o, ən qorxduğu xanlardan birini – Pərixan xanımın dayısı, Şəki hakimi Şamxal sultanı öldürtdü. Şamxal sultanın bel bağladığı və güvəndiyi əfşarların bir neçəsi ov məqsədilə onu seyrangaha apardı və qətlə yetirdilər. Sonradan isə şayiə yaydılar ki, guya bu, təsadüf nəticəsində baş verib.Təsadüfən açılan güllə ova yox, xana dəyib.

Bu hadisə Pərixan xanıma çox pis təsir elədi. Çünki təsadüfi gülləyə inanmadı və burda bir qəsd olduğunu güman elədi. Ona görə sevgilisi Xəlil xanı günahlandırdı və onunla aralarında olan münasibət soyumağa başladı. Özü isə evinə çəkilib dərd çəkməyə başladı. Anası Sultanağa xanım bir dəfə yaxın rəfiqələrinə ürək ağrısı ilə pıçıldamışdı: “Mənim gül qönçəm gündən-günə solur!..”

Xeyrənnisə bəyim Xəlil xanla Pərixan xanım arasındakı soyuq münasibətdən istifadə eləmək qərarına gəldi. Necə deyərlər, aşiq-məşuqluq dövranı keçmişdi...

* * *

Bağçada gəzişərkən:

– Eşitdiyimə görə, o qancıqla Xəlil xanın arası dəyib, – deyə Xeyrənnisə bəyim ərinə astadan söylədi.

– Nə olsun ki? Bunun məsələyə nə dəxli? – deyə Şah Məhəmməd soruşdu və cavab gözləmədən həyətin ortasındakı çarhovuza tərəf getdi. Çarhovuzu yenidən qurmuşdular. Əvvəlkinə nisbətən daha böyük idi. Şahın ağlı Herat fəvvarələrinə getmişdi, elə bilirdi ki, hovuz böyük olsa, su da güclü fontan vurar, amma anlamırdı ki, o fəvvarələrdən su ona görə fontan vura bilir ki, yaxınlıqdakı bolsulu dağ çaylarından axıb gəlir və təzyiqi çox yüksəkdir.Burada isə dağlar çox uzaqdaydı. Hava da isinmişdi, bol suya ehtiyac vardı. Su fontan vurmasa da, dağların yelini çəkib gətirirdi. Şah Məhəmməd arvadının məzəmmətli baxışlarını görməmək üçün arxasını ona tərəf çevirdi və əyilib çarhovuzdan su götürüb üzünə vurdu.

Xeyrənnisə bəyim yaxına gəlib:

– Vəhşi atları vaxtında ram eləməsən, səni yerə çırparlar, – deyə səsinin tonunu bir az yüksəltdi.

Əslində bu ifadə Mirzə Salmana məxsus idi.

Şah Məhəmməd arvadına tərəf döndü və dedi:

– Hər atı ram eləmək olmaz. O da ki, ola Pərixan.

– Onda onu açıb buraxmaq lazımdır, ya da...

– Ya da nə? – deyə Şah Məhəmməd qızarmış gözlərilə arvadına baxdı.

– Özün bilirsən.

Ürəyiyumşaq Səfəvi hökmdarı dinmədi, həyəcanını gizlətmək üçün bağçaya tərəf getdi və orada sıra ilə əkilmiş qızılgüllərə baxdı. Arxaya dönmədən:

– Mən bunu edə bilmərəm. Əhli-rəiyyət nə deyər? – sanki öz-özünə pıçıldadı.

Xeyrənnisə bəyim dilinə şirinlik qatdı:

– Bunun üçün işi sakitcə görmək lazımdır. Onda səsi də çıxmaz.

– Necə?

– Qancığı sahibinə boğdurarlar, düzdürmü?

Əslində, Məhdi Ülyanın özünün də Xəlil xanda gözü vardı. Yaraşığı məmləkətə yayılmış Xəlil xan isə ona itaət eləmirdi... Çünki qəlbi, könlü başqasındaydı. İndi əsl məqamıydı.

Məhəmməd Xudabəndə bu sözləri eşidəndə bərk narahat oldu. Onun yolunun üstündəki əngəlləri aradan götürən, hakimiyyətə gətirib, taxt-tacı ona təhvil verən bacısına necə qıya bilərdi?

Şahın üzündəki tərəddüdü görən Xeyrənnisə bəyim:

– İki qardaşını öldürtdürən bir ifritə üçüncüsünü də uf demədən öldürtdürər. Bunumu istəyirsən?

Şah nə deyəcəyini bilmədi, ona görə də dodaqaltı mızıldandı:

– Bəyim, amma...

Xeyrənnissə bəyim səsini azca qaldırdı:

– Amması-zadı yoxdur! Bu işi yubatmaq olmaz. Xəlil xanı saraya çağırtdır.

Məhəmməd Xudabəndə hikkəsindən və gözəlliyindən alışıb-yanan zövcəsinin sözündən çıxa bilməzdi. Heç qayınanası da qızından geri qalan deyildi. Arvadının sözünə baxmaqdansa, "dəli şeytanın" sözünə baxsaydı, daha yaşı olardı. Amma indi dəli şeytan yeri deyildi. Ona görə də mühafizə rəisini yanına çağırıb əmr elədi:

– Xəlil xana buyurun ki, durmadan saraya gəlsin.

* * *

Xəlil xan saraya çağırılması xəbərini alanda ağlına qəribə fikirlər gəldi, bircə Pərixan xanımı öldürməkdən başqa. Çünki belə bir işin ona tapşırılacağını heç vaxt güman eləməzdi. Ona görə də, fikirləşdi ki, yəqin, Səfəvi hökmdarı onu hansısa vilayətə hakim göndərmək istəyir. Çünki əfşarların və şəxsən onun özünün xanədan qarşısında xidmətləri böyük idi.

Eşiakağası Cahangir bəy dedi ki, zilləhla Məhdi Ülya onu təxti-humayında gözləyirlər.

Xəlil xan içəri keçdi. Məhdi Ülya Şahın yanında oturmuşdu və heç nə olmayıbmış kimi, söhbət edirdilər. Şah adi qızılbaş paltarındaydı: başında börkü, əynində atlas cübbəsi, ayağında başmağı. Xeyrənnisə bəyim al qırmızı xalatdaydı.

Ayağında məsti, başında ağımtıl örpəyi vardı, qızıl papağından sallanan almazlar pəncərədən düşən işıqda bərq vururdu və Şah arvadı arada bir

qəhqəhə çəkib gülürdü də. Onun gülüşləri o qədər işvəliydi ki, dağ kimi kişiləri də yerindən oynada bilərdi, bircə Xəlil xandan başqa.

Xəlil xan dizini üç dəfə yerə atdı, üç dəfə də alnını döşəməyə toxundurdu, sonra ayağa qalxıb yaxına gəldi, hər ikisinə təzim elədi və şahın əlindən öpdü.

– Bilirsən səni niyə çağırtdırmışam? – deyə Məhəmməd Xudabəndə onu başdan-ayağa, ayaqdan-başa süzəndən sonra söhbətə başladı.

– Əmrinizə müntəzirəm, şahım, nə əmr etsəniz, qəbulumdur.

– Bilirsən ki, mən əfşarların sədaqətinə və sözübütövlüyünə inanıram. Çünki bunu dəfələrlə sınamışam. Səni bu tayfanın ən hörmətli və izzətli şan sahibi hesab edirəm.

Xəlil xan bu xoş sözlərdən məmnun oldu və sidq-ürəkdən:

– Piri-mürşidimizin ömrü uzun, hakimiyyəti əbədi olsun! – dedi.

Şah Məhəmməd bir qədər susandan sonra dilləndi:

– Mən istəyirəm ki...

Xeyrənnisə bəyim onun sözünü kəsdi:

– Biz... biz istəyirik ki, sənə çox vacib bir iş tapşıraq.

Xəlil xana elə gəldi ki, öz gümanında yanılmayıb. Doğrudan da onu ya Gilana, ya da Şiraza hakim göndərmək istəyirlər. Çünki son zamanlar həmin əyalətlərdə narazılıq vardı, qarmaqarışıqlıq hökm sürürdü. Məhəmməd Mirzə Şirazı tərk edəndən sonra orda vəziyyət daha da pisləşmişdi.

– Buyurun, Ülya həzrətləri, – deyə Xəlil xan üzünü ona tərəf döndərdi.

Xeyrənnisə bəyim istehzalı baxışlarını onun üzərində gəzdirib, qəfil xəbər aldı:

– Pərixan xanımı yaxşı tanıyırsan, eləmi?!

Bu sualdan Xəlil xanın rəngi ağappaq ağardı, dizləri əsdi. Amma özünü ələ ala bildi.

– Bəli, xanım, yaxşı tanıyıram, – dedi, çünki başqa cür cavab versəydi, axmaq səslənərdi.

– Onu da bilirsənmi ki, taxt-tac üçün ən təhlükəli odur, şeytan cildinə girmiş məxluq?

Xəlil xan dinmədi. Xeyrənnisə bəyim isə davam elədi:

– Az işdən çox iş törəyər. O, bütün xanədana təhlükədir. Onu öz evində boğarsan. Çox atılıb-düşsə, cəlladı çağırarsan, amma elə et ki, bu işin səsi çıxmasın.

Xəlil xan qorxa-qorxa soruşdu:

– Bəs şahımız buna nə deyir?

Xeyrənnisə bəyim:

– Bu, şahın qərarıdır, – ötkəmliklə dedi və qətiyyətli baxışlarını ərinə tərəf döndərdi.

Məhəmməd Xudabəndə bu baxışlardan üşündü, büzüşdü, çiynini çəkdi. Məhdi Ülya onun bu hərəkətinə sərt reaksiya verdi və Xəlil xana ötkəmliklə:

– Get, bu işi yoluna qoy! Özün də cəld tərpən!

Xəlil xan yenidən Məhəmməd Xudabəndəyə baxdı. Şah da arvadının dediyini təkrar elədi, amma səsi çox zəif çıxdı:

– Get, deyilənləri elə.

Məhdi Ülya məmnun halda:

– Onun evini yaxşı tanıyırsan. O məlun qadın saraydan qovulandan sonra sənin ora tez-tez gedib-gəldiyini görüblər. Elə bu axşam məsələni həll elə, – dedi.

Xeyrənnisə bəyim bunu elə tonda söylədi ki, Xəlil xanın “baş üstə, xanım” deməkdən başqa əlacı qalmadı və onlara təzim edib dalı-dalı çıxdı. Çehelsütundan çıxanda o, yerimirdi, ayağını sürüyürdü.

Xeyrənnisə bəyim istehzalı gülüşlə arxadan atmaca da atdı:

– Ehtiyatlı ol, xan. Dünya şeytanlarla doludur. Ya onun qara başı gedəcək, ya da...

Məhdi Ülya sözünün dalını gətirməsə də, Xəlil xan şah arvadının kimi nəzərdə tutduğunu yaxşı anladı. Əlbəttə ki, onun özünü.

Xəlil xan Əfşar dərdini kimə deyəcəyini bilmədi. Yolla gedə-gedə dağı arana, aranı dağa daşıyır, amma bir fikrə gələ bilmirdi. Araları soyusa da, o, Pərixan xanımı sevirdi. Özü da aralarında uzun illik könül dostluğu vardı. Məsələnin başqa tərəfi də qəribəydi. Məhəmmədlə Pərixan başqa-başqa arvadlardan olsalar da, ataları eyni idi axı. Özü də Pərixan xanım Məhəmməd Mirzənin hakimiyyətə gələn yolunu açmaq üçün İsmayıl Mirzəni o dünyaya göndərmişdi. Amma bir məsələ də vardı. Pərixanla Məhəmməd Mirzə bir-birilərini bir, ya iki dəfə görmüşdülər. O da uşaqlıqda Şiraz meşələrində ov zamanı. Uşaqları ova aparmırdılar, burası düzdü, ancaq ovdan xeyli kənarda alaçıqlar düzəldir, yaxud çadırlar qurur və arvad-uşağı orda saxlayırdılar. Qardaş-bacı sevgisi onlara yad olsa da, qanları ki, eyniydi.

Bu, yalnız Xeyrənnisə bəyimin işi ola bilərdi. Çünki Pərixanla yola getmədiklərini çoxu bilirdi. Mələk libası geyinmiş iki şeytan bir-birilərilə açıq-aşkar rəqabət aparırdı. Məhdi Ülya ilə bayaqkı söhbət də bunu sübut edirdi.

Xəlil xan öz sevgilisinə necə qıya bilərdi, axı. Sevgili bir yana, gözəl bir xanımı, özü də şah qızını həyatından eləmək allahsızlıq və qansızlıq idi. Burası düz. Bəs, bu işi eləməsə necə? Deməli, özü o dünyaya göndəriləcəkdi. Şaha qarşı üsyanın da axırı yox idi. İnsanlar çiy süd əmiblər, elə onun qohum-əqrabası da. Şah öz əzizlərinə qıyırsa, onları niyə əfv eləməlidir ki?

Bəs, bu işi niyə məhz ona tapşırmışdılar? Burası müəmmalıydı. Bəlkə ona görə ki, Xeyrənnisə bəyim Pərixanıma elə od qoymaq istəyirdi ki, tüstüsü təkcə onun başından yox, Qəzvindəki evlərin bütün bacalarından çıxsın? Ya bəlkə Xəlil xandan bu yolla qisas alırdı? Çünki əfşarların vuran əlinə, düşünən beyninə çox him-cim eləmiş, eyham vurmuş, amma öz istəyinə cavab almamışdı. İndi Pərixan xanım aradan çıxandan sonra arzusuna çatacaqdı. Olsun! Xeyrənnisə bəyim özü də yaraşıqlıydı, özü də şah arvadıydı. Şah arvadının oynaşı olmaq da pis olmazdı.

Bəs, könül bağlılığı, bəs eşq?!

Xəlil xan nə qədər elədisə də, bir qərara gələ bilmədi və bu ziddiyyətli fikirlər içində o qədər düşünüb-daşındı ki, Pərixan xanımın evinə necə çatdığını hiss eləmədi.

Onu qapıda naibüssəltənənin eşikağası qarşıladı və adəti üzrə, Pərixan xanımın otağına müşayiət elədi...

* * *

Biz orada qalmışdıq ki, Pərixan xanım Xəlil xanın gözlərinin içinə baxıb, parıltılı gözlərilə, titrək və ehtiraslı səslə pıçıldadı:

– Sənə bir sirr açmalıyam, sevgilim!

– Nə sirr? – deyə Xəlil xan çaşqınlıqla soruşdu, sanki bir sehrə düşdü, ruhu bədənindən pərvazlanıb uçdu.

– O sirr ki...

Bax, bu yerdə Pərixan xanım, parıltılı və sürüşkən dərisi, mavi gözləri, haça dili olan əfsanəvi ilana bənzədi. Xəlil xanın bədəninə dolandı. Onun sürüşkən və soyuq dərisi Xanı elə sıxdı ki, nitqi tutuldu, səsi çıxmadı və boğula-boğula soruşdu:

– Nə?!

Pərixan xanımın gözləri parıldadı.

Bu mənzərəni görə bildiniz? Görmək üçün gözlərinizi yumub təsəvvür edin. Möhtəşəmdir! Pərixan xanım başında tacı olan gözəl ilana çevrilir və haça dillərilə Xəlil xanın boyun-boğazını, qulaqlarının dibini yalayır. Sonra sürüşüb yerə düşür və yenidən insan cildinə qayıdır...

– O sirr ki, yalnız ikimizə aiddir: sənə və mənə, – Pərixan xanım nazik, qırmızı dili ilə xanın boğazını yaladı, isti nəfəsi onun üzünü qarsdı.

– Axı nə sirdir o!? Desənə! – deyə xan pıçıldadı.

Pərixan xanım sevgilisinin böyür-başına fırlana-fırlana, yenə də ehtiraslı səslə pıçıldadı:

– O sirr ki, bətnimdə sənin balanı gəzdirirəm...

Xəlil xan bunu gözləmirdi, ona görə də tamam çaşbaş qaldı. Nə deyəcəyini, necə hərəkət edəcəyini bilmədi. Ona görə də ilan vuran kimi geri atıldı, Pərixana sınayıcı, həm də qınayıcı nəzərlə baxdı. “Görəsən, düz deyir?” – deyə ürəyində fikirləşdi.

– Hə, sevgilim. Bizim yavrumuz olacaq. Mən cəhənnəm, ona necə qıya bilərsən!?

Bu dəfə Şah qızı ilan cildindən çıxıb dişi canavar görkəmi aldı. Çünki üstünlük ondaydı.

Təbii, Pərixan xanım yalan deyirdi. Amma bu müqəddəs yalan idi. Çünki heç kimin əleyhinə yönəlməmişdi, yalnız hər ikisini xilas etmək üçün düşünülmüşdü. Və Şah qızı bu sözü elə qətiyyətlə dedi ki, ona şübhə eləməyə yer də qalmadı.

– Günah hər ikimizindir, sevgilim, ona görə də bu vəziyyətdən birgə çıxmağa çalışmalıyıq, – Pərixan xanım heç nə olmayıbmış kimi dedi və atlas libasının kəmərini açıb yerə saldı, köynəyi sürüşüb yerə düşdü, sanki qızıl ilan qabıqdan çıxdı. Onun ağappaq mərmər bədəni Xəlil xanın gözlərini qamaşdırdı...

Pərixan xanım qollarını Xəlil xanın boynuna doladı.

Xanın bütün əzaları titrədi, bu şeytani gözəllikdən vaz keçə bilmədi. Əlləri ixtiyarsız olaraq sevgilisinin belini qucaqladı, dodaqlarını onun dodaqlarına

yaxınlaşdırdı. Amma Şah qızı onu ehmalca, xətrinə dəymədən özündən kənarlaşdırdı və nəvazişlə:

– İndi yox, məsələ həll olandan sonra, – dedi və taxtın başına atdığı atlas xalatını götürüb geyindi, köynəyi isə yerdəcə qaldı.

Xəlil xan atlas xələtin altından boylanan bir cüt məməyə iştahla baxdı.

Pərixan xanım onu daha da qızışdırmaq və ehtizaza gətirmək üçün incə addımlarla buxarıya tərəf getdi, aşağı əyilib sobaya bir-iki odun atdı. Xəlil xan qarşısındakı mənzərədən bihal oldu.

Şah qızı dikəldi, sevgilisinə tərəf dönüb:

– Hövsələsiz olma. Bu iş bitəndən sonra sənin hər istəyinə can-başla cavab verəcəm, – dedi.

Xəlil xan ona sualedici nəzərlərlə baxdı, yəni "Necə; vəziyyətdən necə çıxaq?"

Naibüssəltənə onun baxışlarını göydəcə tutdu:

– Mən çıxış yolunu bilirəm, əzizim. Qoca kənizim, uşaqlıq dayəm, onsuz da əldən düşüb, qocalıb. Arxa otaqdadır. Onu boğub öldürərsən, sonra palaza bürüyərik. Amma elə eliyərik ki, mənim sarı ipək örpəyim çöldə qalsın. Güya sən məni örpəyimlə boğmusan. Qorçuları çağırıb deyərsən ki, bu məlun qadın itaət eləmək istəmirdi və məcbur olub boğub öldürdüm. Mənim üzümü görmək onlara yasaq olduğundan, meyidə açıb baxmayacaqlar. Sən də onu elə yerdə basdırarsan ki, bir də onu heç kim tapa bilməsin, heç qəbirqazan da.

Xəlil xan sevgilisinin bu təklifini götür-qoy eləmək üçün otaqda gəzişməyə başladı və adəti üzrə bığlarını çeynəməyi də unutmadı.

Pərixan xanım onu ürəkləndirmək üçün yaxına gəldi, əlini onun çiyninə, xanın əlini isə qarnının üstünə qoydu və dedi:

– Hiss edirsən, tərpənir. Sənin təmasını duyan kimi tərpəndi.

Xəlil xan, təbii, heç nə hiss eləmədi, amma Şah qızının xətrinə də dəymədi, eləcə susdu.

Pərixan xanım:

– Bu, hər ikimizin xeyrinədir, əzizim. İşlər yoluna qoyulandan sonra mən başqa məhləyə, yaxud başqa şəhərə köçərəm və səninlə ürəyin istədiyin qədər görüşərik. Nə deyirsən?

– Düzü, nə deyəcəyimi bilmirəm, çünki heç zaman bunu ağıl eləməmişəm.

Şah qızı:

– Bu, ikimizi də xilas edər, – dedi.

Əslində, bu təklif Xəlil xanın ürəyindən idi. Şah qızı, doğrudan da, tədbirliydi.

Bir az düşünəndən sonra Xəlil xan börkünü çıxardı, qılıncını açıb yerə qoydu və qoca kəniz yatan otağa keçdi.

Amma kəniz elə də qoca deyilmiş və Xəlil xan onunla əlbəyaxa olandan sonra cansız bədənini palaza bürüdülər...

Pərixan xanım Xəlil xana dedi:

– Bu xəbəri o ifritəyə deyəndə özünü elə aparарsan ki, guya sevgilini öldürməkdən peşmansan, amma bunu eləməyə də məcbur idin. Çünki bu, xanədanın rahatlığı üçün vacib idi. Sorğu-sual eləsə, belə də deyərsən...

Xəlil xan çölə çıxanda şah qızı arxasınca bunları dedi:

– Soruşub-eləməsə də deyərsən...

* * *

Xəlil xan Pərixan xanımı "öldürəndən" sonra saraya gəldi və Şah qızının istədiyi kimi də elədi, yəni Məhdi Ülyanın suallarına gərəkli cavabları verdi.

– Onu gəbərtdinmi? – deyə Xeyrənnisə xanım istehzalı tonda xəbər aldı.

– Ölən adam haqqında, özü də Şah qızı barədə bu cür danışmaq olmaz! – Məhəmməd Xudabəndə etiraz etmək istədi, amma arvadının sərt baxışlarını görüb, mızıldandı: – Bu küfrdür!

Xəlil xan:

– Bəli, xanım. Siz deyən kimi də elədim, – dedi və başını aşağı saldı.

– Deyəsən, peşmansan?!

– Şahbanunu tam əmin edirəm ki, əmri canla-başla yerinə yetirdim.

– Bəs niyə bikefsən?

– Sadəcə, mən döyüş meydanında adam öldürməyi xoşlayıram. Çünki döyüş meydanında öldürülənlə, köməksiz adamı öldürməyin arasında fərq olmamış deyil.

Xeyrənnisə xanım bərkdən qəhqəhə çəkdi:

– Zavallı! Onun elə bir silahı vardı ki, istənilən vaxt işə sala bilərdi.

– Yəqin ki, elədir, ülya həzrətləri.

Xəlil xan əcnəbi ölkələrdə çox olduğundan xanımlarla necə rəftar eləməyi xoşlayır və onlara "ülya həzrətləri" deyə müraciət edirdi, amma şahbanuya bunu ürəksiz dedi.

– Ətraflı danışsana. O qan...

Məhəmməd Xudabəndə bu zaman dözmədi və az qala, bağırdı:

– Sən onun ölüsündən də əl çəkməyəcəksən!?

Xeyrənnisə bəyimin üzündəki təbəssüm yox oldu. Bununla belə, soruşdu:

– Bilmək istəyirəm ki, son sözü nə oldu?

– Son söz deməyə, imkanı çatmadı, bəyim.

Şahbanu yenidən qəhqəhə çəkdi və dedi:

– Yəni bu qədərmi tez?

Məhəmməd Xudabəndə bu yerdə yenə də dözmədi:

– Ölən adama gülməzlər! Bu nə hərəkətdir!? – deyə kişiləndi.

– Sənə hansı yaxşılığı etdiyimi sonra bilərsən, şahım, – tələsmə! – Xeyrənnisə bəyim ədayla söylədi, sonra Xəlil xana tərəf dönüb: – Yaxşı, get. Sənin bu işin mükafatsız qalmayacaq, – çoxmənalı şəkildə dedi.

Xəlil xan təzim edib dalı-dalı saraydan çıxdı.

Amma hiyləgər Xeyrənnisə bəyim xanın hərəkətlərindən şübhələndi və o gedəndən sonra qorçubaşı Ələmqulu bəyi yanına çağırdı:

– Sən onun ölüsünü özün gördünmü?

– Mən onun ipək örpəyini gördüm.

– Nə rəngdəydi?

– Sarı, – deyə qorçubaşı inamla cavab verdi.

Xeyrənnisə bəyim Pərixan xanımın sarı ipək örpək örtməyi sevdiyini bilirdi, əri tacı başına qoyanda da Şah qızı həmin örpəyə bürünmüşdü. Ona görə o da qəsdən sarı ipək örpək örtmüşdü.

Bununla belə, xəbər aldı:

– Onun basdırıldığı yeri göstərə bilərsən?

Qorçubaşı:

– Meyidi ora aparandan sonra Xəlil xan bizi geri göndərdi, "daha sizlik bir iş qalmadı" dedi və qulamlara qəbir qazmağı tapşırdı.

– Bəs həmin qulamlar hardadır?

– Dünəndən bəri onları görən olmayıb, – qorçubaşı cavab verdi.

Xeyrənnisə bəyim:

– Yaxşı, mürəxxəssən, – deyəndən sonra qorçubaşı çıxdı.

Məhdi Ülya öz hücrəsinə çəkilib düşünməyə başladı. Qulamların yoxa çıxmasında müəmmaların olması şübhəsiz idi. Ona görə də anası ilə məsləhətləşməyə ehtiyac duydu. Anası Seyyidə xanım onun bu narahatlığına şərik çıxdı və dedi:

– Pərixanın qaldığı evə adam göndər, qoy, oranı pusquya götürsünlər. Mirzə Salmana da xəbər elə, vəziyyətdən hali olsun. Bəlkə o da nəsə öyrənə bildi...

* * *

İş burasındadır ki, Xəlil xan bərayi-ehtiyat, qulamları öldürüb elə həmin qəbrə atmışdı ki, heç kim Pərixan xanımın basdırıldığı yeri bilməsin. Ola da bilərdi ki, cənazəni qəbrə qoyanda onun üzü açılmış və qulamlar onun Şah qızı olmadığını bilmişdilər. Hər halda, ölən qadın Pərixan xanım kimi gözəl və cavan deyildi.

Qulamlar Şah qızının heç üzünü də görməmişdilər, söz yox, ancaq dünyanın işini nə bilmək olardı. Xeyrənnisə bəyim onları sorğu-sual etsəydi necə? Onda əsl həqiqət, şübhəsiz, üzə çıxacaqdı.

Anası ilə məsləhətləşəndən sonra Məhdi Ülya Pərixan xanımın evinə öz adamlarını göndərdi, amma evin qapısı bağlıydı, həyətdə də heç kim yox idi. Xəfiyyələr qapını sındırıb evə girdilər, arxa bağçanı, hamamxananı da axtardılar, amma Şah qızı heç yerdə yox idi. Xəlil xan onu doğrudan da öldürmüşdü, ya yox, burası şübhəli qaldı.

Çehelsütundan çıxandan sonra Xəlil xan sevgilisinin görüşünə tələsdi, amma onu evdə tapmadı. Evin qapıları qıfıllı, pəncərələri mismarlıydı, lələ köçüb yurdu qalmışdı.O, məyus halda evə gəldi. Nə baş verdiyini anlamağa çalışdı. Pərixan onu aldada bilməzdi. Yəqin bu, Xeyrənnisə bəyimin işiydi. Görünür, ona inanmamış və öz adamlarını Pərixangilə göndərmişdi...

* * *

Xeyrənnisə bəyimin göndərdiyi adamlar geri qayıdıb, naibüssəltənəni tapa bilmədiklərini dedilər. Şah qızının yoxa çıxması Xəlil xanın yalan danışmadığını deyirdi. Hətta bu belə olsaydı belə, əfşar əsilzadəsini sağ qoymaq olmazdı...

Elə həmin gecə şahbanunun casusları Xəlil xanı yatdığı yerdəcə qətlə yetirdilər. Xəlil xan bunu gözləmirdi və tiryək atıb yatmışdı.

Şah arvadı ürəyinə yatan, yaraşıqlı bir əfşarlının öldürülməsinə təəssüf eləsə də, şübhələr ondan əl çəkmirdi: Pərixan xanım hardadır? Bəlkə o, doğrudan da öldürülmüşdü. Bəs, Xəlil xan necə? Öz sevgilisini öldürməyə əli gələrdimi?

Burası müəmmalıydı. Amma bu müəmmaya cavab tapmağa Şah arvadının vaxtı olmadı və Xeyrənnisə bəyim oğlu Həmzə Mirzə ilə birgə Krım tatarlarına qarşı döyüşə getdi...

* * *

Pərixan xanım isə Xəlil xan və qorçular evdən gedəndən bir az sonra, yəni elə həmin gecə Herata yola düşdü.

Şah qızı Herata gəlib mərkəzə yaxın bir məhəllədə ev kirayələdi. Ev çiy kərpicdən tikilmişdi, kürsülüydü, balaca eyvanı, yığcam həyəti, həyətin ortasında çarhovuzu və gül-çiçəkli baxçası vardı. Bura bir yəhudi zərgərin evi olmuşdu. Həmin yəhudi İsfahana köçmüş, evi isə kirayəyə vermişdi. İsfahanda müştəri çox idi, deməli, pul-para da yetərincəydi.

Şah qızı evə yerləşəndən bir həftə sonra ən sədaqətli kənizi Zəhranı dükan-bazara göndərdi ki, adamların nə danışdığını öyrənsin və bu yolda dərvişlərə pulu əsirgəməsin.

Qonşular elə bilirdilər ki, onlar iki bacıdırlar. Hər halda, Şah qızı və kənizi özlərini belə aparır, bir-birilərinə "bacı" deyə müraciət edirdilər.

Zəhra xanım sahibəsi deyən kimi elədi, bir neçə gün şəhərin gur yerlərini fırlandı, qulaqları danışmaq həvəsi olanların ağzında qaldı. Amma fərli bir şey öyrənə bilmədi. Öyrəndiyi bircə o oldu ki, rəiyyət acından ölür, şəhər hakimi adamları incidir, bir ovuc varlı adam var ki, onlar da eyş-işrətlə məşğuldurlar və adamların güzəranı onların vecinə deyil.

Pərixan xanımın Heratda tanıdığı yaxın bir adam vardısa, o da Mürşüdqulu xan idi. Sahibxəbərlər məlumat vermişdilər ki, Xeyrənnisə bəyim və oğlu Həmzə Mirzə böyük qənimətlə geri dönüblər, özləri ilə də Krım şahzadəsini əsir gətiriblər. Şahzadənin kimliyi barədə məlumat verilməsə də, onun sarayda olduğu bildirilirdi.

Amma bütün binlar Pərixan xanıma o qədər də maraqlı deyildi. O, Mürşüdqulu xanın dönüşünü gözləməliydi. Mürşüdqulu xan qışa yaxın Herata qayıtdı. İndi onunla görüşmək üçün fürsət yaranmışdı və Şah qızı bu fürsəti əldən buraxmamalı, necə olur-olsun, onu axtarıb tapmalıydı. Çünki Heratda ad çıxarmış adamlardan idi, həm də Herat hakiminə, xanədana sədaqəti və yaxınlığı ilə tanınırdı. Krım tatarlarına qarşı da igidlik göstərmişdi. Ona görə də bir neçə gün qələbənin kefini çıxarmalı, meyxanələrdə gen-bol əylənməliydi.

Şah qızı Zəhranı bu məqsədlə şəhərə göndərdi. Zəhra evdən çıxanda Pərixan xanım onu belə təlimatlandırdı:

– İndi qarışıq zamandır. Mürşüdqulu xan da, güman ki, xofludur və hamıdan şübhələnir. Amma bütün kişilər kimi, o da arvadbazdır. Onu tanımaq üçün şəhər hakiminin olduğu dövlətxanaya gedərsən və qorçulardan biri ilə əlaqə qurarsan. Sənə nə eləmək istəsə, izazə ver, ancaq çox dərinə getməsin, çalış ki, səni meyxanəyə aparsın. Yolüstü əsilzadələrin harda əyləndiklərini soruş, imkan olsa, Mürşüdqulu xanın yerini öyrən. Sən onu güdüb meyxanədən çıxanda yaxınlaşarsan və üzünü açıb ona göstərərsən. O özü sənin arxana düşüb gələcək.

– Birdən gəlmədi? – deyə kəniz ehtiyatla xəbər aldı.

– Gələcək. Çünki sən yaraşıqlısan. Tanış olduğun qorçunun vasitəsilə meyxanələri bir-bir güd. Axşamlar xanlar hamısı meyxanələrə gedir. Xanın üzündə iri xalı, uzun, qara bığları var. Sən onu görmüsən.

– Mən onu görməmişəm, – deyə kəniz duruxdu.

– Görmüsən. O, bir neçə dəfə mənim anamın yanına gəlib, mənim hücrəmdə də olub. Xəlil xanla birgə.

– Amma yadımda saxlamamışam.

– Görən kimi tanıyacaqsan, – Pərixan xanım bu sözləri elə inamla dedi ki, sanki Mürşüdqulu xanı özü öz əli ilə meyxanəyə qoyub və oranı yaxşı tanıyır.

Kəniz başı ilə təsdiqlədi və dedi:

– Hə, yadıma düşdü. Güləndə də hücrənin divarları titrəyirdi.

– Elədir. Xan çıxanda yaxınlaşıb bu sözləri deyərsən: “Xan həzrətləri gözəl bir xanımla kef axşamına təşrif buyurarmı?”

Zəhra təlimatını alandan sonra getdi, amma Pərixan xanımın gözlədiyi kimi olmadı. Kəniz Mürşüdqulu xanı tanımağına tanıdı, hətta üzünü də gördü, amma...

Dövlətxana idarəsini tapmaq elə də çətin olmadı. İdarənin qabağında uzun növbə vardı. Mühafizə xidmətçiləri əllərində qırmanc sıranın ətrafında fırlanır və cızıqdan çıxanı, səs-küy salanları qırmanclayırdılar. Şikayətçinin növbəsi çatanda onu söz yasavuluna təhvil verir, o da həmin adamı, şikayətindən asılı alaraq ya vəzirin, ya qazinin, ya da vəkilin yanına göndərirdi.

Zəhra xanım idarənin ətrafına bir neçə dəfə fırlandı. Binanı qoruyan qorçuların çoxunun üzündən zəhrimar yağırdı və çox qorxunc görünürdülər. İdarənin zəhmi bir yandan, şikayətçilərin və onları şallaqlayan mühafizəçilərin də qışqırığı bir yandan adamın canına vahimə salırdı.

Birdən kimsə Zəhranın qoluna toxundu. O, geri çevriləndə uzunboğaz çəkməli, qırmızı koftalı, beli xəncərli bir qorçunu qarşısında gördü. İnsafən qorçu elə də kobud adama oxşamırdı. Başqası olsaydı, bəlkə də onu divanxanaya aparar və dövlətxananı niyə güddüyünü soruşardı. Amma o, belə eləmədi, eləcə ötkəm səslə dedi:

– Burda dayanmaq olmaz! Get burdan! Nə itin azıb burda?!

Zəhra ordan tələm-tələsik uzaqlaşmaq istədi, amma sahibəsinin qorxusundan dayanası oldu. Geri qayıdıb dövlətxana ətrafında keşik çəkən həmin qorçuya dedi:

– Mənə Mürşüdqulu xan laızmdır. Sən onu tanıyırsan?

– Onu kim tanımır ki? – Qorçu dedi, sonra da üz-gözünü turşudub, suala sualla cavab verdi. – O sənin nəyinə lazımdır?

– Mən onun qohumuyam, özüm də uzaqdan gəlmişəm. Xana vacib xəbər gətirmişəm.

Qorçu sınayıcı nəzərlə Zəhranı süzdü və soruşdu:

– Yerini desəm, əvəzində nə verərsən?

– Mən kasıb adamam, nəyim var ki, verəm.

Əslində, kəniz yalan deyirdi. Çünki Pərixan xanım ona bir qızıl, üç gümüş məhəmmədi vermişdi və demişdi ki, nəyin bahasına olur-olsun, xanı tapsın. Zəhra isə fikirləşirdi ki, havayı yolla istəyinə nail olsun, pulu isə özündə saxlasın.

– Heç nəyin yoxdursa, onda rədd olub gedə bilərsən.

– Tələsmə, mən sənə daha qiymətli nəsə verə bilərəm, – Zəhra ikibaşlı dedi.

– Axşam bura gəl. Mən səni istədiyin yerə aparacam. Aldatsan, özünü ölmüş bil. – Qorçu belə deyəndən sonra Zəhra dövlətxanaya yaxın xiyabana getdi və axşamın düşməsini gözlədi...

* * *

... Mürşüdqulu xan cariyələrin ətrafında oturub qəlyan çəkirdi, qıpqırmızı qızarmışdı.

– O gördüyün adam Mürşüdqulu xandır. Amma bizə bura girmək qadağandır. Biz başqa meyxanəyə getməliyik, – qorçu dedi.

Kəniz vaxt udmaq üçün:

– Mən sabah axşam səni evimə çağıracam. Orda cariyələrim var. Hansını istəsən, seçərsən...

– Keçəl suya getməz, səhər verdiyin sözə indi əməl eləməlisən, – deyə qorçu əsəbiləşdi. – Özü də mən nə bilim sənin evin hansı cəhənnəmdədir?!

Kənizlə qorçu arasında mübahisə yarandı. Elə bu zaman Mürşüdqulu xan meyxanədən çıxdı və Zəhra ona tərəf qaçdı.

Qorçunun yadına düşdü ki, Mürşüdqulu xan Zəhranın qohumudur. Ona görə də qorxusundan aradan çıxdı...

* * *

Mürşüdqulu xan meyxanədən çıxanda Zəhra ona yaxınlaşdı, Pərixan xanımın dediyi kimi elədi, yəni “xan gözəl bir xanımla əylənmək istərdimi?” sualını verdi və üzündəki pərəncəni yuxarı qaldırdı. Mürşüdqulu xan nəşəli gözlərilə ona baxdı, sanki ayılan kimi oldu, qorxdu, bunun bir tələ olduğunu zənn elədi. Çünki Abbas Mirzənin lələsi Əliqulu xanla arasında ədavət vardı. Əliqulu xan onun karvansarasını ələ keçirmiş, kəndlərinin bir neçəsini Şahın atlarına otlaq bəhanəsilə əlindən almış, bazardakı yerlərinə isə göz dikmişdi. Hər halda sınamaq lazım idi. Ona görə də Mürşüdqulu xan kənizin arxasınca gedib, dar məhəllələrin birində arxadan tutdu və acıqla:

– Sən kimsən və məni hara aparırsan!? – deyə xəbər aldı.

Kənizin təlimatında bu yox idi. Ona görə də çaşdı, qorxusundan ağappaq ağardı və kəkələyə-kəkələyə dedi:

– Mən...

– Hə, sən məni hara aparırsan və kimsən?! – deyə xan onun çiyinlərindən tutub silkələdi.

Kəniz qorxusundan düzünü dedi:

– Məni Pərixan xanım göndərib.

Pərixan adını eşidəndə xanı, sanki, ildırım vurdu.

– Pərixan xanım?!

Kəniz başı ilə təsdiqlədi.

Mürşüdqulu xan Şah qızının öldürüldüyü barədə bir neçə gün öncə xəbər tutmuşdu və belə bir məqamda Pərixan xanımın "xortlaması" ona qəribə gəldi, amma kənizdən bunu soruşmadı. Əvəzində başqa bir sual verdi:

– Bəs, məni necə tanıdın?

– Səni mənə göstərdilər.

– Kim?

– Tanımıram. Hakim sarayında qarovulçu işləyir, deyəsən.

Mürşüdqulu xanın şübhələri daha da artdı. Ona görə yenə də soruşdu:

– Pərixan xanım özü hardadır?

– Onun yerini deyə bilmərəm. Çünki bura təzə köçmüşük. Amma yolu tanıyıram.

Mürşüdqulu xan Pərixan xanımı bir neçə dəfə Çehelsütun sarayında görmüşdü. Çünki Şah İkinci İsmayılın hakimiyyətə gətirilməsinə o da tərəfdar idi və Şah qızının ağlına, gözəlliyinə heyran olmuşdu. Pərixan xanım bir cadugər idi. Hamını ovsunlamağı bacarırdı. Deməli, ölməyə də bilərdi. Bəlkə də Şah qızı hansısa növbəti oyun qururdu və ona görə də Mürşüdqulu xanla görüşmək istəyirdi. Nəfs qorxuya üstün gəldi və Mürşüdqulu xan kənizin arxasına düşüb getdi. Yolboyu onun gözü arxada və yan-yörəsindəydi. Bir az gedəndən sonra əmin oldu ki, onları güdən yoxdur.

Xan içəri girəndə burnuna gül-çiçək qoxusu gəldi. Evin ortasındakı stolun üstündə, çini güldanda qızılgül vardı. Həmin güllər, güman ki, bağçadan dərilmişdi. Xan belə fikirləşdi, çünki həyətə girəndə güllü baxçaya və oradakı səliqə-sahmana fikir vermişdi.

Pərixan xanım yerdə bardaş qurub oturmuşdu. Xan içəri girəndə ayağa durdu və onun gözlərinin içinə baxdı. Mürşüdqulu xan naibüssəltənəni dərhal tanıdı, amma özünü o yerə qoymadı. Çünki bu, bir tələ ola bilərdi.

Pərixan xanım onun tərəddüdlərini başa düşdü və qəsdən dedi:

– Məni tanımadın, xan? Ona görə təzim eləmədin? Mən naibüssəltənəyəm, məgər bunu bilmirsən? Babamın ən sevimli qızı, səltənətin vəkili.

Mürşüdqulu xan da özünü o yerə qoymadı və Şah qızını başdan-ayağa qədər süzdü, azacıq pauzadan sonra soruşdu:

– Mən sənə necə inanım ki, Pərixan xanımsan? Mən səni yalnız bir-iki dəfə görmüşəm.

Mürşüdqulu xan burda biclik edirdi. Çünki Şah qızını hələ Çehelsütunda görəndə xoşu gəlmişdi və yadından çıxara bilməzdi. Amma buna tam əmin olmalıydı. Özü də kənizin Mürşüdqulu xanı tanıması da inandırıcı deyildi.

– Birincisi buna görə, – deyə Pərixan xanım örpəyini başından götürdü, qara zülfləri çiyinlərinə düşüb ilan kimi qıvrıldı, xalatını da soyunub xanın ayaqları altına atdı. – O, doğrudan da gözəl idi, buna söz ola bilməzdi, – ikincisi də buna görə. – Şah qızı belə deyəndən sonra elə atlas köynəkdəcə divardakı taxçaya tərəf getdi, ordakı mücrüdən bir kağız çıxarıb xana uzatdı.

Xan kağızı alıb baxdı. Bu, Şah Təhmasibin fərmanıydı, üstündə bir neçə möhür də vardı. Güman ki, baş vəzirin, şahın və Sultanağa xanımın möhürləri idi.

Xan yazıb-oxumağı bilirdi, çünki mədrəsədə təhsil almışdı.

Fərmanda deyilirdi: “Səltənəti yerdən göyə, Məqribdən Məşriqəcən uzanan, bahadur sultan Şah Birinci Təhmasibin buyruğu: “Mən sevimli qızım, gözümün ağı-qarası Pərixan xanımı bu gündən etibarən naibüssəltənə elan edirəm. İşdişayət, bu həyatda olmasam, hakimiyyəti ona tapşırıram, ta vəliəhdlər öz aralarında razılığa gəlib, ən bacarıqlısını və haqqı çatanını şah elan edənə qədər. Mən həyatda olanda da, ondan sonra da sarayda ixtiyar sahibidir.”

Mürşüdqulu xan sənədin nə qədər düz, ya yalan olduğunu bilmədi, bununla belə, Şah qızına təzim elədi, sənədi qaytarıb sahibinə verdi və soruşdu:

– Nə günahın sahibiyəm ki, naübüssəltənə məni yanına çağırtdırıb?

– Sən o günahın sahibisən ki, mənim kimi gözələ, Şah qızına hələ də sahib olmamısan.

– Bunun üçün nə etmək lazımdırsa, mən hazıram, validə xanım, qulluğunuzda müntəzirəm, bu yolda başımı da verməyə hazıram.

– Başını verməyə tələsmə, xan, o, bizə hələ lazım olacaq.

Mürşüdqulu xan suallı baxışlarını onun üzünə zillədi.

– Bura gəlməyimin səbəbi var, – deyə Pərixan xanım davam elədi. – Birincisi, sən xanədana sədaqətlisən və səni görən vaxtdan xoşum gəlib. Söz verirəm ki, dediklərimi eləsən, ömrümün axırına kimi sənə sədaqətli olacaq, sevəcəyəm. Amma bu, ikimizin arasında sirr kimi qalmalıdır.

Bir anlıq pauzadan sonra:

– İki şərtim də var, – Pərixan xanım dedi.

Mürşüdqulu xan bu sözləri eşidəndə narahat oldu və bir neçə dəfə udqundu.

– Nə şərtlərdir elə?

– Tələsmə, xan. Hər şeyi anladacam, amma indi sənin növbəndir. Mənə nə vəd edirsən?

– Bu sirri öz aramızda saxlayacağıma söz verirəm. Sirri kiməsə desəm, dilimin kəsilməsinə razıyam. Şərtlərini de.

– Birinci şərtim, Abbas Mirzəyə yaxın olmaq, ikinci şərtim onu Qəzvinə aparıb taxta oturtmaq.

Mürşüdqulu xan naibüssəltənənin bu şərtlərindən şaşıran kimi oldu:

– Mən bunu necə edə bilərəm? Abbasın lələsi Əliqulu xan bütün Xorasana hakimdir və Heratda at oynadır. Həmzə Mirzə isə böyük fərzənd və vəliəhddir. Özü də bunun üçün xeyli pul-para lazımdır.

– Onu bilirəm, xan. Hər şeydən məlumatım var. Pul-para baxımından da narahat olma. Hər halda, adi bir xanın pulu naibüssəltənəninkindən çox olmaz.

Mürşüdqulu xan ona sualedici nəzərlərlə baxdı, yəni neyləmək lazımdır?

Pərixan xanım davam elədi:

– Bildiyim qədər osmanlı və tatar qoşunları ilə döyüşdə çox şücaətlər göstərmisən. Sən döyüşdə olanda Əliqulu xan Şamlı burda qiyam qaldırıb və Qəzvinə gedib hakimiyyəti ələ almaq istəyib. Bunu da hamı bilir. Əliqulu xan taxt-tacı ələ keçirmək üçün fürsət gözləyir. O ki qaldı Abbas Mirzənin yolunun üstündəki başqa maneəyə – Həmzə Mirzəyə, bu barədə sonra tədbir görərik. Amma ilk növbədə Əliqulu xanı rədd eləməliyik.

– Bunu necə edə bilərik?

– Tək əldən səs çıxmaz. Birlikdə hərəkət etməliyik.

Mürşüdqulu xan bir şey anlamasa da, Pərixan xanımın ağıllı və hiyləgər olduğunu bilirdi. Məhz, onun sayəsində İsmayıl Mirzənin yolunun üstündəki maneələr götürülmüşdü.

– Sabah bura gələrsən. Nə eləmək lazım olduğunu deyəcəm...

Bu sözlərdən sonra Pərixan xanım xələtini geydi və qapıya baxdı. Bu o demək idi ki, Mürşüdqulu xan mürəxxəs ola bilər...

Qonaq qapını açıb çölə çıxdıqdan sonra Pərixan xanım kənizlərinin otağına tərəf səsləndi:

– Zəhra, mənə bir çay gətir, özü də qaynar olsun...

* * *

Mürşüdqulu xan naibüssəltənənin yanından çıxanda tam ayılmışdı, tiryəkin və şərabın havası başından getmişdi. O, soyuq ağılla düşünməyə başladı. Naibüssəltənənin planları çox qorxunc idi. Bunun üstündə adamın nəinki öz başı, əhli-əyalı, oğlanları da qurban gedə bilərdi. Amma o, döyüşçü idi, yaxşı bilirdi ki, qənimət əldə eləmək üçün savaşa atılmaq lazımdır və əgər Şah qızı bu yola qədəm qoyubsa, geri çəkilən deyil. Əgər razı olmasa, Pərixan xanımın Qara Əliqulu xanla dil tapıb əlbir olması zaman məsələsidir. O biri tərəfdən də, Pərixan xanımın gözəl siması, atlas xalatını dəlib keçmək istəyən şux qaməti gözlərinin önündən getmirdi. Naibüssəltənənin hər baxışı, duruşu onun canına, qanına hopmuşdu, bütün əzalarına və hüceyrələrinə qədər işləmiş, qəlbinə və ağlına hakim ola bilmişdi. Pərixan xanım, sanki, onu ovsunlamışdı.

Mürşüdqulu xan evə gəlib yatmaq istədi, amma nə illah elədisə, gözlərinə yuxu getmədi, ona görə də tiryək atıb yerinə uzandı və handan-hana yuxuya getdi. Xan yuxusunda gördü ki, ağ atın belində harasa çapır, at nəinki dörddəmə gedir, hətta pərvazlanıb havaya da qalxır...

Mürşüdqulu xan sübh əzanının səsinə oyandı. Məscid onun evinin lap yaxınlığında olduğundan əzan, az qala, evin içində verilirdi. O, yuxusunu

xatırladı və bunu yaxşılığa yozdu. Ona görə də yubanmadan Pərixan xanımın evinə tələsdi.

Tez olduğundan, mülklərini və kəndlərini gəzməyə qərar verdi. Nökəri atı evin qapısına gətirdi. Xan börkünü qoyub, cübbəsini geydi, uzunboğaz çəkmələrini ayağına keçirdi. Qış təzə düşsə də, hava elə də soyuq deyildi. Ona görə də qoç dərisindən olan kürkünü yəhərin üstünə atdı, ata minib kəndlərə tərəf çapdı.

Mürşüdqulu xan kəndə girmədi, eləcə, örüşü və arata qoyulmuş torpaqlarını gəzdi, uzaqdan-uzağa bir zamanlar ona məxsus olan torpaqlara və mülklərə baxdı. Ürəyindən qara qanlar axdı. Əliqulu xanla haqq-hesab çəkməyə tələsdi. Pərixan xanımın tədbiri daha çox ağlına batdı, qanını coşdurdu. Əgər istəkləri baş tutsaydı, həm səltənətə, həm də Şah qızının qəlbinə hakim ola bilərdi.

Mürşüdqulu xan geri qayıtdı, atı nökərə verdi və Heratın peyin iyi verən dar küçələrilə, payi-piyadə Şah qızının evinə getdi.

Pərixan xanım onu qapının ağzındaca qarşıladı. Üz-gözünə zəndlə baxdı. Xanın gözləri qızarmış, yanaqları allanmışdı. Şah qızı başa düşdü ki, məqsədinə çatmağa yaxındır və Mürşüdqulu xan onun qarmağındadır.

Pərixan xanım ona bir məktub uzadıb dedi:

– Bu məktubu Abbas Mirzəyə verərsən. Soruşsa, deyərsən ki, bunu sənə bir xeyirxah adam qasid vasitəsilə göndərib.

– Məktubda nə yazılıb? Oxuya bilərəm?

– Yox. Məktubdan xəbərdar olsan, ağzından söz qaçıra bilərsən.

– Amma hardan bilim ki, bu, Abbas Mirzənin xeyrinədir, ya yox?

– Bu məktubu oxusa, sən onun lələsi olacaqsan. Sədaqətinə görə. Özü də indi sənin nüfuzun daha çoxdur. Sən müharibədən qalib çıxmış sərkərdələrdən birisən.

Tatar xanı Dövlət Gərayın qardaşı Adil Gərayı Ağsu yaxınlığındakı döyüşdə əsir götürənlərdən biri də Mürşüdqulu xan idi və Şah qızı bunu bilirdi. Çünki bütün şəhər bu barədə danışırdı. Əliqulu xan Şamlı da elə buna görə ona düşmən kəsilmişdi. Bilirdi ki, döyüşdən qəhrəman kimi qayıtmış xanın mövqeyi sarayda daha da möhkəmlənəcək.

Qəhrəmanları və istedadlıları bağışlamırlar. Məşhurluq total nifrət doğurur...

Şah Abbasa yazılan məktubun məzmunu bilinməsə də, bu, Əliqulu xan Şamlının öldürülməsilə nəticələndi. Çünki Pərixan xanım eyni məzmunlu məktubu Çehelsütuna da göndərmişdi. Ona görə də Həmzə Mirzə tez bir zamanda mülazimlər topladı və bir dəstə qorçu götürüb Herata yola düşdü.

Şaha məktubunda Pərixan xanım yazırdı ki, Əliqulu xan Şamlı şaha qarşı qiyam hazırlayır və Qəzvinə gedib hakimiyyətə yiyələnmək istəyir. "Biləsən ki, Heydər Mirzəni öldürən Əliqulu xan bir gün səni də öldürə bilər! Onu qonaq çağır və öldür. Əgər gəlməsə, bil ki, mən dediklərim doğrudur!"

Şah Abbas vəziri çağırmadı və məktubu özü oxuyandan sonra Mürşüdqulu xandan soruşdu:

– Bu məktubu kimin göndərdiyini bilirsən?

– Yox, sənə qurban, məktubu dərviş paltarında bir qasid gətirmişdi, bir qızıl məhəmmədi verib aldım.

– Bəs dərviş hara getdi?

– Dərvişləri ki özün tanıyırsan, başımın böyüyü, elə aradan çıxırlar ki, xəbərin də olmur.

Şah Abbas məktubu əlində o üz-bu üzə çevirdi. Heç nə demədi və namədə yazılanların doğru, ya düz olduğunu sınamaq istədi.

Düzünə qalsa, məktubda yazılanlar həqiqətə yaxın idi. Çünki son zamanlar Əliqulu xan Şamlı gənc Abbas Mirzənin başını doldurur və onu hakimiyyət uğrunda savaşa səsləyirdi: "Şahımız, sənin şanlı baban qocalıb, məmləkəti idarə edə bilmir, vəliəhd Həmzə Mirzənin də eyş-işrətdən başı açılmır. Osmanlılar xanədanı tam ələ keçirmək üzrədir. Bir də gördün, Herata da gəlib çıxdılar. Tələsmək lazımdır..."

Abbas Mirzə Xorasan tərəfə adam göndərib, lələsini Herata çağırdı.

Əliqulu xan yetirməsinin çağırışını eşidəndə qonaqlığa getmədi. Çünki Pərixan xanım Əliqulu xana da məktub göndərib xəbərdarlıq eləmişdi ki, Abbas Mirzə onu saraya çağırıb öldürmək istəyir. "Abbasın mənə bunca dəyər verməməsini anlaya bilmirəm. Mən onun üçün çalışıram, o isə mənə qarşı çıxır."

Qara Əliqulu xan öz-özünə qəzəblə demişdi.

Ona görə də, Xorasan vilayətindən mülazimlər toplayıb Heratı ələ keçirmək, sonra isə Qəzvinə yürüş eləmək fikrinə düşdü.

Şah Məhəmməd Xudabəndə Əliqulu xanın pis niyyətindən xəbərdar olan kimi, oğlu Həmzəni də götürüb Herata yürüdü. Əslində, iki il bundan öncə də oxşar hadisə baş vermişdi və o zaman Abbas Mirzə də Əliqulu xana qoşulmuşdu. Amma hər ikisi diz çöküb yalvarandan, xanədana sədaqətli olduqlarını sübut eləmək üçün kəfən geyinib şahın yanına gələndən sonra yumşaq qəlbli Məhəmməd Xudabəndə onları bağışlamışdı. Amma indi Həmzə Mirzənin növbəsiydi və Əliqulu xanı bağışlamaq fikrində deyildi.

Vəliəhd Herata çatıb Abbas Mirzəni də götürdü və Əliqulu xan Şamlının üstünə getdi. Mürşüdqulu xan da öz tayfasının adamları ilə onlara qoşuldu.

Döyüş Xorasan gəvirində (səhrasında) oldu. Qiyamçılarla Şah qoşunu arasındakı toqquşma günbatana kimi davam elədi. Üfüqün qızartısı ilə səhraya tökülən qanın qırmızısı bir-birinə qarışdı. Əliqulu xan məğlub olduğunu görüb aradan çıxmaq istədi, amma Həmzə Mirzə ona aman vermədi, özü xanı təqib eləyib atdan saldı, əsir götürdü və elə oradaca başını bədənindən ayırdı.

Xanın on iki minlik qoşunu pərən-pərən oldu, bəzi sərkərdələr isə şah ordusuna qoşuldu.

Qara Əliqulunun başını Həmzə Mirzənin özü kəsdi və qanlı xəncərini Əliqulu xanın paltarına silib, qəzəblə dedi:

– Xanədana və onun qibleyi-aləminə asi olan hər kəsin başı bu cür kəsiləcək!

Həmzə Mirzə eyş-işrətlə məşğul olsa da, cəsur adam idi və Şirvanda osmanlı-türk qoşunlarının darmadağın edilməsi də onun adıyla bağlıydı. Şübhəsiz ki,

Pərixan xanımın düşməni, zərli-zibalı Xeyrənnisə bəyimin də bu qələbədə əli vardı. Çünki o da oğlu ilə döyüşə getmiş və qış düşməmiş, saraya qayıtmışdı. Buna həm soyuqların yaxınlaşması, həm döyüşçülərin yorğunluğu, həm də Xorasan, Gilan və Xoy vilayətlərində qiyamların başlaması səbəb olmuşdu...

* * *

Hadisələri axarına buraxaq...

Abbas Mirzə hakimiyyətə gəldi, Mürşüdqulu xanı özünə lələ götürdü, Xorasan vilayətinin idarəçiliyini də ona tapşırdı.

Şah qızı bu xəbəri bayram eləmək üçün xanı öz evinə çağırdı və dedi:

– Bütün sınaqlardan alnıaçıq, üzüağ çıxdın, xan. İndi isə mən verdiyim sözün üstündə durmaq istəyirəm.

Bunu deyəndən sonra Şah qızı yataq otağına keçdi, qapını da açıq qoydu. Bu o demək idi ki, Mürşüdqulu xan ora girə bilər...

Yataqda sevişərkən Pərixan Mürşüdqulu xanın təəccübünü görüb dedi:

– Məni deyiklim Bədüüzzaman zorladı. Ona görə də onu saraydan qovdurdum. Qardaşım gicbəsər İsmayıl da onu mənim acığıma öz başına çıxartdı və sonra da öldürtdü. – Bir az keçəndən sonra naibüssəltənə dərindən bir ah çəkib, – o kimi öldürtmədi ki, – deyə təəssüflə gileyləndi...

Əslində, Pərixan xanım Bədüüzzamanla bağlı yalan danışırdı, onu heç zaman yaxına buraxmamışdı. Öz bədənini isə Xəlil xan Əfşara sevə-sevə təslim eləmişdi.

Azacıq sükutdan sonra Şah qızı Mürşüdqulu xanı qucaqladı və qulağına bu sözləri pıçıldadı:

– Bizim vacib işlərimiz hələ qabaqdadır!

Mürşüdqulu xan başını ondan aralayıb, Pərixan xanıma təəccüblə baxdı.

– Abbasın yolunun üstündəki ən birinci maneə anası Xeyrənnisə bəyimdir. O qancıq Məhəmməd Xudabəndəni aradan götürmək və Həmzəni şah elan eləmək istəyir. Çünki Həmzə qardaşların ən böyüyüdür, vəliəhd də odur. Ancaq buna yol vermək olmaz.

– Neyləməliyik?

Pərixan xanım nüfuzedici baxışlarını işə salıb dedi:

– Birinci o qardaşımın həyasız arvadını aradan götürmək lazımdır, sonra da Həmzəni. Abbası şahlıq taxtına oturtmalıyıq.

"Fahişə qancıq" deyəndə Mürşüdqulu xan Pərixanın kimi nəzərdə tutduğunu, şübhəsiz, bilirdi. Ona görə də qorxusundan ağappaq ağardı, ancaq bunu biruzə vermədi. Çünki Şah qızının dedikləri ağlına batdı. Xeyrənnisə bəyim aradan çıxsaydı, Abbas Mirzə də şah olsaydı, onun qılıncının dalı da, qabağı da kəsəcəkdi.

Amma necə? Burası qaranlığıydı.

Elə belə də soruşdu:

– Necə?

– Burasını mənim öhdəmə burax. Dərvişlərə, əxilərə və çərçilərə çoxlu pul payla. Qoy, bütün şəhəri, dükan-bazarı, dulusxanaları, dabbaqçı məhəllələrini

gəzib desinlər ki, şah arvadı əsir tatar xanının məşuqəsidir və hakimiyyətə də onu gətirmək istəyir.

– Bu doğrudurmu?

– Mən bunun doğru olduğuna şübhə eləmirəm. Saraydakı adamlarım həmişə ayıqdırlar. Şəhərdə şayiə yayılıb ki, Xeyrənnisə yezidin törəmələrini hakimiyyət başına gətirmək istəyir. Bircə bu qalmışdı ki, dövlət başına sünnilər gəlsin!

– Bəs, Həmzə necə olsun? O buna imkan verərmi?

– Həmzənin başı şərabdan və tiryəkdən ayılmır. Bu yaxınlarda ona qasid vasitəsilə Portəgizdən gətirilmiş tiryək göndərmişəm. Görən kimi ağlı başından gedəcək. Təzə və məxmər torbadadır. Ondan buralarda yoxdur. Həm də o, başının hayına qalıb. Osmanlılar vilayətləri bir-birinin ardınca alırlar. O isə qoşun toplamaqdansa, cariyələrlə əylənir, kef edir, xanədanın müdafiəsini isə əfəl və yararsız babasına, mənim qardaşımın öhdəsinə buraxıb. Yaxşıdır, vallah. Arvad yezid törəməsiylə eşq yaşayır, oğul şərab içir, Şah isə nə edəcəyini bilmir.

Doğrudan da, Məhəmməd Xudabəndənin fikri var idi ki, Dövlət Gərayla münasibətləri yaxşılaşdırmaq üçün qızlarından birini Adil Gəraya versin.

Bu barədə nənki qədim, həm də müasir salnaməçilər xəbər verir. "...Xeyrənnisə bəyim (Məhdi Ülya Sultan) o qədər hökm sahibiydi ki, onun möhürü Şah fərmanlarının arxasında, vəzirin möhürünün üstündən vurulurdu. Xeyrənnisə bəyimin ustaclı və şamlı tayfasından qisas alması, hər yerdə fars və tacikləri başa çəkməsi böyük narazılığa səbəb olmuşdu. «Kim nə edirsə, özünə edir». Qızılbaşlar Xeyrənnisədən qisas almaq barədə düşünməyə başlamışdılar.Onları qəzəbləndirən əsas hadisə Xeyrənnisə bəyimin atasının düşməni Murad xanın oğlu Mirzə xanı öldürtməsi oldu. Halbuki, Məhdi Ülya qızılbaş əmirlərinə söz vermişdi ki, Mazandaranın irsi hakimi "ləyaqətli və mömin gənc" olan Mirzə xana dəyməyəcək. Məhəmməd Xudabəndə də arvadını bu işdən çəkindirməyə çalışdı, amma, nəticəsi olmadı. Məhdi Ülyanın göndərdiyi adamlar gecə ikən xanı karvansarada qətlə yetirdilər. Şah arvadı bununla da Mərəsin seyidi olan atası Abdulla xanın qisasını aldı. Onu Murad xan öldürtmüşdü. Gözəl olduğu qədər də kinli olan Xeyrənnisə bəyim bu məsələdə güzəştə getmədi."

Mirzə xanın qətlindən sonra Möhrdar Zülqədər oğlu Şahrux xan, Piri Məhəmməd Xan Ustaclı, Qorxmaz xan Şamlı, Kaşan hakimi Məhəmməd xan Türkman bir səhər Səadətabad bağına toplaşaraq, Xeyrənnisə bəyimi hakimiyyətdən uzaqlaşdırmağın yollarını müzakirəyə başladılar.

Yay təzə gəlmiş, hava qızmış, parkdakı ağaclar yaşıllaşmışdı. Qızılbaş xanları və əmirləri Günəşdən qorunmaq üçün böyük bir palıd ağacının altına yığışmışdılar. Hava bürkülüydü. Bir yarpaq da olsun tərpənmirdi.

Piri Məhəmməd xan:

– Qəhr olsun bu istini, belə də bürkü olar?! – dedi və alnının tərini silə-silə söhbətinə davam elədi: – Düzü, ağalar, mən bu işi başa düşə bilmirəm. Necə ola bilər ki, bir fars qancığı bizləri güdaza versin, qızılbaşların qanlı başla-

rından, canavarların didib-parçaladığı nəşindən, bayıra çıxmış öfkələrindən ləzzət alsın!?

– Tamam olmalıdı bu iş. – Bu sözləri isə Qorxmaz xan dedi.

Məhəmməd xan Türkman da onun sözlərinə dayaq oldu:

– Əgər işin başını buraxsaq, Xeyrənnisənin ipini yığmasaq, başımız çox bəlalar çəkəcək.

– Günah onda yox, şahımızdadır. Onun səsi gələndə Məhəmmədin nitqi quruyur. – Bunu da Şahrux xan dedi.

Uzun çək-çevirdən sonra tayfa başçıları qərara aldılar ki, Şah Məhəmməd Xudabəndənin yanına gedib, məsələni ona danışsınlar və Məhdi Ülyanın hakimiyyətdən uzaqlaşdırılmasını tələb etsinlər. Buna onların imkanları və haqqı vardı, əks təqdirdə, Şah hakimiyyətdə aparıcı tayfa sayılan ustaclı və şamlıların dəstəyindən məhrum ola bilərdi. Qərarı dərhal həyata keçirmək lazımıydı, Məhdi Ülyanın tərəfdarları bundan xəbər tutsaydılar, türk əmirlərinin vəziyyəti daha da pisləşə bilərdi.

– Haydı, bəylər! – deyə Piri Məhəmməd xan onları hayladı.

Elə həmin gün axşamüstü qızılbaş əmirlərinin elçiləri Məhəmməd Xudabəndənin yanına gəldilər. Şah onların gəlişini gözləmirdi, Gilandan gələn vali ilə söhbət eləyirdi. Onlar hər ikisi üzbəüz və diz üstə oturmuşdular, dağ otlarından dəmlənmiş çay içirdilər. Məhəmməd Xudabəndə adi qızılbaş paltarındaydı: başında börk, ayağında məst, əynində mahud qaftan, üstündən isə yaxalığı qoşa düyməli cübbə vardı.

Söhbət builki quraqlıq nəticəsində çəltiyin məhv olmasından gedirdi. Bu zaman mühafizə xidmətinin başçısı içəri girib, qəfil qonaqların saraya təşrif gətirdiyini xəbər verdi. Məhəmməd Xudabəndə bu gözlənilməz xəbərdən çaşdı, Gilan valisini tələm-tələsik yola saldı və söz verdi ki, vilayətə lazım olduğu qədər buğda və düyü göndərəcək. Adətən tayfa başçıları və sərkərdələrlə görüşdə hamı dövrələmə, özü də dizi üstə otururdu, şah isə lap başda eyni qayda ilə əyləşirdi. O, yalnız bayram mərasimlərində, xarici qonaqları qəbul edəndə və divan işləri zamanı taxta çıxırdı. Bu dəfə Məhəmməd Xudabəndə, nədənsə, taxtda oturub qonaqları gözlədi.

Qonaqlar mühafizə xidməti rəisinin müşayiətilə içəri girdilər. Qabaqda Məhəmməd xan Türkman gəlirdi. O, əlini ürəyinin başına qoyub, üç dəfə təzim etdikdən sonra, şahın əvvəlcə əlini, sonra cübbəsinin ətəyini öpdü. O biri tayfa başçıları da eyni hərəkəti elədilər.

– Hörmətli şahımızın, piri-mürşidimizin hakimiyyətini Tanrı uzun və şərafətli etsin! – deyə söhbətə birinci Məhəmməd xan Türkman başladı. Yerdə qalan xanlar da onun dediklərini təkrar etdilər.

– Cahanda sizdən ədalətli şah yoxdur və bütün qızılbaş əhli sizin ədalətiniz və həqiqətpərəstliyinizlə öyünür, – Qorxmaz xan Şamlı belə dedi.

Məhəmməd Xudabəndə bu qədər əsilzadənin, adlı-sanlı tayfaların kişilərinin saraya qəfil gəlməsində çox ciddi mətləb olduğunu gözəl başa düşürdü. O elə zənn eləyirdi ki, yəqin, söhbət Həmzə Mirzənin son zamanlar eyş-işrətə qurşanmasından gedəcək və əsilzadələrin də narahatlığı ondan

yanadır. Amma onun gözləmədiyi halda söhbət tamam başqa istiqamətdə getdi.

Şah taxtdan düşmədi, qonaqlar da diz çöküb oturmadılar, eləcə ayaq üstə qaldılar.

– Bu qədər şərəfli ağaların saraya təşrif buyrması nədəndir, əcəba? Xeyirdimi? – deyə Şah Məhəmməd gözlərini qıyıb xanları süzdü.

Məhəmməd xan Türkman:

– Xeyirdir, sənə qurban. Niyə xeyir olmasın ki?! Eləcə səni ziyarət eləmək keçdi könlümüzdən. Həm də bəzi mətləbləri səninlə məsləhətləşmək istədik.

– Xub! Qapım həmişə üzünüzə açıqdır. Xoş gəlib, səfa gətirmisiniz, – Məhəmməd Xudabəndə Məkkədən gətirilmiş qızıl saplı, sədəf təsbehini çevirə-çevirə dedi. – Özüm də sizi Divana dəvət eləmək istəyirdim. Çünki bəzi məsələlər var ki, onları təkcə divanbaşı və vəzir-vəkillərimlə yox, həm də sizinlə məsləhətləşmək istəyirdim. Bayaq yola saldığım adamı da, yəqin ki, tanıdınız? Gilanın təzə hakimi Vəliyulla xan idi. – Xanlar başları ilə təsdiqlədilər. – Gilanda quraqlıq olduğundan çəltik əmələ gəlməyib. Ora taxıl göndərmək lazımdır. Gərək hamımız köməyimizi əsirgəməyək.

– Elədir, başımızın böyüyü. Qulluğunda tam hazırıq. – Qorxmaz xan dedi. O biri əmirlər də xorla “hazırıq” dedilər.

Araya ani sükut çökdü. Şah Məhəmməd qəfil qonaqların başqa niyyətlə gəldiyini, əlbəttə, hiss eləmişdi. Ona görə də üzünü Məhəmməd xan Türkmana tutub soruşdu:

– Eşidirəm sizi, ağalar.

Məhəmməd xan yanındakılara baxıb, bir-iki dəfə öskürəndən və udqunandan sonra:

– Şah sağ olsun, madyan ilxıda döl tutmaq üçündür, amma hərdən o, kəhərləri bir-birilə düşmən eləyir. Bəs, həmin vaxt yağılar bizi bassalar, nə olsun? – soruşdu.

Şah heç nə anlamadı, bununla belə sualı da cavabsız qoymadı:

– Onda qoy, kəhərlər madyanı yarğandan atsınlar, – dedi.

– Qarışıq zamandır, kiməsə etibar eləmək olmaz, sənə qurban, – Şahrux xan işə qarışdı.

Şah indi elə başa düşdü ki, söhbət Əliqulu xanın qiyamından gedir. Halbuki o, çoxdan öldürülmüş, yerinə də başqa adam təyin olunmuşdu. Amma, bəlkə, Abbas Mirzənin başında başqa bir təhlükə vardı. Ona görə də Şah bərk narahat oldu. Bununla belə, özünü ələ alıb dedi:

– Mən ora etibarlı adam göndərmişəm, inanmıram ki, Abbas Mirzənin başında bir şey ola.

Şah «etibarlı adam» deyəndə Mürşüdqulu xanı nəzərdə tuturdu.

Qızılbaş əsilzadələri başa düşdülər ki, Məhəmməd Xudabəndə onların hansı simə vurduqlarını anlamır. Ona görə də mətləb üstünə gəldilər. Qorxmaz xan Şamlı döşünü qabağa verdi:

– Sözün kəsəsi, Xeyrənnisə bəyim bizi yola vermir, divanxana işlərinə qarışır, mazandaranlıları başa çıxarır. Onun anası da bu işdə qızına pasibandır. Mirzə xanı onun öldürtməsi barədə də dürüst xəbərimiz var.

Məhəmməd Xudabəndə söhbətin bu səmtdə getməsini gözləmirdi. Ona görə də bir qədər fikirləşməli oldu, sonra yerini taxtda rahatladı və dedi:

– Xeyrənnisə bəyim şahzadə Həmzənin anasıdır və indi onun tərbiyəsilə məşğuldur. Döyüşlərdə də onun yanından çəkilmir. İndi Həmzə Təbrizdə Osman paşa ilə döyüşdədir və anası da onun yanına getməyə hazırlaşır. Belə bir zamanda nə təklif edirsiniz? Qarabağda Həmzə Mirzənin göstərdiyi şücaəti heç kim dana bilməz. Bəlkə Xeyrənnisə olmasaydı, həmin vaxt osmanlıları yenə bilməzdik. Amma hərəm hərəmdir və divanxana işlərinə baş vurmağa haqqı yoxdur. Göstəriş verərəm, bir də nə o, nə də anası divanxana işlərinə qarışmaz. İstəsəniz, onu kiçik fərzəndim Əbütalıb Mirzəylə ya Quma, ya da Mazandarana göndərə bilərəm, həmişəlik orada qalar.

Şahın bu vədini eşidən qızılbaş xanları bir ağızdan:

– Xub, çox yaxşı, – dedilər və tanrıdan piri-mürşidlərinə və taxt-tacına uzun ömür arzuladılar, ömürləri vəfa edənə qədər onun qulluğunda dayanacaqlarına söz verdilər və təzim edib, dalı-dalı çıxdılar. Amma gözlənilmədən artırmada Xeyrənnisə bəyimlə qarşılaşdılar. Güman ki, Məhdi Ülya onların danışığından xəbərdar idi, yəqin, şəbəkəli qapının arxasından onları pusurmuş. O, qızılbaş xanlarını qanlı-qanlı süzdü və arxalarınca bunları dedi:

– Mirzə xanın meyidinin soyumasını gözləməyəcəm! Siz siz olun, mən də mən!

Bu, açıq hədəydi. Hamıya gün kimi aydın oldu ki, Şahın vədi quru söz olaraq qalacaq. Çünki madyanın ipini çoxdan buraxıb. Qızılbaşlar gözəl bilirdilər ki, Məhdi Ülya onlardan qisas almağa çalışacaq. Onu qabaqlamaq lazımıydı. Amma xasiyyətcə yumşaq və zəif iradəli Şahı yola gətirmək çətin idi. O, arvadını həm sevir, həm də ondan qorxurdu.

Qızılbaş əmirlərinin köməyinə şəhərdə yayılmış şayiələr gəldi. Pərixan xanımın hiyləsi baş tutdu. "Şahın arvadı əsir kafirlə aşiq-məşuqdur". Qəzvinin bazar-dükanlarında, küçələrində bu şayiə gəzib-dolaşırdı. Qızılbaş hökmdarlarının zəif yeri onların arvadlarıydı. Ona görə də ustaclı və şamlı tayfasının baş güdənləri ətrafdakılara elə belə də dedilər: "Qanı qarışıq arvaddan hər şey gözləmək olar. Şaha çatdırmaq lazımdı ki, Məhdi Ülya Adil Gərayın məşuqudur."

Bəs bunu necə sübut etsinlər? Şah arvadının adının adi bir əsirlə eşq macərasında hallandırılması hakimiyyətə birbaşa zərbəydi. Ancaq sübuta ehtiyac da qalmadı. Necə deyərlər, od olmasa, tüstü çıxmaz. İş burasındadır ki, Adil Gəray əsir düşəndən sonra sarayda qalmışdı və getdikcə Məhəmməd Xudabəndənin xoşuna gəlməyə başlamışdı. Qızılbaş hökmdarı şahzadəni ona görə sarayda saxlamışdı ki, böyük qardaş Dövlət Gəray kiçik qardaşının qızılbaşlara əsir düşməsini ona bağışlamırdı. Və qızılbaşların Adil Gərayı geri verməyə hazır olduğunu eşidəndə Çehelsütuna belə bir xəbər göndərmişdi: "Düşmənə əsir düşən xan mənim qardaşım ola bilməz! Əsl sərkərdə ya qalib gəlməli, ya da döyüş meydanında mərdi-mərdanə şəhid olmalıdır!"

Adil Gərayın nazik saqqalı və bığı vardı, hündür boylu, qarasaçlıydı. Zəhmli və ötkəm idi. Şah öz qızlarından birini ona görə Adil Gəraya ərə vermək

istəyirdi ki, Krım xanı Dövlət Gərayla münasibətləri yoluna qoya bilsin. Amma tatar xanı bundan imtina eləmiş, Şahın bu niyyəti qızılbaş əmirlərinin də xoşuna gəlməmişdi. Əcnəbi bir şahzadənin sarayda yuxarı başa keçirilməsi onların ürəyincə deyildi. Əmirlər bir güllə ilə iki dovşan vurmaq sövdasındaydılar. Qızılbaşlar Şaha xəbər göndərdilər ki, onun saray madyanı əcnəbi kəhərlə səhərdən-axşama kimi imsinir. Əgər inanmırsa, qoy hərəmlərindən soruşsun.

Qızılbaşlar özləri də bilmədən Pərixan xanımın dəyirmanına su tökürdülər. Məqsəd ayrı olsa da, hədəf eyni idi. Qızlbaşlar hərəm keşikçilərinə və xacələrə də pul paylamışdılar ki, onların sözünü desinlər. Şayiə saraya sürətlə yayıldı. Məhəmməd Xudabəndə elə bir vəziyyətdəydi ki, hərəmlərinə çox gec-gec baş çəkirdi və canısulu Xeyrənnisə bəyimin Adil Gəray kimi yaraşıqlı bir sərkərdəyə gözünün düşməsinə dərhal inandı. Məhdi Ülya yeganə hərəm idi ki, şah sarayında sərbəst dolanırdı. Son zamanlar isə Məhəmməd Xudabəndədən tamam soyumuşdu. Buna səbəb Şahın qızılbaş əmirlərinin sözünə baxması, arvadı və qayınanasını Mazandarana göndərmək fikrinə düşməsiydi. Hərəmlər şaha çatdırmışdılar ki, doğrudan da Adil Gərayı bir neçə dəfə Məhdi Ülya ilə birlikdə görüblər.

Adil Gərayı öz soydaşlarından olan qorçular mühafizə edirdi. Sarayda belə bir şayiə də yayılmışdı ki, Məhdi Ülya gecələrin birində Məhəmməd Xudabəndəni aradan götürmək və oğlu Həmzə Mirzəni şah elan etmək barədə düşünür. Səltənətə sahiblik iddiasında olan Həmzə Mirzənin isə yeyib-içməkdən, cariyələrlə, kənizlərlə əylənməkdən, kef məclislərindən başı açılmırdı.

Müasir salnaməçinin bizim də improvizə etdiyimiz epizodunu burda saxlayaq və Xeyrənnisə bəyimlə Adil Gərayın eşq macərasına nəzər salaq.

Adil Gərayın Çehelsütunda qalmasının səbəbkarı, əslində, Xeyrənnisə bəyim özü idi. O, tatar xanının əsir götürülməsi anını təpənin üstündəki çadırından müşahidə eləmişdi. Məsafə uzaq olsa da, at üstündəki xanın necə döyüşməsinin, ustaclı Mustafa bəyin qorçularının onu mühasirəyə alıb atdan salmalarının və onu uzun müddət ram edə bilmədiklərinin şahidi olmuşdu.

Əsir Ağsunun Qarahəsənlisindən ta Qəzvinə qədər bir dəfə də olsun səsini çıxarmamışdı. Və onun bu dözümlülüyü Xeyrənnisə bəyimi cırnatmışdı. Ürəyində "səni nə parçalayardım!" – demişdi. Amma bu bir qadın hikkəsiydi. Ona elə gəlirdi ki, əsir onun ayaqlarına düşüb yalvarmalı, əfv diləməlidir...

Döyüşdən bir neçə gün keçmiş, Adil Gərayı Məhəmməd Xudabəndənin divanına gətirmişdilər. Əsirin məğrur və yaraşıqlı görkəmi Məhdi Ülyanın xoşuna gəlmişdi və məhz o, ərinə məsləhət görmüşdü ki, Adil Gəray sarayda qalsın və qardaşı – Krım-tatar xanı Dövlət Gəraya xəbər eləsin ki, öz nümayəndələrini qardaşının arxasınca göndərsin. Başqa bir həqiqət də buydu ki, Xeyrənnisə bəyim qızılbaş əmirlərinə qarşı mübarizədə Adil Gəraydan və onun qorçularından yararlanmaq istəyirdi. Bunun üçün, doğrudan da, bir neçə dəfə gizlincə tatar şahzadəsilə görüşmüşdü. Amma təkcə adamların yox, torpağın, daşın-divarın da qulağı var.

Xeyrənnisə bəyim tatar şahzadəsilə görüşmək üçün qorçulara pul paylamağa xəsislik eləmirdi. Hətta kənizlərinə də susmaları üçün bahalı parçalar və zinət əşyaları peşkəş eləmişdi.

O, ilk dəfə Adil Gərayın hücrəsinə girəndə tatar şahzadəsinə elə gəlmişdi ki, qarşısında huri-mələk cildində bir cəllad görür. Ona görə də Xeyrənnisə bəyimin mərmər kimi ağ əndamına, böyük sinəsinə, zülflərinin uzandığı gərdanına baxanda matı-qutu qurumuşdu. Qadınsızlıq da bir tərəfdən onu ac canavara döndərmişdi. Əslində o, şah arvadını görəndə, daha doğrusu, gözləri onun gözlərinə sataşanda ürəyindən gizilti keçmişdi. Bu ayrı baxış idi, yəni qadın baxışı deyildi, şeytani baxışlar idi. Siz onların baxışlarını görsəydiniz. Bəlkə təsəvvür də elədiniz. Və sanki Xeyrənnisə bəyim onun qulağına bu sözləri pıçıldadı: "Gözlə, gecə gələcəyəm!" Və Adil Gəray artıq neçənci gecəydi ki, bu görüşü gözləyirdi. Təsəvvürünə gətirirdi. Amma şah arvadı gəlmirdi. Bəlkə bunu qəsdən edir, vüsal dəqiqələrini bilərəkdən uzadırdı.

Tatar şahzadəsinin hövsələsi daralırdı. Adil Gəraya hərdən elə gəlirdi ki, şah arvadı onun hücrəsinin qabağından o tərəf-bu tərəfə keçir, amma içəri girməyə ürək eləmir. Kim bilir, bəlkə bu, Pərixan xanımın cadularıydı. Uzaq-dan-uzağa onları əfsunlamış, bir-birilərinə buta göndərmişdi. Xeyrənnisə bəyim yorğanı qaldırıb şahzadənin yanına girəndə tatar xanı səsini də çıxartmadı və ona göstərilən bu lütfdən həzz aldı. Ona elə gəlmişdi ki, bu qadın kimdirsə, Şahın ona hədiyyəsidir. Çünki o da bilirdi ki, Şah Məhəmməd Xudabəndə tatar xanına məktub göndərib onu geri vermək istəyir.

Qayıdaq sevişmə səhnəsinə. Bu, bir-birinə ac, erkək və dişi canavarın sevgi rəqsiydi. Dil dilə, diş dişə, dodaq dodağa dəyirdi, sanki pətəkdən bal əmirdilər.

Əgər həvəsiniz varsa, özünüz kameranı quraşdırın və həmin sevgi rəqslərinə tamaşa edin. Ucundan-qulağından deyə bilərəm. Xeyrənnisə bəyim qara zülflərini Adil Gərayın üzünə-gözünə sürtürdü, ağ yumru sinəsi xanın tüklü sinəsini qıdıqlayırdı…

Bundan sonrası sizlikdir.

Yalnız səhərisi gün, tatar şahzadəsi Məhəmməd Xudabəndənin divanına çağırılanda başa düşdü ki, dünən gecə yorğan-döşəyinə girən xanım Məhdi Ülya imiş. Amma bu, ilk dəfə gördüyü şah arvadı deyildi, tamam dəyişmişdi. Bu dəyişikliyin səbəbi nəydi, bilmədi. Bəlkə o, səhv edirdi. Heç dünən gecəki Xeyrənnisə bəyim deyilmiş. Əgər o idisə, Adil Gərayın şəhvani hissləri onu cavanlaşdırmış, gümrahlaşdırmışdı. Şah arvadı çox şən və gülərüz idi.

Düzü, heç mən özüm də bunun səbəbini tam-dürüst bilmirəm. Bircə onu deyə bilərəm ki, onların eşq macərası çox davam eləmədi. Qızılbaş əmirləri bundan duyuq düşdülər və Səfəvi xanədanına təhlükə yaradan aşiq-məşuqu öldürmək qərarına gəldilər, daha doğrusu, qərarlarını icra eləməyə tələsdilər.

Məhəmməd Xudabəndənin yanındakı məşvərətdə xanlar belə bir təklif irəli sürdülər ki, Adil Gərayın paltarı oğurlansın və müzakirəyə çıxarılsın. Belə də oldu. Çünki xanlar əvvəldən plan qurmuşdular və bu planın ideyası Möhrdar Zülqədərə məxsus idi.

Adil Gərayın xidmətçilərindən biri onun alt köynəyini Qorxmaz xan Şamlıya verdi və o, həmin paltarı məclisə gətirdi. Bu məsələdə Züleyxa ilə gözəl Yusifin məhkəməsi dada yetişə bilməzdi. Çünki Adil Gərayın paltarı nə öndən, nə də arxadan cırılmışdı. Qorxmaz xan təklif elədi ki, hamı bir-bir tatar şahzadəsinin alt köynəyini qoxulasın və zinakar olub-olmamasına şəhadət versin. Təkəli, şamlı, türkmən, ustaclı tayfasının nümayəndələrinin hamısı bir-bir köynəyi iylədi və dedi:

– Köynəkdən Məhdi Ülyanın iyi gəlir.

– Aman Allah! Siz axı hardan Məhdi Ülyanın iyini duydunuz?! – Məhəmməd Xudabəndə dəli kimi qışqırdı.

Hamı çaşdı, amma Şahrux xan möhrdar Zülqədəroğlu özünü itirmədi.

– Çünki bu qoxu piri-mürşidimizdən və şahzadə Həmzə Mirzədən gəlir. Biz xudavəndi-aləmin və şahzadənin əlindən öpəndə bunu duymuşuq.

Bu adi və bəsit bəhanə kifayət idi ki, zəif iradəli Məhəmməd Xudabəndə deyilənlərə inansın. Çünki inanmasaydı, onun özündən şübhələnə bilərdilər. Rəngli şəhər kimi ad çıxarmış Qəzvində bunu başqa cür yozardılar. Bəs o boyda oğlanlar kimdən imiş, görən!?

Məhəmməd Xudabəndə sevimli arvadının öldürülməsini istəmirdi, amma qızılbaş əmirlərindən də qorxurdu. Bu məsələni çox şişirtməmək üçün qərara alındı ki, Adil Gəray və Xeyrənnisə gizlin öldürülsün. Adil Gərayın bu işlərdən xəbəri yoxuydu. Sarayda ona ayrılmış otaqda yaşayırdı, əsir tatarlar isə onun xidmətindəydi.

Tatar şahzadəsi nə şərab içir, nə də tiryək atırdı. Boş vaxtlarında başqa tatar əsirləri ilə, qorçularla qurşaqtutdu yarışına çıxır, ya da qığmərə, aşıq-aşıq oynayırdı. Bu oyunları əsir düşəndən sonra öyrənmişdi. Adil Gəray bu yarışların, demək olar ki, hamısında qalib gəlirdi. Ona görə də şöhrəti nəinki saraya, hətta Qəzvinə də yayılmışdı. Şahzadəni tək öldürmək hər igidin işi deyildi...

Qızılbaşlar gecəykən onun otağına gəldilər. Adil Gərayın özü və qorçuları yatmışdı. Amma qara niqablı qızılbaşlar içəri girəndə tatarlar dəli kimi yerlərindən atıldılar və döyüşə girdilər. Adil Gəraya ilk zərbəni möhrdar Zülqədərin oğlu Şahrux xan vurdu. Yaralı Adil Gəray ləyaqətlə döyüşsə də, qızılbaşlar çox olduğundan onlarla bacarmadı. Şahzadənin qara başı saray fitnə-fəsadına qurban oldu. On iki tatarın cəsədi həmin gecə gizlincə saraydan çıxarıldı və yandırıldı. Lap sonralar Dövlət Gəray qardaşının öldürülməsindən xəbər tutdu. Ona qəzəbli olsa da, bu işi qızılbaşlara bağışlamadı və hələ uzun illər özbəklərlə, osmanlılarla əlbir olub Azərbaycan torpaqlarına hücum elədi.

Sui-qəsdçilər Məhdi Ülyanı da həmin gecə qətlə yetirdilər. Amma bunu eləmək bir qədər çətin oldu. Çünki Məhdi Ülya sui-qəsddən qorxduğundan sarayda az görünürdü, əsasən hərəmxanada qalırdı, ora girmək isə qadağan idi.

Amma qızılbaşlar buna məhəl qoymadılar, ləyaqətsiz bir iş gördülər, hərəmxanaya soxularaq, səssizcə Xeyrənnisə bəyimin yatdığı otağa girdilər və Məhdi Ülyanı boğub öldürdülər, fars qızının anası ilə də bu cür davrandılar.

Xeyrənnisə bəyimin qoca anası təsadüfün qurbanı oldu. O, qızının otağında nə baş verdiyini öyrənmək üçün qapının dalından baxarkən ələ keçdi və qanına qəltan edildi. Onu şam işığı ələ verdi. “İlanı öldürüb, kərtənkələni sağ buraxmaq olmaz!” – Şahrux xan belə dedi.”

Amma Xeyrənnisə bəyimin öldürülməsi şəxsən mənə pis təsir elədi. Çünki gözəl qadınların öldürülməsini nə qızılbaşlara, nə də tarixə bağışlayıram. Heç özümə də bunu rəva bilmirəm. Ancaq bu əsərin bir əsl qəhrəmanı var. O da gözəllər gözəli Pərixan xanımdır. Onu sağ saxlamağım təkcə oxuculara yox, həm də tarixə sayğının təzahürüdür.

“Məhdi Ülyanın və Adil Gərayın işini bitirəndən iki gün sonra qızılbaş əmirləri saraya gəldilər. Onlar elə yeriyirdilər ki, sanki, heç nə baş verməyib. Fağır və həyatdan küskün Məhəmməd Xudabəndə qətlə yetirilmiş zövcəsindən ötrü göz yaşı axıdırdı. Qızılbaş əmirlərinin gəldiyini eşidib büzüşdü, göz yaşlarını sildi, özünü ələ aldı, amma ömrünün axırına kimi qamətini düzəldə bilmədi. Əmirlərin qərarını Qorxmaz xan Şamlı elan elədi. O dedi ki, şamlı, ustaclı və türkmən tayfaları onun şahlığını həmişəki kimi tanıyır və hər bir əmrinə müntəzirdirlər. Şah istəsə nəinki Xorasanı, hətta ipə-sapa yatmayan dağlıq Luristanı da darmadağın edərlər.

Şahın Qorxmaz xan Şamlıya böyük etibarı vardı. Çünki bir neçə il əvvəl Əliqulu xan Xorasanda xanədana qarşı qiyam edəndə Qorxmaz xan ona qoşulmamışdı. Əliqulu xanın çağırışına belə cavab vermişdi: “Mən Şaha qarşı çıxaram, ancaq Səfəvi xanədanına qarşı yox. Babalarımızın ruhu bizi bağışlamaz!”

Məhz elə buna görə də Şah Abbas hakimiyyətə gələndə edam olunan 22 qızılbaş xanının arasında onun başı yox idi.

Məhəmməd Xudabəndə göz yaşları içərisində qızılbaş əmirlərilə barışdı, amma uzun müddət "günahsız" arvadını və "qoca, xeyirxah, mömin" qayınanasını yadından çıxarmadı.

Qızılbaşlar bununla kifayətlənmədilər. Onlar üçün ən böyük təhlükə baş vəzir – mazandaranlı Mirzə Salman idi. O, Məhdi Ülyanın yaxın adamıydı və hələ də sarayda söz sahiblərindən biriydi. Xəzinə onun əlindəydi və hara gəldi, necə gəldi, xərcləyirdi. Ona görə də xəzinə, az qala, tamam boşalmışdı. Hətta osmanlılarla döyüşə getmək üçün mülazimlər də toplamaq olmurdu. Heç kim pulsuz-parasız ölümə getmək istəmirdi. “Heç olmasa, evdə saxlamaq üçün kəfən pulumuz olsun” – deyirdilər. Amma Mirzə Salmanı da öldürmək üçün bəhanə lazımıydı və onlar belə bir bəhanəni tapdılar. Abbas Mirzənin lələsi Əliqulu xan Şamlı Abbas Mirzəni tovlayıb Heratda qiyam qaldıranda Mirzə Salman Məhəmməd Xudabəndəni öz oğluna qarşı hücuma keçməyə təhrik eləmiş, amma onun bu cəhdi uğursuz olmuşdu. Abbas Mirzə atasına xəbər göndərib demişdi ki, onu həmişəkitək başının ağası, piri-mürşidi və qibləgahı hesab edir.

Qızılbaş əmirlərinə də elə bu lazım idi. Onlar atanın oğula qarşı həmən hücumunda Mirzə Salmanı günahlandırdılar və elə Heratdaca qətlə yetirdilər. Mirzə Salmanı Şabdah Sultan doğradı…

* * *

Qalırdı Şah Abbasın yolunu kəsən Həmzə Mirzə. O Həmzə Mirzə ki, Pərixan xanımın öldürülməsinə anası ilə birgə qərar vermişdi. Və Şah qızı onu cəzasız buraxmaq istəmirdi.

Həmzə Mirzə də dinc durmur, gözəllikdə tayı-bərabəri olmayan anasının ölümüylə barışmır, qisas haqqında düşünür və bu qətldə günahkar olanları bir-bir öldürürdü. Salnaməçilərdən birinin yazdığına görə, "o, bu sui-qəsdə başçılıq etmiş türkmən tayfasının başçısı Əmir xanı xanədana qarşı qiyama görə həbs edib, Qəhqəhə qalasına göndərdi və yolda öldürtdü. Şahzadənin göndərdiyi xəfiyyə qalada dustaq saxlanan Əmir xanın yeməyinə zəhər qatdı."

Şamlı, ustaclı və türkmən tayfalarının başbilənlərini bir-bir aradan götürməyə çalışan Həmzə Mirzəni atası bir gün yanına çağırdı və onların arasında gərgin söhbət oldu. Deyilənlərə və yazılanlara inansaq, Şahzadə atası ilə görüşdən əsəbi çıxıb və yolunun üstündəki əşyaları vurub-sındırıb, hətta çox bahalı çini qablar da onun qəzəbindən qurtula bilməyib, saray adamlarını və keşikçilərini isə təhqir edib, bəzilərini qılıncla yaralayıb.

Bütün bu xəbərlər məmləkətin hər yerinə yayılırdı və təbii ki, Herata və ona yaxın Məşhədə də çatırdı. Məşhəd əsilzadələri və din xadimləri bu məsələdən narahat olub, Qəzvinə şahın hüzuruna getmişdilər. Şübhəsiz, bu məsələdə Pərixan xanımın da Mürşüdqulu xana məsləhətləri əsas rol oynamışdı.

Pərixan xanım görüşlərin birində Mürşüdqulu xana dedi:

– Həmzə həddini aşıb. Xanədan onun vecunə deyil. Amma, deyəsən, indi ayılıb və qoşun toplamaq üçün Gəncə-Qarabağ tərəfə gedib. Düzü, inanmıram ki, osmanlı paşalarının qarşısını ala. İndi əsl vaxdır. Fürsəti fövtə vermək olmaz. Onu yox eləmək lazımdır. Hər nə olur-olsun, Abbası dərhal taxta oturtmaq gərəkdir. Xanədan əldən gedir. Qoca və əfəl qardaşım isə heç nəyə yaramır. Qancıq arvadı öldürüləndən sonra isə əl-qolu hər şeydən soyuyub və öz hücrəsinə çəkilib mənasız yerə, özü də arvad kimi göz yaşları axıdır. – Bir az ara verəndən sonra kinayə ilə davam elədi: – Eşitdiyimə görə nücum elmi ilə maraqlanır. O dünyanın olub-olmamasını bilmək istəyir. Onu da bilmək istəyir ki, yekəməmə arvadı axirətin hansı tərəfindədir: cəhənnəmdə, yoxsa cənnətdə. Mənə qalsa, onun yeri cəhənnəmlikdir. – Sonda isə poetik bir ifadə işlətdi: "Onun göz yaşları elə fısqırır ki, Herat fontanından da bərk vurur".

Şah qızı dağlardan gələn suyun ətalətə uyğun olaraq şəhər mərkəzindəki sarayın bağçasına axdığını və xüsusi qurğular vasitəsilə fontana bənzər ab-hava yaratdığına işarə edirdi.

Əslində, Pərixan xanım Həmzə Mirzəni sadaladığı işlərə görə öldürtmək istəmirdi. Bir tərəfdən qorxurdu ki, Həmzə Mirzə hakimiyyətə gəlsə, hansı vasitə iləsə onun sağ qaldığını öyrənər və başını vurdurar. O biri tərəfdən də Şah qızı ondan hayıf çıxırdı. Çünki qətlinə fərman verilməsinə Həmzənin tərəfdar olduğunu ona sahibxəbərləri çatdırmışdılar. "Anamın qarşısında

duran hər kəs ölümə məhkumdur. Çünki Xeyrənnisə mənim anamdır! Həmzənin!” – deyə şahzadə döşünə vuraraq demişdi.

Mürşüdqulu xan Şah qızının sözü qurtaran kimi tərəddüdlə soruşdu

– Bunu necə etmək olar? Həmzə dəlinin biridir, Şahın sahibxəbərləri də hər yerdədir.

– Həmzəni açıq döyüşdə məğlub eləmək olmaz. Heç lazım da deyil. Çünki başımız bir-birimizi qırmağa qarışsa, xanədan məhv olcaq. Onu sakitcə aradan götürmək lazımdır.

Mürşüdqulu xan ağzını açıb nəsə demək istəyirdi ki, Pərixan adəti üzrə onun ağzını əli ilə yavaşca və ərkyana qapadı və davam elədi:

– Bizə qılıqlı, tamahkar və Həmzəyə yaxın bir adam lazımdır. Onu tapmalısan və Qəzvindəki adamların vasitəsilə xəbərlər toplamalısan. Həmzənin dəqiq yerini bilmək lazımdır.

Mürşüdqulu xan qasidləri və adamlarını Qəzvinə göndərdi və Pərixan xanımın dedikləri doğru çıxdı. Həmzə Mirzə Gəncəyə yaxın bir yerdə düşərgə qurmuşdu.

Mürşüdqulu xan onun sədaqətli adamı, şəxsi dəlləyi və köməkçisi Xoy ermənisi Xudaverdini tanıyırdı.

Səhərisi günü o, Pərixan xanımın yaşadığı evə gəldi və bunları söylədi:

– Mən elə bir adam tanıyıram. Xoyludur. Özü də ermənidir. Şirvan döyüşündə bir yerdə olmuşuq. Həmzə ona etibar edir. Həmzənin çadırının ağzında yatır. Qorçulardan irəlidə.

Naibüssəltənə:

– Lap yaxşı, o, işini görəndən sonra öldürərsən və bu siyahını da cibinə qoyarsan, – dedi və hazırladığı siyahını xana uzatdı.

Həmin siyahıda Pərixan xanıma, onun tərəfdarlarına, anası Sultanağa xanıma, dayısı Şamxal Sultana, sevgilisi Xəlil xan Əfşara qarşı sui-qəsddə iştirak edən xanların, bəylərin adları vardı.

Mürşüdqulu xan otaqdan çıxmaq istəyəndə Pərixan xanım onu arxadan çağırdı. Xan geri dönüb məşuqəsinə baxdı. Şah qızının üzündə şeytani bir təbəssüm vardı. O:

– Sənə vacib bir söz də deməliyəm, – söylədi və qollarını xanın boynuna doladı.

Mürşüdqulu xan təəccüb və maraqla ona baxıb, uzun, qara bığlarını çeynədi. Xan təəccüblənəndə, adətən, belə edirdi.

Pərixan xanım xəbəri deməyə tələsmədi, vaxt uzatdı, sanki, xanın intizarlı baxışlarından həzz almaq istəyirdi, qollarını onun boynundan araladı, bir neçə addım geri atdı, handan-hana üzünə xoş bir təbbəsüm verib:

– Bizim uşağımız olacaq, – dedi.

Mürşüdqulu xan yerində quruyub qaldı və nə deyəcəyini bilmədi. Onsuz da onun yeddi arvaddan saysız-hesabsız övladları vardı. Biri də böyürdən çıxdı.

Pərixan xanım onun bu tərəddüdünü görəndə dedi:

– Sən heç qorxub-eləmə, xan. Uşağımızı saxlamağa yetərincə var-dövlətim var. Sənə yük olmarıq.

Mürşüdqulu xan bir söz demədi, yaxına gəlib sevgilisinin alnından öpdü və:

– Qədəmləri mübarək olsun, – deyə naibüssəltənənin qarnını sığalladı və otaqdan çıxdı.

– Tez qayıt! – Şah qızı onun arxasınca səsləndi.

Mürşüdqulu xan evə gəldi, dərhal atlanıb, bayrağını və tayfasından bir neçə qoluzorlunu götürüb Gəncə tərəfə getdi.

Həmzə Mirzə Şeyx Nizaminin məqbərəsinə yaxın bir yerdə düşərgə salmışdı. Qorçular Mürşüdqulu xanın gəldiyini Həmzə Mirzəyə xəbər verəndə şahzadə çox sevindi və xanı dərhal öz çadırına dəvət elədi.

Xan içəri girib təzim elədi və dedi:

– Həşəmətli qızılbaş hökmdarı şahımız Məhəmmədin tapşırığı ilə bura gəldim. Şahzadənin hər bir əmrinə müntəzirəm.

Həmzə Mirzə heç nədən şübhələnmədi və öz qonşuluğundakı alaçığı Mürşüdqulu xana verdi.

Təbii ki, xan yalan danışırdı və məqsədi Xudaverdini ələ almaq idi.

Bayaq dediyim kimi, Xudaverdi şahzadəyə yaxın adam hesab olunur, onun çadırının ağzında, ayaqlarının altında yatırdı.

İki gündən sonra eyş-işrət məclisindən çıxan Mürşüdqulu xan yalana əl atıb dəlləyə dedi ki, Həmzə Mirzəni aradan götürmək Şahın tapşırığıdır, çünki Həmzə Mirzə ipə-sapa yatmır və qoşun toplamaq əvəzinə, eyş-işrətlə məşğuldur. O, inandırıcı görünmək üşün Şah Məhəmməd Xudabəndənin üstündə möhürü olan və bir zamanlar Pərixan xanıma bağışladığı üzüyü də ona peşkəş elədi və söz verdi ki, iş bitəndən sonra onu Xoy vilayətinə hakim göndərəcəklər. – İşi bitirəndən sonra Qarabulağa qaçarsan. Səni orda gözləyəcəm.

Hiyləgər və fəndgir erməni bu dəfə necə oldusa yalana aldandı, yəqin, tamah ona güc gəldi. Bəlkə də Mürşüdqulu xan Həmzə Mirzənin etibarını və ehtiramını qazandığına görə inandı və münasib vaxt gözlədi. Belə bir vaxt gəlib çatdı.

Mürşüdqulu xanla söhbətin səhərisi o, kef məclisindən sonra yatmış Həmzə Mirzəyə yaxınlaşdı, şahzadənin yatdığına əmin olduqdan sonra onun boğazını ülgüclə kəsdi. Şahidlərin dediyinə görə, Həmzə Mirzənin qanından şərab iyi gəlirmiş.

Xudaverdi isə Mürşüdqulu xanın dediyi kimi elədi, çadırdan xəlvətcə çıxdı və Qarabulağa getdi. Qorçular ondan şübhələnmədilər də.

“Mürşüdqulu xanın adamları onu güdürdülər. Yolda Xudaverdini tutub öldürdülər, ölüsünü isə Həmzə Mirzənin çadırına yaxın yerə atdılar.”

Qorçular bu hadisədən duyuq düşən kimi hər tərəfi ələk-vələk elədilər və Xudaverdinin meyidini çadırın yanında tapdılar.

Mürşüdqulu xan onun üst-başını axtardı və cibindən Pərixan xanımın siyahısı çıxdı. Xan özü məktubu xəlvətcə dəlləyin cibinə qoya bilmişdi. Həmzə

Mirzənin çadırını Mürşüdqulu xanın tayfasından olan qorçular qoruduqlarına görə ondan şübhələnmədilər.

Siyahının başında İsmi xan Şamlı gəlirdi. Mürşüdqulu xanla şamlıların arası Əliqulu xana görə dəymişdi və indi bu tayfa ilə haqq-hesab çəkmək üçün əla fürsət idi. Saraya gələn kimi o, siyahını Məhəmməd Xudabəndəyə verdi. Amma həmin xanlar və əmirlərlə haqq-hesabı Abbas Mirzə hakimiyyətə gələndən sonra çəkməli oldu.

Bu hadisədən Məhəmməd Xudabəndə çox sarsıldı, tamam özünü itirdi. "Sanki, sağ qolumu kəsdilər", – deyə o, ağlaya-ağlaya öz yaxınlarına etiraf eləmişdi.

Məhəmməd Xudabəndə miskin vəziyyətə düşmüşdü. Ölkə əldən gedirdi, Səfəvi xanədanı indi barmaqla sayılası vilayətdən ibarət idi: Azərbaycan (paytaxtı Ərdəbil olmaqla), Qaradağ, Talış, İsfahan, Luristan və Xorasan. Ölkənin bir tərəfini özbəklər, bir tərəfini krım tatarları, böyük əksəriyyətini isə osmanlılar işğal eləmişdi.

Həmin vaxt məmləkət də qarışmışdı. Osmanlılar Təbrizi ələ keçirmişdilər. Hədəf Ərdəbil idi. Özbəklər isə Xorasanı hədələyirdi.

– Yezid köpəyuşaqları Təbrizi də aldılar, – bir tacir o birisinə deyirdi. – İndi malımızı harda satacağıq?

O biri tacir də onun sözünə qüvvət verdi:

– Ərdəbili də alsalar, vay halımıza! Namusumuz da əldən gedəcək, din-imanımız da.

Onlar Pərixan tərəfindən öyrədilmiş adamlar idilər və bu sözləri çox ucadan, adamların gur yerində deyirdilər ki, hamı eşitsin.

Dərvişlər də onlardan geri qalmır və məmləkətin başının üstünü qara buludların aldığını car çəkirdilər. "Sünni kafirlər Qəzvinə tərəf gəlirlər. Onların qarşısına çıxacaq ordu isə yoxdur. Şahımız əfəl və gücsüsdür."

Yasavullar, fərraşlar onların bəzilərini tutub darğanın yanına aparır. Nadir hallarda iş qaziyə gedib çıxırdı. Onları pul hesabına ya zaminə götürür, ya da bir-iki gün qazamatda saxlayandan sonra açıb buraxırdılar. Təbii ki, onların xərcini Pərixan xanım çəkirdi.

Hakimiyyətə Abbas Mirzə gəlməliydi və belə də oldu. Qərarı Qorxmaz xan Şamlı elan elədi.

– Məmləkət əldən gedir, ağalar, şahımız xanədanı idarə edə bilmir və taxt-tacı Abbas Mirzəyə təhfil verməlidir. Nə qədər ki, gec deyil, Herata getməli və şahzadəni saraya dəvət eləməliyik.

Mürşüdqulu xanın şamlılarla arası soyuq olsa da, Qorxmaz Şamlı ilə kirvəydilər. Kirvəlik isə müqəddəs qohumluq sayılırdı. Çünki Qorxmaz xanın uşaqlarının qanı Mürşüdqulu xanın üstünə sıçramışdı.

Mürşüdqulu xan Gəncə səfərindən qayıdandan sonra Herata getməmiş, Abbas Mirzəyə isə xəbər göndərmişdi ki, Qəzvində qarmaqarışıqlıqdır, adamlar qiyama hazırlaşır və belə bir vaxtda burada qalmaq məsləhətdir. İmkan olan kimi, onun özünü də Qəzvinə gətirib, taxta oturmaq barədə düşünür. Təbii, gənc Abbas Mirzə şahlığa can atırdı, amma bu, zorla yox, halallıqla baş verməliydi…

Elə həmin gün də bu qərarı Şah Məhəmmədə çatdırdılar. O, xanlarının qərarına qarşı çıxmadı, amma heç bir söz də demədi, eləcə dodağının altında nəsə mızıldandı və təxti-humayuna çəkilib, tərki-məkan oldu. Bir salnaməçinin yazdığına görə, o, hələ də arvadının qətlinə görə yas saxlayır və göz yaşlarına hakim ola bilmirdi. Cavan arvadları da onu ovundurmağı bacarmırdılar.

Xan və əmirlərdən ibarət bir qrup Herata yollandı. Dəstənin başında Mürşüdqulu xan dayanmışdı.

Həmin vaxt Abbas Mirzə Heratdan 100 kilometr aralıda yerləşən Məşhəddəydi. Çünki Pərixan xanım gələcək şaha məktub göndərmiş, ölkədəki vəziyyəti anlatmış və bu yaxınlarda onu saraya dəvət edəcəklərini xəbər vermişdi.

Şah qızı əvvəlcə istəmişdi ki, naməni Mürşüdqulu xandan göndərsin, sonda bu fikrindən daşınmışdı. Çünki Abbas Mirzə ondan da, xandan da şübhələnə bilərdi. Həm də ki, Mürşüdqulu xan Heratda yox, Qəzvindəydi. Məktubu qasid apardı...

Pərixan xanım məktubunda yazırdı: "Qızılbaş Aslanının, gələcək şahımızın, şanlı bahadur sultanımızın nəzərinə çatdırmağı özümə borc bilirəm ki, məmləkət əldən gedir, xanədan uçurum qarşısındadır, piri-mürşidimiz, sədəqə olduğumuz Şah Məhəmməd qocalıb və əldən düşüb. Dövləti idarə eləməyə onun səriştəsi olsa da, gücü çatmır. Xanların və əmirlərin fikri belədir ki, xanədanı yalnız sənin kimi fərasətli, gənc və enerjili şahzadə idarə edə bilər. Xahiş edirik ki, xanların və əmirlərin gəlişini gözləmədən yola düşəsən və yolda qarşılaşarsansa, onların xahişlərini yerə salmayıb taxt-taca sahib olasan..."

Şahzadə məktubu yazanın kimliyini bilmədiyinə görə nə edəcəyini də bilmədi. Lələsini gözlədi, paytaxta getməyə də tələsmədi, Məşhəddən Herata döndü. Çünki xanların və əmirlərin Qəzvindən Herata yola düşməsi barədə çapar vasitəsilə xəbər tutmuşdu.

Nəhayət, iki həftədən sonra Abbas Mirzəni hakimiyyətə dəvət edən dəstə Herata gəldi və gələcək səfəvi hökmdarı öz lələsi Mürşüdqulu xanın məsləhəti ilə, həm də adətə görə yenidən Məşhədə İmam Rza məqbərəsini ziyarətə getdi. Ordan da mühafizəçilərin, qorçuların, əmirlərin və lələsi Mürşüdqulu xanın müşayiətilə Qəzvinə yola düşdü.

Şahzadə paytaxtın girəcəyində təmtəraqla qarşılanaraq, Ziyadoğullarının evinə aparıldı. Xudabəndənin daim yanında olan və ona sədaqətilə seçilən 28 xan da Abbas Mirzəni şah kimi tanıdı. Onlar da Abbas Mirzənin yanına gəldilər və ona sadiq qızılbaş əmirlərinə qoşulub, yeni hökmdarı saraya qədər müşayiət elədilər.

Çehelsütun mühafizəçiləri və qorçular məsələdən agah olduqlarına görə xan və əmirlərə saraya girməyə mane olmadılar. Onlar Şah Məhəmməd Xudabəndənin yanına gəldilər və taxt-tacı Abbas Mirzəyə verməyə razı saldılar.

Sözə Mürşüdqulu xan başladı. Bağır basıb, şahın əlini öpəndən sonra dedi:

– Şahımızın ömrü çaylar qədər uzun, sədəf kimi saf və sağlam olsun! Biz sənin razılığını alandan sonra Herata getdik və Abbas Mirzəni taxt-taca sahib olmağa çağırdıq. İndi o burdadır və sənin mübarək xeyir-duanı eşitmək istəyir.

O biri xanlar və əmirlər də şahın əlini və ətəyini öpəndən sonra Məhəmməd Xudabəndə oğlunu bağrına basdı, taxt-tacı ona təhvil verdi və bunları söylədi:

– Qoy sufi babalarımızın ruhu səni qorusun, Günəş daim sənin başının üstündə dursun, Tanrı özü yar olsun! Bu qılınc, bu tac, bu da taxt, – deyə hər üçünü oğluna bağışlayıb, kənizlərin, nökər və qaravaşların müşayiətilə Qəzvindəki evinə yola düşdü...

Şah Abbas, adətə uyğun olaraq Ərdəbilə – əcdadlarının uyuduğu Şeyx Səfi məqbərəsini ziyarətə getdi. Zamanın sahibinin məqsədi babalarının uyuduğu məqbərəni ziyarət eləmək və onların ruhundan xeyir-dua almaq idi.

Salnaməçilər bu hadisəni belə təsvir edir:

"Şah Abbas dindar adamıydı. Hələ gənc ikən Məşhədə iki dəfə ayağıyalın getmiş, İmam Rzanın məzarını ziyarət eləmişdi.

Ərdəbilin xüsusi statusu vardı. 1590-cı ildə Azərbaycan vilayətlərinin əksəriyyətinin başçıları osmanlıların tərəfinə keçən zaman Ərdəbil vilayətinin hakimi, ustaclı tayfasından olan Mehdiqulu xan Çavuşlu öz sədaqətini bir daha şiə müqəddəslərinin ruhu qarşısında sübut eləmiş, osmanlılara qarşı vuruşaraq, Şah Abbasın rəğbətini qazanmış və onun etibarlı adamı kimi, Heydər Mirzə ilə birgə İstanbula sülh danışıqlarına göndərilmişdi.

Ərdəbil müqəddəs şəhər idi. Məmləkətin xülafətül-xülafəsi də burada oturURdu, onu şah təyin edirdi, ya da bu rütbəni özü daşıyırdı. Hakimiyyətə gəldikdən sonra bu rütbəyə Qızılbaş Aslanı özünü layiq bilmişdi. Xülafətül-xülafə «Səfəviyyə» təriqətinin başçısı sayılırdı və şiəliyi yaymaqla məşğul idi.

Təbriz tutulandan sonra Şah Abbas Ərdəbili Azərbaycanın paytaxtı elan eləmiş və Zülfüqar xan Qaramanlını vilayətə hakim qoymuşdu.

Zülfüqar, Fərhad və Əlvənd qardaşları Şamaxı qalasının sabiq hakimi, igidlikdə ad çıxarmış Qasım Sultanın oğlanlarıydılar və şahın gizli tapşırığı ilə osmanlılara qarşı üsyan hazırlayırdılar, amma kiçik qardaşları məlum olmayan səbəbdən sui-qəsdin üstünü açmış və osmanlılar qaramanlıların hamısını öldürmüşdü. Yalnız üç qardaş – Fərhad, Zülfüqar və Əlvənd xan qaçıb Ərdəbilə pənah gətirmişdilər.

Şah Əlvənd xanı Şərqi Gürcüstana xəfiyyə kimi göndərmiş, Zülfüqar və Fərhad xanı isə Ərdəbildə saxlamışdı. Ərdəbildəki Şeyx Səfi məqbərəsinə vəqflərdən və kəndlərdən pul gəlirdi, ona xüsusi baxılırdı. Deyilənə görə, məqbərənin gəlirlərilə Şah ordusunun bir illik xərcini ödəmək olardı.

Şah Abbas Qəzvindən yola düşməzdən əvvəl Ərdəbil hakimi Zülfüqar Qaramanlının yanına çapar göndərib, gələcəyini xəbər elədi və böyük bir dəstəylə müqəddəs şəhərə üz tutdu.

Ərdəbillilər şahı və onu müşayiət edənləri şəhərin bir ağaclığında qarşıladılar.

Qızılbaş Aslanı günorta namazına yaxın şəhərin yuxarı küçəsinə çatdı. Hava istiydi, amma Gilan dağlarından əsən meh buralara da gəlib çatırdı, yol boyu

sıralanmış ağacların yarpaqları titrəyirdi. Şah qəməri ərəb atının belindəydi, atın iri döşündəki sinəbəndi qırmızı ipəkdən idi, sinəbəndin qızıl pulları bir-birinə dəydikcə cingildəyir, atın daş-qaşla bəzədilmiş yəhəri par-par parıldayırdı.

Zilləllah şəhər darvazası ağzında atdan düşdü, məstlərini çıxarıb əlinə aldı ki, addımları müqəddəslərin yuxusuna haram qatıb, onları diksindirməsin və Şeyx Səfi məqbərəsinə tərəf piyada yürüdü. Ərdəbilin bütün dükan və bazarları bağlanmışdı. Hamı bayram libasındaydı. Müqəddəs şəhərin sakinləri küçəboyu sıralanmış dükanlarının, piştaxtalarının, evlərinin qarşısında dayanıb, şaha təzim edirdilər. Ərdəbillilər şaha böyük maraqla baxırdı. Küçənin hər iki tərəfi adamlarla doluydu. Dizçökənlər və dizçökənbaşı da burdaydı. Şah Abbas onların bərabərinə çatanda növbə ilə diz çökür, başlarını aşağı əyir və torpağı öpürdülər.

Ərdəbil əhli Qızılbaş Aslanının bəstə boyuna, zəhmli baxışlarına baxıb köks ötürürdü. İnanmaq istəmirdilər ki, hökmdar belə sadə ola bilər. Şəhər camaatının ürəklərində bir-birinə deməyə sözü çoxuydu, amma zilləllahın qorxusundan nəfəslərini içlərinə çəkmişdilər, cınqırlarını da çıxarmırdılar. Hardansa, uzaqlardan at kişnərtisi, dəvə nəriltisi, it hürüşü eşidilirdi.

Qızılbaş Aslanı məqbərəyə çatanda diz üstə düşüb, torpağı üç dəfə öpdü, sonra əllərini göyə qaldırıb, dodağının altında nəsə pıçıldadı, axırda ayağa qalxdı. Bu zaman məqbərənin qarşısındakı pənahabaddan üz-gözü tüklü bir adam çıxıb, özünü şahın ayaqları altına atdı. Bu, yaxın kəndlərdən birinin darğasıydı, ötənilki vergini verə bilmədiyinə görə pənahabada girmişdi ki, tacıböyüklər onu cəzalandıra bilməsinlər. Şah Abbas qorçulara əmr elədi ki, darğanı ayağa qaldırsınlar. O, hal-qəziyyəni billəndən sonra darğanı bağışladı və babalarının məzarlığına qədəm qoydu. Qorçular isə səf-səf məqbərənin qarşısında dayandılar.

Qızılbaş hökmdarı əvvəlcə Şeyx Səfi Məqbərəsinin Allah-Allah günbəzində uyuyan əcdadlarını yad elədi. Şahın gözü Şeyx Səfinin sənduqəsinin dörd tərəfində qoyulmuş alma boyda qızılları aldı, onların içərisində təzəcə dəyişdirilmiş şamlar yanırdı. Sonra o, adətinə uyğun olaraq böyük sərkərdə Şah İsmayılın hücrəsinə girdi və bir müddət orda qaldı. Ulu babasının sənduqəsinin üstündəki yazıları təkrar-təkrar oxudu: "Burada mübarək Şeyx İsmayıl, Sufilərin əqrabası, həqiqətpərəst, kamili-mürşid yatır". Hücrədən çıxandan sonra zamanın sahibi babalarının adlarına Quran oxutdurdu, ehsan verdi. Kasıb-kusuba halva və yuxa paylandı, məqbərəyə və məscidlərə gələ bilməyən qoca və xəstələrə də ehsan payı göndərildi.

Şah Abbas Talari-Çinixanaya keçib taxtda əyləşdi. Onu ziyarət edənlər növbə ilə yanaşıb, hökmdarın əl-ayağından öpdülər və bir kənarda diz çöküb oturdular. Çinixananın tavanı və divarları Çin imperatoru Minkin Birinci Təhmasibə göndərdiyi, arxası möhürlü qablarla doluydu. Taxçalarda qiymətli kitablar, eləcə də cildi ceyran dərisindən olan Quran kitabı və sufilərin 62 kiloluq məzhəb möhürü vardı.

Şah Birinci Təhmasibin sevdiyi kitablar da bura gətirilmişdi. Onların içərisində Nizami Gəncəvinin bir neçə cild xəmsəsi və nücum elminin banilərindən biri Şeyx Şərafəddinin də kitabı vardı.

Hamı yerbəyer olandan sonra Şeyxülislam qabağa çıxdı, əllərini sinəsinə qoydu və:

– Ziyarətin qəbul olsun, zilləllah, nə niyyətə gəlmisənsə, Allah qəbul eləsin, – dedi.

Dövrələmə oturmuş Ərdəbil əsilzadələri eyni zamanda alınlarını üç dəfə yerə vurdular və əllərini göyə qaldırıb:

– Amin, ya Allah! – deyə zikr elədilər.

Şah Abbas ətrafdakıları bir müddət süzdükdən sonra:

– İnşallah, məmləkətimizi yağmalamış din düşmənlərimizi yenəndən sonra babalarımızın məqbərəsinin darvazalarını qızıl və gümüşdən çəkdirəcəm, – dedi.

Bu sözlərdən sonra o, taxtdan düşdü, diz üstə oturub, salavat çevirdi və duasına başladı. Ora yığışanlar da dodaqlarının altında təkrar elədilər:

– Bissimillahi-rəhmanir-rəhim…Ya tanrım, şeyxlərimin, əcdadlarımın ruhu, din düşmənlərimizlə döyüşümdə qollarıma qüvvət, dizlərimə taqət, ürəyimə təpər ver! Bu döyüşlərdən qalib çıxsam, bax bu məqbərənin qapısını öz xərcim hesabına qızıl-gümüşdən düzəltdirəcəm. Qoy, bu mənim babalarımın ruhuna nəzirim olsun!

Hamı bir ağızdan:

– Tanrı duanızı qəbul etsin, – deyə pıçıldadı.

Şeyxülislam:

– Qoy, duanız müstəcəb olsun, niyyətiniz yerinə yetsin! – dedi.

Sonra Şah Abbas məqbərənin həyətindəki Cümə məscidinə gəldi və hamı ilə birgə günorta namazına oturdu. Ərdəbilin Cümə məscidlərindən dərviş və sufilərin «la ilahə illəllah» zikrləri eyni zamanda yüksəlməyə başladı və küləkli Ərdəbilin üstünə yayıldı…

* * *

"Şah Abbas Ərdəbildən qayıdan günün səhəri əcnəbi səfirlər də saraya təşrif buyurdular və yeni şahın ətəyindən öpdülər.

Xanədanın yeni başçısı qorçuların və mühafizəçilərin sırasına müsəlmanlaşmış 2 min gürcünü də qəbul elədi.

Andiçmə mərasimi Çehelsütunda keçirildi. Şah Abbas əmr verdi ki, xanlar və sərkərdələr Çehelsütuna gəlsinlər. Bəhanə isə o oldu ki, Divan təsis etmək fikrindədir. Şah gürcülərdən ibarət qorçulara və qulamlara gizli tapşırıq verdi.

Əmirlər saraya girəndə Şah Abbası taxtda gördülər. Şah atasına nisbətən ucaboyluydu; anasına çəkmişdi, göy gözləri, uzun və qara bığları, qırmızı, yumru sifəti vardı. Əyninə qırmızı xalat geymişdi, başına gümüşü pullarla işlənmiş börk qoymuşdu. Ciddi məsələlər müzakirə olunanda şah tacını qoymurdu.

Təzə şahın sağ tərəfində atası Məhəmməd Xudabəndə oturmuşdu. Məhəmməd Xudabəndə Həmzə Mirzəni və Məhdi Ülyanı öldürənlərin siyahısını Abbas Mirzəyə vermişdi. Siyahının başında İsmi xan Şamlının adı yazılmışdı.

Əmirlər və xanlar bir-bir yeni şaha yaxınlaşıb, onun əlini və ətəyini öpdülər, amma Şah anasının və qardaşının ölümündə təqsirli bildiyi Qəzvin sarayının ustaclı və şamlı tayfasının nümayəndələrinə əlini öpməyə imkan vermədi, xalatının qolunu aşağı çəkdi və onlar Şahın xalatının qolunu öpməklə kifayətləndilər.

Şaha yaxın yerdə Ziyad xan Qacar və oğlanları, Bayat və Əfşar tayfasının hakimləri, Herat əsilzadələri, ustaclı və şamlıların şaha sədaqətli xanları dayanmışdılar. Onlar uşaqlıqdan Abbas Mirzənin yanında olmuşdular. Şahla üzbəüz oturanlar şamlı, türkmən və ustaclı tayfasının xəyanətkar nümayəndələriydi. Qonaqlar içəri girən kimi qulamlar qapıları bağladılar. Həmzə Mirzənin qətlində əli olan əmirlərin canına vicvicə düşdü və yerlərində qurcuxmağa başladılar. Şah bunu duydu və onları sakitləşdirmək üçün atasına xitabən dedi:

– Dövlətimizin pənahı, başımızın ağası atam başında şahlıq tacı gəzdirməsə də, hamımızdan ucadır, Günəş qədər yüksəkdədir. Bundan sonra da hər bir kəs onun istəyini və fərmanlarını yerinə yetirməyə borcludur. Bu gün quracağımız Divan da onun arzusudur. Bu Divanın o birilərindən fərqi ondadır ki, ümumi tayfamızın ən ümdə məsələlərinə dair hökm çıxara və onu dərhal yerinə yetirə bilər. Şəriət məhkəməsinin bu işlərə qarışmaq haqqı yoxdur.

Bu sözlərdən sonra Şah Abbas dövrə ilə oturanlara müraciətlə dedi:

– İndi mən sizdən soruşuram! Öz şahzadəsini öldürənləri hansı cəza gözləyir?

Bu qəfil sual hamını çaşdırdı, pıçhapıç başladı. Şah Abbas yalnız öz qardaşının və anasının qisasını almırdı, həm də bu qətldən istifadə edərək, taxt-taca təhlükə olan əmirləri aradan götürmək istəyirdi.

Həmzə Mirzənin öldürülməsində günahları olanlar dinməzcə başlarını aşağı saldılar, bir az cəsarətliləri bir-birinin üzünə baxdı, günahı olmayanlar isə xorla "ölüm" cavabını verdilər.

Şah Abbas onların bu istəyini dərhal yerinə yetirdi, gürcülərdən ibarət qorçular və qulamlar qapıları açaraq içəri soxuldular, İsmi xan başda olmaqla, şamlı, ustaclı və türkmən tayfasının xəyanətkar əmirlərini qılıncdan keçirdilər. 22 xan başı Qəzvin darvazasının nizələrinə taxıldı.

Şah Abbasın əmri ilə qətldən xəbəri olan, yaxud da orada iştirak etmiş bir neçə əmir və xan isə cərimə ilə canlarını qurtardılar. Çünki boş xəzinəni doldurmaq üçün pula ehtuiyac var idi. Üst-üstə 50 min tümənə qədər cərimə yığıldı.

"Qızılbaş Aslanı sonralar da çoxlu başlar kəsdi, qanlar axıtdı, hətta lələsi Mürşüdqulu xan da onun qəzəbindən qurtulmadı."

İş burasındadır ki, Mürşüdqulu xan şahla Qəzvinə gedəndə Pərixan xanımı özü ilə aparmadı. Şah qızı bir neçə həftə gözləyəndən sonra hövsələsi daraldı və kənizi Zəhra vasitəsilə ona məktub göndərdi. Məktubda yazırdı ki, xanın gözəl bir oğlu dünyaya gəlib və onu görmək istəyirsə, ya özü Herata gəlsin, ya da onu və oğlunu Qəzvinə aparsın. "Oğlumu özüm böyüdəcəm və bu barədə narahat olmaya bilərsən. Pulum da var, param da." Ancaq məktubdan xəbər

çıxmadı. Ondan da əlavə, Zəhra da yoxa çıxdı: ya xan onu aradan götürtmüşdü, ya da özünə kəniz eləmişdi.

Mürşüdqulu xan qorxurdu ki, Pərixan xanım Qəzvinə gəlsə, onu tanıya bilərlər, yaxud özü saraya yol tapar. Şah qızından hər şey gözləmək olardı. Saraya yol tapsaydı, çox işin üstünü aça, çox sirləri faş edə bilərdi. Çünki bəzi mübhəm işləri birlikdə görmüşdülər. Məşuqunun bu etibarsızlığı Pərixan xanıma pis təsir elədi və qasid vasitəsilə ona daha bir məktub göndərib, onu etibarsızlıqda qınadı. Bunun da bir nəticəsi olmayanda qisas almaq niyyətinə düşdü. O biri tərəfdən isə, Pərixan xanım qorxurdu ki, Mürşüdqulu xan onu öldürtsün. Tələsmək lazım idi.

Pərixan xanım yerini dəyişmək qərarına gəldi, Çehelsütuna yaxın olmaq üçün Qəzvinə köçdü və şəhərin ucqar məhlələrinin birində ev kirayələdi. Yerini rahatlayandan sonra o, oğlunu və dayəsini evdə qoydu, təğyiri-libas olub bazara gəldi. Pərixan xanım şəhərdə nə baş verdiyini öyrənmək niyyətindəydi.

Təsadüf nəticəsində o, çarşıda keçmiş və etibarlı kənizi Zəhranı gördü, daha doğrusu, onu yerişindən tanıdı. Zəhra gözəl olsa da, yüngülcə axsayırdı. Bunu yalnız onu yaxından tanıyanlar bilirdilər. Özünün dediyinə görə, uşaqlıqda sol ayağına qaynar su tökülmüş və bir müddət ayağını yerə basmaqdan qorxduğuna görə belə bir vərdiş yaranmışdı.

Zəhra tək deyildi, yanında bir neçə qul-qaravaşı, nökəri vardı. Onlar bazarlıq edir, satıcılarla qiymət üstündə çənə-boğaz edirdilər. Pərixan xanım onların başlarının qarışdığını görüb Zəhraya yaxınlaşdı və ehmalca qoluna toxundu. Zəhra bu təmasdan diksindi və geri çevriləndə keçmiş sahibəsini tanıdı. Elə ağzını açıb nəsə demək istəyirdi ki, Pərixan xanım barmağı ilə işarə elədi ki, sussun və bir az kənara çəkilsin. Özü isə bazarın yuxarı başına tərəf getdi. Zəhra qaravaşlardan birinin qulağına nəsə dedi və Pərixan xanım göstərən istiqamətə getdi.

Şah qızı keçmiş kənizini kənara çəkdi.

– Bağışla məni, nəvvab xanım, günah məndə olmadı, – deyə Zəhra özünə bəraət qazandırmaq üçün nəsə demək istəyirdi ki, Pərixan xanım onun sözünü yarımçıq kəsdi.

– İndi izahat yeri deyil. Mənə Mürşüdqulu xandan danış.

– Sən məni Qəzvinə göndərəndən sonra Mürşüdqulu xanı axtarıb tapdım. O, məni evinə dəvət elədi və and-aman elədi ki, bu yaxınlarda adam göndərib səni Qəzvinə gətirəcək. Ona görə də geri qayıtmağa lüzum yoxdur. Mən də ona inandım. Sən demə, yalan deyirmiş...

– Sonra nə oldu?

– Nə olacaq? Molla çağırtdırıb məni özünə siğə elədi və kənizbaşı qoydu.

– Nankor! – deyə Pərixan xanım özündən asılı olmayaraq qışqırdı.

– O, rəhmsiz adamdır, xanım. Özü də eyş-işrətdən başı açılmır. Bu yaxınlarda zavallı bir kəndli, onun təbəəsində olan kasıb biri buğda istəməyə gəlmişdi. O yazığın burun-qulağını kəsib yola saldı.

– Bəs, şah nə deyir?

– Şahın bundan xəbəri yoxdu ki. Olsaydı, bu zalım istədiyini eləyə bilməzdi.

Zəhranın dedikləri naibüssəltənə üçün göydəndüşmə xəbər idi. Mürşüdqulu xandan Şaha çuğulçuluq etmək üçün yaxşı fürsət yaranmışdı. Ona görə də təmkinlə dedi:

– Yaxşı, sən geri qayıt. Bizdən şübhələnə bilərlər. Amma söhbətimiz gizli qalsın. Bu yaxınlarda səni o zalımın əlindən alacam.

– Bə çeşm, – Zəhra dedi və bazardakı adamlara qarışdı.

Pərixan xanım evə gələn kimi Şah Abbasa məktub göndərmək qərarına gəldi.

Məktubun məzmunu beləydi: “Piri-mürşidim, bahadur sultan Şah Abbas! Mən səni təkcə xanədanın yox, həm də yer üzündə yaşayan insanların pənahı sayıram. Çünki müdriklər müdrikisən. Ancaq məlumun olsun ki, qoynunda ilan gəzdirirsən və o ilan öz lələn Mürşüdqulu xandır. Mürşüdqulu xan çoxdandır ki, taxt-taca gözünü dikib və səni öldürmək üçün fürsət gəzir. Səni və xanədanı gözdən salmaq üçün rəiyyətə zülm edir. İndi o, Gilanda qiyam qaldıran Xan Əhmədlə birləşmək istəyir. İnanmırsansa, onun barmağındakı firuzə qaşlı üzüyə bax. Üzüyün qaşında zəhər var. Daha bir zəhər isə onun yaşıl mahud cübbəsinin yaxasındadır. Onu tapandan sonra gizli düşməninlə nə edəcəyini özün bilərsən. Soruşa bilərsən ki, mən bütün bunları hardan bilirəm? Çünki mənim yaxın adamım Mürşüdqulu xanın evindədir. Vaxtı gələndə adını deyəcəm. İndi isə mənim dediklərimin nə qədər doğru, ya yalan olduğunu bilmək üçün işə başla. Allah amanında!..”

* * *

Şah Abbas naməni oxuyub xeyli fikrə getdi. Gizli məktubları şah özü oxuyurdu, mirzəsinə, vəzirinə də etibar eləmirdi.

Mürşüdqulu xan varlanmışdı və doğrudan da təbəəliyində olanları incidirdi, həm də çox sirdən agah idi və həmin sirləri o dünyaya aparsa yaxşı olardı. Bunun üçün də bəhanə lazım idi. Çünki Mürşüdqulu xan da bu məmləkətdə nüfuz sahibiydi, onun hakimiyyətə gəlməsində də xidmətləri vardı və bu işi yoxlamamış, lələsini sınamamış, qərar vermək olmazdı.

Şah Abbas çoxdan başa düşmüşdü ki, lələsi ona yağı olmaq istəyir. Gilanda isə bibisinin əri Xanəhməd xan ağalıq edirdi. Onun ağzını əzməsəydi, bu, başqalarına dərs olmazdı. Xanəhməd xanı cəzalandırmaq həm də ona görə lazım idi ki, yeni şahı qəbul eləməyən bir neçə xanın gözü qorxsun. Qan örtmüş gözləri açmaq gərək idi.

Gilanlı Məhəmməd Şərəf xan, sultan Mahmud və Əzim bəy yeni şahın andiçmə mərasiminə gəlməmişdilər. Onlar da Həmzə Mirzənin öldürülməsində suçlu idilər və canlarının qorxusundan Gilana – Xanəhməd xanın yanına qaçmışdılar. Şah xainləri geri qaytarmağı tələb eləsə də, Xanəhməd xan buna razı olmamışdı, üstəlik də şah xəzinəsinə illik ödəməli olduğu bir milyon qızıl pulu da verməkdən imtina eləmişdi. Şah Abbas bibisi Sultan bəyimin (Məhəmməd Xudabəndənin bacısı) ərinə çox qəzəblənmişdi və qisas hissilə alışıb-yanırdı. Amma onu da yaxşı bilirdi ki, hirsli başda ağıl olmaz, dağlıq ərazi hesab olunan Gilana hücum ona asan başa gəlməyəcək və buna hazırlaşmaq lazımdır...

O, məktubda yazılanları və öz şübhələrini yoxlamaq üçün lələsindən xəbərsiz Mürşüdqulu xanın evinə getdi...

Mürşüdqulu xanın həyətinin ucu-bucağı yox idi. Şah Abbas bağçada dövrələmə əkilmiş qızılgüllərə baxırdı, sanki onlarda sirli nəsə axtarırdı, hərdən əyilib, onları tumarlayır və iyləyirdi. Qorçular iki cərgə dayanmışdı: bir hissəsi dışarı tərəfə baxırdı, bir hissəsi isə həyətə. Həyətə baxanlar baxışları ilə zillələllahı müşahidə eləyirdilər.

Bu zaman Mürşüdqulu xan da bağçaya daxil oldu. Zillələllah əyilib qızılgüllərdən birini qopardı, gülün tikanı onun əlinə batsa da, əhəmiyyət vermədi. Tikanın batdığı yerdən axan qanı isə gülün qıpqırmızı ləçəklərinə sürtdü. Şah Abbas ayıq adam idi, addım səslərini eşidən kimi geri qanrıldı. Mürşüdqulu xan ona yaxınlaşırdı.

Deyəsən, kimsə şahın gələcəyini ona xəbər vermişdi. Şah bunu yaxşı başa düşdü. Çünki bu zamanlar lələsi evdə olmazdı: ya məsciddə, ya da öz təsərrüfatını yoxlamaq üçün çöldə-bacada olardı.

Şah Abbas ona çoxmənalı şəkildə baxdı və dedi:

– Hə, lələ, yaxşı gəldin, al bu gülləri iylə, adamın ağlını başından alır.

Mürşüdqulu xan başını aşağı əyib, sahibi-zamanın əlindəki qızılgülü iylədi. Güldən qəribə qoxu gəlirdi. Birdən onun gözü zillələllahın qan axan barmağına sataşdı, məsələnin nə yerdə olduğunu anladı, bildi ki, şah barmağının qanını gülün ləçəklərinə sürtüb ki, ona sirli və qorxulu rayihə qatsın. Lələsi yetirməsinin gözlərinin içinə baxıb:

– Gözəldir, çox gözəldir, – dedi.

Mürşüdqulu xan bu sözləri ona görə deyirdi ki, şahın «gözəl» kəlməsindən xoşu gəlirdi.

Şah Abbas lələsinin çoxbilmişliyindən yaxşı xəbərdarıydı, ona görə də gülümsər gözlərini qızılgüllərin arasındakı Şiraz güllərinə dikdi. Onlar sarmaşıq kimi qızılgüllərə dolaşmışdılar.

– Bəs bunlar necə? – deyə o, Şiraz güllərinə işarə elədi.

Mürşüdqulu xan:

– Onlar da gözəldir, – dedi və gülümsündü.

Şah Abbas lələsinin əlinə baxdı, amma üzüyü orda görmədi.

– Lələ, sənin füruzə qaşlı qəşəng üzüyün vardı. Nə əcəb barmağında yoxdur? Bəlkə hərəmlərindən kiməsə bağışlamısan?

– Üzüyüm sənə peşkəşdir, qurbanın olum. Səhər namaz qılanda çıxarıb taxçaya qoymuşam, yaddan çıxıb orda qalıb. İzn versən, gətirərəm.

– İzn verirəm.

Mürşüdqulu xan evə girib üzüyü gətirdi. Bir azca da ləngidi.

Şah Abbas üzüyü o tərəf-bu tərəfə çevirdi.

– Çox gözəldir, – dedi.

– Hə, gözəldir, şəhriyarım, – Mürşüdqulu xan şirin dilini işə saldı, – sizin barmağınızda lap gözəl görünər.

Şah Abbas üzüyün qaşını qaldırıb baxdı, guya üzüyü yoxlamaq üçün bunu elədi.

– Etibarlıdır, – dedi.

Bununla belə, məktub sahibinin dediyi zəhəri orda görmədi. Ya Mürşüdqulu xan evə girəndə onu yerə tökmüşdü, ya da əvvəlcədən orda yox idi. Bu, ola bilməzdi, axı. Çünki məktub sahibinin dedikləri həmişə doğru çıxırdı.

Mürşüdqulu xan şahın baxışlarından qorxdu.

– Canım sənə sədəqə olsun, olmaya…

Şah Abbas onun nə demək istədiyini anladı.

– Nə dediyindir, lələ, sən mənim ən inandığım adamsan. Bilirsən bura niyə gəldim? Gilanda vəziyyəti bilirsən. Ora etibarlı adam göndərmək lazımdır. Həm də unutma ki, mən səndən dərs almışam. İlanın başını vaxtında əzmək lazımdır ki, zəhər toplaya bilməsin. İlan zəhər toplayandan sonra qorxulu olur. Var-dövlət adamı qudurdur, lələ.

Qızılbaş Aslanı ikibaşlı danışırdı və Mürşüdqulu xan onu göydə tutdu. Nəsə demək istədi, ancaq şah onun sözünü kəsib ötkəmliklə dedi:

– Get, lələ, get qoşunları Gilana hazırla!

Şahın bu sərtliyi Mürşüdqulu xanı, sanki, ayıltdı. Düzdü, o, şahdan çoxdan şübhələnmişdi. Çünki zilləllah bir neçə dəfə hamının yanında lələsinə acıqlanmış və adamları yola verməyi tapşırmışdı. Mürşüdqulu xandan şikayətlər çox olduğuna görə. Bu da xanın canına vəlvələ salmışdı.

O, Şah Abbasın yanından çıxandan sonra fikirləşdi ki, Səfəvi qoşunları Gilana çatanda bir bəhanə ilə Xanəhməd xanla birləşər. Ona görə də öz adamını gizli məktubla Gilana göndərdi. Ancaq şahın xəfiyyələri Gilana yaxın kəndlərdən birində atını dəyişmək istəyən çaparı tanıdılar və tutdular, amma Mürşüdqulu xanın bundan xəbəri olmadı.

Mürşüdqulu xanın çaparı al geyimli cəlladı görən kimi, hər şeyi açıb danışsa da, başını qurtara bilmədi.

Mürşüdqulu xanı Gilana yola salandan sonra Şah Abbas şəxsi xəfiyyəsi Quláməli bəyi Mürşüdqulu xanın evinə göndərdi.

* * *

Qızılbaş adətinə görə, Mürşüdqulu xan əhli-əyalını da götürüb düşmən üstünə getmişdi. Evdə yalnız bir qulluqçu və bir nökər qalmışdı. Ona görə də xəfiyyə evə səhərə yaxın getdi. Damın bacasından evə girə bildi. Evdəkilər ya yatmışdılar, ya da öz xanələrinə getmişdilər. Sakitlik idi.

Xəfiyyə belə evlərdə çox olmuşdu. Onların hamısı bir-birinə oxşayırdı.

Paltarlar divarda oyulmuş dolablarda saxlanılırdı. O, alaqaranlıqda yaşıl mahud cübbəni axtarıb tapdı.

Gizli namənin müəllifi düz deyirdi. Zəhər cübbənin yaxasındaydı. Xəfiyyə mahudu və zəhəri yerinə qoydu, özü isə gəldiyi yolla da geri qayıtdı...

Mürşüdqulu xanın çaparı hər şeyi boynuna almışdı. Ona görə də şah lələsinin xəyanətindən xəbər tutmuşdu. Qızılbaş Aslanı özü Gilana getdi, Mürşüdqulu xan bunu eşidəndə Xanəhməd xanla görüşməkdən imtina elədi.

Xanəhməd xanın qoşunlarını məğlub edib, başını kəsəndən sonra Şah Abbas Qəzvinə qayıtdı və qələbəni bayram eləmək bəhanəsilə yaxın adamlarını, o cümlədən də Mürşüdqulu xanı Çehelsütuna çağırdı.

Saray eşikağasının göndərdiyi söz yasavulu xanın evinə gəldi, bağır basıb dedi:

– Xan sağ olsun, şahımız səni yanına çağırır.

Bu sözləri eşidəndə Mürşüdqulu xanın, sanki dalağı sancdı və soruşdu:

– Xeyir ola?

– Xeyir olar, inşəallah!

Söz yasavulu dönüb getmək istəyəndə bu sözləri də dedi:

– Şahımız istəyir ki, saraya yaşıl mahudlu cübbənlə gələsən.

Mürşüdqulu xan, onsuz da, yaşıl cübbədə gedəcəkdi. Bilirdi ki, Şah Abbas yaşıl rəngi sevir. Ona görə də yasavulun bu sözü deməsi artıq idi. Onun canından gizilti keçdi, fikri-xəyalı min yerə getdi və saraya gedənə qədər narahatlıq hissi canından çıxmadı.

Qonaqlıq süfrəsinə çoxçeşidli təamlar düzülmüşdü: süfrənin ortasında iri məcməyidə qırqovulplov, ətrafında isə müxtəlif ədviyyatlar qoyulmuşdu. Dolmakabab (üzüm yarpağına bükülmüş lüləkabab), fisincan, dovğa, cürbəcür şərbətlər və meyvələr. Portəgizdən gətirilmiş tiryək, Şiraz şərabı da öz yerində.

Bir qayda olaraq, süfrənin başında Şah Abbas dizi üstə oturmuşdu, qalan qonaqlar isə dövrələmə düzülmüşdülər. Mürşüdqulu xan Şahın sağında, baş vəzir Hətəm xan solundaydı.

Xanədan sahibinin baş aşpazı Nurullah ağa bütün bu nemətlərdən bir-bir dadandan, şərabdan içəndən, süfrə ətrafındakılar süfrə duası oxuyandan sonra Şah Abbas "bissimillah" deyib əlini lavaşa atdı, başqaları da onun kimi elədilər.Amma Mürşüdqulu xan narahat olduğuna görə ən sonda çörək kəsdi. Bu da Şah Abbasın gözündən yayınmadı.

– Gözümə birtəhər dəyirsən, lələ!

– Yox, qurbanın olum, birtəhər niyə oluram ki, belə bir möhtəşəm qələbədən sonra birtəhərmi olmaq olar? – deyə yerində qurcuxdu.

Piyalələr şərabla doldurulandan sonra Şah Abbas dedi:

– Eşitmişəm ki, bəziləri qoynunda zəhərli ilan gəzdirir və taxt-taca təhlükə yaradır, elədirmi, lələ? – deyə o, üzünü Mürşüdqulu xana tutdu.

– Əstəgfürullah, elə demə, qurbanın olum. Əgər elədirsə, onda o ilanın başı əzilməlidir.

– Əlbəttə, əzilməlidir! – Ətrafdakı xanlar da deyilənləri təkrar elədilər.

– Elədirsə, birinci səndən başlayaq, lələ.

– Məndən niyə, sənə qurban?

– Bəs kimdən başlayaq? Ən yaxın adamım sənsən, sən dura-dura başqa xanları yoxlatmalı olsam, məndən inciyərlər. Özü də sənə inanıram.

– Buyur, başımızın böyüyü. Mən aydan arı, sudan duruyam.

Mürşüdqulu xanın, doğrudan da, zəhərdən xəbəri yox idi. Zəhəri ora Pərixan xanım qoymuş, yaxalığı da tikmişdi.

Şah Abbas əmr elədi ki, xanın yaxasını açsınlar.

Xəfiyyə Qulaməli bəy xanın cübbəsinin yaxasını açdı və zəhər dolu bükülünü çıxardı.

– Bəs bu nədir?

Mürşüdqulu xan heç nə başa düşmədi. Onun yaxalığında zəhər ola bilməzdi.

– Mən hardan bilim, başına dönüm, bəlkə güvə üçün dərmandır, dərzi qoyub ki, paltar xarab olmasın.

– Güvə dərmanını onun piyaləsinə tökün, verin içsin.

Mürşüdqulu xan çəkinmədən piyaləni başına çəkdi və bir neçə dəqiqə keçəndən sonra boğulmağa başladı. O, xirtdəyindən yapışıb yerı yıxıldı. Ağzından köpük gəldi, əsim-əsim əsdi.

Şah Abbas mühafizə rəisini çağırtdırıb əmr elədki, xəyanətkar "məlunu" aparıb itlərə yem eləsinlər.

– Aparın bu şərəfsizi. İllərdir ilanı qoynumda gəzdirirmişəm, xəbərim olmayıb! – qəzəblə dedi.

Bəlkə də son dəqiqə Mürşüdqulu xan Pərixan xanımı xatırladı və zəhər məsələsinin onun işi olduğunu anladı, amma deyə bilmədi, ağlı başında olsaydı belə, yəqin ki, deməzdi. Desəydi, böyük bir sirrin üstünü açmış olardı və başı, şübhəsiz, bədənindən ayrılardı...

* * *

Şah Birinci Abbası hakimiyyətə gətirməklə Pərixan xanım böyük iş gördü. Salnaməçinin yazdığına görə, yeni padşah parçalanmış Qızılbaş-Səfəvi dövlətini bütövləşdirdi və gücləndirdi. Hətta o, öləndən 80 il sonrakı dövr səfəvilərin "qızıl dövrü" kimi dəyərləndirilir.

Bəs Şah Abbas öz xeyirxahına neylədi? Bax, burası maraqlıdır.

Pərixan xanım şahla görüşmək üçün məqam gözləyirdi. Belə bir məqam Şah Abbas Təbrizi osmanlılardan geri alandan sonra, yəni 1603-cü ildə yarandı və Şah qızı Çehelsütuna getmək qərarına gəldi. O vaxta kimi Pərixan xanımın Mürşüdqulu xandan olan oğlu da azca böyümüşdü.

Söhbət yasavulu Şahsuvar bəy Şaha xəbər verdi ki, ağ niqablı bir qadın elçi daşının üstündə oturub, onunla görüşmək istəyir.

Şah Abbas:

– Cavandı, ya qocadı? – deyə yasavuldan xəbər aldı.

– Şah sağ olsun, oturuşundan-duruşundan elə də cavana oxşamır.

– Cavan deyilsə, bəs nə istəyir?

Şahsuvar bəy mülayim səslə söylədi:

– Mürşidim, onun cavan, yaxud yaşlı olduğunu niqabsız bilmək olar. Yanında da 10-11 yaşlı bir oğlan uşağı da var. Özü də dedi ki, sizə mühüm sözü var və ancaq təklikdə deyə bilər.

– Çağırın gəlsin.

Şahsuvar bəy Pərixan xanımı və yanındakı uşağı içəri ötürdü, özü isə qapının arxasında qaldı.

Pərixan xanım saraya girdi və ikiqat əyilib təzim elədi. Oğlu isə təlimat üzrə dizlərini yerə atıb, üç dəfə yeri öpdü. Şübhəsiz, saray görməyən uşaq bu dərsi anasından almışdı.

Şah Abbas:

– Yaxına gəl görüm, kimsən? –deyə amiranə səslə dedi.

Pərixan xanım dikəldi və yerə sərilmiş pələng dəriləri üzərində asta addımlarla şaha doğru getdi, uşaq da onun arxasınca.

Şah Abbas oturduğu yerdən başını irəli uzatdı ki, gələnin kimliyini yaxşı görə bilsin. Sonra geri çəkilib uzun, qara bığlarını sığalladı.

Şah qızı şəhriyarın yanında dayanmış baş vəzir Hətəmxana və mirzəyə baxdı. Bu o demək idi ki, şahla təklikdə qalmaq istəyir. Səfəvi hökmdarı əli ilə işarə elədi ki, hər ikisi otaqdan çıxsın.

Onlar çıxdıqdan sonra Şah qızı üzündəki niqabı qaldırıb dedi:

– Mən Pərixanam.

– Pərixan?! – deyə Şah Abbas təəccübünü gizlətmədi.

– Bəli, ağam.

– Mən bilən, Pərixanı çoxdan öldürüblər, yerini də itiriblər, – deyə Şah Abbas gözlərini ondan çəkmədən dedi.

– Taleyin qədərilə sağ qaldım, şahım.

Şah Abbas bibisinin gözlərinə diqqətlə baxdı. Bu qamətli və gözəl qadının dediklərinin nə dərəcədə həqiqət olub-olmadığını yoxlamaq istədi. Ona görə də soruşdu:

– Sənin Pərixan olduğunu nədən bilmək olar?

Pərixan xanım:

– Hər şey burda yazılıb, – deyə qoynundan naibüssəltənə olmağı ilə bağlı atası Şah Təhmasibin fərmanını ona uzatdı.

Şah Abbas fərmanı diqqətlə oxudu, sonra bürmələyib sahibinə qaytardı.

– Xub, yaxşı. Bəs, bu kimdir?

– Oğlumdur.

– Gözəl. Bəs istəyin nədir? – deyə mülayim səslə soruşdu.

– İstəyim qurban olduğumun ömrünün uzun, tax-tacının əbədi olmasıdır.

– Əbədi olan tək bir Allahdır.

– Orası elədir, ya zilləllah, mən əbədi deyəndə, sənin varislərini nəzərdə tuturam. Səndən sonra taxt-tac, qoy onlara qismət olsun.

– Mənim uzun ömürlü olduğumu hardan bilirsən? Baxıcısan, ya falçı? – deyə Şah Abbas bibisinə qıyğacı baxdı.

– Mən ərdəbilli şeyx Mustafadan dərs almışam.

– Şeyx Mustafadan?

– Bəli, şahım

– Hə, mən onu tanıyıram. Amma necə dərs aldığını göstərə bilərsənmi?

Şah Abbas özü də uşaq vaxtı şeyxdən dərs almışdı. Ona görə də bibisini sınamaq qərarına gəldi.

Pərixan xanım şahın üzünə diqqətlə baxıb dedi:

– Gözlərinə baxanda orda bir nəhr görürəm. Bu, uzunömürlülüyə işarədir.

– Hamı belə deyir! – deyə Şah Abbas xəfifcə qımışdı.

– Amma hamı mən görəni görmür, qibleyi-aləm.

Şah Abbasın bibisinin hazırcavablığından xoşu gəldi. Ona görə də yanındakı oğlana işarə ilə soruşdu:

– Bəs, bu gədə kimdir?

– O, bir sirrdir, şahım. Əgər ona dəyməsən, kimliyini deyərəm.

– Mənə şərt qoyursan? – Şah Abbas dikələn kimi oldu.

– Şərt niyə qoyuram, qurbanın olum. Mən onun anasıyam. Gələcəyi mənim üçün aydın olmalıdır.

– Əgər öncəgörümün varsa, deməli, taleyindən də xəbərdarsan.

– Hökmdarlar öncəni hamıdan yaxşı görürlər, qadan alım.

Şah Abbas bir az da yumşaldı.

– Bəs atası kimdir? – deyə xəbər aldı.

Pərixan xanım susdu.

Şah Abbas:

– Söz verirəm ki, nə sənə, nə də oğluna bir zərər yetirəcəm. Əgər bura gəlmisənsə, deməli, amandasan.

– Mürşüdqulu xanın oğludur, sənin lələnin.

Qızılbaş Aslanı bu sözdən diksinən kimi oldu, amma özünü ələ aldı və oğlanı barmağı ilə yanına çağırdı. Uşaq yaxına gələndə Şah Abbas başını bir az da irəli uzatdı və onun gözlərinə baxdı. Uşağın gözləri eynən Mürşüdqulu xanın gözləriydi və bu gözləri o, nəinki həyatda, hətta dəfələrlə yuxusunda da görmüşdü.

– Xub. Mənə nəsə mühüm bir tapşırıqla gəldiyini dedilər.

Pərixan xanım:

– Mən sənə gizli namələr yazan adamam.

– Həəə. Deməli, Ərdəbil şeyxindən havayı dərs almamısan.

– Nə elədimsə, qurban olduğum üçün elədim, – Pərixan xanım dedi və dizi üstə düşüb başını əydi. Yəni qara başım sənə qurbandır.

– Qalx ayağa. Diz üstə düşmək zənən işi deyil, özü də şah övladı üçün. Amma bütün bunları niyə elədin?

Pərixan xanım ayağa durub dedi:

– Çünki bu taxt-tacı yalnız sənin kimi güclü və iradəli şahzadə qoruya bilərdi.

– Bəs, anamı niyə öldürtdün?

– Mənim bundan xəbərim yoxdur, ya zilləllah!

– Vardı, – Şah Abbas sərt şəkildə dedi və ayağa qalxdı.

Pərixan xanım bir addım geri çəkildi və səsi titrəyə-titrəyə dedi:

– Xanlar elə fikirləşirdilər ki, onlar taxt-tacın şərəfini, Şahın isə namusunu qoruyurlar. Həm də mən istəmirdim ki, sən dura-dura, hansısa bir düşmən sünni hakimiyyəti ələ alsın.

– Nə düşmən, hansı düşmən?!

Pərixan xanım başa düşdü ki, hər şeyi açıb danışmalıdır. Danışsa, şah onu bağışlamaz. Ona görə də:

– Bəlkə də bütün bunlar şayiə idi, qurbanın olum.

Şah Abbas, onsuz da həqiqəti bilirdi. Ona görə də söhbəti uzatmaq istəməyib növbəti sualını verdi:

– Bəs, qardaşım Həmzə necə?

– O, eyş-işrətə qurşanmışdı. Ona görə də onu öldürdülər. Həm də hakimiyyət hərisi olan Mürşüdqulu xan elədi bu işi. Sən də yaxşı elədin ki, onun qisasını aldın. O biri tərəfdən də, Həmzə sənin yolunun üstündə ən böyük maneə idi.

Şah Abbas uzun müddət dinmədi. Bir neçə dəfə yerindən qalxıb-oturdu. Və Şah qızının dediklərilə ürəyində razılaşdı və soruşdu:

– Yaxşı, məndən istəyin nədir?

– İstəyirəm ki, bu uşağı xəlvət oğlanlarının arasına qatasan, başına dönüm. Qoy, həm sənin gözlərinin qabağında olsun, həm də qulluğunda dursun.

– Bəs sən?

– Bilmirəm. İxtiyarım səndədir. Nə istəsən, edə bilərsən.

Əslində, Pərixan xanım sarayda qalmaq niyyətindəydi. Heç olmasa, saraya gəlib-getmək hüququnu qazanmaq istəyirdi.

Qızılbaş Aslanı bibisini başdan-ayağa, ayaqdan-başa qədər süzdü. Pərixan xanım gözəllik təravətini saxlamışdı. Şah Abbasın ürəyindən keçdi ki, bibisi də olsa, keçməli şey deyil, bəlkə onu da hərəmxanaya qatsın. Pərixan xanım olduğunu kim biləcəkdi ki, amma qorxdu. Çünki Pərixan xanımdan hər şey gözləmək olardı. Ərdəbil Şeyxindən dərs alan, cadu-pitini bilən, əfsunlayıcı baxışlara malik bu qadın təhlükəliydi.

Ona görə də bir az fikirləşəndən sonra dedi:

– Hərgah, elədiyin əməllərə görə səni edam eləmək lazımdır. Amma onda günahlarını o biri dünyada yumalı olacaqsan. Mənə və taxt-taca elədiyin xeyirxahlığın əvəzində səni Quma göndərəcəm. Ömrünün axırına kimi orda mömün (zahid) ömrü yaşa, tövbə elə. Oğlundan isə arxayın ol, nəzərlərim üstündə olacaq...

* * *

Şah Abbas Pərixan xanımı Quma göndərdi, ya yox, heç kim bilmir, heç salnaməçilər də. Bəlkə onu hərəmxanaya qatdı, ya Quma göndərdi, ya elə bəlkə yolda gizlicə öldürtdü? Allah bilir! Özü də bu, başqa bir romanın mövzusudur...

***2019, yanvar – 2023, may***
***Bakı***

# UZUN, İNCƏ BİR YOLDA...



Azər Turanın yaradıcılığında keçmiş və çağdaşlığın vəhdəti, onların eyni müstəvidə çulğalaşması bədii üsul kimi daim funksionaldır. Dünya bədii-estetik təfəkkürünə əsrlərlə hökmranlıq etmiş antik ədəbiyyata dərin marağı, romantizmin xəyal pərdəsi fonunda bərpasını tapmış milli mövzulara müraciəti, yaradıcılığında daim arxetip obraz və süjetlərin aktuallandırılması və bu günlə əlaqələndirilməsi Azər Turanın bütün mətnlərinin özülündə müxtəlif formalarda ehtiva olunur.

Akademik Nizami Cəfərovun "Ədəbi söhbətlər" kitabında yazdığı belə bir fikir var: "Azər Turan Azərbaycan, ümumiyyətlə, dünya ədəbiyyatı klassiklərinin ciddi tədqiqatçısı, ümumtürk mədəniyyətinin həssas interpretatoru, müasir milli esseistikanın yaradıcılarından biri kimi tanınır". Doğru fikirdir. İncəsənətin bütün sahələrinə eyni səviyyədə bələdliyi, çağdaş dünyanın düşüncə sistemlərini müəyyənləşdirən paradiqmalara vaqif olması ona Mətni oxumağa geniş imkanlar verir və Azər Turanın sərhədsiz və universal zəkası sayəsində mətn artıq qapalı deyil, geniş, hüdudsuz kulturoloji struktur sistemlərinin qavrayış və dərketmə proseslərinin predmetinə çevrilir.

Gənc yazar Sərdar Aminin Azər Turanın kitabları, xüsusən "Fəryadın metafizikası" kitabı haqqındakı bir fikri onun mətnlərindəki estetika və düşüncə miqyasını dəqiq ifadə edir: "Bu kitabların Azərbaycanda yazılmasının daha bir üstünlüyü oxucu müstəvisində ölçülə bilər; Azər Turanın kitabları illər sonra bugünkü oxucumuzun yerini nişan verəcək. XXI əsrin əvvəllərində bu mövzuda və bu estetikada xitab edilmiş bir toplumun var olması həm araşdırmaçılarımızı şərəfləndirəcək, həm də xələflərimizi daha yüksək pillədə tutacaq".

Azər Turan inandığı mətndən yazır. Onun tədqiq etdiyi, araşdırdığı mövzu və şəxsiyyətlər fikir həyatımızda önəmli rolu olan bəlli bir missiya daşıyıcılarıdır. Azər Turan o ədəbi faktları qələmə alır ki, onların universal məzmunlu dəyərlərlə birləşmək potensialı güclüdür, dünya fəlsəfi-estetik düşüncəsindəki məqamlarla sintez oluna bilir, inteqrasiya prosesinə asanlıqla daxil olurlar.

## *“Avtoportret”, yaxud mistik oyanış dövrü*

Azər Turanın “Qızıl orta” adlı məqaləsində Tanpınardan gətirdiyi belə bir fikir diqqətimi çəkir: "Şeir və sənət anlayışımda Berqsonun zaman tələqqisinin mühüm bir yeri var. Freydlə Berqsonun bərabər paylaşdıqları bir dünyanın çocuqlarıydıq. Onlar bizə sirri insan zəkasında, insan həyatında aramağı öyrətdilər..." Eyni fikir Azər Turanın özünün də yaradıcılığını ifadə edir. Ədəbiyyata o dönəmdə gəlir ki, sovet sisteminin xərabəsi altında inildəyən tarix və zamanın yaralarının çox dərində olduğunu görüb anlayır. Amma şaşırmır, hardan başlamaq lazım olduğunu dərk edir. Milli-etnik düşüncədə və idrakda olan boşluğu, ilk növbədə, irfan və iman işığı ilə doldurmağın, əbədi elmi dövriyyədən perik salınan ruhsal qatın dirilişinin, şüurda pozulan keçmişlə əlaqə bağının bərpası baş tutmayınca bütöv mentalitet və yaddaşdan, mənəvi mədəniyyət hadisəsindən danışmağın mənasız olduğunu anlayır. Çünki elə bir dövr idi ki, “ezoterik romanlarıyla məşhur olan katalon yazıçı Riveyranın «Düşünmək yasaqdır!» hekayəsinin adını XX yüzilin son onilliyinə epiqraf kimi yazmaq olar”dı və belə bir dövrdə Azər Turan böyük döyüşə atıldığını cəsarətlə bəyan etməkdən çəkinmirdi: “Bir halda ki, söhbət həqiqətlərin ən ümümi dərkindən gedir, bu işdə Allahın mərhəmətinə sığınıram. Bu məqamdan savayı harada başqa sığınacaqlar varsa, hamısı boş bir xülyadır və mən mənəvi təkləməkanlarda günəşlə və tufanla üz-üzə durmaqdan çəkinmirəm. Mistik bir oyanış dövründəyəm”.

Azər Turanın bütün mətnlərində zamanla gözəl qurulmuş bir dialoq var. Bu yazılarda mətn içində mətn, zaman içində zaman konkretləşir, kontekstuallıq qazanır, fərqli zaman kəsimləri yan-yana yerləşərək mətnin semantik yükünü, onun ideya-estetik səviyyəsini ifadə edirlər: “Gəncliyimin ən sevimli yeddi sənətkarını xatırlayıram. Bəlkə də, onların adlarını yanaşı çəksəm, indi özümə də qəribə görünəcək: Füzuli, Cavid, Osip Mandelştam, Berqman, Tarkovski, Bekket və Vaqif Mustafazadə. Osip Mandelştamın simvolist şeirləri, dondurma günəşi və... repressiya olunması, sürgünlükdə ölməsi şəxsən məni hər zaman çox düşündürüb, fikirlərimi, demək olar ki, hər gün məşğul edib. Absurd teatrın yaradıcısı Samuel Bekketin «Qodonun intizarında» əsəri isə fikirlərimizin şaxələnməsində, hərəkətə gəlməsində, daha dərinlərə kök atmasında böyük iş gördü. İndi adı daha çox hallandırılan Tarkovskidir. Tarkovskinin «Andrey Rublyov»u, «Stalker»i mühitimizdə yeni bir aura yaradıb. Biz onun barəsində həyəcanla danışmağa başlayanda 1982-ci ildə Tarkovski mühacirətə Parisə getdi. Tarkovski Moskvada Şərqşünaslıq İnstitutunda, Kinematoqrafiya İnstitutunda təhsil almışdı. Şərq onun ruhuna sirayət etmişdi. O mənim təsəvvürümdəki ilk mühacir idi. Tənhalığımı daha da rəsmiləşdirmək üçün indi Tarkovskinin “Stalker”i mənə çox gərək olur”.

Azər Turan düşüncə sınırlarının böyüməsinə, şaxələnməsinə təsir etmiş bu insanların əsərlərini öz mətnlərinin təhkiyə strukturunda çərçivələnmiş ifadə vasitəsilə əritməyə nail olur. Nəzərə alsaq ki, bu cür fikirlər ədəbiyyat və incəsənətin yaradıcı subyektivliyinin önəmsənmədiyi bir zamanda hasilə gəlirdi, effektivlik daha parlaq çalar qazanır. Və bütün dövrlər üçün aktuallığı göz önünə

sərir. Əsl sənət həmişə siyasət və ideologiyalardan üstündür: "Materialistlərlə idealistlərin savaşı hələ də davam edir: Sənət xalqa məxsusdur! Sənət sənət üçündür! Amma sənət həm xalq, həm də sənət üçündür. Sənət Tanrı üçündür və Tanrıya məxsusdur!" Azər Turanın sənət baxışında bu, belə səciyyələnir, bütün qaydalar, bütün etalonlar onun yanaşmasında, onun yaratdığı iyerarxiyada pozulur, Bodriyarın sözləri ilə desək, bütün fərqliliklər eynilikdə əriyir. Bura qədər olan sənətə zidd nöqteyi-nəzərlər eyni, vahid, birmənalı baxış sferasında görünməz olur. Niyə? Çünki bu mətnlərdə aranan yalnız ədəbiyyatın yeri və səviyyəsi, onu idrak və fəhm məqamıdır: "Özümü 1874-cü ildə Parisdə hiss elədim. Eduard Mone, Edqar Deqa, Klod Mone, Pissarro, Sezann, Renuar, Sisler, Van Qoq, Qogen... Mən də oradayam. Keçən əsrdə, Parisdə və impressionizmdə. Klod Debyüssi – dev impressionist bəstəçi. Suların rəqsi. Moris Ravel deyir: «Sular musiqili axdılar. Qəlbim ehtizaza gəldi və mən «Suların rəqsi»ni yaratdım». Məncə, imperissionizm təkcə təəssürat deyil, təfərrüatı ilə təəssürat deməkdir.

Azər Turan fərqli kulturoloji kontekst və zamanlarda mövcud olmuş, dünya bədii-estetik və fəlsəfi fikrinin təsəvvür sınırlarını genişləndirən bütün mənəvi intibah nümunələrini yazılarının təhlil predmetinə daxil edir. Din, mifologiya, ədəbiyyat, o cümlədən incəsənətin bütün sferaları gerçəklik adlanan ucsuz-bucaqsız aləmi dərketmənin müxtəlif formaları kimi mətnlərdə daim funksional görünürlər. Azər Turan üçün Söz daim mifopoetik təfəkkürdən gəlmə gücünü saxlayır: "Dünyanın hər bir böyük milləti tarixə tarixlə deyil, miflə daxil olur. Fars tarixə tarixlə deyil, hətta öz mifləriylə də deyil, hind mifləri ilə daxil olur. Yunan da, Yəhudi də, Hind də tarixə tarixlə deyil, miflə daxil olur. Mif neçə min illik varlığımızda cərəyan edən prosesdir".

Azər Turana görə, mif yalnız kainatın başlanğıcı deyil, həm də incəsənət və ədəbiyyatın öz yaradılışında bağlı olduğu təfəkkür arealıdır.

K.Yaspers qeyd edir ki, "keçmişə müraciət bizi insan varlığının sirlərinə yaxınlaşdırır". Azər Turanda bu istək daha çox mifə qayıdış, onu bu günün müstəvisinə proyeksiyalamaq cəhdində realizəsini tapırdı. Amma ona qədər olan dəyərləri astar üzünə çevirmək, təftiş etməklə yeni dünyabaxış istiqaməti formalaşdırmağa çalışırdı. Bu proses onun mətnlərində həm də dilə münasibətdə, dil qanunlarının öyrəşdiyimiz anlamda "səlasəti" məsələsində də dəyişikliklərlə gerçəkləşirdi, yaxud metapozisiya yaradırdı. Özünə qədər olan bilgilər, elmin yenilikləri və mifoloji kontekst, mistik-ezoterik təlimlərə dərin bələdlik təhlilin statusunda özünü bəlli edir, sanki antik dünyanın magik modeli qurulurdu. Yaxud dinə münasibətdə onun birmənalı şəkildə sərgilədiyi imanlı mövqedən bəhs etmək istəyirəm. Mövlana, ərkan, həqiqət meyvəsi, quş dilini bilən Süleyman, irfan işığı və Azər Turanı bu məqama çatdıran Merac mədəniyyəti: "Merac mədəniyyətini anladığım gün renessans azmanlarıyla, sevdiyim təfəkkür tərzi ilə, «Cakonda», «Yatmış Venera» və «Maqdalina» ilə həyatımdan gəlib keçmiş Leonardo, Rafael və Tisianla günlərin bir günü küsdüm. Axı MERAC MƏDƏNIYYƏTİNİ daha munis bir aləm – Sultan Məhəmməd qavraya və anlada bilərdi".

Merac mədəniyyətini bəli, amma dünya mədəniyyətinin nəhəngliyini qavrada və anlada biləcək gerçəklər də az deyil. Əsas məsələ isə bu mədəniyyyəti içindən

keçirəndən sonra varlığının mənəvi qatını qoruyub saxlaya bilməkdir. Bu mənada, Azər Turan "həyatının son savaşını bitirmiş" insandır: "...Nitsşe, Şopenhauer, Freydlə tanışlıqdan sonra əgər qəlbində iman nuru varsa, o zaman hətta fitrətindəki eqosentrizm də sənə qalib gələ bilməz. Bu o deməkdir ki, özün özünə qalib gəlirsən və həyatının ən böyük savaşı bitir".

## *"İrfan çobanı" – qızıl orta*

Azər Turanın "İrfan çobanı" kitabı 2003-cü ildə nəşr olunub. Kitabdakı əksər məqalələrin sonunda 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində yazıldığı göstərilir. Həmin zamandakı ab-hava ilə mətnlərdəki ruhun uyuşmazlığı və miqyaslı düşüncə heyrətləndirir adamı.

"İrfan çobanı"nda əksər məqalələr esse janrında qələmə alınıb. Bu illər tənqiddə yaranan canlanmanın əsas səbəbi bir tərəfdən yeni metod və cərəyanların, sovet dövründə qadağan olunmuş müxtəlif "izm"lərin ədəbiyyatımıza gətirilməsi ilə bağlıdırsa, digər tərəfdən tənqidçi və yazıçıların esse janrına müraciət edərək onun qüvvətli nümunələrini yaratmaları ilə əlaqədar idi. Xüsusilə ikinci səbəb tənqidimizdə hadisə, onun inkişafında irəliyə addım sayıla bilərdi. Anarın "Gecə düşüncələri", Elçinin "Ədəbi düşüncələr", Kamal Abdullanın "Əvvəl-axır yazılanlar", "Yolun əvvəli və axırı", Kamil Vəli Nərimanoğlunun "Mənim Füzulim"... Sonradan esse janrının maraqlı nümunələri meydana qoyulacaqdı. Bu arada Azər Turanın "İrfan çobanı" da vardı, səksəninci illərin sonunda "Gənclik" jurnalında, doxsanıncı illərin önlərində "Aydınlıq" və "İlham" qəzetlərində, 2000-ci illərin əvvəllərində "Yeni Azərbaycan" qəzetinin "Ədəbiyyat" əlavəsində çap olunan silsilə düşüncə yazıları vardı ki, uzun illərin ideoloji nəzarət və basqısından, təzyiq və buxovundan sonra ədəbiyyata və sənətə açıq münasibətin, həyata və dövrə fəlsəfi yanaşmanın təzahürü kimi meydana çıxırdı. "Azərbaycan özgürlüyünün ilk şəhidi" Xudu Məmmədov, "elmin zirvəsinə ucalan yolu Bismillahdan başlayan" pakistanlı Nobel mükafatı laureatı Abdus Salam, "qorxu və ayrılıqlar çağı"nın kədərli şairəsi Anna Axmatova, "istiqlalın ən romantik poeziyasını yaradanlar" – Məhməd Akif Ərsoy, Hüseyn Cavid, Nihal Atsız, milli düşüncəmizi aydınladanlar – Ə.Hüseynzadə, İ.Qaspıralı, Yusif Akçura, Ziya Gökalp... Bu şəxsiyyətlərin hər biri Azər Turan üçün irfan çobanlarıdı, elm və ədəbiyyatı qoşa qanad kimi varlığında təcəssüm etdirən, qaval çalıb yatmış vicdanları inlədən əfəndilərdi.

Səksəninci illərin ikinci yarısından sonra Azər Turanın yazdığı əksər məqalələrin (ki, onların çoxu "İrfan çobanı" kitabında toplu halında təqdim olunurdu) hər birində yeni olan yalnız milli fikrin, türklük düşüncəsinin mətnlərə sirayət edən gücü, ədəbiyyat tarixi gizlinlərinə baş vurmaq cəhdi deyildi, yenilik yanaşma tərzinin özündə idi. Burada bütün hallarda daxili azadlıq və sərbəstliyini qabardan fərdi "mən" yeni dövr tənqidinin öyrəşmədiyimiz, alışmadığımız cəsarətli obrazı idi. "Dante ilə üz-üzə", "Səlib məfkurəsi: həqiqət və müəmma", "Biriyavari tənhalıq", "Avtoportret", "Sufi fenomeni"... esseləri ilə tənqiddə yeni bir dalğa hərəkatı başlayırdı. Sovet dövrünün tabularına etina edilmir, türk düşüncəsi önə keçirdi. Bu məqalələr tənqidi yalnız bədii əsərlərin şərhi, təhlili ilə məşğul bir janr

kimi səciyyələndirmək meyillərini eroziyaya uğradıb, ona daha geniş ərazidə, ölçü və miqyasda, heç nəyin qoşqusu olmadan, müstəqil kontekstdə nəzər yetirməyin gərəkliyini sübut edirdi.

"İrfan çobanı" Xalq yazıçısı Anarın "Türk düşüncəsi" adlı ön sözü ilə açılır: "Yaşadığımız zamanın bu vaxt darlığında, macalsızlığında Azər Turanın mənə əlyazması şəklində verdiyi 330 səhifəlik "İrfan çobanı" kitabını birnəfəsə və bir günə oxudum. Kitab ilk səhifələrindən məni cazibə dairəsinə aldı və son vərəqi bitirməyincə bu cazibədən qurtara bilmədim... Oxudum, sevindim. Qürur duydum. Çox şey öyrəndim. Çox şey haqqında düşündüm. Mübahisə etmək həvəsi yarandı. Və ən əsası, mütaliə etdiyim mətn məndə bu mətləblər haqqında öz mülahizələrimə, müşahidələrimə, fikirlərimə, bir növ, təkan verdi, bu düşüncələrimi Azərlə də, kitabın gələcək oxucularıyla da bölüşmək istədim".

"İrfan çobanı" kitabının ön sözündə Anar Azər Turanı "savadlı, geniş erudisiyalı, müxtəlif sahələrdə əhatəli biliklərə malik olan gənc və istedadlı qələm sahibi, çox ciddi araşdırıcı-alim, həm də sərrast və təsirli üsluba malik olan yazıçı-publisist, esseist" adlandırır. Kitabdakı bir çox mətləblərə toxunan Anar xüsusilə kitabın prioritet xətti olan türklük, türkçülük düşüncəsi üzərində geniş dayanır. Azər Turandan "öyrəndiyi", yaxud əksinə, razılaşmadığı məqamların mübahisə nöqtəsi də məhz bu mövzu üzərində qərarlaşır: "Çağdaş dövrdə, yəni keçən əsrin ibtidasında bu düşüncənin təməl qurucularından biri, "Dildə, əməldə, fikirdə" birlik şüarını gündəmə çıxaran Qaspıralı İsmayıl bəy, "Türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq" proqramını bəyan edən Əli bəy Hüseynzadə (Turan), Türkiyə Cümhuriyyətinin milli marşının (dövlət himninin) mətnini yazmış şair Məhməd Akif Ersoy, türkçülük ülgüsünün mücahidlərindən Nihal Atsız, Azərbaycanın böyük maarifçisi, ictimai, və siyasi xadimi, publisist Ömər Faiq Nemanzadə, Türkiyənin milli şairi Məhməd Əmin Yurdaqul; Azər Turan bu böyük şəxsiyyətlərdən yazır, bu böyük insanların timsalında türkçülük ideyasını əsaslandırır, türk düşüncəsinin əyani örnəklərini ortaya qoyur".

"İrfan çobanı" kitabı sovetlər dönəmindən sonra bir çox mövzuların cəsarətlə qabardılması baxımından diqqət çəkir. Bu mövzular hansılar idi? İlk növbədə, türkçülük, turançılıq məsələləri, daha sonra sufizm, irfanla bağlı məqamların ciddi müstəvidən öyrənilməsi və bir də dünya ədəbi-estetik fikrinin yaşadığı, çoxdan geridə qoyduğu cərəyanlar məsələsi. Bu mənada, kitabda Rəsul Rza haqqında müəllifin yazdığı "Ağrıdan yaranan söz" məqaləsi müstəsna əhəmiyyət daşıyır.

Kitabda türkçülük məsələləri hansı şəkildə qoyulurdu? Azər Turan türkün min illik tarixindən gəlirdi, dünya tarixində, məfkurə yaradılışında, millət kimi formalaşmaqda türk ruhunun önəmli rolundan bəhs edirdi. Türk xaqanlarının, türk sultanlarının hünərləri ilə toplumdan millətə, dövlətə çevrilən xalqın zəngin dəyərlər üstə yüksəlişini sanki hər məqalə, mətn boyu göstərməyə çalışırdı.

Onun Orxon yazılarına, "Gültiqin", "Kitabi-Dədə Qorqud" abidələrinə, "Alp ər Tonqa" dastanına, Çingiz Aytmatova, Çingiz Dağçıya olan sevgisinin kökündə dayanan amil də məhz bununla motivlənirdi. Bəli, Anar düz qeyd edir ki, "türk düşüncəsi, təbii ki, ilk növbədə, milli və hətta millətçi düşüncədir. Amma bu düşüncə sırf millətçilikdən uzaq olan fikir və siyasi yönlərdə də özünü biruzə verir".

Anar ön sözdə belə bir məqama toxunaraq yazır ki, "Azərin ailəsindən, atası, görkəmli ziyalımız, alimimiz, el ağsaqqalı İmamvedi Əbilovdan gələn bir cəhəti də başqa məziyyətləri kimi təqdirə layiqdir – dinimizə bağlılığını nəzərdə tuturam. Azər gənc yaşlarından İslamın tarixinə, Müqəddəs Qurana dərindən bələddir və bunu ancaq alqışlamaq olar. Amma bəzi yazılarında, məsələn, "Dinə münasibətin iki çaları", "Meracdan min dörd yüz il sonrakı səfər", "İlahi haraylar... yaxud muğamın kosmoqonik sirləri", "Ərzdən Ərşə" məqalələrində dini ehkamlara bir qədər ifrat aludəçilik duyulur. "Dərinlik psixologiyası Freyddən daha qabaq və daha mükəmməl Yunisin şeirlərində araşdırılmağa başlanmışdı" cümləsi yalnız xəfif bir təbəssüm oyada bilər. Freyd hara, Yunis İmrə hara? Yunis İmrə Orta əsrlərin böyük türk şairidir, Freyd isə XX əsrdə psixoanalizdə tamamilə yeni bir cərəyanın əsasını qoymuş böyük alimdir. Onları hansı parametrlərlə müqayisə etmək olar və belə müqayisə nəyə gərəkdir?"

Bir neçə il öncə mən də təsəvvüflə postmodernizmi eyni müstəviyə gətirib təhlil etmək tendensiyasına münasibətdə yazmışdım ki: "Qərb təfəkkürünün, Avropa mənəvi reallığının bəhrəsi olan postmodernizmi irfanla müqayisəyə çəkmək qüsurlu deyil ki?... Postmodernizmin irfanla müxalif düşüncəni bölüşdüyü məqamlar hansıdır? Yalnız bu ki, postmodernizm xaosa, dağıdıcılığa, irfan isə ruha, harmoniyaya əsaslanır? Hərçənd bir qədər dərinlərə varsaq, irfan kimi postmodernizm də elə ruhi yaradıcılıqdan qaynaqlanır. Müəllifi "ölübsə" belə, hər halda mətn yaradıcısı müəllifdir və deməli, istənilən halda müəllifin ruhsal-mənəvi enerjisindən hasilə gəlir. Amma təbii, ruh var, ruh var da. Hər ruhun meydana qoyduğu ideya harmoniyaya xidmət eləmir. Qəzali ilə Nitsşenin ruhunun ortaq məqamları harda kəsişə bilərsə, biz "Quran" mətnlərində də postmodernizm çalarlarını o nöqtədə izləyə bilərik". Amma məsələ bundadır ki, Azər Turan bu mətnlərin fərqini, onların ehtiva etdiyi estetik ölçüləri dərindən bilir. Onun Freydlə Yunus Əmrə arasında olan dərinlik psixologiyasına köklənməsi və bu prizmadan müqayisəyə varması da nə diletantlıqdan irəli gəlir, nə də movist yanaşmadan. Azər Turan yaradıcının, müəllif ruhunun dərinliyi məsələsinə toxunur. Öz yaradıcılığında harmoniya, hüzur təlqin edən və buna aparan yolun insanın mənəvi təkamülü olduğunu vurğulayan orta əsr dühasının zamanı və insan zəkasını qabaqlayan çabalarından gedir söhbət. Bu mənada, tənqidçi Südabə Ağabalayeva "Azərbaycan" jurnalında yazdığı "İrfan işığı" adlı məqaləsində bir məqamı doğru vurğulayır ki, "Azərin nigarançılığı təkcə və həm də ədəbiyyatla bağlı deyil. Onun ən böyük nigaranlığının – «Biz Avropalı olmadıq, Avropanı təqlid etdik» – mayasında Milli Sifətdən tədrici təcridolunmanın faciələrinin cücərtiləri görünür. Hamının və hər kəsin gördüyü bu cücərtilər ekran-efirdən evimizə, şüurumuza yeridilir və yetişən nəsilləri bizdən alır, ögey-yad psixologiya ilə onu özümüzə, – bir vaxt Qərbi fəth edən Şərq Düşüncəsinə, Mədəniyyətinə qarşı qoyur. Azər Turan layiqli varis ola bilməyəcəyimizdən qorxur, elə bu kitab da bu qorxunu millətin başı üstündən sovuşdurmaq üçün qaval çalmaq cəhdidir. «Millət öz irfanı içərisində yaşamalıdır» nəticəsi «altda un, üstdə kəpək olmamaq» nəsibinə xəbərdarlıqdır".

Digər bir məsələ. Anar ön sözdə ziyalı məsələsinə toxunaraq qeyd edir ki, "Ziyalılarımıza münasibətində Azər bir az həddən ziyadə qəzəblidir. Özü də söhbət yalnız

çağdaş ziyalılardan getmir, müəllifin rəyincə, böyük klassiklərimizin də vacib bir məsələdə günahları var. Mirzə Cəlilin insanı sarsıdan bir humanizmlə yazdığı ölməz "Kamança" pyesini nəzərdə tutaraq "Kamança kompleksi" adlandırdığı yazıda Azər Turan milli təbiətimizdəki mərhəmət və insanlıq kimi cəhətlərdən əl çəkməyi təklif edir. Qarabağ uğursuzluqlarımızın səbəblərini də elə bunda görür. Bununla qətiyyən razılaşa bilmirəm. Azər Turan "Heç bir erməni yazıçısı "Kamança" pyesi yazmır" deyəndə, "bundan utanmaq yox, bununla qürur duymaq lazımdır" demək istəyirsən. Azərin "Daha nə qədər İnsan olmaq olar?" sualına da – " Axıracan, həmişə" – cavabını vermək istəyirsən".

Azər Turanın belə bir mövqeyi onun 2001-ci ilin 4 sentyabrında Xalq yazıçısı Elçinlə müsahibəsindən də keçir:

" – Cəlil Məmmədquluzadədən bizə bir kamança kompleksi miras qalmadımı?

– Mən o fikirlə razı deyiləm.

– Nə üçün razı deyilsiniz?

– Əksinə, Cəlil Məmmədquluzadə bu psixologiyanı ifadə etmişdir. Bu xalqın daxilində humanizm, qonaqpərvərlik, mehribanlıq əbədi mövcuddur. Bu, Azərbaycan xalqının genetik bir xüsusiyyətidir. Sən Azərbaycan ədəbiyyatının heç bir səhifəsində rast gələ bilməzsən ki, yazıçı öz xalqına ermənilərə qarşı düşmənçilik aşılasın. Amma gəlin mən sizə erməni ədəbiyyatından türkə patoloji nifrətlə bağlı istənilən qədər misal gətirim. İndi bunun hansı yaxşıdır, hansı pisdir, bu, başlıca məsələdir. Şəxsən mənim üçün Azərbaycan hissəsi qat-qat qiymətlidir, çünki bəşəridir. Amma bu biri tərəfdən də bu cür bəşərilik torpaqlarımızın 20 faizinin istilasına gətirib çıxarır...

– Belə çıxır ki, Qarabağın işğal olunmasına görə, həm də Azərbaycan ədəbiyyatı günahkardır?

– Bəli, biz humanist əsərlər yazanda erməni yazıçıları türkün əleyhinə əsərlər yazırdılar. Bu mənada, Qarabağ mövzusunda Azərbaycan ədəbiyyatı erməni ədəbiyyatına uduzdu".

Qeyd edim ki, 1990-cı illərdə ədəbiyyatda nihilist baxışların yaranmasına rəvac verən səbəblərdən biri ədəbi-bədii əsərlərə Qarabağ münaqişəsi kontekstindən nəzər yetirilməsi ilə əlaqədar idi. Qarabağ obrazı ədəbi fakta, tarixi-ədəbi prosesə yanaşmada, onu dəyərləndirmədə məhək daşı rolunu oynayırdı. Hər əsərin bədii siqləti, səciyyəsi onun bu "obraza" münasibəti səviyyəsində tutum qazanırdı. Bu cür tendensiyanın nəticəsi olaraq bir çox bədii nümunələr qəzəb predmetinə çevrilirdi. Nəriman Nərimanovun "Bahadır və Sona" romanı, Üzeyir Hacıbəyovun "Əsli və Kərəm"i, Cəfər Cabbarlının "1905-ci ildə", Cəlil Məmmədquluzadənin "Kamança", Səməd Vurğunun "Vaqif" pyesləri, Mirzə İbrahimovun "Gələcək gün" və s. əsərləri "ermənilərlə düşmənçiliyi unutmağa" xidmət edən, insana nifrət aşılaya bilməyən, daha çox didaktika və əxlaq yolunu tutub məhəbbət kimi ali hissi rəmzləndirməkdə günahlandırılan nümunələr kimi "ölü ədəbiyyat" adlandırılır, "Qarabağ nifrətsizliyimizdən gedib" kimi fikirlərlə belə mətnlərə qarşı kəskin mövqe tuturdular. Yaşar Qarayev ədəbi prosesdə təşəkkül tapmağa başlayan bu cür dəyərləndirmə meyarının, əsərlərə münasibətdə tətbiq olunan prinsiplərin neqativliyini, uğursuzluğunu göstərmək məqsədilə yazırdı: "...Əsli və Kərəm"i, Nərimanovu,

Cabbarlını bugünkü – münaqişəli Qarabağın tilsimli qutusuna salıb orada qiymət vermək və təhlil etmək istəyirik. Axı o vaxt nə epos, nə də dastan yaradanlar (xalq), nə də Cabbarlı konkret olaraq bugünkü Qarabağ münaqişəsi"nin həllinə kömək vəzifəsini qarşıya qoymayıb və qoya da bilməzdilər, əksinə, bəlkə, bütün dövrlərdə və şəraitlərdə öz bədii dəyərini qoruyan (klassik!) sənət əsəri yaradıblar".

1990-cı illərin əvvəllərində hələ rüşeym halında olan bu tendensiya həmin mərhələnin ortalarından başlayaraq geniş vüsət almağa başlayır. Bəlkə də, bu illər ərzində baş verən kataklik hadisələr, bir-birini əvəzləyən torpaq itkiləri və nəhayət, birinci müharibəsinin atəşkəslə bitən sonluğunun təhtəlşüurda acizlik sindromunun yaranmasına rəvac verməsi belə bir tendensiyanın yaranmasına gətirib çıxarmışdır.

Azər Turanı yaxından tanıyan biri kimi ondakı qəzəbi həmişə hiss etmişəm. Özü də bu qəzəb təbiətən mülayim və xoşrəftar olan Azər Turanın xarakteri ilə ziddiyyət təşkil edir. Zamanla bu qəzəbin haradan qaynaqlandığına əmin olduqca haqq qazandırmışam ona. Məsələn, "Mişel Əflakın əsəri, Bağdadda qanla suvarılan xurmalıqlar... və Mövlana" məqaləsindəki bu qəzəbi yurd sevgisindən, vətən aşinalığından başqa nə ilə əlaqələndirmək olar görəsən:

"Bakıdakı şəhidlər dağı dünyanın gözünə girmir. Amma Qurgenin kəsilmiş başı dünyanın dərdinə çevrilib. Viran qalmış Bağdad, qanadları yolunmuş üçtelli durna, qanla suvarılan xurmalıqlar, səba yelləri, ərşə çəkilən Bağdad kitabxanası, yüz minlərlə müsəlman şəhidi dünyanın gözünə girmir. Dünya İstanbulda öldürülmüş bir erməni jurnalistinin sorğu-sualındadır. Amma sallana-sallana gedən Salatın elə o gedən oldu. Nəinki dünyanın, heç özümüzün də yadımızda qalmadı".

Məfkurə, amal, ideya axsamaları, ədəbiyyatla bağlı aparılan oyunbazlıq, mənəvi deqradasiya kimi amillər onun içindəki qəzəbin əsas səbəbləridir. Bu mənada, Anarın vurğuladığı qəzəbin səbəbləri çox dərinlərə bağlanırdı. Sovetlər dönəminin bizə miras qoyduğu taleyüklü problemlər çeşidinə. Azər Turan onların hər biri ilə bağlı gərginlik keçirirdi: repressiya ağrıları, mühacirət acıları, güdaza verilmiş türklük ruhunun bərpası qayğıları, milli münəvvərlərimizin irsinin yenidən tədqiqi və təbliği problemləri. Ədəbiyyatın bu günü və sabahı ilə bağlı Azər Turanın düşündükləri vardı. Ədəbi, eləcə də ictimai-siyasi mühitsə buna tam zidiyyət təşkil edəcək durumda idi: "Dəyərlərin dəyişildiyi çağımızda məfkurəyə yönəlik tədqiqatların aparılması, ədəbiyyatda da bu məsələlərin qabardılması zəruridir. Yoxsa düşüncə adamlarının meydanı bir qisim şoumenə tərk etməsi, məmləkətin kütləvi informasiya məkanında daha çox mahnı oxuyanların meydangirlik etməsi millətimizi çox yaxın bir zamanda ciddi sualların qarşısında irfansız, biliksiz qoymazmı?"

"İrfan çobanı"nında Azər Turanı düşündürən məsələlərdən biri ziyalılıqdır: "Bizə hədsiz və çoxlu siyasilər deyil, milli şüurumuzun qaranlıqlarını aydınladan ziyalı lazımdır: yenə də Naxçıvanda bir Cavid, Salyanda bir Əli bəy Hüseynzadə, Qarabağda bir Üzeyir bəy, Şirvanda bir Sabir, Zərdabda bir Həsən bəy doğulmalıdır. Öz ziyalısı ilə eyni vaxtda və eyni gündə Azərbaycan yenidən dünyaya gəlməlidir".

Onun tədqiqat predmetinə çevirdiyi şəxslərin yaradıcılığına münasibətdə də əsas qayəni bu insanların ziyalılığına olan sevgisi təşkil edir. Azər Turan bir çox məsələlərin dərinlərinə enir, məsələn, birinci Qarabağ müharibəsindəki məğlubiyyətimizin səbəbləri üzərində düşünür: necə oldu ki, məğlub olduq, bu qədər torpaq

itkisinə məruz qaldıq, ədəbiyyatda qaçqınlıq, fərarilik mövzusu qəhrəmanlıq mövzusunu üstələdi? Bəs ədəbiyyatın missiyası nədir? O yalnız "Kamança" əsərində olduğu kimi, düşmənə məhəbbət, insanlıq təlqin etməlidirmi? O zaman qəhrəmanlıq təlimini, fəth ruhunu hansı ədəbiyyat aşılayacaq, təlqin edəcək? Tarixin ibrət məktəbi düşməni tanımaq üçün görk etdirmirmi? Ona görə Azər Turan ümidini ziyalılara bağlayır. Çünki təməlində milli şüur dayanır. Ona görə milli şüuru yetkinləşdirməyi əsas məram kimi yaradıcılıq kredosuna çevirir. Eləcə də bu yola ömür, can nisar edənlər, milli şüur oyanışına xidmət edən hər kəs "İrfan çobanı" kitabında məsləkinin tərcümeyi-halı ilə görünürlər. Əkbər Qoşalının sözləri ilə desəm, "Doğrudan da, biz tariximizin dərin qatlarına məhz ədəbiyyat, söz sənəti və qismən də abidələr vasitəsi ilə gedib çıxa bilirik.

"Kaş işığımız sönməsin!" – Azər Turanın Ömər Faiq Nemanzadəyə həsr etdiyi məqalə belə adlanır. "Bizim işığımız sönmüş kimidir. Ruhumuz irəlidəki qaranlıqları aydınlada biləcək həqiqi işığa möhtacdır. Kədərli olsa da, bu, bir gerçəklikdir". Azər Turan ötən əsrin 90-cı illərin əvvəllərində bütün varlığıyla inanırdı ki, xalqı total stres və stixiya vəziyyətindən ancaq ziyalı çıxara bilər. Azər Turan o insanların tərcümeyi-halını araşdırıb xalqına tanıdır, işığına tapındırmağa çalışırdı ki, onlarla "bir məfkurə axını, bir milli mədəniyyət məqamı yaşadıq", – deyirdi.

* * *

"İrfan çobanı" kitabını Azər Turan ilk kitabı adlandırır: "İndiyə qədər səkkiz kitabım nəşr olunub. "İrfan çobanı" isə qoy İLK KİTABIM olsun. Ruhumu "İrfan çobanı"nın bəyazlarına sindirib sevdiklərimə qaytarıram".

"Niyə məhz ilk kitab" – deyə, səbəbini soruşuram Azər Turandan. "Bilmirəm deyir, nəsə fərqli ovqatda hasilə gətirmişdim bu kitabı. Sanki nəyisə, kimisə gözləyirdim..."

Mən isə deyəsən, bilirəm. "İrfan çobanı" Azər Turanın yaradıcılıq taleyində yeni nəfəsdir. Sonradan meydana çıxaracağı ən gözəl, ən konseptual kitablarının nüvəsində "İrfan çobanı", orada başlanğıcını qoyduğu, cızdığı ideyalar dayanır. "İrfan çobanı"ndakı "Qaval fəziləti" – "Cavidnamə"ni, "Qafqaz İslam Ordusu Neftçalada - 1918" – "Darülmöminin" kitabını, "Turanın ermişi" – "Əli bəy Hüseynzadə"ni, "Ağrıdan yaranmış söz" məqaləsi "Fəryadın metafizikası" – modernizm silsiləsini hasilə gətirir. Nizami Cəfərovun sözləri ilə ifadə etsək, "Azər Turanın ümumən yaradıcılığında da bir kitab bütövlüyü özünü bütün aydınlığı (və mükəmməlliyi!) ilə göstərir. Elə bil ki, əlinə qələm alandan eyni bir kitabı – «Əbədi Turan»ı yazır".

Bu kitabların hər biri iç-içədir, əslində. Onların hər biri zəngin erudisiyadan, iti fəhmdən, intellektual düşüncədən, bir də böyük türk sevdasından yaranan mətnləri ehtiva edir özlərində.



"İrfan çobanı" Azər Turanın yaradıcılıq bioqrafiyasında Qızıl Ortadır. Buna qədər yazdıqlarının və bundan sonra – 60 yaşdan sonra yazacaqlarının istiqamətini müəyyənləşdirən Qızıl Orta...

Azər müəllim! Sizin 60 yaşınızı ürəkdən təbrik edir, uğurlar arzulayıram!

***Elnarə AKİMOVA***

# ♦ Tofiq Nurəlinin 70 yaşı



***Tofiq NURƏLİ***

**ŞUŞA**

Şuşada tarixlə üz-üzə durdum,
Xəyanət qoxusu gəlir tarixdən...
Bu dağlar.., qayalar.., qandı hər tərəf,
Şuşanı qan tutub – yaman karıxdım.

Havada Qacarın son nəfəsi var..,
Daşlarda Qacarın son iniltisi...
Xəyanət qoxusu gəlir hər yandan..,
Şuşa tilsimlidi – qapqara tilsim...

Düşmən heç – düşməndi.., dostlar da satdı..,
Çölündən, içindən satılan Şuşam...
Talelə əbədi döyüşdəsən sən,
Hər günü döyüşlə açılan Şuşam.

Həyatda əbədi deyildir heç nə,
ən böyük bəla da ötür birtəhər...
Şuşa bu Vətənin ən gözəl qızı –
Bəxtinə qalmaqal yazılan şəhər...

...Oyandı Şuşanın qisas damarı –
Odur lərzə salan, ruhu oynadan...

Necə ki atmışdı xəyanətkarı,
O cür də düşməni atdı qayadan!

Qalxdılar igidlər qayalar ilə –
Qayayla qayaydı – bir daşdı onlar...
Şuşa anlayır ki, qayalarla yox,
Dəmir yumruq ilə dırmaşdı onlar...

Oğullar tufantək doldu Şuşaya,
Yayıldı dünyaya Vətənin səsi.
Şuşa tilsimdəydi uzun zamanlar,
İndi əbədilik sındı o tilsim!

...Şuşada tarixlə üz-üzə gəldim,
Tarixdən xəyanət qoxusu gəlir...
İndisə söykənib dəmir yumruğa
Şuşanın şipşirin yuxusu gəlir!

## ŞƏHİDİN ANASINA MƏKTUBLARI

***– 1 –***
Məni bağışla ki, gələ bilmirəm,
Mən ki unutmadım heç bir kimsəni...
...Mənim də qəlbimdə çalınır o toy,
Mən də eşidirəm o toy səsini...
Məni bağışla ki, bağışla, ana,
Sonsuza çatdırdım gecələrini...
Burda dostlarım var, onlar neynəsin –
Yoxdur ki anası neçələrinin...
Burda ki, hamısı tay-tuşlarımdır,
Hərənin qəlbində sonsuz bir ocaq...
...Ölmə, əziz anam, mehriban anam..,
Sən ölsən onları kim ağlayacaq?..

***– 2 –***
Mən gələ bilmərəm sonsuz döyüşdən,
Ağardı çoxunun saçı, bilirəm...
Murazın qəlbində qoyduğum qızı
Mən indi özümə bacı bilirəm...
Mən gələ bilmərəm, bitməyib döyüş..,
Dostlar yaralanır, şəhid düşürlər..,
Hər zaman dua et.., qərib dualar

Elə bil bizimlə bir döyüşürlər...
...Daha nə deyim ki, bir toy axşamı
O qız arzulasa, onunla görüş...
...Mənim əziz anam, mehriban anam,
Mən gələ bilmərəm – bitməyib döyüş...

***– 3 –***
Biz üzü payıza, payıza getdik..,
Durnalar gedirdi gecə boyunca...

Vətənə söykəyib mən kürəyimi
O qərib səslərə baxdım doyunca...
Baxdım, əziz anam, baxdım və baxdım..,
Dostlar döyüşürdü dörd tərəfimdə...
Gördüm ki, gəlirsən əlində xələt..,
Gəlmirsən – uçursan bəy tərifimdə...
Bundan o yanası yadımda deyil..,
Vaxt yoxdur bu qədər duram-dayanam...
Səndən ki əzizi yoxdur mənimçün –
Sənə qurban olsun anam, ayy anam!..
...Gecələr ulduzam, gündüzlər günəş –
Mən varam hər yanda, eyy əziz anam...
Başını dik saxla, qürurlu saxla,
Mən indi Vətənəm – Azərbaycanam!

## QƏLƏBƏ BAYRAMI

Bu qədər şəhidin kədərli şöhrəti-şanı üstündən,
Bu qədər ananın məzara qoyulmuş canı üstündən,
Bu qədər atanın dözülməz dözümü üstündən,
Bu qədər körpənin "ata" sözündə çırpınan
həyəcanı üstündən,
bu qədər ümidin qanı üstündən
şən nəğmələr oxumaq ar gəlir mənə...
Qoy bu şən nəğmələri gələcək nəsillər oxusunlar..,
Qoy onlar sevinsinlər indiki qələbələrə və
sevilsinlər, sevsinlər lap elə özlərini də, Vətəni də...
Sevinc nəğmələri onlara yaraşacaq...
Biz isə qürurlu-qürurlu susaq,
məğrur-məğrur axıdaq göz yaşlarımızı
şəhidlərimizə və qələbəmizə və qəlbimizə
yağışlı gecəyə çalınan boğuq ney kimi...

## ALBAN DAĞLARI

Alban dağlarından gəlirəm, dostum –
Alban kəndlərinin keçib içindən...
Gözüm hansı yana zillənirdisə
Mənə danışırdı öz keçmişindən...

Mənə deyirdilər totemlərindən..,
Dedilər burdaydı sükut məbədi...
Qüzey yamaclarda köhnə qəbirlər
Deyirdi deyildir heç nə əbədi...

Qarxundan, Şəkidən, Cekdən gəlirəm –
Tarixin havası hopub canıma...
Çaraxdan, Çayruddan, Dərkdən gəlirəm
Girərək tarixin imtahanına...

Orda ocaqlar var, vaxtı əridir –
Ərimiş zamanlar ağarır hələ...
Biz "allah" deyirik, "rəbbim" deyirik..,
Onlar "tanrı" deyib çağırır hələ...

Necə müqəddəsdir o uca dağlar..,
Burda günah varsa, qoy mənim olsun!
O alban kəndində belə deyirlər:
Nahaq iş tutana DAĞ QƏNİM OLSUN...

Dövranlar qovuşub-qarışıb burda –
Qapılar açılır DAN QİBLƏSİNƏ...
...Kəndin arxasında diş-diş qayalar
Bənzəyir bir alban dəbilqəsinə...

...Bir kilsə varıymış o qayalıqda –
Mən özüm görmüşdüm qalıqlarını...
...Daha oralara cığır aparmır –
Tarix ordan kəsib ayaqlarını...

Gedək mən tanıdın o HUN DAĞINI..,
O HUN QAYASINI göstərim sizə..,
O HUN BULAĞININ tarix suyundan
Təpin canınıza, gözlərinizə...

Alban dağlarında doğulmuşam mən,
Bir alban kəndində – adı da YERFİ...
Bu sözün hər hərfi mənə deyir ki,
Söylə sən bu qədər mağmınsan nədən?!.

Sən hunsan-albansan-qıpçaqsan – türksən,
Dünəndə, sabahda vaxtın var sənin..,
Tarixin ən uca saraylarının
Ən uca yerində taxtın var sənin...

...Böyük tarixlərin keçib içindən
Alban dağlarından gəlirəm, dostum.
...Bəlkə sən deyəsən, ey DƏMİR QAPI..,
Bəlkə sən deyəsən mən niyə susdum?!.

Antik dünyaların yadigarıyam –
Mənim ki, susmağa haqqım yox axı!..
Tarix göylərində yanır ulduztək
ALBANUS – bir parça Turan torpağı!..

## TATARI

Yaxşı bir qamçısı vardı atamın,
Qamçı toxunmuşdu dana gönündən...
Qamçının havada vıyıltıları
Adamın zəhrini yarırdı gendən.

Hərdən yağ çəkərdi o gön qamçıya,
Sevməzdi qamçıya kimsə toxuna.
Atdan enən zaman atam qamçını
Taxardı həmışə sağ sapoquna...

Usta edən zaman ürgəni, dayı,
Atlar şahə qalxar... şıllaqlayardı...
...Dartardı kəndiri at boğulunca,
Sonra da bu xamı şallaqlayardı...

Hərdən kürəyimə həmin qamçıdan
Enən göy zolaq da xatalı idi...
Qamçı göndən idi..,
Dana gönündən...
Qamçının adı da tatarı idi...

Bir gün Qərib müəllim tarix dərsində
Dedi monqol, tatar – hamısı türkdü.
Biz də onlardanıq.., böyük kökdənik,
Adımız gələndə dünyalar hürkür...

Bütöv xəritəni iki əliylə
Göstərib dedi ki gör hardan hara...
Atların belində, əldə tatarı,
Biz hökm eyləmişik bu dünyalara...

Dövlətlər qurmuşuq, ellər almışıq..,
Qalalar tikmişik, yollar salmışıq...
Tarix öz küncünə tullayıb bizi..,
Gör nə günə qalmışıq...

...Sanki gözlərindən odlar saçıldı...
Qığılcım sıçradı odlu dəmirdən...
Birdən qəhərləndi bu arıq kişi...
Sanki boğulmuş at yüyən gəmirdi...

Gərək yol verməyəydik
Kimsə qürurumuza, şənimizə toxuna...
Gör kimlər tapdaq oldu
Gör kimin sapoquna...

Hər gecə yerimdə qaçırdı yuxum,
...Sovet... 60-ın tən ortaları...
Atlılar çapırdı xəritə boyu...
Hamının əlində həmin tatarı...

Sifətimə toxunur o atların nəfəsi..,
Kürəyimdə qamçının yeri də doğmalaşır...
...Hərdən gedib gizlicə götürürdüm qamçını...
Sanırdım ki bu qamçı çox şey bilir.., danışmır...

...Tarix üzün döndərdi bizim də babalardan...
Büküldü yavaş-yavaş o atların dizləri...
Endik böyük səhnədən.., əbədi qaldı lakin
Tarixin kürəyində tatarının izləri...

## DƏRBƏND

Qəlbimdə bir nəğmə dolaşır elə..,
Nə vaxt eşitmişəm, yadımdan çıxıb.
Havası başıma vuranda hərdən,
Sanki təkərlərim oxundan çıxır.

Ah, necə unutdum mən o nəğməni..,
Pəsdən oxunardı; yorğun.., bariton.
Onda ruhu vardı bir dağ kəlinin..,
Onda ruhu vardı qara barıtın.

Orda pəncərəyə günəş düşürdü..,
Bir də uzaqlaşan nal tappıltısı...
Bir gözəl baxırdı o pəncərədən –
Qarşıda möhtəşəm DƏRBƏND QAPISI...

...İgidlər doğrandı NARINQALADA..,
Yağıya qul getdi o gözəl pəri...
Qoruya bilmədik – bu gözəl VƏTƏN
Hər yandan budanır o vaxtdan bəri...

İgidlər doğrandı Narınqalada,
İgidlər doğrandı Narınqalada.

Dərbənd ki, bu yurdun tən ortasıydı,
Yoxuydu bu yurdun ucu-bucağı...
Xainlər söndürdü gecə yarısı
Dağların başında yanan ocağı...

...İgidlər doğrandı Narınqalada,
İgidlər doğrandı Narınqalqda.
...Min ildi səs gəlir Narınqaladan..,
O səs qeybə gedir gün çıxa-çıxa...
Deyirlər o qızdı, belə oxuyur:
– Bir gün su gələcək bu köhnə arxa..,
Yetər ki,oğullar doğsun analar,
VƏTƏN qana dönsün damarlarında..,
Girib savaşlara, göz də qırpmadan
Baş kəsib-qan töksün VƏTƏN yolunda!

## KİŞİLƏR KÖHNƏLMİR

Kişilər köhnəlmir heç zaman, heç vaxt..,
Kişi kişidirsə, köhnələ bilməz.
Gələn zəmanənin kəm-kəsirini
Köhnədə axtarmaq bəlkə də əbəs...

İnsana bənzəyir zəmanələr də –
İçində boğulub ölmüş səsi var...
Nə keçmişdən gələr, nə gələcəkdən –
Hər bir zəmanənin öz kişisi var.

Kişisiz zəmanə – iylənmiş zaman..,
Yellərə verilmiş vaxtdır bir qucaq.
Kişi möhür vurur dövrün alnına,
Kişilər qocalır, köhnəlmir ancaq.

## HAYIF

Üstünə axşamın kölgəsi düşdü,
Qəlbinə həsrətin ləkəsi düşdü,
Bəxtinə taleyin "bəlkəsi" düşdü..,
Gör mən nə saymışam, fələk nə sayıb?!.
Hayıf bu ömürdən, hayıf, çox hayıf.

Səhrada su kimi soruldu getdi,
Qurd vurmuş ağactək ovuldu getdi.
Hansı küləklərlə sovruldu getdi?.,
Nə hay-hayı qaldı, nə də vay-vayı...
Hayıf bu ömürdən, hayıf, çox hayıf.

Əriyir qar kimi – göz görə-görə,
Kömürə çevrilir köz görə-görə...
Gedənlər qayıtmır – döz görə-görə...
...Bir öyrən kimləri kimlər arayıb?..
Hayıf bu ömürdən, hayıf, çox hayıf.

Ayıldım, ay aman, gec idi artıq..,
Qədrini biləndə heç idi artıq..,
Dünya dünya deyil, puç idi artıq..,
Ona verməyə də sual qalmayıb,
Hayıf bu ömürdən, hayıf, çox hayıf.

*Zakir MƏMMƏD*



# ƏDƏBİYYATIN PAYIZ FƏSLİ

## *Tofiq Nurəlinin yaradıcılığı haqqında*

Milli və qlobal düşüncənin əhatə dairəsində doğma yurdun poetik mənzərəsini yaradan bir doğma şairimiz var – Tofiq Nurəli. Həyatının bir hissəsi sosialist mədəniyyəti və həyat tərzi ilə üst-üstə düşənlərin az qismi tarixin ağır sınaqlarından üzüsulu çıxa biliblər. Böyük zamanın ədaləti onun sözü gələcəyə ötürmək istəyənlərə yol yoldaşlığı etmək missiyası ilə ölçülməlidir. Bu baxımdan, sosializmin bir çöpünü də tərənnüm etməyən Tofiq Nurəli kimi şairlərə aid olan ədəbi kursun öyrənilməsinə hər zaman ehtiyac vardır. Məsələn, Tofiq bəyin yardıcılığında patetikaya, vətən barədə gözəlləmələrə, hər hansı şüarçılığa ya tarixdən, qəhrəmanlıqdan sitatçılığa, mövzu istismarı ilə gündəmə gəlmək cəhdlərinə rast gəlinmir. Amma şairin "belinin qırılmış yeri" vətəndir.

"Özünün yoxsa da bir qarış yeri, Üzündə dərdlərin min qırış yeri... Ağrıyır belinin qırılmış yeri – Vətən şairindi, Vətən şairin". Vətən də, tarix və mərdlik də onun qələminin daxili qatını təşkil edən maddə kimi əhəmiyyət daşıyır.

"Mamont" şeirində bu barədə yazır: "Orbitindən çıxmış zamanın uzaqları içində, o tindən, bu tindən axışan zəmanə uşaqları içində Mən bir MAMONT kimi yaşayıram". Tofiq Nurəlini və o nəsli, nəsilləri, ya o tip ədəbi estetikanı təqdim etmək, ədəbi həyatın mənzərəsini konkret təsbit etmək baxımından bu misraların əhəmiyyəti çoxdur. Zamanın övladı olmaqla zəmanə uşağı olmağın fərqlərini anlamaq çox asan şeydir. "Gecikmək və ya nəsillər qatarı" şeirində mənzərə tam və aydın əks etdirildiyinə görə həmin şeiri kiçik ixtisarla təqdim etmək istəyirəm:

***"Bizim biletimiz o qataraymış,***
***Boş getdi yerimiz...***
***Xoş getdi yerimiz –***
***bilmirəm.***
***Mən gördüm o qatar***

***elə bil həvəssiz –***
***lap yavaş getdi,***
***Tamburda beş-altı sərxoş getdi..,***
***Bizim biletimiz o qataraymış –***

Yanıqlı bir mövzunun damarı dəqiq tapılıbdır. "Qatarın" "hərəkət cədvəllərini tərtib etmək" sahəsində ədəbiyyatşünaslıq elmimizin etdiyi qələtləri hələ də düzəltmək istəyən yoxdur. Gələn qatarların yadlığını artıq keçib gedən həyatımızla duymaqdayıq, yaşamaqdayıq.

***Bu gələn qatardan gözlərini çək,***
***Bu qatar bizləri götürən deyil,***
***Bizim biletimiz yanıb, əzizim...***
***Çırpıb yumruğumu vaxtın üstünə***
***elə boş-boşuna əlimi əzim?!***
***Bizim biletimiz o qataraymış..,***
***Bizim biletimiz yanıb, əzizim!..***
***Bir az az, bir az çox..,***
***nə fərqi axı,***
***onsuz da çatmadıq,***
***getdi o qatar...***

Gələn qatarların sərnişini kimi yola çıxmağın üzüntüsü başa düşülən olsa da, vaxtın etibarına güvənməkdən başqa çıxış yolu qalmır.

***Böyük bir zamanı verdik küləyə –***
***Qatarı, vaqonu düz tanımadıq...***
***Bizi kim aldatdı, heç bilirsənmi?!***

* * *

Tofiq Nurəlinin ədəbi dünyagörüşündə bəzən işlərin, olub-keçənlərin, həyatın gedişatı, yekunu barədə məlumatlara, təsvirlərə yer ayrılır. Bu, sənət adamının dünya ilə təkcə fəlsəfi kontekstdə qaynayıb-qarışmağı ilə bağlı olmayıb, materiyanın, həyatın metafizik qavrayışları ilə bağlı olmayıb, dünyanın genetik şüurda əksi ilə bağlıdır.

***İnana bilmirəm, məndən sonra da***
***Bu dağlar beləcə qala yerində,***
***Tükü tərpənməyə bu qayaların...***
***Torpağın altında dözəmmərəm mən,***
***Gedib bitəcəyəm lalə yerində***
***Pozub o dünyanın hər qaydaların...***

* * *

Ədəbiyyatın hər şeyi işarə, eyham ilə anlatması təbii məsələdir. Ezop dili ilə adama nəyisə anlatmağın bir qaydası şeir yazmaqdır. Bu mənada T.Nurəlinin yazı üslubunda fikrin dolayı ifadə qaydası geniş yer tutur. Məsələn, dilimizdə kökü rəvayətli bir "oxlov" ifadəsi var. İndi elə vəziyyət yaranıb ki, qələmə sarılan insanların yaratdığı tünlük, çap imkanlarının genişliyi ədəbi oğurluqların baş alıb getməsinə səbəb olur. "Anamın oxlovu" şeirində T.Nurəli bu problemdən söz açır. Lirik qəhrəmanın dilindən deyilir ki, bir vaxt qonşunun bağına girdiyinə görə anası onu oxlovla döyərdi. İndi ana da qocalıb əldən düşüb, oxlovun da yerini bilmir, qonşu da bağını satıb. Ancaq şeir yazmaqla məşğul olan qəhrəmana "kiminsə bağına girdiyi" barədə xəbərdarlıq edirlər. Bax, onda ananın həmin oxlovu gözünə görünür.

***"Şeirlər yazıram, olur ki bəzən***
***Kim isə "bağlara girmisən" deyir,***
***Anamın oxlovu durur gözümdə,***
***Canımda oxlovun yeri görünür".***

"Oxlov" milli təfəkkürdə qəlibləşmiş tənqid, cəza rəmzidir. Həmin oxlovu yaddan çıxaranlar nə ədəbiyyatçı olub əsər yarada bilər, nə xalqçı olub xalqa gün ağlaya bilər. Ədəbi xarakteri ilə heç kəsə bənzəməməkdə Tofiq Nurəli yaradıcılığı əlahiddə statusa layiqdir. Ədəbiyyat təəssübkeşliyi və hadisələrin proqnozlaşdırılması xüsusunda şairin dəqiq müşahidələri nə qədər faydalıdırsa, bu mülahizə və qənaətlərin düzgün ədəbi təqdimatı da lazımdır. "Söz uğrunda savaşda Başda şairlər gəlir, Bir yandan qırılırlar, Bir yandan başqa şairlər gəlir". Şair qırğınından bəhs etmək şeirin, sənətin tənəzzül və uğursuzluqlarının miqyasını ifadə edir. Burada nə baş verirsə, vaxt çərçivəsində gedən proseslərlə ilgilidir. Şairin sınaqdan keçirilməsi zamanın sınaqdan keçirilməsi qədər ciddi bir məsələ sayılır. "Nizədən, kəndirdən, oxdan keçirilib, Zindandan, gülllədən, vaxtdan keçirilib..." Bu ağır sınaqlardan keçməmək zamana layiq əsərlərin yazılmaması deməkdir. Hər bir halda yazarın və ədəbiyyatın çətin işdə ağır itkilərə məruz qalması qaçılmazdır.

Şair nə yazsın gərək ki, oxucu hər zaman "bu, mənə aiddir" deyə bilsin? Sözün təbiətə, sevgiyə, ictimai problemə istinad etməsindən asılı olmayaraq, orada insan obrazı və onun "gəzib-dolaşdığı doğma yerlər" və adamlar olmalıdır. Şəhərdirsə – şəhər, kənddirsə – kənd tikildiyi, salındığı ərazidən insana görükməlidir. İnsan – oxucu o yerləri özünə doğma hesab etməyi şeir vasitəsilə də "dərk etməlidir". Tofiq bəyin "Ata yurdlarına ağılar deyən Son kəndli şairi mənəm, bəlkə də" yazmağından meydana çıxan həqiqət budur ki, "ata yurdu" adı ilə məktəbdə tarix dərsləri tədris etmək

olar, ancaq millətə, bəni-adəmə dərs olsun deyə, bizim hələ ki yerdən, torpaqdan ağılar, elegiyalar yazmağa haqqımız, ixtiyarımız, borcumuz çoxdur. Bu məqamda özünü kəndli şairi adlandırmaq yerinə düşür. Tofiq Nurəli sevgi şeirlərində, ola bilsin, yüksək romantik, bir qədər sentimental hisslər yaşaya, lakin sosial-siyasi mövzulu şeirlərində realistdir. Öz poeziya təsərrüfatını yaratmış əsil şairlərin mətləb və məramlarını həyata keçirməsi üçün irəliyə çıxış nöqtəsi olmalıdır. Tofiq Nurəli üçün həmin nöqtə kənddir. Kənd realizmi dünyanın əhvalatlarını “qələmə almaq” üçün ən yaxşı üslub və metodologiya hesab edilməlidir. Çünki kənd Yer kürəsinin dayaq nöqtəsidir. “Ölkənin ərzaq planı” kəndin estetikası ilə bağlıdır. Yeməsən, acından ölərsən. Şair “kəndli şairi” olmaq xüsusunda doğru mülahizələr söyləyir. Bu kənd üstü hələ beton və hündür binalarla örtülməmiş, altı qazıq-qazıq edilməmiş bir ərazidir. Bu ərazinin adı Yer kürəsidir. “Damı çökүb tövlənin, Tir çatlayıb, deyəsən. ...Hərdən bu köhnə yurda Gərək gəlib dəyəsən”. At minib atlanan kişilərlə ən yeni model avtomobildə atılıb-düşənlərin “yerində-yurdunda” nə varsa, şairlər daha yaxşı bilirlər. Bir də baxırsan ki, çatıltı gələn, ya “qapısı cırıldayan” tərəfdə qələbəlikdir. Şeir yazan kim, mədəniyyət himni oxuyan kim. Müasirləşən, qloballaşan, bir sözlə, çox tühaf nəsnələrlə əlləşən toplumla üz-üzəsən. Yeri gəlmişkən, qlobalizmin bu əsrin, bundan əvvəlki əsrlərin hadisəsi olmayıb, çox qədim zamanların mahiyyət və məqsədlərində yer tutmuş olduğunu düşünürük. “Cırıltılı qapıdan Keçirəm mən birtəhər. İlişir ayağıma cındırı çıxmış yəhər”. Sözün cındırı çaxanda nə edəcəksən?!

* * *

Qlobalizmin bir cəhəti, bir daha qeyd edək ki, internet üzərindən meydana toplaşmaqla bağlıdır. Burada ədəbi mühitin konkret ərazi ünvanı yoxdur. Ünvan, görüş yeri mətnin özüdür. Min il əvvəlin sənət nümunəsi ilə prosesə qatılmağın illəti, yeni çağın özəllikləri eyni ictimai-texnoloji ortaqlığa malikdir. Söz adamının qələmi ilə dünyanın işlərini yoluna qoymaq istəməsi ən ali məşğuliyyət hesab edilməlidir. Ağacdan, daşdan o qədər yeni əşyalar düzəltmək olur ki! Bunun üçün yaxşı usta, sənətkar olmalısan. Sözün hörgüçüləri də belədir. Amma burada vacib məqamlardan biri ürəyin dərinliklərinə nüfuz etmək qabiliyyətidir. T.Nurəli adamın ürəyini oxumağı bacarır. Onun kəndlə bağlı “xatirələrini” yada salmağımın mənası bu incə nöqtə ilə bağlıdır. O, elə ilginc təəssüratlarını paylaşır ki, oradan boylanmaq adama – oxucuya çox sərf edir. Necə deyərlər, 70 min il bundan əvvəl yaşamış ən qədim insan Homo sapiens kənd adamı olubdur. Kənd adamları gedib Rusiyanın, Amerikanın, böyük Avropa mədəniyyətinin intişar tapdığı böyük-böyük meqapolislərinin aparıcı isimlərinə çevriliblər. Şairin multimedia daşıyıcısı oluban həyatın tük qədər incə, ürək qədər məhrəm qatlarına daxil olma səlahiyyəti vardır. Tibbdə neyrocərrahiyyə əməliyyatı,

musiqidə sarı sim kövrəkliyi ilə müqayisəyə gətirə biləcəyimiz əlahiddə bacarıqlar şairlərə aiddir. Tofiq bəyin dosdoğma qardaşının cərrah olduğunu bilirəm. Şəxsən tanıdığım çox adamın həyata davam etməsində onun xidmətlərindən xəbərim var. Tofiq bəyin isə bir ayrı cür cərrahlığının olduğunu burada təşbeh kimi işlətmək istərdim. O da ixtisasca həkimdir, bu sahədə çalışır, ancaq cərrah deyil. Ürəklərdə daşlaşıb qalmış və adamı adam olmağa qoymayan yad cisimləri kəsib-doğrayıb tərtəmiz ürəklə "get yaşa" deyən söz adamıdır. Mən bu frazanı işlədərkən onun ədəbi irsinin şərti olaraq vətən xatirələri adlandıra biləcəyimiz hissəsindən danışmağa üstünlük verirəm. O yerinə ki, orada hər kəsin xatırlayası və əzizləyəsi saf, təmiz keçmişi, nostalji həyatı vardır. Özüylə söhbət edən, dialoq quran, həmsöhbətini cəmiyyət içrə deyil, torpaq içində axtaran ikinci belə bir şair tapmaq çətindir. Bəli, onun yazıları yaşamaq üçün gərəkli olan ən unikal maddə kimi yüksək dəyərə layiqdir. Həssaslıq, zərif, kövrək ünsiyyətlər qurmaq, təbii, halal duyumların ifadəçisi olmaq onun qələminin əsas atributlarındandır. Təklik, tənhalıq, payız fəsli ilə daha artıq dərəcədə çulğaşmaq, nakam sevgilər, bir sözlə, qəm iksiri ilə cana gətirilən insan onun poetik təsvirləri üçün əsas predmetlər kimi görünür. Bu motiv kitablarının adında "tənha bir qüssə", "tənha payız yarpağı", "yarpaqlarım ağrıyır" şəklində ifadə olunubdur. Bunların ah-zar olmadığı təsvirə cəlb etdiyi əşya və predmetlərin və orada işlənmiş boyaların təbiiliyi, orijinallığı ilə isbat olunmalıdır. Axı, uşaqlıq xatirələrinin cücərib boy atdığı ata yurdu, doğma kənd, o yerlərlə bağlı həyat və məişət lövhələri hamıya əziz, məhrəm, müqəddəs duyğularla bağlıdır. Keçmişi kədərlə xatırlamağın sonunda rahatlıq, təskinlik o zaman yer alır ki, o təsvirlərdə tanış, doğma notlar düzgün, dəqiq yazılsın. Keçmişi anma melodiyası musiqidə də, poeziyada gözəl səslənir.

***"İndi damımız qar, həyətimiz qar,***
***Cığır da uzanmır doqqazımıza...***
***O yurdda nigaran bir tənhalıq var***
***Odur tab gətirən hər hoqqamıza.***

***Bomboş ata yurdu, qar basmış həyət...***
***Bəlkə axtardığım həqiqət budur?...***
***Böyük peşimanlıqdır böyük məhəbbət***
***Mən nakam sevgiylə sevdim bu yurdu..."***

Dil açıb danışmaqda təbiət hər zaman etibarlı müsahibdir. İnsan həyatda itirdiklərini onun timsalında tapmağa səy edir. Onun şeirində Ay işığının, qar və yağışların, səslərin, iqlim və fəsillərin bolluğu həyatı çirkləndirən amillərdən uzaq olmaq istəyi ilə bağlıdır. "Canım ay işığı, dol bu gecəyə // Tikanlı sözləri çək çıxart bir-bir, çıxart canımdan". Tikan batıran cəmiyyətin

ürəkdən tikan çıxaranı təbiətdir. İnsana rahatlıq gətirən şeyləri torpağın, suyun ("gecənin qaranlığında batan çay şırıltısının"), günəşin, ulduzların doğmalığında axtarmaq lazımdır. Xoş hissin, ovqatın mənbəyi olan bu tanış əşyalara tamarzı qalmağın ağır kədərini şair, yazıçı ifadə edir, ifa edir. T.Nurəlinin kədəri həyatın bu yerindən nəşvü nüma bulur. Onun şeiri adamı yenidən yağış sularında isladır, küləklərlə qabağına qatıb aparır, öz təbiri ilə desək, ömür-gün başdan-başa bir yelləncəyə dönür. Amma fəsillər içrə payıza köklənmək təkcə təbiətin xassələri ilə izah olunası məsələ deyil. Poeziyadakı fəsil problemi böyük ədəbiyyatın payız yetişkənliyi ilə assosi-asiya oluna bilər. Fəsillərin harmoniyasından yaranan payız düşüncəsində ovqatın, hissin yox, ədəbiyyatın payızı yer tutubdur.

"Axıb gedən yaz dumanı, məni sən azdırmısan, Düz dünyanın ortasında ilişdim qaldım sənə ömrün lap o başında. ...On dörd-on beş yaşında məni sən azdırmısan".

* * *

Ata ocağına qayıtmaq Tofiq Nurəli poeziyasında konseptuallıq təşkil edir və onun yazı manerasına uyğun olaraq kökə, kürəsəl başlanğıca enmək ideyasını bəyan edir. Rus şairi M.Y.Lermontovun belə bir misrası var: "Yalnız rus qəlbidir vuran sinəmdə". Qəlbi olmayanların əlindən bir şey gəlməz. Bu, robotun roman yazmağına bənzər. Böyük qəlblərin dərinliyində çox həssas mətləblərin uyuduğu bir keçmiş var. O keçmişin sorağını gedib, ya qayıdıb, Vətən torpaqlarından almaq mümkündür. Azərbaycanlı qəlbi azərbaycanlı şair üçün xoşbəxtlikdir. Böyük meydanlarda hərəkət üçün çıxış zolaqları yaradılır.

Tofiq Nurəli poeziyasında dünyaya "meydan oxumağa" güclü bir istinad nöqtəsi nişan verilir. İstinad nöqtəsi uzaq yolun müsafirlərinə mütləq gərək olur. Lap Arximedin yeri qaldırmaq istəyində ifadə olunan dayaq nöqtəsində olduğu kimi. Azərbaycan mədəniyyəti, azərbaycanlı taleyi, milli ruh böyük dünya mədəniyyətlərinə qovuşmaq üçün həmin çıxış, uçuş zolaqları rolunu oynayır. Getmək amacı yayılmaq, genişlənmək anlamında hər nəsnədə doğrulur. Tofiq Nurəli böyüklükdə bir şairin yaradıcılığını başdan-ayağa izlədikdə bir söz adamının geniş bir ərazidə necə hərəkət et-diyini, necə genişləndiyini müşahidə edirik. Söz boyu genişlənmə demokratik fikrin hüdudlarını, əslində, hüdudsuzluğunu görmək və göstərmək üçün çox lazımdır.



*Əlirza HƏSRƏT*

## BALABAN

Eşqi özünə şah tutub,
Nə yaraq, nə silah tutub.
Gözlərini "Segah" tutub,
Hıçqırır yastı balaban.

Yonurdum eşq heykəlini,
Bir qız uzatdı əlini.
Oxşayıb "Sarı gəlin"i, –
Bağrına basdı balaban.

Oyadıb qan yaddaşını,
Siləcəkdim göz yaşını.
Çiynimə qoyub başını, –
Uyuyub susdu balaban.

## QALMAYIB Kİ...

***Şair Rəşad Məcid Ağdamda dağıdılmış yurd-yuvasını ziyarət edərkən***

Can, ay Rəşad, bu nə yurddu,
Daş üstə daş qalmayıb ki.

Halını xəbər almağa, –
Yurdda yaddaş qalmayıb ki.

Yaranı hardan bağlayım,
Düşmənin bağrın dağlayım.
Dedim, hönkürüb ağlayım,
Gözümdə yaş qalmayıb ki.

O uzanan nə yoludu,
Elə qəribdi, uludu.
Ürəyin ahla doludu,
Qucağın boş qalmayıb ki.

Baş açmır çoxu tarixdən,
Hər şeyi yuxu tarixdən.
Viran olmuş bu tarixdən,
Bizə sirdaş qalmayıb ki...

## HƏR TƏPƏ BİR DAĞIN UŞAQLIĞIDIR

Açır gözlərini sübh ağır-ağır,
Durna lələkləri başıma yağır.
Hər təpə bir dağın uşaqlığıdır,
Hər dağ bir təpənin əlindən tutub.

Hər sevda yarası dərinə düşməz,
Ömrümə belə xoş qərinə düşməz.
Durub qucaqlasam, yerinə düşməz,
Dağların gözünü duman-çən tutub.

Sərhəd dirəkləri gəlmişdi dilə,
Açdım qucağımı tikanlı telə.
Atıb gedəcəkdim dünyanı elə,
Gördüm ayağımdan bu Vətən tutub.

## ŞANAPİPİK

Sənsiz gəlib, sənsiz gedir eh, bahar da,
Sənsizləşib könlümdəki bu qübar da.
Deyən də yox, sən hardasan, yuvan harda?
Nəğmən üçün darıxmışam, şanapipik.

Sən ki yoxsan, dadı qaçıb yayın, yazın,
Qərib eldə kimə gərək işvə-nazın?
Qurşununa gəldin yoxsa bir qansızın?
Susma, oxu səhər-axşam, şanapipik.

Gözü yolda qalanlara sən murazdın,
"Bup-bup" deyib, bir sevdalıq dastan yazdın.
İlk bahara heç vaxt belə yubanmazdın,
Hardan tutum yoluna şam, şanapipik?

## SƏNİN GETMƏYİN DƏ QAYITMAĞINDIR

***Şair dostum Qəşəm Nəcəfzadəyə***

Baş alıb getməyə yer gəzən Qəşəm,
De, nədir çıxaran özündən səni?
Söz əkib, söz dərmək ən halal peşən,
Quşlar da pay umur ruzindən sənin.

Sevib pərvanəsiz alışan şamsan,
Belə başdan-başa təbsən, ilhamsan.
Sən böyük şairsən, bütöv adamsan,
Nə var ki tutmağa sözündən səni.

Bağrına basdığın hər iz dağındır,
Söykə kürəyini dağa, yaxın dur.
Sənin getməyin də qayıtmağındır,
Kim görsə tanıyar izindən səni.

## DUEL

Kim səndən şeir umub, kim səni şair sayıb?
Səni yuxarı başa çəkənə olsun ayıb!
Hər şairdən bir fikir, bir misra oğurlayıb
Şeir düzəldənləri duelə çağırıram.

İstəyirsən duman ol, dağın başına dolan,
İstedadın yoxdursa, ayaq tutmaz ki yalan.
Toxum başqa, kök ayrı, gövdəsi çürük olan.
Bu ruhsuz bədənləri duelə çağırıram.

Köz götürüb yanasan, vallah, çıxmaz tüstün də,
Öz adını axtarma sən hər şair büstündə.
Günəşi çətir tutub boş başının üstündə,
Kölgədə gedənləri duelə çağırıram.

Bəlkə mənim susmağım səni gətirib dilə?!
Bəmdə səsin yoxdursa, niyə qalxırsan zilə?
Oxucunu aldadıb saxta şeirlər ilə,
Yamanlıq edənləri duelə çağırıram.

## ULU SAZ

Köz götürüb hər işıqlı ürəkdən,
Haqq-ədalət carçısıdır ulu saz.
Yandı bağrım, "Dilqəmi" çal, ay aşıq,
Qoy görməsin gözlərimi sulu, saz.

Yuvasını özüm tikdim bu quşun,
Bu yuvada gecələdi bir qoşun.
Saz sinəndə şahanədir duruşun,
Şah eləyib belə neçə qulu, saz.

Ah çəkirəm, ahım dönür bayrağa,
Bu bayrağı sancam gərək hər dağa.
Sevgi dolu bağrımıza basmağa, –
Olar bir gün Bakı-Təbriz yolu saz.

## DEYİRLƏR

Sanıb eşq duası hər xoruz banın,
Xiffətin çəkirəm sökülən danın.
Hamı yaxasından tutub dünyanın,
Çıxıbdır dünyanın zayı, deyirlər.

Zirvələr Günəşi döşünə taxıb,
Çağlayan çeşmələr gözümdən axıb.
Əlimə aldığım əsaya baxıb, –
Dostlarım qocalıq payı, deyirlər.

Saçımda qövr edən dənə bax, dənə,
Qürub nişanıyam gəlib-gedənə.

Daha gül verdiyim gözəllər mənə, –
Ömrün uzun olsun dayı, deyirlər.

## TƏBRİZİN

Təbrizə sarıdır Bakının yönü,
Bakıya sarıdır üzü Təbrizin.
Kükrəyir, hayqırır Türk oğulları,
Yığışar yollardan gözü Təbrizin.

Şair sevdasıdır bu Şəhriyarın,
Nərəsi yüksəlib ər oğulların.
Qorxaq ağaların, bəd çuğulların, –
Düşübdür canına közü Təbrizin.

Araz dalğalanan coşqun bayraqdır,
Daha xalq ayılıb, millət oyaqdır.
Ankara arxadır, Bakı dayaqdır,
Əyilməz, bükülməz dizi Təbrizin.

Türkün xilasıdır haqq yolu Turan,
Azadlıq! – söyləyir yıxılan, duran.
İnqilab içində əriyir İran,
Vurubdur havası bizi Təbrizin.

## NƏQƏRATI QƏRİB DURNA HARAYI

Budaq çılpaq, xəzəl sərxoş, bar doğma,
Gör nə qədər gözü yolda var doğma.
Əl çatmayan, zirvə doğma, qar doğma,
Duman tutan yerinə gəl dağların.

Mən eşq qulu, sən də könül zəvvarı,
Məşəl tutduq düz əhdi, düz ilqarı.
Hər zirvənin öz buludu, öz qarı,
Bundan belə birinə gəl dağların.

Duman öpür telini, şeh darayır,
Yaxasını açıb meh nə arayır?
Nəqəratı qərib durna harayı, –
Bir nəğməylə karına gəl dağların.



*Nazir RÜSTƏM*

## SƏNİN YERİN GÖRÜNÜR

***Şəhid Murad Rüstəm oğlu Əsədovun xatirəsinə***

Sənin yerin görünür,
Görünür yerin sənin,
Elə bil ki, dil açıb
Danışır qəbrin sənin.

Sənin yerin görünür
Gülən gözlər içində...
Səni hardan alım mən
Sən boyda, sən biçimdə?!

Bu torpaq təmizləndi
Bir payız yağışında...
Sənin baxışın qaldı
Bir qızın baxışında.

Bu şəhid qəbrinlə sən
Qürursan bu torpaqda...
Bax, necə əzəmətlə
Durursan bu torpaqda!

Sənin yerin görünür...
Görünür yerin sənin,
Çox ömürdən ucadı
Bu qısa ömrün sənin.

Tamamlandı bir ömür
Çox gənc, cavan yaşında...
Sənin yerin görünür,
Sənin yerin görünür,
Sənin yerin görünür
Zəfərlə başa çatan
Bu Vətən savaşında.

## ŞƏHİD MƏZARINA GÜL GƏTİRƏN QIZ

Qara geymiş adamlarla,
Dərd-qəm əymiş adamlarla,
Aram-aram addımlarla
Şəhid məzarına gül gətirən qız.

Baxar başdaşına, baxar, ağlayar,
Gözləri buluddu, yağar, ağlayar...
Payız-qış ağlayar, bahar ağlayar
Torpağa diz qoyub, köks ötürən qız,
Şəhid məzarına gül gətirən qız.

Ey qara paltarlı, boynu bükülü,
Sən necə çəkirsən bunca nisgili?!
Yerdən də, göydən də qalıb küsülü
Sıxıb kirpiyini dərd əridən qız,
Şəhid məzarına gül gətirən qız.

Oğullar varıdı... getdi oğullar,
Neçə qız ürəyi işıqsız qaldı...
Qurtardı oğullar, bitdi oğullar,
Analar oğulsuz-uşaqsız qaldı...
Minlərin içində tək, tənha, yalnız –
Şəhid məzarına gül gətirən qız.

* * *

## *Rəmişin xatirəsinə*

Ruh kimi göydən qopub,
Enib gəlmişdi, getdi.
Bu dünyanı bir yuxu,
Nağıl bilmişdi, getdi.

Ötürmədi bu yazı,
Bitirmədi bu yazı,
Bu da belə bir yazı,
Bu da bir işdi, getdi.

Ulduz olub sayrışan,
El-el, dil-dil dolaşan,
Barmaqları danışan
Dəli dərvişdi, getdi.

Yol gedən, ayaq saxla,
Tanrı, yolları bağla...
Ağla, gitara, ağla,
Ağla, Rəmişdi, getdi.

* * *

Bir gün çıxıb gedəcəksən...
Sənsiz dünya dəyişəcək,
Havalar da soyuyacaq,
Bu dəniz də üşüyəcək.

Bir gün çıxıb gedəcəksən,
Mən də sənsiz qalacağam.
Bu şəhəri yorub hər gün,
Səni yada salacağam.

Çox sevimli birisinin
Olub sevimli qadını,
Bir gün çıxıb gedəcəksən
Unudub mənim adımı.

Bir gün çıxıb gedəcəksən,
Mən də sənsiz darıxacam...

Sənsiz doğma küçələrdə
Yol azacam, karıxacam...

Aparacaq səni bu yol,
Aparacaq addım-addım...
Görüm səni bəxtəvər ol,
Sən ey sevdiyim qadın.

* * *

Sənə yazdım son yazımı...
Oxu... sonra bük at, getsin...
Dəftərindən sil adımı,
Yaddaşından çıxart, getsin...

Göylər də dözməz, əriyər
Sevənlərin bir ahında...
Bu şeiri yazdım sənə
Son günün son saatında.

Ta şeir yazmaram bir də...
Necə oldu... yenə yazdım?!
Oxuduğun bu şeir də
Son şeirimdi, sənə yazdım.

* * *

Gəlmədin... gecədən asıldım sənsiz...
Dadıma nə yerlər, nə göylər çatdı...
Mənim bu halımı duyub da dəniz
Üzümə bir ovuc suyunu atdı.

Ulduzlar çəkildi, tutuldu səma,
Ay da yavaş-yavaş batdı buludda...
Sən niyə gəlmədin, bilmədim... amma,
Bu dəniz bu gecə alışdı odda.

Gəlmədin... ağladı suda buludlar,
Külək sığalını çəkdi dənizə.
Bu qara gecəni yudu buludlar,
Kədərli bir nəğmə çökdü dənizə.

Gör necə sahilə can atır dəniz,
Sahilə çatanda qurtarır dəniz.

* * *

Bəlkə, qayıdıb gələsən,
Bu şəhər sənsiz darıxır,
Gəzdiyin bu yol, bu riz,
Bu bağ, bu dəniz darıxır...

Gecə Ay da axmır daha,
Rəngi hər gün bir az solur...
Göy üzü buludla dolur,
Di gəl, sənsiz yağmır daha.

Heç kimlə yola getmirəm,
Sənsizlikdir mənim davam...
Bəlkə qayıdıb gələsən,
Mən də səni bir də tapam.

* * *

Gedirsənsə, baxışımda
Baxışını qoyub getmə,
Gözlərinin bulud-bulud
Yağışını qoyub getmə.

Elə get ki, yarpaqlar da
Vaxtsız solub-saralmasın,
Günəş bizdən inciməsin,
Göyün üzü qaralmasın.

Gedirsənsə elə get ki,
Ayaqların büdrəməsin,
Saçlarımda izi qalan
Barmaqların titrəməsin.

Yada salıb çox şeyi sən,
İçin-için hey yanarsan...
Yağış başlayıb, deyəsən,
Yaxına gəl, islanarsan.

* * *

İndi nə qış keçir, nə də yaz olur,
Ömrümün o sənli illəri kimi.
Yoxsan, günlərimin ritimi pozulur
Köksüz pianonun dilləri kimi.

Sənsiz daha yağmır yağan yağış da,
Buludlar göylərin əlində əsir.
Yerini səhv salıb bahar da, qış da –
Yer göyə əsirdi, göy Yerə əsir.

Quşların da səsi dəyişib, itib,
Mənim kədərimi oxuyur onlar...
Səninlə qurtarıb, səninlə bitib
Məhəbbət ətirli o kövrək anlar.

Səmtini dəyişib əsən külək də,
Güllər ləçəyində solub, ağlayır...
Sən yoxsan, dayanıb, vurmur ürək də –
Sığınıb köksümə, dolub ağlayır.

İndi nə qış keçir, nə də yaz olur,
Ömrümün o sənli illəri kimi...
Yoxsan, günlərimin ritimi pozulur
Köksüz pianonun dilləri kimi.

* * *

Göy üzünü bulud alıb,
Duman gəzir dağ başında...
Uzaqda bir qız ağlayır,
İslanıram göz yaşında.

Əlləri qoynunda qalıb,
Fələyin oynunda qalıb...
Bir mələk donunda qalıb
Uzaqda bir qız ağlayır.

Hey ağlayıb, heydən düşüb,
Bir afətdi, göydən düşüb...

Dünyada hər şeydən küsüb,
Uzaqda bir qız ağlayır.

Yağış yağa, bulud qaça,
Gec açıla səhərim də...
O qız gələ, güllər aça
Mənim qəmli şeirimdə.

Uzaqda bir qız ağlayır,
Kimsəsiz, yalnız ağlayır.

* * *

Özüm gəlib tapdım səni,
Özüm də çıxıb gedirəm...
Gəl ayrılaq bir dost kimi,
Əlini sıxıb gedirəm.

Gedirəm, qala bilmədim,
Burda yurd sala bilmədim,
Mən sənin ola bilmədim,
Bezib, darıxıb, gedirəm.

Elə baxma küsgün-küsgün,
Elə yorğun, elə üzgün...
Nə var azadlıqdan üstün?!
Çay kimi axıb, gedirəm.

**OXUCULARIN NƏZƏRİNƏ!**
**“AZƏRBAYCAN”**
**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**
**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalın bir nüsxəsinin qiyməti 2 manat,**
**illik abunə qiyməti 24 manatdır.**
**İNDEKS: 76300**

◆ İntiqam Qasımzadənin 80 yaşına

*Nizami CƏFƏROV*



# Ədəbiyyat xadimi

Bu ilin avqust ayının 12-də Azərbaycanın tanınmış ziyalılarından İntiqam Qasımzadənin nə az, nə çox, düz səksən yaşı tamam olur. İntiqam müəllimin tərcümeyi-halının (və ümumən taleyinin!) ən əlamətdar cəhətlərindən birincisi, görünür, gözəl Qarabağda – Şuşada dünyaya gəlməsidir. Atası Böyükağa Qasımzadə qırx ildən bir qədər artıq yaşasa da oğlu İntiqamın həmişə fəxr edə biləcəyi çox zəngin bir mənəvi irs qoyub getmişdir. Və bu irs yalnız bədii yaradıcılıqdan – şairlikdən, tərcüməçilikdən, publisistikadan ibarət deyil, Böyükağa Qasımzadə II Dünya müharibəsi illərində hərbçi-komandir, siyasi rəhbər olmuş, xüsusi təyinatla İrana (Cənubi Azərbaycana) göndərilmiş, qayıtdıqdan sonra Yazıçılar İttifaqının mətbuat orqanlarında – "Ədəbiyyat və incəsənət" qəzetində, "Azərbaycan" jurnalında çalışmışdır. Əlbəttə, o, daha çox (və daha dəyərli) əsərlər yazıb yarada bilərdi, bunun üçün kifayət qədər böyük istedadı da vardı, ancaq taleyin heç bir qanun-qaydaya sığmayan hökmləri var...

İntiqam Qasımzadə sover dövrü Azərbaycan ziyalısının səciyyəvi həyat yolunu keçmişdir. Orta məktəbi bitirib ADU-nun filologiya fakültəsində təhsil almış, sonra EA-nın ədəbiyyat nəzəriyyəsi ixtisası üzrə aspiranturasına daxil olmuşdur. Ədəbi-tənqidi yaradıcılıq fəaliyyətinə də həmin illərdən başlamış, yeniyetməliyindən ona ailə qədər yaxından tanış ədəbi mühitdə özünün sıravi bir şəxs olmadığını tezliklə təsdiq eləmişdir.

Azərbaycanın 60-cı, 70-ci, 80-ci illər ədəbi-ictimai prosesində biri digəri ilə gah ziddiyyət təşkil edən, gah da dialoqa gələn iki təmayül özünü çox qabarıq göstərirdi: ədəbiyyatşünasların çoxu ya Akademiyada, ya da ali məktəblərdə çalışır, yavaş-yavaş ədəbi tənqiddən ədəbiyyat

tarixinə və ya nəzəriyyəsinə keçirdilər, bəziləri isə aspirantura bitirəndən, yaxud namizədlik dissertasiyası müdafiə edəndən dərhal sonra ədəbi orqanlarda işləməyə, canlı ədəbi proseslərin mərkəzində olmağa can atırdılar. Və birincilərdən fərqli olaraq ikincilər özlərini ədəbiyyatın taleyi üçün bilavasitə cavabdeh saymaqdan çəkinmir, ədəbi döyüşlərin bu və ya digər dərəcədə "cəngavərlər"inə çevrilirdilər.

"Azərbaycanfilm" kinostudiyasında bir neçə il çalışdıqdan (qeyd edək ki, həmin kinostudiya bir sıra görkəmli Azərbaycan yazıçılarının böyük ədəbiyyata və incəsənətə gəlişini hazırlamışdı) sonra İntiqam Qasımzadə taleyini mötəbər "Azərbaycan" jurnalı ilə bağladı. Və 1976-cı ildən həmin jurnalda ədəbi işçi, tənqid şöbəsinin müdiri, məsul katib, baş redaktorun müavini, 1997-ci ildən isə baş redaktor vəzifəsini məsuliyyətlə, istedadla, peşəkarlıqla yerinə yetirir. "Azərbaycan" jurnalının yüz illik tarixində İntiqam müəllimin xidmətləri, yəqin ki, yalnız kəmiyyətcə deyil, Böyük Ədəbiyyata xidmətin keyfiyyət göstəricilərinə görə də müstəsnadır ki, burada onun Şəxsiyyəti, xüsusilə ünsiyyətcilliyi və prinsipiallığı, şübhəsiz, öndə gəlir... Mən dəfələrlə şahidi olmuşam ki, "Azərbaycan"ın baş redaktoru bəyəndiyi əsəri hələ çapa getməmiş o qədər fəxrlə təhlil edib dəyərləndirir, elə bil öz əsəridir. Yüksək zövqü olsa da, bu zövqü başqalarının "zövqsüzlüyü"nü sübuta sərf edənlərdən fərqli olaraq İntiqam Qasımzadənin baş redaktor olaraq ədəbi tələbləri ona yönəlir ki, hər hansı yaradıcılıq aktını (enerjisini!) vaxtında görüb qiymətləndirsin, bütün miqyası (və təfərrüatı!) ilə xalqın mənəvi dəyərinə çevirsin.

Həm Şəxsiyyət, həm də Ədəbiyyat Xadimi olaraq İntiqam müəllimin daxili zənginliyinin ən mühüm göstəricilərindən biri onun son dərəcə zəngin hadisə, portret, detallarla dolu yaddaşıdır. Və bu möhkəm və sağlam yaddaş ona görə bu qədər zədələnməmişdir ki, sahibi öz gənclik səmimiyyətini heç vaxt heç nəyə güzəştə getməmişdir. Təbiətən zərif, həssas, ruhən incə olan İntiqam Qasımzadənin xarakterində, mahiyyətində elə prinsipial, hətta demək olar sərt təzahürlər gizlənilir ki, məqamı düşəndə öz mövqeyindən bir addım belə geri çəkiləcəyinə ümid eləmək mümkün deyil. Bu isə "Azərbaycan" jurnalı kimi "ağırçəkili" bir ədəbi orqanın baş redaktoru "post"unda dayanan şəxs üçün çox gərəklidir.

Üstündən çox illər keçsə də, Aleksandr Qriçlə Azərbaycan televiziyasında rus dilində apardıqları "Bayatı" verilişinin təəssüratları cəmiyyətimizin, xüsusilə ədəbiyyat adamlarının xatirindən silinməmişdir. Və bu koloritli olduğu qədər də intellektual veriliş bizim ədəbi-mədəni fikir tariximizdə əbədi olaraq qaldı.

İş elə gətirdi ki, son illər mən İntiqam müəllimlə çox müxtəlif məclislərdə tez-tez görüşməli, sıx yaradıcılıq əməkdaşlığı eləməli oldum. Mir Cəlal hekayə müsabiqəsinin münsiflər heyətində birgə çalışdıq, Yazıçılar

Birliyinin tədbirlərində iştirak etdik, yubileylərdə görüşdük...Və onun dünyaya gəldiyi Şuşa şəhərində – Cıdır düzündə Vaqif Poeziya Günlərinin "başmaq seyri"nə çıxıb Zəfərimizi qeyd elədik. İntiqam müəllimlə yoldaşlığın, dostluğun ləzzəti başqadı – hər yerdə və hər yaşda...

Bir daha yaddaş söhbətinə qayıtmaq istərdim. Sirr deyil ki, bizim bir sıra kifayət qədər intellekt yiyəsi olan ziyalılarımız məhz yaddaşsızlığın ucbatından müəyyən yaş dövründən sonra qazandıqları ədəbi nüfuzu itirəcək qədər ciddi səhvlərə yol vermiş, başladıqları yolu mənzil başına çatmadan başa vurmuşlar. İntiqam Qasımzadə o ədəbiyyat xadimlərindəndir ki, yaradıcılıqda keçdiyi hər mərhələ, qarşısına çıxan, onunla yol yoldaşlığı edən (və ya etməyən) hər bir ədəbi sima, şəxsiyyət, bütün təfsilatlarına, incəliklərinə qədər hər hansı ədəbi hadisə yaddaşına elə hopub, zaman-zaman elə mükəmməl ideya-mənəvi sistemə çevrilib ki, onların müəlliflə ötəri söhbətdə belə təsir altına düşməmək mümkün deyil. İntiqam müəllimin səmimi, emosional olduğu qədər də məzmun-mündərəcəli "süjetlər"inin, "kompozisiyalar"ının, hər biri bir pritça səviyyəsində düşündürücü şifahi esselərindəki ciddi yaradıcılıq eşqi oxucusunu və dinləyicisini dərhal cəlb edib ardınca aparır.

Mən onun nə üçün az yazdığının azı üç səbəbini deyə bilərəm. Qənaətimcə, birincisi odur ki, İntiqam Qasımzadə ədəbi mühitə vaxtaşırı xəbərdarlıq edir ki, o, məhz redaktordu, ədəbiyyat xadimi kimi əsas missiyası da bundan ibarətdir. Hərdənbir "Azərbaycan"da çap etdirdiyi (və jurnalın böyük həcmi ilə heç çür düz gəlməyən!) yazılar da, əslində, özünəməxsus (və mütəvaze) ustad dərsləridir... İkincisi, İntiqam müəllim az yazmaqla Ədəbiyyata hörmətini, ehtiramını göstərir. Və bu hörməti, ehtiramı başqalarından, ilk növbədə "Azərbaycan"ın müəlliflərindən yenə də özünəməxsus (və yenə də mütəvaze) bir metodla tələb edir... Və nəhayət, üçüncüsü odur ki, İntiqam müəllim, görünür, yazdıqlarına çox zəngin ideya-estetik dünyasının fövqündən baxır, çox zaman məhz ürək qızdırdığı adamların məclisində dilə gətirdiyi həqiqətləri eyni şəxsiyyət, eyni bədii intonasiya və eyni təsir gücü ilə həm yazıya çevirməyin mümkünsüzlüyündən, həm də böyük auditoriyaya çatdırmağın üslub konyukturasından çəkinir. Onun ədəbiyyata da, cəmiyyətə də çox ayıq fəlsəfi-publisistik münasibəti olduğu, yəqin ki, heç kimdə şübhə doğurmur. Elə ona görə də mən hər hansı əsəri çap üçün bəyənib-bəyənməməsi ilə bağlı "Azərbaycan"ın baş redaktoru ilə mübahisəyə qalxan müəllifə, demək olar ki, rast gəlməmişəm. Heç onu da eşitməmişəm ki, kimsə ya üzdə, ya da arxada baş redaktoru müzakirəyə çıxarsın, narazılığını (hətta lap olsun razılığını!) bildirsin. Niyə? Ona görə ki, İntiqam Qasımzadə, əvvəla, təkcə mükəmməl ədəbi peşəkarlığına, zövqünə yox, eyni zamanda uzun illərin redaktorluq təcrübəsinə dayanaraq sözünü qısa, konkret müəllifin bilavasitə anlayacağı tərzdə deyir,



ikincisi əsəri bəyənilən, yaxud bəyənilməyən müəllif görür ki, baş redaktor bəyənmək, yaxud bəyənməməklə yalnız Ədəbiyyatın adından qərar verir və öz subyektiv mövqeyini və ya ədəbi şəxsiyyətini kiminsə qarşısında nümayiş etdirməyə nə həvəsi var, nə də ehtiyacı.

İntiqam Qasımzadə kimdən, nədən danışırsa danışsın, onun söhbəti başdan-ayağa yaradıcıdır. Və bu yaradıcılıqda zəngin etnoqrafik çalarlar, xalqımızın mənəvi aləmi üçün son dərəcə səciyyəvi yumor özünü çox parlaq şəkildə göstərir. İntiqam müəllim danışanda o sözləri, ifadələri seçib işlədir ki, həm dolğun milli koloriti var, həm də bu və ya digər vəziyyətə uyğun ovqata ruh, can verməyə, onu hansısa istiqamətə yönəltməyə qadirdir.

Onun söhbətlərinin qəhrəmanları olduqca çoxdur. Və əksəriyyəti də Azərbaycanın artıq tarixə çevrilmiş görkəmli ədəbi şəxsiyyətləridir. Ancaq atası Böyükağa müəllimdən, anası Sona xanımdan danışanda İntiqam müəllim sanki yazmaq istədiyi, amma nədənsə yaza bilmədiyi bir əsərin hissələrini danışır... "Bir dəfə Cəfər Xəndan anamdan soruşur ki, ay Sona, axı Böyükağa yaradıcılığa bizim çoxumuzdan daha şövqlə, daha məhsuldar başlamışdı, indi niyə az yazır? Anam da cavab verir ki, ay Cəfər müəllim, dolanmaq çətindi, yaradıcılıqla məşğul olmağa vaxt qalmır... Cəfər Xəndan elə bil bu cavabı gözləyirmiş, dərhal deyir: "Ay Sona, Mirzə Ələkbər Sabirin dolanışığı daha çətin idi, ancaq görürsən necə yazıb yaradırdı..."

İntiqam Qasımzadə bizim o ziyalılardan, o ədəbiyyat xadimlərindəndir ki, ondan hər hansı ədəbiyyat adamı haqqında soruşsan¸ şübhəsiz ən obyektiv, ən doğru-dürüst məlumatı alarsan ki, heç bir mənbədən belə dolğun məlumat tapmaq mümkün deyil. Və bu baxımdan o, Azərbaycan ədəbiyyatının ən səmimi, ən təfərrüatlı və ən səhih ensiklopediyasıdır.

*Rüstəm KAMAL*

# Şuşadakı uşağın səsi



“Azərbaycan” jurnalının redaksiyasında, Mehmandarovların evi ilə bağlı təəssüratlarımı bölüşürdüm. Birdən İntiqam müəllim: “sən orada bir çağa çığırtısı eşitmədin?” – deyə soruşdu. Bir anlığa sualı tutmadım. Baxdım ki, İntiqam müəllimin gözləri gülür. Anladım: “çağa” deyəndə özünü nəzərdə tutmuş. Axı, onun uşaqlığı Şuşada keçib, Ana tərəfdən Şuşalıdı Əminəm ki, onun içində Uşaq arxetipi var. Bu obraz İntiqam müəllimi uşaqlığının atalı-analı günlərindən, nəvələrindən danışanda üz-gözündə işığa çevrilirdi.

Bu yazıda bir maraqlı detal da diqqətimi çəkdi: “Şuşada bircə uşaq belə gözümə dəymədi. Bu isə o demək idi ki, əsl həyat Şuşaya qayıtmayıb hələ”. İlin günün bu vaxtında (şəhərə böyük qayıdış başlamayıb) 30 ildən sonra doğma şəhərinə qayıtmış ixtiyar bir kişinin darmacalda “çağanın səsini” xatırlaması, əslində, psixoanalitik kontekstdə baxsaq, şüuraltı özü ilə görüşü idi.

“Şuşanın dolayları” yazısında bir cümlə də həmin obrazın variantıdır: uşaqlıq xatirələrinin izi ilə ana babasının həyətini axtarması.

Mən insan ömrünü ədəbi janrlar kimi təsnif edirəm; epik ömür, lirik ömür və dramatik ömür. Nədənsə mənə elə gəlib və inanmışam ki, İntiqam müəllimin ömrü lirikaya daha uyğundur. Xəyalımda artıq onun lirik obrazı da formalaşıbdı. Yağışlı havaların birində onun AYB-nin binasından çıxıb yorğun-yorğun evə getdiyi hələ də yadımdadır. Sanki boz mətnlərin, döyənək qafiyələrin əlindən qaçıb gedirdi. Həmin gün bütün vücudu ilə, kepkası, plaşı və portfeli ilə İntiqam müəllimin obrazı Bakı yağışına “qafiyələnmişdi”. Üşüyən zərif və kövrək insan – “yağış adam”. O gündən bəri onun obrazını başqa havalarda təsəvvür edə bilmirəm. Şeirlərinin birində içinin “hava durumu”nu qələmə alıb.

*Pəncərəmizin arxasında,*
*islanıram gecəylə,*

*yumuram gözlərimi,*
*bəlkə quruyam.*

Yeri gəlmişkən, bu poetik nümunədə şairin bədii üslubdan – təzaddan metafora kimi ("islanır qurumaq üçün") istifadə etməsi də mənə ləzzət elədi. Fikir vermişəm ki, İntiqam müəllimin şeirlərində ən çox işlətdiyi söz "ümid" sözüdür. "Ümid" onun tale fəlsəfəsinin bəlkə də ən vacib anlayışıdır. Mənə elə gəlib ki, məhz ümid hissi həyatının ən ağır, çətin və anlaşılmaz anlarında onu əyilməyə qoymayıb, ömrün üfüqündə sevgi işığını görə bilib.

***Mavi, geniş bir dənizdir bu küçə***
***Bu dənizin sahilidir sizin ev.***
***Bir mayakdır bu sahildə***
***sənin pəncərə.***
***Yelkənli ümid dolu***
***Bir gəmiyəm mən.***

Bu məqamda başqa bir şeirindən örnək gətirmək istəyirəm:

***Əynimdə nimdas paltom***
***əllərim cibimdə***
***Günümdən günümə keçən ümidim içimdə***
***Əllərim cibimdə isinir.***

Hərdən düşünmüşəm ki, onun ömür təqvimində zaman illərlə, aylarla yox, ancaq günlərlə ölçülür. Bir ömrün bütövlüyü bir günün zərrəsində, bir günün zərrəsi, bir ömrün bütövlüyündədir.

Fikrimizin təsdiqi üçün 1965-ci ildə yazdığı "Sayğac" şeirini götürək:

***Bu axşam yenə***
***Arxasındayam***
***Tünd qəhvəyi***
***Yazı masamın "..."***
***Nə yazıram,***
***Nə pozuram.***
***Masamın güzgüsündə***
***Ömrümün dar ekranlı,***
***Qısametrajlı***
***Filminə baxıram ...***
***...Ömrüm məftillərə bölünmüş sayğac;***

*Təklik,*
*onluq,*
*yüzlüyü*
*işlənməz belə sayğacların...*

"Gün" onun təhtəlşüurunda yeganə zaman vahididir. Ona görə də neçə il öncə baş vermiş hadisəni dünən kimi təsəvvür edir. "Elə bil dünən idi" – Anarın 85 illiyinə həsr etdiyi yazısı belə adlanır.

Təsadüfi deyil ki, onun yaddaşında və taleyində zaman yaddaşı məkan yaddaşından üstün mövqeyə malikdir. Poetik metaforalarının əksəriyyəti də zamanla bağlıdır.

Çin fəlsəfəsinə görə, ancaq zərif və kövrək insan güclü olur. Dəfələrlə redaksiyada qrafoman müəlliflərlə onun "yüksək gərginlikli" söhbətlərini görmüşəm və bundan sonra əsəblərini necə qoruyub, bilmirəm. Yaşından və statusundan asılı olmayaraq baş redaktor kimi bütün müəlliflərə irad və təkliflərini açıq bildirir, faydalı məsləhətlərini söyləyir. Mən də onun "redaktor-müəllif dialoq məkanına" düşmüşəm... Biri elə son yazılarımla bağlı olub. Yazının "alaçiy" olduğunu özüm də bilirdim. Etiraf edim ki, yazı istədiyim kimi alınmırdı. Bu zaman İntiqam müəllimin səbrli və müdrik susmağını gördüm – necə deyərlər, arifə bir işarə də bəsdir...

"Azərbaycan" jurnalında mənim ilk məqaləmi İntiqam müəllim çap edib. "Ulduz"da, "Qobustan"da, "Ədəbiyyat qəzeti"ndə geniş çap olunsam da, "Azərbaycan"la bağlı içimdə müəyyən tərəddüdüm vardı.

Yazılarının təhkiyəsində İntiqam müəllimin canlı səsini, emosional intonasiyasını eşidirsən. Janrından asılı olmayaraq, bütün mətnləri içindəki səsin sadəcə yazıya alınmış, maddiləşmiş formasıdır.

Ömrünün unudulmaz məqamlarından biri də odur ki, İntiqam müəllimin oxumasını görmüşəm. Dumduru və şirin səslə oxumasını dinləmişəm.

Tam əminəm: bu, Şuşadakı uşağın səsidir.

İntiqam Qasımzadənin yaddaşı ürək yaddaşıdır. Onun ürəyi gözəlliklərin, xatirələrin qorunub saxlanıldığı və işıqla süsləndiyi ən güvənli yerin ünvanıdır. Xatirə bu "içi saf, dışı saf" (Q.Bürhanəddin) insanın könül təcrübəsidir.

Səməd Vurğunun ev-muzeyində Yusif və Vaqif Səmədoğlular ilə bağlı xatirələrini elə şirin və koloritli danışırdı ki, səni də həmin hadisələrin şahidinə çevirir, səni də onlarla doğmalaşdırırdı. Bütün xatirələrin "xəmiri" mütləq incə yumorla yoğrulur.Yumor hissi Şuşa tərəfi ilə bağlı olmalıdır. Xatirə epik janra aid olsa da, İntiqam müəllimin içindəki poeziya işığı onu lirik janra çevirir.

İntiqam müəllim yuxularını da xatirə kimi danışır, xüsusən, Şuşa uşaqlığını, atası ilə bağlı xatirələrini bu qədər təsirli və inandırıcı danışdığı üçün. Həmin anı yenidən yaşadığı üçün.

Çox güman ki, yazılarında danışıq feilinin (“dedim”, “dedim ki...”) işləkliyi (məsələn: “Dedim ki, Anarın yaradıcılıq diapozonu çox genişdir...”) bu üzdəndir. Bəzən yazının içində haşiyə çıxıb, öz qəhramanına müraciət etməsi də (məsələn: “Hə, Anar, doğrudan da, burda deyiblər ey...”) şifahi nitqin şüuraltı məntiqindən gəlir.

İntiqam Qasımzadə “Azərbaycan” jurnalının taleyini Ədəbiyyat kişisinin, bir ədəbiyyat xadiminin şərəfli və ləyaqətli taleyi kimi yaşayıb və yaşamaqdadır. İntiqam Qasımzadə maraqlı ssenarilərin müəllifidir. Bədii tərcümələri yüksək ədəbi peşəkarlığından xəbər verir. Tənqidi məqalələri (bildiyim qədər onları toplayıb kitab şəklində çap etməyib) dərin filoloji-nəzəri təfəkkürünün göstəricisidir. Lirik mətnləri barədə yuxarıda bir-iki kəlmə dedim.

Jurnalın ən çətin günlərində belə (90-cı illərdə) bir dost kimi ona sadiq qaldı. Necə deyərlər, səngərdən qaçmadı. Ümumiyyətlə, sədaqət İntiqam müəllimin ən vacib mənəvi dəyərlərindən biridir.

“Azərbaycan” jurnalı XX-XXI əsrlər Azərbaycan ədəbiyyatının estetik ənənəsini və dəyərlər sistemini formalaşdırmış mədəniyyət hadisəsidir.

“Azərbaycan” sadəcə bir ədəbi orqanın adı deyil, milli ədəbiyyat tariximizin simvolik adıdır. Ona görə də İntiqam müəllimə baxıb deməliyik: jurnalın yaşı neçədirsə, baş redaktoru da o yaşdadır!

Onun ədəbiyyatımıza xidmətlərini “Azərbaycan” jurnalının tarixi və taleyi kontekstində dəyərləndirmək lazımdır.



*Fuad VƏLİYEV*

# Gündəlikdən sətirlər

*Gəncliyimizdə oxuduğumuz kitablar bizim əski dostlarımızdır. İllər sonra qocalığın astanasında yenidən dönüb həmin kitabları varaqladıqda, biz unudulmuş dostlarımızı yenidən ziyarət etməklə ilk görüşümüzdə yaşadığımız hissləri bir daha duymaq istəyirik. Lakin bu hər zaman alınmır. Yaşadığımız ömür bizi xeyli dəyişdirir və olur ki, bu köhnə dostluq duyğularını yenidən yaşaya bilmirik. Bir zaman cizgilənmiş dəyərlər bizə bəzən sadəlövh, bəzən da yad gəlir. Lakin elə kitablar var ki, onlarla dostluğumuz zaman etibarilə təravətini qoruyub saxlayır.*

*Günlərin birində, köhnə kitablarımı təftiş edərkən, əlimə saralmış, bir neçə varağı qopmuş nazik bir kitabça keçdi. Jül Renar, Gündəlik, Gənclik nəşriyyatı, 1974-cü il... Köhnə dostum, xoş gördük! Bir zamanlar çox bəyənmişdim səni... Xeyli cizgiləmişdim sətirlərini... Sən dəyişməmisən, bəs mən necə? Yenə o fikirlərin altından xətt çəkərəmmi? Məsələn, "Avgi tövləsini diş fırçası ilə təmizləməyə cəhd etmək", "İstedad pul kimi şeydir, onun barəsində danışmaqdan ötrü ona malik olmaq lazım deyil", "Dost var, əsil dost yoxdur", "Tənqidçi kimdir? Yazıçının xətrinə dəyən oxucu", "Həqiqətin hamısını demək lazım deyil, yalnız həqiqəti demək vacibdir", "Qanadları kəsiləndə quş ağrı hiss etmir, lakin bundan sonra o, uça bilmir", "Məndən uzaq gəzin ki, sizə hörmət eləyə bilim", "Hər an sönürəm, sonra yenidən alovlanıram. Qəlbimdə bir yığın yanmış kibrit çöpü var", "Tamaşa zamanı bir qadın yatmışdı, deməli, dünyada hələ də vicdanlı qadınlar var" və i.a.*

*Bir zaman cizgilədiyim bu sətirlər bir daha maraqlı göründü mənə və əlavə olaraq, zaman keçdikdən sonra aydın olan başqa fikirləri də qeyd etdim. Demək ki, dostluğumuz davam edir. Jül Renar, sən məni həvəsləndirdin. Mən də gündəliyimə göz gəzdirib, maraqlı ola biləcək fikirləri qeyd etmək sevdasına düşdüm.*

*Beləliklə, GÜNDƏLİKDƏN SƏTİRLƏR...*

✔ *Taclı kabus.* İki ildən artıqdı ki dünyanı kabus dolaşmaqdaydı – 19-cu Covid... İnsana daha bir xəbərdarlıq, bəşər tarixinin yeni mərhələsinin anonsu... İnsan yol ayrıcındadır. Seçim zamanıdır!

✔ Dünyanın təkcə fiziki deyil, həm də mənəvi entropiyası kəskin şəkildə artmaqdadır... Pandora qutusu açılmış və oradan çıxmış pislikləri yığıb-yığışdırıb, yenidən qapatmaq çox çətindir…

✔ Sevmək nifrət etməkdən daha çətindir. Odur ki, insanlar arasında Sevgi az, Nifrətsə çoxdur.

✔ *Pirr qələbəsi.* İnsan Təbiətlə işğalçı kimi davranaraq, böyük "qələbələr" qazandı.. Bunun bədəli isə çox ağırdır. Dünyanın bugünkü halı göz qabağındadır...

✔ *"İnsan təbiətin ağasıdır".* Təbiətin həmin bu ağası öz elmi ilə qürrələnərək, dünyadakı ilahi tarazılığı, təbiətdəki ali ahəngi pozdu, genetik əməliyyatlarla yeni-yeni bitki, heyvan, bakteriya növləri yaratdı, kulonlaşdırma həyata keçirdi, həyatı bir anda məhv edə biləcək atom-nüvə bombaları, kimyəvi, bioloji silahlar icad etdi və Yer kürəsini möhtəşəm zibilxanaya çevirdi…

✔ *İkiüzlü Yanus:* Şeytana qulluq edib, Allahdan kömək istəyən insan...

✔ *Nəfs.* İnsanların çeşid-çeşid aşırı əyləncələrdən, enerji sərfində, geyimdə, qidada, yaşam tərzində israfçılıqdan, ifratçılıqdan əl çəkməsi mümkündürmü?!

✔ İnsan öz Nəfsi qarşısında aciz bir varlığa çevrilmişdir...

✔ *Meymun və portağal.* Bəzi Asiya ölkələrində meymunları ovlamaq üçün çox sadə bir üsuldan istifadə edirlər. İçərisində meymunun çox xoşladığı bir meyvə, məsələn, portağal, olan qutu ağaca bərkidilir və qutuda, meymunun əli keçəcək ölçüdə, bir yarıq açılır. Meymun həmin yarıqdan əlini qutuya salır, portağalı ğötürür, lakin ovucu böyüdüyündən artıq əlini qutudan çıxara bilmir. Qurtulmaq üçün meymun yalnız bir şey etməlidir: portağalı ovcundan buraxmalıdır. Lakin o, bunu heç vəchlə etmir, ölüm qorxusu belə onu öz nəfsindən çəkindirmir...

*İnsanlar da, eynən həmin meymun təki, öz nəfsinin qurbanına çevrilərək, bəlalara düçar olmaqdadır...*

✔ Nuhun gəmisinə ehtiyac var…

*Antarktidada, Arktikada buzlaqlar sürətlə əriməkdədir...*

✔ Atom bombasının ilk partlayışında yaranan "atom göbələyini" seyr edən, bu bombanın yaradıcılarından biri, dahi Enriko Fermi böyük bir coşqu ilə qışqırmışdı: Bu nə gözəl Fizikadır!

*"Bu nə gözəl Fizika" Xirosimada bir anda 200 min insanı külə döndərdi...*

✔ Həqiqət çox zaman acı olduğundan insanlar onu yalan kapsulasında udurlar.

✔ "Yer" kosmik gəmisi milyard illərdir ki, Günəş ətafında və Günəşlə birlikdə sonsuz kainatda nizamlı bir hərəkətdədir...

*İnsanın Təbiətə qarşı vəhşiliyi davam edərsə, bu kosmik hərəkət sərnişinsiz də davam edə bilər…*

✔ *Holizm (Wholeism).* İnsan və Təbiət bütöv bir sistemdir - canlıları, bitkiləri, təbiəti məhv etməklə biz əslində özümüzü məhv edirik.

✔ *Absurd.* Dünya üzrə illik hərbi xərclər 2 trillyon dollara yaxındır. Yəni, 1 dəqiqədə 4 milyon dollar...

*İblis öz işindədir...*

✔ *İki sonsuzluq.* "İki şey bu dünyada sonsuzdur. Biri insan səfehliyi, o biri isə kainat. Ancaq onu da deyim ki, ikinci barədə mən tam əmin deyiləm", A.Eynşteyn.

✔ Hər Xəbərdən qabaq mütləq bir Xəbərdarlıq gəlir... Yetər ki, onu eşidib, duyub vaxtında nəticə çıxara biləsən.

✔ *Xəbərdarlıq.* "Bizlər, yəni bəşər övladları, indi birdən-birə ciddi xəstə olduğumuzu hiss etmişik və məhv olmamaq üçün necə müalicə olunacağımız barədə düşünməliyik. Artıq həyəcan zəngləri çalınmaqdadır və mövcud problemləri həll etmək üçün bəşəriyyətin o qədər də çox vaxtı qalmayıb". Pyotr Kapitsa, Fizika üzrə Nobel mükafatı laureatı.

✔ Yer üzündə bütün fəsadların – məişət davalarından tutmuş böyük müharibələrə qədər – mənbəyi, nəticə etibarilə, anlaşılmazlıqdır.

✔ Dünya üzrə hər bir adam Qətərin orta gəlirli sakini qədər maddi nemətlər sərf etmiş olsa idi, onda bəşəriyyətə mövcud Yer kürəsi azlıq edərdi -Yer kürəsi, ən azı, 7 dəfə böyük olmalı idi. Görəsən, qətərli müsəlman bəndə öz dilində oxuduğu Quran ayəsinə nədən riayət etmir?!

*Yeyin, için, ancaq israf etməyin! Allah-Təala israf edənləri, əlbəttə, sevməz. Əraf s., 31.*

✔ *Bəddua.* Hələ qədim dünyada, Aristotel (Ərəstun) belə bir qarğışla çıxış etmişdi: "Qoy bizim düşmənlərimizin övladları zənginlik içində böyüsünlər!".

✔ Müasir İnsan Balzakın, sehrli şaqren dərisinə sahib olmuş, Rafaelinə necə də bənzəyir...

✔ 21-ci əsrin 21-ci ili...Öz qüdrətli elmi ilə, texnologyaları ilə, sonsuz idrak imkanları ilə öyünən, qürrələnən, özünü Təbiətin ağası sayan İnsan daha yoxdur. Təbiət qüvvələri qarşısında, Allahın iradəsi qarşısında aciz, zavallı, şaşqın hala düşmüş bir varlıq var. Hətta nano-ölçülü, gözəgörünməz bir mikrob qarşısında da zəif və çarəsiz bir varlıq...

✔ *Babil qülləsi.* Bəşəriyyətin indiki durumu Babil qülləsinin tikintisindəki əhvalatı necə də xatırladır. İnsanlar öz elmləri ilə qürrələnərək, allahlıq iddiası ilə dünyadakı ilahi tarazlığı, təbiətdəki ali ahəngi pozdular. Nəhayət, 21-ci əsrdə, ağıldan bəlaya düçar olduqdan sonra, konsensusa gəlməyin zəruriliyini anladılar. Lakin, təəssüf ki, bu hələlik alınmır...

*İnsanlar təkcə fərqli dildə danışmırlar, ən əsas, onlar fərqli əqidəyə, fərqli dünyagörüşünə malik olduqlarından bir-birlərilə heç cür anlaşa bilmirlər...*

✔ *Əksliklərin vəhdəti.* Absurd xəttindən o yana hər şey eyniləşir – yaxşı ilə pis, xeyirlə şər, işıqla zülmət...

✔ *Mənəviyyatsız Elm.* Elm bəşəriyyətə xoşbəxtlik, rifah verməklə yanaşı, mənəvi təminatı olmadıqda, qlobal fəlakətə apara bilər, insanlığın bütövlükdə varlığını sual altına ala bilər.

*Mənəvi təminatı olmayan Elm, əyləci sıradan çıxmış, sürətlə hərəkət edən avtomobilə bənzəyir. Bu halda Sürücünü - İnsanı kifayət qədər dramatik aqibət gözləyir...*

✔ Deyirlər ki, Covid-lə əlaqədar, sənaye tullantılarının azalması sayəsində, Venesiya kanallarının üfunətli, çirkab suları durulmuş, hətta balıqlar da görünməyə başlamışdır...

*Deməк,Təbiət hələ ki özünü bərpa edə bilər - İnsan imkan verərsə...*

✔ Braziliyada tropik meşələr sürətlə qırılmaqdadır.

*Nəfəsim çatışmır...*

✔ Hər gün dünyanın qaynar nöqtələrində yüzlərlə insan qətlə yetirilir. Primitiv terrorizm artıq müasir elmi nailiyyətlərlə silahlanmış "intellektual" terrorizmlə əvəz olunmaqdadır və heç kim zəmanət verə bilməz ki bir gün bütün bəşəriyyət onun girovuna çevrilməyəcək.

*Dünyanın mənəvi entropiyası artmaqdadır...*

✔ Mənə dördüncü ölçünü göstərin – bu qorxulu dünyadan qaçıb qurtulmaq istəyirəm...

✔ Elm elə bir həddə çatmışdır ki, artıq insan öz elmi nəticələrini tam mənada dərk edə bilmir...

*"Kim deyirsə ki, kvant nəzəriyyəsini başa düşüb, o, bu nəzəriyyəni başa düşməyib". Riçard Feynman, kvant elektrodinamikasının yaradıcısı.*

✔ Son yüz il ərzində fundamental elmdə çox sayda inqilabi kəşflər edilmişdir. Lakin biz deyə bilərikmi ki, dünyanın fiziki mənzərəsi bu gün bizə, yüz il bundan əvvələ nisbətən, daha aşikardır.

*Əsla yox! Mütləq Həqiqət qarşısında biz cahil olaraq qalmaqdayıq...*

✔ *Ali maraqlar.* "Dövlətin ali maraqları bunu tələb edir!" şüarı altında tarixdə nə qədər cinayətlər törədilmişdir... ...Sultan Mehmət III taxta

çıxan kimi bir gecədə 19 qardaşını boğduraraq öldürtdü... və səhərisi gün onlar üçün təntənəli dəfn mərasimi təşkil etdi...

... İlk Sovet atom bombasının sınağı zamanı marşal Jukovun əmrilə poliqonda bir polk əskər yerləşdirilmişdi. Məqsəd partlayış zamanı radiasiyanın, zərbə dalğasının canlı insanlara təsirini öyrənməkdi...

...Çernobıl partlayışı aprelin 26-da baş vermişdi. Mayın 1-də isə, radiasiyanın şiddətli vaxtında, Kiyevdə izdihamlı bayram paradı keçirildi. Heç nə olmamış kimi...

...Vyetnamda 50 min amerikan əskəri, Əfqanıstanda isə 15 min Sovet əskəri həlak oldu. Doktrina qurbanları olaraq...

*Və daha nələr, nələr..."Ali maraqlar" naminə qətliam davam etməkdədir...*

✔ *Katarsis.* Real həyatda, istər ayrı-ayrı insanların, istərsə də cəmiyyətin, millətin əzablardan, sarsıntılardan keçib, ruhən saflanması, təmizlənməsi fenomeninə Katarsis deyilir. Lakin katarsis effektinin alınması üçün bir imperativ tələb var, o da istər fərdin, istərsə də toplumun, yaşadığı bəlaların baş verməsində, öz günahlarını dərk edib, anlayıb, səmimi etiraf etməsidir.

*Etiraf yoxsa, katarsis də olmayacaq və həmin fərd(toplum) yeni-yeni bəlalara düçar olacaq...*

✔ *Paskal klassifikasiyası.* Blez Paskala görə üç kateqoriya insanlar var. Biriləri Allahına qovuşub və O-na xidmət edirlər. Onlar xoşbəxt və ağıllıdırlar. Başqa biriləri Allaha yetişməyiblər və O-nu heç axtarmırlar da. Onlar ağılsız və bədbəxtdirlər. Üçüncülərsə, Allaha yetişməyiblər, lakin O-nu axtarırlar. Beləəri, ağıllıdırlar, lakin hələ ki bədbəxtdirlər.

✔ *Ali hikmət.* 1 qram-mol hidrogendə (2 qram) olan molekulların sayı qədər qum dənəciklərini bütün Yer səthi üzərində müntəzəm şəkildə səpələsək, təxminən,1 metr hündürlüyündə qat əmələ gələr... 1 damla suda olan molekulların sayı Xəzər dənizindəki damlaların sayından çoxdur...

*Bu məqamda, ingilisayağı, qışqırmaq istəyirsən – Wow!*

✔ *Ömür payı.* Bu dünyada canlı-cansız nə varsa ölümə məhkumdur və müəyyən yaş həddindən sonra hər kəs və hər şey ömrünü başa vurur. Elementar hissəciklər də istisna deyil. Onların arasında uzunömürlülər də var, yalnız bir anlıq ömür yaşayanlar da... Məsələn, protonun yaşam həddi $10^{30}$ ildir, yəni praktiki olaraq əbədiyyət. Rezonanslar adlanan hissəciklərin ömrü isə$10^{-23}$san tərtibindədir - *saniyənin100 milyon milyard milyardda bir hissəsi!... Wow!*

✔ *Müdriklik və Təqva.* Aberdin universitetinin gerbində və Maksvellin qəbirüstü abidəsində yazı: "INTIUM SAPIENTIE TIMOR DOMINI" –

Allah qorxusu müdrikliyin başlanğıcıdır. Bu müdrik ifadə Peyğəmbərimizin 14 əsr öncə buyurduğu kəlam ilə necə də həmahəng səslənir:"Hikmətin başlıca müddəası Allahdan qorxmaqdır".

- *Qaranlıq dünya.* Müasir fizikanın, müəyyən məyusluqla, gəldiyi qənaət budur ki, bizə məlum təməl fiziki qanunlar müşahidə edə bildiyimiz Kainatın yalnız 5%-ni əhatə edən maddi aləmə aid edilə bilər. Kainatın yerdə qalan 95%-i isə bizim idrakımız xaricində mövcud, bizim bilmədiyimiz təməl qanunların hökmran olduğu, həqiqi mənada, qaranlıq aləmdən - Qaranlıq Enerji və Qaranlıq Materiyadan ibarətdir.

  *Həqiqətən, ilahi hikmət sonsuzdur...*

- *Antrop prinsipi.* Müasir elmi araşdırmaların əsas nəticəsi ondan ibarətdir ki, təbiətdəki bütün fundamental fiziki, kimyəvi, bioloji parametrlər, qanunauyğunluqlar, heyrətamiz şəkildə, həyatın, canlıların, İnsanın yaranmasını təmin edəcək bir hikmətlə müəyyən edilmişdir.

- *Ritorik sual.* Kainatın və Həyatın varlığını bərqərar edən fövqəladə möhtəşəm fiziki qanunlar öz-özünəmi yaranıb?! Onların bir Müəllifi yoxmu?!

- *Qolem.* Belə bir rəvayət var ki, orta əsrlərdə Lyov adında bir kahin Qolem adlı bir nəhəng məxluq yaradır və onu cana gətirir. Lakin, mənəviyyatla bağlı zəruri təlimatı olmayan Qolem tam sərbəstlik qazanandan sonra dağıdıcı bir məxluqa çevrilir, böyük fəsadlara səbəb olur və Lyov məcbur olub onu məhv edir.

  *Məyusedici fakt odur ki, indiki zamanda yaradılan hər-hansı Qolem artıq onu yaradan İnsanın ixtiyarında olmadığından məhv edilməsi də fövqəladə çətindir.*

- *Təməl ibadət.* Quranın nazil olmuş ilk ayəsi (Ələq surəsi,1) "Oxu! Yaradan Allahın adı ilə oxu!" əmri və tələbi ilə başlayır.

  *Bu o deməkdir ki, oxumaq, elmə, biliklərə yiyələnmək, Allahı elmlə zikr etmək İslamın təməl ibadətidir.*

- Həyat bizim düşündüyümüz qədər də mürəkkəb deyil – o daha mürəkkəbdir!

- Pislikləri lənətləməkdənsə bir yaxşılıq et. Konfusiy demişkən, qaranlığı lənətləməkdənsə bir şam yandır.

- Amansız qətl: Vaxtın öldürülməsi…

- Bir Allahdan qorxuram, bir də allahsız insandan...

***(Ardı var)***

# ♦ Poeziya



*İlham QƏHRƏMAN*

## BAYATILAR

Səhərin xoruz banı,
Kənd yuxudan oyanı.
Yanımcıl nənəm ilə
Qonaqcıl dədəm hanı?!

* * *

Bu albom, bu şəkillər,
Gah açır, gah bükürlər.
Yad etdin, yaddan çıxdın,
Qələm, başına küllər.

* * *

Mey məzəyə duranda,
Qız kuzəyə duranda.
Qızıl-gümüş sevinər
Yar bəzəyə duranda.

* * *

Kim kimin həyatıdı,
Nimdaşı, boyatıdı.
Oxuya bilsən, ömrüm
Bir qəmli bayatıdı.

* * *

Mən görən yolla gəlsin,
Sağ gedən solla gəlsin.
Dərdinə mən müştəri,
Nə dərd var yolla, gəlsin.

* * *

Tər töküb qol qoymuşam,
Quzudan qol qoymuşam.
Allah qol qoyan işə
Haq bilib qol qoymuşam!

* * *

Mən görən yazan qələm,
Dərdlərə ozan qələm.
Bütöv dedim, kəm yazdın
Nə olsun cəzan, qələm?!

* * *

Çölə çıx yağışa bax,
Qoyduğu naxışa bax.
Necə baxır desə, de –
Maralda baxışa bax.

* * *

Dur o evdən çölə çıx,
Od tutmuşam, külə çıx.
Yaraşan ad de mənə,
De, ay qul, ay kölə, çıx!

* * *

Bıçaqdan tiyə durur,
Gec duran niyə durur?!
Yetimtək ortadadı,
Dərdə kim yiyə durur?!

* * *

Bircəmdi, təkim odu,
Xəstəyəm, həkim odu.
Mən ağlayam, o gülə,
İlahi, şəkkim odu.

* * *

Mən görən yalvar-yaxar,
Yaşadıq yalvar-yaxar.
Yardan bir busə aldım,
Yüz minnət, yalvar-yaxar.

* * *

Nar kəsən dənələyər,
Xırmançı dən ələyər.
Axşamlar yetim quzu
Qarın sıxıb mələyər.

* * *

San deyib sanladaram,
Don deyib donladaram.
Özünü toxtaq tutsan,
Yoxluğu anladaram.

* * *

Xəmir ver, kündə olsun,
Çayı qoy, dəmdə olsun.
Ürəyim dilə gəlib,
Qulağın məndə olsun.

* * *
Gen yerdən sıxılmışam,
Nə dərdli nağılmışam.
Dik gəzməyimə baxma,
İçimdə yıxılmışam.

* * *
O yan dərə, bəri tap,
Maya gəldi, nəri tap.
Ürəkdə çatı demə,
Çat başlayan yeri tap.

* * *
Baş üstü damsız olmur,
Bağlar badamsız olmur.
Hansı işə əl atdım,
Baxdım, adamsız olmur.

* * *
Xəstə yıxıla, dura,
Vardım yıxıla-dura.
Bu da belə ömürdü,
Hər gün yıxıla-dura.

* * *
Acdan buyruq toxuma,
Səpdin, su ver toxuma.
Ələyəndə dost qalsın,
Xəlbiri gen toxuma.

* * *
Getmə, məni gör, usta,
Ölümünə gor istə.
Babamızın yurdudu
Sisian da, Gorus da.

* * *
Qan yeri döyüş yeri,
İgidin öyüş yeri.
Göyçədən biz əl çəksək,
Gorumuz söyüş yeri.

* * *
Qaragöl qaralırdı,
Yolları qar alırdı,
Səndən ayrılan çağı
Hövsələm daralırdı.

* * *
Şamama saralıdı,
Yar bizdən aralıdı.
Sevgi bir məmləkətdi,
Könlümüz oralıdı.

* * *
Yar bilir nə umuram,
Umduğumu danıram.
Deyəndə – Nəyə gəldin?
Göz döyüb udqunuram.

* * *
Var qardaş halallığı,
Yar, yoldaş halallığı.
Bir də adım yazılan
Qara daş halallığı.



*Qorxmaz KADUSİ*

## BAYRAĞIMA BÜKÜN MƏNİ

Tükənəndə bir gün yolum,
Ağ biçməyin, mənə oğlum.
Bir köynək də yaxın olum,
Torpağıma bükün məni.

Apardığım hər sirrimin,
Bükülməyən dərd-sərimin,
Yarımçıq qalan şeirimin
Varağına bükün məni.

Qoy bu şeir dursun şahid,
Bitməyib davamız, esit.
Vətənimçün olsam şəhid,
Bayrağıma bükün məni.

## AYRILDIQ

Hardan girdi aramıza bu həsrət?
Bəlkə uyub bir özgəyə, ayrıldıq!
Sevənlərə misal olub əzəldən,
Sevgimizi öyə-öyə ayrıldıq.

Həqiqətin oldu bir şirin xəyal,
Mən ki yoxam bu güzgüdə, tənha qal.

Çıxmayır ağlımdan ikicə sual,
Necə qovuşmuşduq? Niyə ayrıldıq?

Dodağından izlərimi siləsən,
Ürəyindən sözlərimi siləsən.
Həm aldandıq, həm aldatdıq, biləsən,
Ayrılmarıq deyə-deyə ayrıldıq.

## BİLMİR

Bu necə kölgədir, bürüyüb məni?
Yarıb yaxasını, gün düşə bilmir.
Qismətim qiymətli ömürdən biri,
Ağrısız-acısız ötüşə bilmir?

Sonsuz kainatdan ucadır dərdim,
Sanmayın qafiyə-hecadır dərdim.
Qosqoca dünyadan qocadır dərdim,
Nədən yaralarım bitişə bilmir?

Demə belə bilib məsləhət yazan,
Düz yolu tapmayır dünəndə azan.
Bu günü saf yaşa, sabahı qazan,
Keçmişi Allah da dəyişə bilmir.

## OLMALIDIR

Bəsdir zülmə boyun əydik,
Ağı deyib, qara geydik.
Durub düşmənə yeridik,
Zəfər haşa, olmalıdır.

Daha yatma, kükrə, çağla,
Qalxan götür, qılınc bağla.
Azad edib Qarabağla,
Məğrur yaşa, olmalıdır.

Budur cihad, şərəf, qeyrət,
Düşmənlərdə qoyma taqət.
Bizimlədir haqq-ədalət,
Qalxsın başa, olmalıdır.

Allah, vermə bizə səbri!
Yağıya göstərək yerin.
Səcdəgahım şəhid qəbri,
Qibləm Şuşa olmalıdır.

***Qobustan qəsəbəsi***



*Əfsanə RƏVAN*

## QURTARDI

Sən gedəndə üz-üzəydim ölümlə,
Təslim etdin ayrılığa əlinlə,
Bir də çətin barışarıq səninlə,
Qurtardı e, qurtardı.

Sevmədim ki, səndən özgə heç kimi,
Yaraların qaysaq tutub keçdimi?
Yağış döydü, xəzan vurdu eşqimi,
Apardı e, apardı.

Yaşadınmı mən yaşayan zülümü,
Çağırdınmı, səslədinmi ölümü?
Əcəl gəlib ən sevdiyim gülümü
Qopardı e, qopardı.

Bir də gördüm ayrılığın ilidi,
Həsrətinlə dinən könül kiridi,

O qış mənə nə oldusa yeridi,
Amma indi bahardı e, bahardı.

Bir də çətin qovuşarıq səninlə,
qurtardı e, qurtardı!!!

## DARIXSAYDIN, GƏLƏRDİN

İki yolun ayrıcında qalmısan,
Yoruldumu ümidlərin de, bilim.
Hərdən-birdən yazırsan ki, "darıxdım"
Sözdür vallah, deyirsən də, nə bilim.

Həsrətini məndən yaxşı çəkən var?
Sənin qədər sevilsəydim, ölərdim.
Hisslərimdə yanılmıram, biləsən,
Deyirəm ki, darıxsaydın, gələrdin.

Bir də kimi sevərəm ki sən qədər,
Bir də kimə aldanacaq ürəyim.
QIymaram ki, gözlərini unudam,
Sən unutdun? Sağ ol, var ol, nə deyim...

## ÜŞÜYƏN XATİRƏLƏR

Bitdi aramızdakı
Sevginin haqq savaşı.
Sənə, sən boyda qürur,
Mənə kədər yaraşır.

Divarları çat verdi
Sənlə tikdiyim evin.
Oturub halımıza
Mən ağlayım, sən sevin.

Gəlib sənə də çatar
Uçuq evin sədası.
Mənə bir şey olmaz e,
Qorxuram, xatirələr
Üşüyəcək, qadası.

*Lalə HƏSƏNOVA*



# Müasir Azərbaycan nəsrində antiutopiya

## *Vüsal Nuru. "İlğımda çimən atlar"*

Utopik əsərlərdə insanın daim can atdığı ideal cəmiyyət əks olunur. Bu cür təsvirə hələ dahi Nizami yaradıcılığında rast gəlirik. Dünya ədəbiyyatına nəzər salsaq, T.Mor, T.Kampanella, E.Zamyatin, O.Xaksli, C.Oruel və b. onlarla nümunələrin adını çəkmək olar. Lakin totalitar cəmiyyətlərin iflası hər kəsin xoşbəxt olduğu cəmiyyətin, ideal yaşamın, bütün insanların istək və arzularının bir nöqtədə cəmlənməsinin mümkünsüzlüyünü isbatladı. Bir çox fəlakətlər (Hitlerin ali irq ideyası, kommunizm mifi və s.) bu səbəbdən yaşanmışdır. Dəfələrlə yaxşı həyata səsləyən ideyaların ardınca düşən bəşəriyyət, illüziya xatirinə böyük qurbanlar verdiyinin fərqinə vardıqca, ehtiyatlı olmağa çalışır.

Gələcəyin proqnozlaşdırıldığı roman antiutopiyalar cəmiyyətin inkişafının müəyyən mərhələsində (XX əsrdə) formalaşmağa başlamışdır. Bu əsərlər vasitəsilə bəşəriyyəti uyarmağa çalışan müəlliflər ideal yaşamı, utopik dünyanı – ideyanın reallaşması nəticəsində yaşanan fəlakəti təsvir edərək insanları yanlış inkişaf istiqamətindən, itkilərdən yayındırmağa çalışmışlar.

Antiutopiya bəzi tədqiqatçılar tərəfindən müstəqil janr deyil, utopiyanın bir invariantı (S.Andreyeva, M.Bedrikova, A.Vorobyeva, B.Lanin və b.), əks çözümü kimi dəyərləndirilir. Utopiyalarda – məkanın sakral, qapalı bir ərazi – ada, şəhər, dövlət və s. olduğu, ideal cəmiyyətin təsvir olunduğu, heç bir konfliktin yaşanmadığı qeyd olunur. Antiutopiyalarda isə insan cəmiyyət qarşıdurması; gəlcəcək zaman, parçalanmış, təbəqələrə bölünmüş sosium təsvir olunur. Antiutopiyaları müstəqil janr olaraq öyrənən (E.Kozmina, A.Lyubimova, D.Solobuto və b.) tədqiqatçılar olsa da, əsasən birinci yanaşmanın tərəfdarları üstünlük təşkil edir. Antiutopiyaların müstəqil janr olaraq öyrənilməsi XX əsrin 90-cı illərinə təsadüf edir.

Tədqiqatlarda antiutopiyaların internasional janr olduğu, xüsusiyyətlərinin digər ədəbiyyat nümunələri üçün keçərliliyi qeyd olunur. Həmin xüsusiyyətlərə nəzər saldıqda, təsnifatın universallığı təsdiqlənir:

1. Məkan olaraq totalitar idarəetmə sistemini ehtiva edən dövlət təsvir edilir.
2. Bu ərazi ətraf mühitdən tədric olunmuş şəkildə mövcud olur.
3. İnsanın kölə vəziyyətinə salınması vəziyyətin absurdluğunu vurğulayır.
4. Əsas personaj – mövcud sistemə müxalif olan üsyankar və ya həmfikirlərdən ibarət toplumdur.
5. Totalitarizmdə sevgiyə yer yoxdur və s.

Beləliklə, antiutopiyalarda hadisələr qapalı məkanda cərəyan edir, cəmiyyət ciddi nizam-intizam çərcivəsində, total idarəetmə sistemi, milli-mədəni irsin məhv edildiyi (unutdurulduğu – L.H.) mühitdə yaşamağa məhkumdur.

Gənc yazıçı Vüsal Nuru fərqli üslublara üz tutan, müxtəlif janrlarda yazmağa üstünlük verən müəlliflərdəndir. Qotik ("Prezidentin qızı", "999"), tarixi-mistik ("Dorantağ"), realist ("Qaraqaşlı") əsərlərin müəllifinin yeni romanı olan "İlğımda çimən atlar" (2022) antiutopiya janrında qələmə alınıb. Azərbaycan nəsrində geniş yayılmayan, az müraciət olunan janrlardan olan bu ədəbiyyat nümunəsi olaraq Xalq yazıçısı Anarın "Ağ qoç, qara qoç" və Sənan İsmayılovun son illərdə qələmə aldığı "Rədd edilmişlər» («Отторжение»), «Üçüncü dairə» («Третий круг») əsərlərini qeyd etmək olar.

"İlğımda çimən atlar" romanında yaddaşın unutdurulması ilə robota çevrilən (super insana) yeni nəslin formalaşması, müəyyən ideyanın əsarətində olan cəmiyyətin faciəsi əks olunur.

Antiutopik əsərlərdə olduğu kimi, hadisələr qapalı məkanda baş verir. Janrın tələblərinə uyğun olaraq personajları – sistemin qurbanları, sistemə qarşı etirazını bildirən üsyankar və tiran (dövlətin rəhbərləri) olaraq təsnif etmək olar. Ölkənin tanınmış həkimlərini "qapalı şəhər olan" Miroqrada toplayırlar. Onlar buraya yeni insan yaratmaq, eksperimentlər üzərində çalışmaq üçün gətiriliblər. Yaxşı həyat, iş şəraiti haqqında vədlərə inanıb bura gələn insanlar aldadıldıqlarını bu əraziyə ayaq basdıqları ilk anlardan anlasalar da, bu məkanı tərk etmək mümkün deyil. Burada uzün müddət yaşayan sakinlər isə, yeni gələnlərdən fərqli olaraq, zamanla keçmişlərini unudur, yaddaşsız, bir-biri ilə bağlılığı olmayan kütləyə çevrilirlər.

Beləliklə, əsərdə «seçilmiş insanlar», öz qanunları ilə yaşayan "ədalətli" cəmiyyət və başqa utopik konseptlərlə yanaşı, utopik ideyalara inanmayan, qanunlara asi çıxan insanlar kimi antiutopik məqamlar yer alır.

Artıq bəlli zaman keçməsinə baxmayaraq, tariximizin "sovet" mərhələsinə tez-tez müraciət edilir. Ömrümüzün mühüm bir mərhələsini birdən-dirə unutmaq mümkün deyil. Keşmişə üz tutub yaşananları yenidən dəyərləndirmək cəhdi cəmiyyətin etdiyi səhvlərdən nəticə cıxarmasına hesablanır. Müxtəlif üslub və janrda yazılmış bədii nümunələrdə həmin zaman kəsiyinə dəfələrlə müraciət olunub: M.Bukqakovun "İt ürəyi", M.Zamyatinin "Biz", A.Platonovun "Kotlavan" və b. Milli ədəbiyyatımızda XX əsrin 80-ci illərindən başlayaraq Elçinin "Ölüm hökmü", Yusif Səmədoğlunun "Qətl günü" kimi əsərləri və başqa nümunələri misal çək-

mək olar. Müstəqillik dövrü ədəbiyyatında isə bu mövzu uzun zaman (açıq və ya gizli (dolayı) kontekstdə) aparıcı mövqedə olub – Elçinin absurd-pyesləri, Məqsəd Nurun "Şəhər meri" və daha onlarla bədii, bədii-sənədli romanlarda ziyalı və sistem qarşıdurması əks olunub.

XX əsr ədəbiyyatında qorxu əsas motivlərdən biri olaraq yer alır. Təhlilə cəlb etdiyimiz əsərdə eyni problem qrotest şəklində əks olunur. "Burada yalnız daxili qanunlar işləyir. Miroqradın Baş katibi Nikita İliç Vissarionoviç yoldaşdır. – Raya rəhbərin adını ayaq üstə deyib, yüngülcə təzim elədi. Əyləşdi. Monitorda Baş katib göründü; orta boylu, dolu bədənli, lopa bığlı kişi əlində tutduğu qara şlyapasını havada yelpik kimi yelləyirdi. Kadr dəyişdi: bir dəstə xoşbəxt təbəssümlü adamın arasında gəzir, onları dinləyir, nəsə deyir, asta addımlarla kütləni arxasınca aparırdı". Bu qapalı məkanın rəhbərlərinin, mühitinin təsvirində Sovet dövlətinin müxtəlif atributları parodik şəkildə əks olunur. Rəhbər obrazında (Nikita İliç Vissarionoviç) bir necə sovet liderinin xüsusiyyətləri cəmləşib (həm adında, həm zahiri portretində) – xorultulu nəfəsi, "ağzının marçıltısı" ("Adama elə gəlirdi Baş katib iclasda sərxoşdu, o qədər içib, keyimiş dili söz tutmur"), meydanda Leninin heykəli, Sovet psixiatrı Snejnevskinin portreti, yoldaş, zəhmətkeşlər kimi müraciət formaları, "oraq-çəkiç" ordeni ("Döşəmənin ortasında iri beşguşəli ulduz, qızılı rəngdə oraq-çəkic elə canlı, elə dəqiq çəkilib, görən deyir əlimi atsam, çəkicin sapından yapışaram, ayağım ilişsə, oraq kəsər"), Beriya adına laboratoriya və s.

"Bu şəhərdə hər kəs istədiyini ala bilər. Şəhərimizdə dünyanın ən yaxşı geyim mağazaları var. Əyləncə, istirahət mərkəzi hamı üçündür. Sağlamlığa ziyan olan vərdişlər qadağandır. Xahiş olunur, gəmidə sizə verilmiş sarı üzlü təlim kitabını oxuyasız. Eyni nüsxə telekartınıza elektron şəkildə yüklənib. Hər kəs nizam- intizam qaydalarını bilməlidir. Hüquqlarınızı, imkanlarınızı öyrənin. Bəhanələr qəbul olunmur". Beləliklə, əsərdə sərt qanunlar çərçivəsində yaşam, qapalı məkan əks olunur. Zamanla tələb olunanlarla razılaşmayıb etirazını bildirən birinin sistemə qarşı çıxması ilə ideal görünən düzənin ifşası yaşanır. Şəhər yeni sakinlərə ideal məkan kimi təqdim olunsa da, "Miroqrad hökuməti vətəndaşların, qonaqların sağlamlığını öz maraqlarından üstün tutur. – Raya Kozakova dərhal dilləndi. Məncə, bu cavabı dəfələrlə vermişdi. – Əsgərlərin vəzifəsi qonaqları şəhərə hörmətlə, sağ-salamat ötürməkdir. Şəhərə yalnız dezinfeksiya olunmuş adamlar buraxılır. Şəhərdə nəqliyyatın hərəkəti qadağandır. Biz atmosferi çirkli qazlardan, adamları qəzalardan qoruyuruq. Lakin, hamının dayanacaqlarda oturub gözləmək hüququ var. Yerimək həm sağlamlıqdır, həm də qazanc. Siz nizam-intizamla yeridikdə telekartınız addımlarınızı sayar, sizə bonus qazandırar. Bu bonusları alış-verişdə xərcləyə bilərsiz" – yeni gələnlərdə bu yaşam tərzi istehza doğurur. İlk gündən maska taxmağa məcbur edilən insanlar zahiri individuallıqlarını belə itirir, nömrə ilə çağırılırlar. "Raya Kozakova hamıdan maskaları götürməyi xahiş elədi. Dedi ki, bu gündən sonra sizin əsil üzünüz bu maskadır. Süni intellektli qapılar maskaların rəqəmlərini oxuyanda açılır".

Yeni sakinlərə daim seçilmiş insanlar olduqlarını xatırladırlar: "Onu da dedi ki, dünyəvi dövlətimiz sizi minlərlə həmkarınızın arasından seçib. Bura gələnə qədər küçələrdə adamlarla rastlaşdız. Hər ölkədən seçilmişləri gördüz. Siz də onların arasındasız... Burda işıqlı bir gələcək qurulur. Bizim sayəmizdə dünya növbəti bir mərhələyə keçir. Parentallar erası başlayır; super insan, super güc. Ağrısız cəmiyyət formalaşır. Bu parentallar bizim laboratoriyalarımızdan çıxırlar. Dünyanın köhnəlmiş idarəetmə sistemini bizim dövlət yenidən qurur. Gələcək üçün bu gün biz birlikdə çalışmalıyıq. Hərə öz elmi bacarığını ortaya qoymalıdır. Gərək elm, bacarıq, təcrübə bir mərkəzdə cəmlənib hədəfə, məqsədə istiqamətlənsin. Dünyanın ağrısını kəsmək üçün burdasız. Xırda-para məişət məsələlərini yoluna qoymaq sizə çətin olmaz. Axı siz sıradan adamlar deyilsiz. Bu sözlərin qarşısında nə deyəsən? Anastasiya Mixaylovna közün üstünə su səpdi. İndi bu otaqda dünya üçün nə qədər vacib adam olduqlarına inandılar". Şəhər sakinləri (rəhbərliyi çıxmaq şərti ilə) könüllülərə və seçilmişlərə bölünsələr də, bu iki qrup arasında uçurum yoxdur. Birindən digərinə keçmək üçün adi bir qayda pozuntusu yetərlidir. "Sarı Banka borcun olanda... Nizam-intizamı pozanda... Sarı Xətt Nazirliyi cəza verir. Hesabın bitəndə könüllü olursan".

Beləliklə, romanda böyük ideallara aludə olub, adi insani hisslərə qənim kəsilən antihumanist yaşam, gerçəkliyə etinasız olub, illüzor gələcək iddiliyasında olan cəmiyyət əks olunur.

Bütün qərarlar rəhbərlik tərəfindən verilir, insanların davranışı ciddi qayda-qanunla tənzimlənir. Həmçinin şəhərdə mövcud olan qəribə qanunlar, mənasız rituallar vəziyyətin absurdluğunu ifadə edir: "Hardansa gələn məktəb zənginin səsi bütün küçələrə yayıldı. Hamı dərhal dayandı. İkinci zəngdə oturdular. Təzə gələnlər nə baş verdiyini bilmədilər deyə, vurnuxurdular. Sonra onlar da hamıya baxıb çöməldilər. Professor qarşısındakı tanımadığı adamdan niyə çöməldiyini soruşdu, adam sadəcə, çiyinlərini çəkdi. Üçüncü zəngdə durub getdilər"; vəzifəsini yerinə yetirənlər üçün təşkil olunan vida mərasimləri (Rəhbər ilə görüş) və s. Məqsəd – insanın düşünməyən varlığa çevrilməsi, biososial varlıq olaraq inkşafının əngəllənməsidir. Beləliklə, sistem hər yolla fərdlərin cəmiyyət içində "itməsinə", seçilməməsinə çalışır. Aydının sələfi Morud Uluqbekə olan münasibət, onun aqibəti sistemin amansızlığını göstərir. Yeni həkimi – Aydını otağında ölüb qalan həkimin nömrəsinə yerləşdirməklə, onun yerinə keçirməklə sistem yeni həkimdə qorxu yaradaraq, çıxış yolunun olmadığını, qəbullanmasa onu hansı aqibətin gözlədiyini çatdırmaq istəyir. Əsas məqsəd zamanlar arasında əlaqənin qırılması, insanı bü günlə yaşayan, heç bir canlı ilə (təbiətlə) bağlılığı olmayan bir varlığa çevirməkdir. Lakin, insanın kökü ilə əlaqəsinin kəsilməsi, təhtəlşüurda yaşayan kodların dəf edilməsi mümkünsüzdür. İlğımda çimən atlar yaddaş "işgəncə"si olaraq insanın pareantala çevrilməsinə imkan vermir. Yaddaşın oyanması bu sistemin dağılmasına gətirib cıxaran əsas səbəb, təhlükə mənbəyi olaraq dəyərləndirilir, hər vəchlə məhvi istənilir. "Sənə deyirəm, yoldaş Doldze, Vissarionoviçin məqsədi Qafqazın genefondunu

dəyişməkdir. İtaətkar maskabaşlar, eşidən qulaqlar lazımdı Baş katibə. "Mao üçün unitaz" şöbəsi də elə bunun üçündür"; "Sizin keçmişiniz yoxdu. Siliblər. Siliblər ki, sizdən istədikləri kimi istifadə eləsinlər. – Aydın bir-bir onların qarşısında durub gözlərinin içinə baxdı. – Sən mətbəx robotusan, sən telekartsan. Sən elektrik mişarısan. Sən... Sən soyuducusan... – Bəli, biz hamımız çox hörmətli Vissarionoviç yoldaşın istədiyi kimi olmalıyıq.

– 44 onunla deyişməyə hazır dayanmışdı.

– Sən nəsən? Yoldaş Vissarionoviç yoldaşa qarşı çıxırsan? Bəlkə, sən onun qurduğu bu cəmiyyəti bəyənmirsən?

– Mən maskabaş olmaq istəmirəm. – Telekartını çıxarıb göstərdi. – Bu cihazı idarə edə bildiyimiz kimi, onların da məni idarə etməsinə razı deyiləm. Maskabaş cəmiyyəti qurulur. Özü də bizim əlimizlə. Bizim ölkələrdə. Bizim uşaqlardan.

– Cəmiyyəti özbaşına qoymaq olmaz. Mütləq sosial mühəndislər tərəfindən idarə olunmalıdı. Lazımsız adamlar yararsız inventar kimi ortadan çıxmalıdır... Gələcəkdə iti şüurlu, nizam-intizamlı parentallar olmalıdır.

44 bütün inancıyla fikrini çatdırdı. Aydına meydan oxuyurmuş kimi, burnunun üstündən baxırdı".

Roman-antiutopiyalarda iki təhkiyə formasından istifadə olunur: hadisələr birinci şəxs və ya müəllif tərəfindən nəql edilir. Birinci halda "təhkiyəçi-personajın öz "mən"inə, cəmiyyətdəki mövqeyinə baxış ifadə olunursa, ikinci halda qəhrəmanın cəmiyyətdən kənar olması təsvir olunur (A.Vorobyeva). Əsərdə ikinci növ təhkiyə üsulu seçilib. Çünki Aydın bura başqa məkandan gəlib, o bu sistemin üzvü deyil. İlk gündən buranın mənfi xüsusiyyələrinin fərqinə vararaq mübarizəyə qalxır, ətrafdakıları ətalətdən oyatmağa çalışırdı. Həm professor, həm də Aydın bir çox antiutopik əsərlərdən fərqli olaraq burada formalaşıb, öncə vəziyyətə qəbullanıb, sonradan sistemə qarşı çıxmayıblar. Bu baxımdan onların mövqeyi fərqlidir, daha sərtdir. "– Mən insanam! – Sabit Ağazadə bağıra-bağıra yeriyirdi. Di gəl, heç kim dönüb ona baxmırdı, hətta cərgəni ortasından yarıb keçəndə sağa-sola itələdiyi adamlar da bir kəlmə söz demədilər. İstəyirdi hamı ona baxsın. Miroqradda etiraz etməyi bacaran ilk insanı görsünlər. Görsünlər ki, cərimələr qorxulu deyil, sarı xətt onun əl-ayağını bağlaya bilmir. Nə oldusa, professor sarı xətdən kənarda, – neytral yerdə yıxıldı. Ürəyinin ona badalaq gəldiyini əsməyindən bildim, başı kəsilmiş toyuq kimi çırpınırdı. Sinəsini didir, yaxalığını dartışdırırdı. Əli çatsaydı, ürəyini ovuclayardı. Mənə elə gəldi ki, onu hava boğur; adi hava onun üçün karbon qazına çevrilib. Deyəsən, paralel sarı xətlər bu adamlar üçün, əslində, hündür divarlardı, divarların o üzündə nə baş verirdi, görmürdülər. Heç şübhəsiz, ötüb keçənlərin hamısı onu görürdü, amma bir addım əl atıb yerdə çapalayan adamı dartıb sarı xəttə salmırdı. Ayağının ucunu da bu həddən kənara qoymurdu. Hamı vaxtında yatmağa tələsirdi. Nə nizam-intizamı pozurdular, nə də dayanıb başqasını ləngidirdilər". Bu səbəbdən də, romanda əksər antiutopik əsərlərdə olduğu kimi, bu mühitin bir hissinə çevrilib, sonradan aldandığını

düşünən personajların psixoloji yaşantıları, problemin psixoloji təsviri yer almır.

Beləliklə, sistemin amansızlığı hər kəsi itaətə sürükləyir. Antiutopiyalarda psevdokarnavallıq xüsusiyyətindən bəhs edən araşdırmaçılar, karnavalın (M.Baxtin) ikili gülüşə, psevdokarnavalın isə qorxuya əsaslandığını qeyd edirlər (Lanin B.). Birinci halda gülüş insanları birləşdirirsə, ikinci halda qorxu cəmiyyətin parçalanmasına səbəb olur. Qorxu güclülərə qarşı ehtiram və heyranlıq hissi formalaşdırır. Müxtəlif sosial təbəqələri təmsil edən şəxslər arasında mövcud fərqlər cəmiyyətin parcalanmasına səbəb olur. "Konflikt fərdin öz rolundan imtina edərək, müstəqil düşünməsi ilə başlanır" (Lanin B.).

Cəmiyyət və fərd qarşıdurması üzərində qurulan fabula dinamikdir – hər iki tərəfin fikirlərini ifadə edən dialoqların, görüşlərin təsvirinə geniş yer verilir. "Yeni insan", yeni dəyərlər haqqında fikirlər Ayxanın yerli həkimlərlə dialoqlarının, görüşlərinin əsas mövzusunu təşkil edir. Hər iki tərəf haqlı olduğunu hesab etsə də, həqiqətin kimin tərəfində olduğu şübhə doğurmur. "...yaxşı olacaq. Lap yaxın zamanda süni hipotalamus üçün hamı növbəyə duracaq. Hormonal pozuntu daim nəzarətdə olanda adamların xəstələnməyi, qocalmağı bir yana, heç tükləri də tökülməz. Uğurlu təkmilləşmədən sonra mən də hipotalamusumu dəyişəcəm.

– Deyirsən əbədi cavanlıq bizə bu qədər yaxındır?!

– Əlimizdədi. – Yəni, hamı timsah ömrü yaşayacaq.

– Hamı yox. Bu həm də yoxsulluğun aradan qaldırılması planına uyğundur.

– Demək, dünya maskabaşlara qalacaq.

– Buna xalq deyək.

– Könüllü kölələr, məncə, daha uyğundur. Biz axmaq işlərlə məşğuluq. Adamlara virus yayırıq ki, sonra sağaldaq. Cəmiyyətin sinirlərini zədələyirik ki, sonra bərpa edək. Çalışırıq ki, insanlığın sonunu gətirəcək təkamülü sürətləndirək. Sonra həmən mutanta qarşı mübarizə aparırıq. Yeni silahlar düzəldib satırıq, başqaları bizimlə müharibə eləsin, ölək-öldürək. Adamları həbs etmək üçün cinayətə çəkirik... Azadlıq şüarları altında həbsxanalar tikirik. Nə qədər istəsən, belə misal çəkə bilərəm. İnsan onsuz da ölümə məhkumdur, hardansa gətirib məqsəd üçün burda çarpayıya bağlamaq, orda hücrədə saxlamaq, iki xəttin arasında gəzdirmək, başqalarının həyatına sahib çıxmaq elmin işidirmi?" Əsərin dili tibbi terminlərlə zəngindir. Yazıçının insan fiziologiyasına təsiri daha dolğun, əyani təsvir edə bilmək üçün bu üsula əl atdığı sezilir.

Bu seçilmiş insanların qarşısında duran ali məqsəd super insan yaratmaq tapşırığıdır. Bundan başqa onları bir-birinə heç nə bağlamır, ən adi insani hislərə belə burada yer yoxdur (Qucaqlaşmaq belə mənfi, alçaldıcı keyfiyyət olaraq qəbul edilir). "Məncə, ağrı elə bizik! Bu da mənim lap elə indi ağlıma gəldi. Hə, bizik, Vissarionoviçin, onun hökumətinin ağrısı, məqsədi də bu ağrını kəsməkdi". Beləliklə, böyük ideya yolunda vasitəyə çevrilən insan, özü-özünü məhv edir, öz qətlinə fərman vermiş olur. Parental yaratmaq

uğrunda çarpışan seçilmişlər ordusu öncə öz keçmişini unutmuş, parentala çevrilmişdir. Əks halda bu oyunda iştirak etməzdi. Aydın bu məkrli oyunun qaydalarını çözərək, amansız şərtlərini insanlara izah etməyə çalışır: "Biz necə gəlmişik? Könüllü. Müqavilə imzalamışıq. Təklif olunan pula görə. Yoxsa, bu da yadınızdan çıxıb, yoldaşlar?".

Sonda sistemə xidmət edənlərin hamısı, hətta ilk gündən mühitə asanlıqla uyğunlaşan Sara da sistemin qurbanına çevrilir, onların heç biri nə qədər çalışsalar da bu şəhərin "vətəndaşı" ola bilmirlər. Çünki bu şəhərə sakinlər deyil, meşədə (mifik məkanda) azıb qalmış qurbanlar lazımdır.

Aydın sakinlərə şəhərə gəlmə olduqlarını xatırlatmaq üçün onları toplayıb yola çıxsa da, dediklərini sübut etməyə nail ola bilmir. Fərziyyə olaraq dolaşan fikirləri insanları cəlb etsə də, həqiqətləri çatdıra bilmir. Yalnız özünə məlum reallıq və şəhər rəhbərliyi tərəfindən beyinlərə yeridilən illüziya arasında yaşamın ağırlığı altında sıxılır.

Aydın (Xilaskar olaraq – L.H.) insanların azadlığı üçün calışsa da, sonda insanlar onu bir boşqab yemək naminə ələ verirlər. Beləliklə, yaranan vəziyyətə görə yalnız rəhbərlər günahlandırılmır, bir zaman vətənini düşünməyib maddi rifah üçün bura köçən ziyalılar – həkimlər də ittiham edilir: "Yoldaş 41 haqlıdır, biz, sadəcə, tramvayıq. Onlar bizi çəkdikləri xəttə istədikləri kimi sürürlər. Ona görə burda başqa maşın yoxdu. Çünki, biz varıq. Maşınlarda da belədi, beyin var, şüur yox. Sizcə, tərifli yoldaş Vissarionoviç bizim ölkələrdən nə qədər adam tutub? Lap balıq kimi tutub bizi; pulu qırmağın uçuna torpaq qurdu kimi qoyub, biz də aldanıb qarmağa keçmişik. Heç vaxt puldan əvvəl ölkəmizi fikirləşməmişik".

Beləliklə, romanda problemin ideoloji tərəfi qabardılır. Yalan vədlərə uyaraq yeni, daha yaxşı həyat haqqında uydurmalara inanan, vəziyyəti real şəkildə qiymətləndirə bilməyən insanın sonradan bu illüziyaya catmaq üçün ən dəhşətli vasitələrə əl atması labüd reallıq olaraq əks edilir. Öz yaratdığının qurbanına çevrilən cəmiyyət, simasından utanıb başqa "üz" altında yaşamağı üstün tutan insanlar (maskabaşlar) və s. kimi bir çox müasir problemlərin əks olunduğu əsərdə, mifik xətt zəif də olsa sezilir: Xilaskar missiyası, xəyanət, şəhərin meşə (şər qüvvələri təmsil edən məkan) olaraq təqdimi, sonda Aydının ikiləşməsi və s.

Son illərin antiutopiyalarının özəlliyindən bəhs edən tədqiqatçılar, XX əsr nümunələrindən fərqli olaraq müasir eyni janrlı əsərlərdə "artıq həyatımızda yer alan problemlərin qrotesk formada" (S.Çuprinin) əks olunduğunu qeyd edirlər (sanki, antiutopiyaların həyatı qabaqlayıcı funksiyası aradan qalxıb, gələcək deyil, indiki zaman əks olunur – L.H.). XX əsrin birinci yarısında yaşamış rus filosofu N.Berdyayev isə utopik ideyaların asanlıqla reallaşması ilə, ziyalıların və mədəni təbəqənin, utopiyalardan qurtuluş yollarını axtardığını, utopik, "mükəmməl" deyil, daha azad olan cəmiyyətə dönmək istədikləri bir yüzilliyin astanasında olduğunu qeyd edirdi. Vusal Nurunun antiutopiya janrında yazdığı bu əsər ədəbiyyatımızın bu istiqamətə yönələn axtarışlarının nəticəsi olaraq maraq doğurur.



# Kitab rəfi




**SÜLEYMAN TƏKİNƏR**
**“SEÇİLMİŞ ƏSƏRLƏRİ”**
**BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI, 2023**

Kitabda Azərbaycan siyasi mühacirətinin İkinci Dünya müharibəsindən sonrakı nümayəndəsi Süleyman Təkinərin (1917-2006) ədəbi-elmi irsindən seçmələr ilk dəfə nəşr edilib. Azərbaycan mühacirət ədəbiyyatı şöbəsində ilk mənbələr əsasında çapa hazırlanan cildə mühacir yazarın müxtəlif məqalələri, məktubları və müsahibəsi daxildir. Son səhifələrdə hər bir əsərin alındığı mənbənin biblioqrafik təsviri verilib.

Ön söz və qeydlərin müəllifi filologiya elmləri doktoru Nikpur Cabbarlıdır.




**MİR CƏFƏR PİŞƏVƏRİ**
**“GİZLİ İMZALI MƏQALƏLƏR”**
**BAKI, “QANUN” NƏŞRİYYATI”, 2023**

Yeni kitabdakı əsas məqalələr M.C.Pişəvərinin açıq imzası ilə ilk dəfə çap olunur. Onlar 1945-ci ilin sentyabr-dekabr aylarında yazılıb. “Gizli imzalı məqalələr” kitabındakı məqalələrin yazıldığı vaxtdan 80 il keçməsinə baxmayaraq, onlar Pişəvərinin Bakıda ərəb əlifbası ilə 1961-ci ildə, kirillə 1984-cü ildə, latınla 2016-cı ildə çapdan çıxmış məqalə kitablarına salınmayıb. Bunun səbəbləri haqqında ön sözdə Rəhim Əliyev ətraflı bəhs edib.

Kitabın redaktoru Elmira Bağırovadır.

***REDAKSİYA HEYƏTİ:***
**Ağasəfa, Afaq Məsud, Azad Yaşar, Asim Yadigar, Elçin, Emin Piri, Elşad Barat, Əli Əmirli, Firuzə Məmmədli, Firuz Mustafa, Firudin Qurbansoy, Məmməd Oruc, Mustafa Çəmənli, Nərgiz Cabbarlı, Novruz Nəcəfoğlu, Paşa Əlioğlu, Paşa Qəlbinur, Rafael Hüseynov, Rəfail Tağızadə, Rəhilə Qeybullayeva, Rüstəm Kamal, Seyran Səxavət, Südabə Ağabalayeva, Vahid Əziz, Vaqif Yusifli, Vaqif Bəhmənli, Vilayət Quliyev, Vüsal Nuru**